T.S.Məmmədhəsənov
AR SN Respublika Narkoloji Mərkəzi, Bakı

Açar sözlər: dopinq, preparatlar və metodlar, idmançılar, təsnifat, yayılmaya nəzarət
Ключевые слова: допинг, препараты и методы, спортсмены, классификация, контроль за распространением
Keywords: dopinq, preparations and methods, sportsmens, classification, control after dissemination.

Güclü təsir edən maddələrə - narkotiklərə nəzarət edən BMT-nin daimi komissiyasının nəticəsi əsasında müəyyən olunan, tibbi göstərişi olmadan və ya yüksək dozada qəbul olunduqda insanın həyatına və səhhətinə təhlükə təşkil edən, narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan bir qrup maddələr aid edilir. Bu maddələr asılılıq vəziyyəti yarada bilər, mərkəzi sinir sisteminə stimulyaedici və ya depressiv təsiri edərkən hallüsinasiyaların, təfəkkür, düşüncə, motor pozuntularının yaranmasına səbəb ola bilər. Güclü təsir edən maddələr Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin Siyahısı"nda göstərilir [1].

Güclü təsir edən və zəhərli maddələrin arasında fərq yalnız onların kəmiyyət göstəriciləri ilə müəyyən olunur: güclü təsir edən maddələr 0,1; 0,01, zəhərli maddələr isə - 0,001; 0,0001 dozalarda istifadə olunur. Bir sıra mütəxəssislər hesab edir ki, güclü təsir edən və zəhərli maddələr insan orqanizminə psixoaktiv təsirinə, asılılıq yaratmasına və nəticədə geridönməz proseslərin yaranmasına görə təhlükə təşkil edən maddələrdi. Bu maddələrin sırasında dopinq maddələri də əhəmiyyətli rol oynayırlar.

Hazırki dövrdə professional idmançıların dopinqdən istifadəsi məsələsi kəskinləşib və bu problemin həlli bir sıra məsələləri ortaya çıxarır: dopinqə-nəzarətin təkmilləşdirilməsi yolları, hansı vasitələrin istifadəsinə qadağa qoyulması və qaydaları pozan idmançılara qarşı hansı tədbirlərin tətbiq edilməsi.

Dopinq (inql. *doping*,. *dope*- narkotik vermək)- bu anlayış narkotik vasitələrlə yanaşı idmanda istifadə olunan və idmançıların göstəricilərinin yüksəlməsinə yönəlmiş təbii və sintetik mənşəli bütün vasitələrə aid edilir. Belə vasitələr idmançının qısa müddətə sinir və endokrin sistemlərinin aktivliyini və əzələlərinin gücünü əhəmiyyətli dərəcədə artırır. Bununla yanaşı həmin preparatlara əzələ zülallarının sintezini artıran vasitələrdə aiddir. Dərman vasitələrinin bir çox hissəsi yarışlar zamanı idmançılar tərəfindən qəbul olunması qadağan olunmuş statusuna malikdir. Ali nailiyyətlər idmanda dopinqlə mübarizəyə dair müasir konsepsiyası Ümumdünya antidopinq agentliyini Antidopinq Kodeksində (Ümumdünya antidopinq agentliyi – ÜAA Beynəlxalq Olimpiya Komitəsinin təşəbbüsü ilə yaranmışdır) öz əksini tapmışdır [5]. ÜAA hər il idmançılar üçün qadağan olunmuş preparatlarının siyahısını və standartların yeni versiyalarını (laboratoriyalar üçün, testləşməsi üçün, terapevtik istisnalar üçün beynəlxalq standartları) dərc edir. Bugünki gündə hesab olunur ki, dopinqin qəbulu- idmançının normal fəaliyyət göstərən orqanizmi üçün artıq olan vasitənin və ya dərman preparatının artıq dozada düşünülmüş qəbuludur və bunun bir məqsədi var- idman yarışları zamanı fiziki aktivliyin və dözümlülüyün süni olaraq artırılmasıdır [5,6].

Dopinqin qəbulu ilə mübarizənin aparılması onunla da əlaqədardır ki, rekordlar idmançının səhhətinin və həyatının bahasına əldə edilir. 1993-cü ildə BOK-nin Tibbi komissiyası aşağıdakı farmakoloji preparatların: müxtəlif qrup və siniflərə aid olan gücləndirən vasitələrin (stimulyatorların), narkotiklərin, anaboliklərin, ağrıkəsici, sidikqovucu vasitələrin, peptid hormonların və onların törəmələrin istifadəsinə qadağa qoymuşdur. Bununla yanaşı, alkoqolun, qəhvənin, yerli anestetiklərin və beta-adrenoblokatorların qəbuluna məhdudiyyət qoyulmuşdur.

Tarixçilər hesab edir ki, dopinqin istifadəsinin tarixi b.e.ə. 776-cı ildə ilk Olimpiya Oyunlarında başlanır. Oyunların iştirakçıları qələbə çalmaq üçün onların gücünü artıran göbələkdən hazırlanmış ağrıkəsici və hallüsinogen ekstraktları qəbul edirdilər. 1896-cı il ərəfəsində müasir ilk Olimpiya Oyunları

zamanı idmançıların farmakoloji dayağı olan geniş dairəli vasitələr (kodeindən strixninə qədər) müəyyən olunurdu ki, bu vasitələr onların orqanizminə güclü stimulyasiya təsirini göstərirdi. ABŞ-da dopinqi ilk dəfə at sürənlər və onların məşqçiləri istifadə etməyə başlamışdırlar. Onlar çapmadan əvvəl atların orqanizminə inyeksiya yolu ilə gücləndirən vasitələr yeridirdi. Bu barədə informasiya ilk dəfə 1903-cü ildə avropa və rus qəzetlərində dərc edilmişdir. Həmin ildə çapar cəmiyyətləri həmin eybəcər hadisələrlə mübarizə və ciddi nəzarət haqqında müqavilə bağlamışdırlar. Bu müqaviləni pozan və ilk dəfə tutulan amerika atçapanı Frank Starr olmuşdur. 1913-cü ildə keçirilən cıdır yarışı zamanı Frank Starrın atında süni olaraq güc və dözümlülüyü artıran və eyni zamanda atın səhhətinə mənfi təsir göstərən eliksir tapılmışdır. Buna görə F.Starr atçapma hüququndan ömürlük məhrum edilmişdir. 1932-ci ildə idmançılar nitroqliserin, sonra isə benzidrin ilə koronar damarların genişləndirilməsi məqsədi ilə eksperiment aparırdılar [6].

1936-cı ildə Berlin Olimpiya Oyunlarının keçirilməsi zamanı dopinqin istifadəsi müasir eranın başlanması hesab olunur. Həmin dövrdə inyeksion testosteron icad olunmuşdur. Bu preparat nasist həkimləri tərəfindən alman əsgərlərinə onların aqressivliyini artırmaq üçün vurulurdu, sonrakı illərdə isə alman idmançıları tərəfindən geniş istifadə olunmağa başlamışdır və Berlin Olimpiya Oyunlarında alman idmançıları bütün qızıl medalları qazanmışlar. Sonrakı dövrdə dopinqin tarixçəsi aşğıdakı kimi göstərilir [9,10,11]:

- 1932-ci ildə idman bazarına amfetaminlər çıxmışdır ki, idmançılar onların həblərini ovucla udurdu. Nəticədə 1952-ci ildə konki sürən komandasının iştirakçıları amfetaminləri çox yüksək dozada qəbul edib huşlarını itirib xəstəxanaya düşmüşlər. Bununla əlaqədar Beynəlxalq Olimpiya Komitəsi amfetaminlərin istifadəsinə qadağa qoymuşdur;
- 1940-cı illərdə idmançılar steroidlərdən istifadə etməyə başlamışlar. Belə ki, 1952-ci ildə Helsinki Olimpiya Oyunlarında ilk dəfə iştirak etmiş SSSR-nin ağır atletika komandasının idmançıları bütün qızıl medalları qazanmışlar və şaiə yayılmışdır ki, onlar hormonal steroidlərdən istifadə ediblər;
- 1955-ci ildə fizioloq Jon Siqler ABŞ-ın ağır atletika üzrə yığma komandası üçün yüksək anabolik təsiri olan sintetik testosteron molekulasını icad etmişdir (ticarət adı – Dianabol). Tezliklə bu preparat idmançılar arasında geniş yayılmağa başlamışdır. Hətta 60-cı illərdə məşqçilər bu preparatı salat qabına doldurub idmançılara səhər yeməyi kimi təklif edirdilər və onu "çempionların səhər yeməyi" adlandırırdılar;
- 1958-ci ildə farmasevtik kompaniyalar anabolik steroidlərin istehsalına başlamışlar və onların ciddi kənar təsirlərinin olmasına baxmayaraq bu preparatlar idmançılar arasında geniş populyarlıq qazanmışdır.

Dünya mətbuatında ilk dəfə dopinq haqqında məlumat 1960-ci ildə Romada keçirilən Olimpiya oyunları zamanı öz əksini tapmışdır. Belə ki, Danimarka velosipedçiləri Knud Yensen və Yurqen Yoransen 100 km-lik velosiped yarışlarının sonunda yerə yıxılıb huşlarını itirmişdirlər. Yensen özünə gəlmədən dünyasını dəyişmişdir. Bununla yanaşı ingilis velosipedçisi Tom Simson Tur de Frans yarışı zamanı velosipeddən yerə yıxılıb ölmüşdür. Hər iki hadisədə ölümlərin səbəbləri açıqlanmamışdır. Yalnız zaman keçəndən sonra rəsmi açıqlamaya əsasən məlum olmuşdur ki, velosipedçilərin qanlarında güclü təsirli stimulyatorlar aşkar edilmişdir.

Bununla əlaqədar Beynəlxalq Olimpiya Komitəsi 1968-ci ildə dopinqin müəyyən edilməsi məqsədi ilə idmançılara məcburi sidik analizinin verilməsi prosesini tətbiq etməyə başlamışdır.

Müasir dövrdə idmanda istifadəsi qadağan olunmuş preparatların siyahısı daim artırılır və hazırda 10 minə yaxın adlardan ibarətdir. 1988-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin Tibbi Komissiyası tərəfindən qadağan edilən farmakoloji vasitələrin rəsmi Siyahısı təsdiq edilmiş və həmin Siyahı bir neçə əsas siniflərə bölünür [2,3,5,10]:

I.Qadağan edilmiş dopinq vasitələri:

Sinif A. Stimulyatorlar: amineptin, amfepramon, amifenazol, amfetamin, bambuterol, bromantan, kofein, karfedon, katin, kokain, kropropamid, krotetamid, efedrin, etamivan, etilamfetamin, etilefrin, fenkamfamin, fenetillin, fenfluramin, formoterol, heptaminol, mefenoreks, mefentermin, mezokarb, metamfetamin, metoksifenamin, metilendioksiamfetamin, metilefedrin, metilfenidat, niketamid, norfenfluramin, parahidroksiamfetamin, permolin, pentetrazol, fendimetrasin, fentermin, fenilefedrin, fenilpropanolamin, folidrin, pipradrol, prolintan, propilheksedrin, psevdoefedrin, reproteol,

salbutamol, salmeterol, saleqilin, strixnin, terbutalin…və analoji preparatlar.

Sinif B. Narkotiklər: buprenorfin, dekstromoramid, diamorfin (heroin), metadon, morfin, pentazolin, pentidin və analoji preparatlar.

Sinif C. Anabolik preparatlar: androstenediol, androstenedion, bambuterol, boldenon, klenbuterol, klostebol, danazol, dehidrometiltestosteron, dehidroepiandrosteron (DHEA), dihidrotestosteron, drostanolon, fenoterol, fluoksimesteron, formebolon, formoterol, hestrinon, mesterolon, metandienon, metenolon, metandriol, metiltestosteron, miboleron, nandrolon, 19-norandrostenediol, 19-norandro- stenedion, noretandrolon, oksandrolon, oksimesteron, oksimetolon, reproterol, salbutamol, salmeterol, stanozolol, terbutalin, testosteron, trenbolon və analoji preparatlar. Beta- 2- aqonistlər: bambuterol, klenbuterol, fenoterol, formoterol, reproterol, salbutamol, salmeterol, terbutalin və analoji preparatlar.

Sinif D. Diuretiklər: asetazolamid, bumetamid, xlortalidon, etakrinik turşusu, furosemid, hidroxlorotiazid, mannitol, mersalil, spironolakton, triamteren və analoji preparatlar.

Sinif E. Peptid hormonları, mimetiklər və analoqlar:

Xorion qonadotrofin (HCG); yalnız kişilərə qadağandır.

Pituitar və sintetik qonadotrofinlər (LH); yalnız kişilərə qadağandır.

Kortikotrofinlər (ASTN, tetrakozaktid).

Boy artıran hormonu (HGH).

İnsulinəbənzər boy artıran faktoru (IGF-1).

Gritropoetin (ERO).

İnsulin: bu preparatın istifadəsinə yalnız yazılı sürətdə təsdiq edilmiş "insulin asılılı diabet" diaqnozu olan idmançılara icazə verilir. Bu diaqnoz endokrinoloq və ya komandanın həkimi tərəfindən təsdiq edilir.

III. Şərti qadağan olunmuş preparat sinifləri

1.Alkohol. Müvafiq federasiyanın tələblərinə əsasən etanola (etil spirtinə) qarşı testləşmə aparıla bilər.

2.Çətənə mənşəli preparatlar (kannabinoidlər). Müvafiq federasiyanın tələblərinə əsasən kannabinoidlərə (həşiş, marixuana) qarşı testləşmə aparıla bilər. Olimpiya oyunlarında da mütləq kannabinoidlərə (həşiş, marixuana) qarşı testləşmə aparılır. Sidikdə 11 -nor-delta-9-tetrahidrokannabinol-9-karboturşu turşusunun (karboksil - TNS) sidiyin hər 1 ml-nə qatılığı 15 nanoqramdan yuxarı olması dopinqin qəbulunun təsdiqi kimi hesab olunur.

3 Yerli anestetiklər (ağrıkəsicilər). Yerli anestetiklərin istifadəsinə icazə aşağıdakı şərtlərdə mümkündür:

a. Buoivakain, lidokain, mepivikain, prokain və analoji preparatların istifadəsinə icazə verilir, kokainin istifadəsi qadağandır. Yerli anestetiklərlə birlikdə damar daraldan preparatlarını istifadəsinə icazə verilir.

b. Yalnız yerli və oynaqdaxili inyeksiyalara icazə verilir.

c. Tibbi göstəriş olduqda.

Müvafiq federasiyanın tələblərinə əsasən yerli anestetiklərin təyinini təsdiq edən resept təqdim olunmalıdır.

4.Qlyukokortikosteroidlər. Bu preparatların mütəmadi istifadəsi (per os, per rektum, inyeksiyalar şəklində) qadağandır\.

5. Beta-blokatorlar: asebutolol, alprenolol, atenolol, betaksolol, bisoprolol, bunolol, karteolol, seliprolol, esmolol, labetolol, levobunolol, metipranolol, metoprolol, nadolol, oksprenolol, pindolol, propranolol, sotalol, timolol və analoji preparatlar. Müvafiq federasiyanın tələblərinə əsasən beta-blokatorlara qarşı testləşmə aparıla bilər.

II. Qadağan edilmiş üsullar

- Qandan dopinq kimi istifadəsi.
- Plazmanı əvəz edən və ya oksigenin süni daşıyıcılarının istifadəsi.
- Farmakoloji, kimyəvi və fiziki manipulyasiyalar.

Ümumdünya antidopinq agentliyinin tövsiyəsinə əsasən BOK hər il qadağan edilmiş vasitələrin və üsulların Siyahısını təzələməlidir və bu siyahı hər ilin 1 Yanvar tarixində qüvvəyə minir. Bu siyahının tərtib olunmasına beynəlxalq idman federasiyaları da müəyyən təsir göstərə bilər.

Bununla yanaşı, əksər dərman vasitələrini əhatə edən qadağan olunmuş maddələrin Siyahısı, idmançıların müalicəsində böyük çətinliklər yaradır ki, onlar kəskin ehtiyac olanda da effektiv dərman preparatlarının qəbulundan məhrum olurlar. Məsələn, idmançılar qlyukokortikosteroidləri (per oral, rektal, inyeksiya şəklində) istifadə edə bilmirlər, tibbi göstəricilər əsasında antiastmatik, insulin, antidepressant, virus əlehinə, damar təsirli dərman preparatlarının istifadəsində böyük çətinliklər yaranır.

Cədvəl 1
İşgüzarlığın artmasına səbəb olan vasitələr

Təsir mexanizmi	Vasitələr
Farmakoloji vasitələr	Alkohol; Fenamin qrupu; Beta-adrenoblokatorlar; Kofein; Kokain və marixuana; Diuretik (sidikqovucu) vasitələr; Nikotin
Hormonal vasitələr	Anabolik steroidləri;Boyartıran hormonu; Hamiləliyin qarşısını alan peroral vasitələr
Fizioloji vasitələr	Qan dopinqi; Eritropoetin; Asparqin turşusunun duzları; İkikarbon anhidridli duzla yüklənmə; Fosfat yüklənməsi
Psixoloji vasitələr	Hipnoz; Meditasiya; Stersin götürülməsi

Cədvəl 2
İşgüzarlığın artmasına imkan yaradan vasitələrin təsir mexanizmləri.

Təsir mexanizmi	Vasitələr
Əzələ liflərinə təsiri	Anabolik steroidlər; Boyartıran hormonu; Zülal
Qan-damar sisteminə təsiri	Alkohol; Kofein; Kokain və marixuana
MSS-nin tormozlanmasına müqavimət təsiri	Anabolik steroidlər; Fenamin qrupu
Yorğunluq hissinin yaranmasına müqavimət təsiri	Fenamin qrupu; Asparqin turşusunun duzları; İkikarbon anhidridli duzla yüklənmə; Fosfat yüklənməsi
Əzələlərin enerji təminatının yüksəlməsi təsiri	Karbohidratlar; Azad piy turşuları; Vitaminlər və mikroelementlər
Oksigenin daşınmasına təsiri	Qan dopinqi; Fosfat yüklənməsi; Oksigen
Boşalma və stresin götürülməsi	Alkohol; Beta-adrenoblokatorlar; Hipnoz; Stersin götürülməsi
Bədən çəkisinin azaltmasına və ya artırılmasına təsiri	Diuretiklər (sidikqovucular); Anabolik hormonlar; Boyartıran hormonu

Bu hallarda bütün məsuliyyət idmançının üzərinə düşür. Lakin, dopinqin idmançının orqanizminə mənfi təsiri, onun qəbulu nəticəsində ölüm hadisələri barədə informasiya Antidopinq Komitəsinin bu istiqamətdə həyata keçirdiyi tədbirləri düzgün sayıla bilər. Bununla əlaqədar 1989-cu ildə Strassburq şəhərində dopinqin istifadəsinə qarşı Beynəlxalq Konvensiya qəbul olunmuşdur. Bu sənəd 8 maddədən ibarətdir və "dopinq vasitələri", "dopinq üsulları" anlayışlarını dəqiqləşdirir, hər ölkənin öz daxilində koordinasiyanı, dopinqi müəyyən etmək üçün laboratoriyaların təşkilini müəyyənləşdirir, dopinqin yayılmasına qarşı müxtəlif beynəlxalq tədbirləri əhatə edir [13].

ƏDƏBİYYAT

1. "Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin Siyahısı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
2. Базулько, А.С. Биохимические основы спортивной мышечной деятельности: Учеб. Пособие для вузов. Мн.: Армита – Маркетинг, Менеджмент, 2007, 84 с.
3. Волков Н.И., Несин Э.Н., Осипенко А.А., Корсун С.Н. Биохимия мышечной деятельности: Учеб. Для вузов. Киев: Олимпийская литература, 2000, 503 с.
4. Граевская Н.Д. и др. Медицинские средства восстановления спортивной работоспособности. М., 1987
5. Спортивная медицина / Под ред. А.В. Чиговадзе и Л.Д. Бутченко. М., 1984.
6. Международные нормативно- правовые документы по антидопинговому контролю. – Мн.: Четыре четверти, 2008, 55 с.
7. Семенов В.А. Спорт и допинг / Материалы семинара-совещания представителей НОК стран СНГ и Балтии. М.: Физкультура и спорт, 2005, с. 32-38.
8. Уилмор Дж.Х., Костилл Д.Л. Физиология спорта и двигательной активности / Пер. с англ. Киев: Олимпийская литература, 2007, 503 с.
9. Медицинская энциклопедия.- М.:КРОН-ПРЕСС, 2009. – 970 с.
10. GYM on-line. Анаболические стероиды
12. WWW.OLIMP2004.RU Российский информационный сайт летних Олимпийских Игр 2004.

13. Конвенция против применения допинга, Страсбург, 16.XI.1989.

Резюме

Сильнодействующие вещества, не относящиеся к наркотическим и психотропным препаратам

Т.Мамедгасанов

В настоящей статье разъясняются основные понятия по сильнодействующим веществам, не относящимся к наркотическим и психотропным препаратам, дается определение допинга в спорте. Приведена краткая история применения допинга в различные периоды развития олимпийского движения, классификация основных препаратов и методов, относящихся к допингу и запрещенных Международным Олимпийским Комитетом к применению в спортивных состязаниях и в период подготовки спортсменов.

Summary

Powerful substances not related to narcotic and psychotropic preparations

T.Mammadhasanov

In the article basic consept are explained on the powerful substances not related to narcotic and psychotropic preparations, determination of dopinq is given in sport. Short history over application of dopinq indifferent period sofdevelopmentof olympic motion, classification of the basic preparations and methods, related to the dopinq and forbidden by International Olympic Committee to application in sporting contests and in the period of training of sportsmens.

Daxil olub: 03.04.2015

ПРОТЕКТИВНЫЕ ФАКТОРЫ И КЛИНИЧЕСКАЯ ЗНАЧИМОСТЬ У БОЛЬНЫХ С МЕТОБОЛИЧЕСКИ ЗДОРОВЫМ ОЖИРЕНИЕМ

А.Г.Мустафаева

Азербайджанский медицинский университет, кафедра внутренних болезней, г.Баку

Açar sözlər: metobolik sağlam piylənmə, metobolik sindrom, insulin rezistentlik, piy toxuması

Ключевые слова: метаболическое здоровое ожирение, метаболический синдром,

Key words: metabolically healthy obesity, metabolic syndrome, insulin resistance, adipose tissue.

Ожирение- фактор риска сердечно-сосудистых заболеваний и сахарного диабета 2-го типа, тем не менее у ряда больных ожирением кардио- метаболические осложнения отсутствуют. Для определения этой группы пациентов в 1982 г. был предложен термин «метаболически здоровое ожирение» (МЗО). В настоящее время стандартных дефиниций МЗО не существует, сведения о его распространенности крайне вариабельны. Механизмы, предопределяющие этот фенотип, остаются не ясными. Предположительно, сохранная чувствительность к инсулину, высокий уровень физической активности и генетические особенности лежат в основе отличий МЗО от метаболически нездорового ожирения. Медленно прогрессирующее воспаление жировой ткани выступает ключевым патогенетическим фактором метаболических заболеваний. По сравнению с метаболически нездоровым ожирением фенотип МЗО характеризуется более благоприятным профилем воспаления в жировой ткани, меньшим объемом висцеральных депо, менее выраженной инфильтрацией макрофагами, меньшим размером адипоцитов. Остается открытым вопрос о стабильности фенотипа МЗО.Целью настоящего обзора является обсуждение данных современной литературы, отражающих характеристику фенотипа МЗО, его дефиниции, распространенность и потенциально протективные факторы, предопределяющие метаболическое здоровье. Кроме того, обсуждается клиническая значимость выделения фенотипа МЗО. Ожирение - хроническое мультифакторное гетерогенное заболевание, характеризующееся широкой распространенностью, прогрессирующим ростом заболеваемости, высоким кардиометаболическим риском.

По данным на 2014 г., 2,1 млрд населения

планеты имеют избыточную массу тела, в том числе 671 млн ожирение. За последние три десятилетия распространенность избыточной массы тела и ожирения в мире возросла на 27,5% у взрослых и на 47,1%- у детей. В Азербайджанской популяции распространенность избыточной массы тела со-ставляет 59,2%, а непосредственно ожирения- 24,1%, в США- 67,4 и 33,3%, в Великобритании- 63,6 и 25,8% соответственно [1]. Ожирение как важнейший фактор риска сердечно-сосудистых заболеваний, сахарного диабета неизменно входит в состав критериев метаболического синдрома вне зависимости от вариантов его дефиниций. По данным Всемирной организации здравоохра-нения, избыточная масса тела и ожирение предо-пределяют развитие до 44% всех случаев сахарно-го диабета 2-го типа, до 23% случаев ишемической болезни сердца [2]. Патофизиологической осно-вой ожирения и ассоциированных с ним заболеваний является хроническое медленно прогресирующее воспаление. Тем не менее не у всех больных ожирением отмечаются выраженные метаболические нарушения: от 10 до 40% пациентов имеют сохранные показатели углеводного обмена, липидного профиля, артериального давления. В то же время у 10-27% лиц с нормальной массой тела встречаются инсулино-резистентность и дислипидемия [3,4,5,6].

В настоящее время у исследователей вызывает интерес особый фенотип заболевания, получивший название «метаболически здоровое ожирение» (МЗО). В качестве синонимов используются термины «метаболически доброкачественное», «метаболически нормальное», «метаболически защищенное», «инсулинчувствительное», «неосложненное» ожирение, либо «ожирение без факторов сердечно-сосудистого риска» [7]. В группы сравнения традиционно включаются метаболически «нездоровые» больные ожирением, а также метаболически «нездоровые» пациенты с нормальной массой тела (Рис. 1) [5]. Концепция МЗО впервые была сформулиро-вана E. Sims в 1982 г. на основании результатов ранее проведенных эпидемиологических исследований, продемонстрировавших, что избыточная масса тела и ожирение не всегда ассоциированы с повышением риска сердечно-сосудистых заболеваний и смерти [8,9,10]. В последние годы проводится подробная детализация этого фенотипа. Благодаря успехам в области генетики, внедрению новых технологий изучения жировой ткани установлен ряд механизмов, предопределяющих сохранность метаболического здоровья.

Основным камнем преткновения при идентификации протективных факторову метаболически здоровых тучных пациентов является отсутствие стандарта определения этого фенотипа. Отсутствием единых дефиниций объясняется также крайняя вариабельность данных о распространенности МЗО и его естественном течении.

В большинстве исследований отправной точкой для определения понятия МЗО служат критерии метаболического синдрома. В этом случае к группе МЗО, как правило, относят пациентов, имеющих помимо ожирения не более одного дополнительного критерия метаболического синдрома. В ряде других работ приоритетным аспектом является нормальная чувствительность тканей к инсулину (табл. 1) [11,12,13,14,15]. Необходимо подчеркнуть, что термин «метаболически здоровое ожирение» используется лишь в отношении факторов кардиометаболического риска. Оба подхода предусматривают множество вариантов. Прежде всего, прослеживаются существенные различия при выборе критериев ожирения: это либо индекс массы тела (ИМТ), либо показатели окружности талии, либо процентное содержание жировой ткани. Несмотря на выдвинутое в 2009 г. группой международных и национальных медицинских организаций предложение о применении стандартизированных дефиниций метаболического синдрома, до сих пор используются разные классификации, в том числе для выделения фенотипа МЗО (табл. 1) [16,17]. «Золотым стандартом» определения чувствительности тканей к инсулину является гиперинсулинемический эугликемический клэмп. Учитывая его трудоемкость, оценка на-личия инсулинорезистентности в больших вы-борках обычно проводится на основании косвенных методов: определения индексов HOMA (Homeostasis Model Assessment-модель оценки гомеостаза) и Matsuda. Единого мнения о пороговых значениях данных показателей в исследованиях, посвященных МЗО, не существует [17]. Кроме того, ряд исследователей в качестве дополнительных критериев включают в

дефиниции МЗО уровни С-реактивного белка (СРБ), холестерина липопротеинов низкой плотности, лейкоцитов, фибриногена, гликированного гемоглобина, показатели отношения окружности талии к окружности бедер [15,18].

В 2013 г. группой европейских экспертов с целью стандартизации биомедицинских исследовательских баз данных была создана программа BioSHaRE-EU (Biobank Standardization and Harmonization for Research Excellence in the European Union) [19]. Первой научной разработкой программы стал проект по МЗО (Healthy Obese Project). В этом проекте к метаболически здоровым отнесены пациенты с ожирением (ИМТ от 30 кг/м2 и более), не имеющие ни одного проявления метаболического синдрома по критериям Третьей Национальной образовательной программы по гиперхолестеринемии США (NCEP ATP III). В целом в настоящее время в ходе проведения клинических исследований используется около 30 различных дефиниций МЗО [18].

Результаты исследований, характеризующие риск сахарного диабета, сердечно-сосудистых заболеваний и смерти у пациентов с МЗО, крайне противоречивы. В проспективном исследовании, выполненном S. Li и соавт. (2012), было показано, что у детей с фенотипом МЗО шансы сохранить метаболическое здоровье во взрослом возрасте в 2,7-9,3 раза выше, чем у детей с метаболически неблагоприятным профилем. Период наблюдения данной когорты с участием 1098 человек в среднем составил 24 года.

А в данной работе, приведены результаты четырехлетнего наблюдения за выборкой, включавшей 754 человек. Исходно, в зависимости от состояния кардиометаболических показателей, пациенты были разделены на 4 группы. В группу МЗО вошли 11,3% человек, к категории метаболически нездоровых с нормальной массой тела отнесено 21,7%, в группу метаболически осложненного ожирения-21,7%, практически здоровыми были 45,3% участников (референсная группа). Отношение шансов (ОШ) развития диабета при МЗО составило 1,34 (95% доверительный интервал (ДИ) 0,67-2,67), в других группах - соответственно 4,32 (95% ДИ 2,7-6,9) и 5,99 (95% ДИ 3,56-10,08). По данным выводам, метаболическое здоровье является более значимой детерминантой развития сахарного диабета, чем факт наличия ожирения и показано, что МЗО не сопряжено с повышением риска сердечно-сосудистых заболеваний и сахарного диабета 2-го типа. Наличие ожирения отмечено у 24% человек, среди них у 22% выявлен метаболически здоровый фенотип. По сравнению со здоровыми участниками исследования, имевшими нормальные показатели ИМТ, риск смерти при МЗО не повышался (ОШ 1,26; 95% ДИ 0,74-2,13). Наличие двух и более метаболических отклонений увеличивало риск смерти как при нормальной массе тела (ОШ 1,59; 95% ДИ 1,3-1,94), так и при наличии ожирения (ОШ 1,64; 95% ДИ 1,17-2,3). По сравнению с участниками исследования, имевшими ожирение либо нормальную массу тела в сочетании с инсулинорезистентностью, риск общей смерти и смерти вследствие сердечно-сосудистых либо онкологических заболеваний в группе МЗО не повышался.

Тем не менее опубликовано немало работ, свидетельствующих, что МЗО не является стабильным состоянием. Как показали S.L. Appleton и соавт. (2013), кардиометаболический риск не менялся в течение 8 лет у 67% обследованных с фенотипом МЗО, остальные пациенты перешли в категорию осложненного ожирения. Согласно данным F. Soriguer и соавт. (2013), показатели метаболического здоровья оставались сохранными в течение шестилетнего периода наблюдения лишь у 47,6% пациентов с МЗО [28]. По данным метаанализа, включившего результаты 8 проспективных исследований, относительный риск сахарного диабета 2-го типа у метаболически здоровых пациентов с ожирением (n=1770) постепенно возрастал в течение периода наблюдения, который в среднем составил 5,9 года. Спустя этот период времени по сравнению со здоровыми участниками, имевшими нормальный ИМТ, в подгруппе МЗО риск сахарного диабета составил 4,03 (95% ДИ 2,66-6,09), у пациентов с ожирением и наличием не менее двух критериев метаболического синдрома-8,93 (95% ДИ 6,86- 1,62) [29]. В исследовании San Antonio Heart Study проведена оценка риска сахарного диабета 2-го типа (среди 2814 человек) и сердечно-сосудистой патологии (у 3700 участников).

Таблица 1

Критерии диагностики метаболического синдрома

Критерий	Организация WHO (1998)	EGIR	NCEP ATP III (2005)	AACE (2003)	IDF (2005)[4]
Инсулинорезистентность	НГН, НТГ, СД 2-го типа или снижение чувствительности к инсулину[5], а также наличие любых 2 из перечисленных ниже факторов	Уровень инсулина плазмы выше 75-й перцентили, а также наличие любых 2 из перечисленных ниже факторов	Нет, но наличие любых 3 из 5 перечисленных ниже факторов	НГН, НТГ, а также наличие любого из перечисленных ниже факторов, основываясь на клин. оценке	Нет
Абдоминальное ожирение	ОТ/ОБ>0,9 у мужчин ОТ/ОБ > 0,85 у женщин и/или ИМТ > 30 кг/м2	ОТ>94 см у мужчин ОТ>80 см у женщин	ОТ>102 см у мужчин ОТ> 88 см у женщин	ИМТ>25 кг/м2	Увеличение ОТ (популяционные особенности), а также наличие любых 2 из перечисленных ниже факторов
Липиды	ТГ>1,69 ммоль/л и/или ЛПВП<0,9 ммоль/л у муж. ЛПВП<1,01 ммоль/л у женщин	^>2,0 ммоль/л и/или ЛПВП< 1,0 ммоль/л у муж. ЛПВП <1,0 ммоль/л у жен.	^>1,69 ммоль/л и ЛПВП<1,03 ммоль/л у муж. ЛПВП < 1,29 ммоль/лу жен. или гиполипидемическая терапия	ТГ>1,69 ммоль/л и ЛПВП<1,03 ммоль/л у муж.ЛПВП<1,29 ммоль/л у жен.	^ >1,69 ммоль/л и ЛПВП<1,03 ммоль/л у муж. ЛПВП<1,29 ммоль/лу жен. или гиполи-пидемическая терапия
Артериальное давление	>140/90 мм.рт. ст.	> 140/90 мм рт. ст. или гипотензивная терапия	САД >130 мм рт.ст. или ДАД >85 ммрт.ст. или гипотензивная терапия	>130/85 мм.рт. ст.	САД > 130 мм рт. ст. илиДАД > 85 мм рт. ст. или гипотен-зивная терапия
Глюкоза	НГН, НТГ или СД 2-го типа	НГН или НТГ (заисключением СД)	>5,6 ммоль/л (включая СД)	НГН или НТГ (за исключением СД)	>5,6 ммоль/л (включая СД)
Другое	Микроальбуми-нурия	-	-	Другие параметры инсули-норезис-тентности	-

Примечание: WHO (World Health Organization) - Всемирная организация здравоохранения, EGIR (European Group for the Study of Insulin Resistance)-Европейская группа по изуче-нию инсулинорезистентности, NCEP ATP III (Third report of the National Cholesterol Education Program (NCEP) Expert Panel on Detection, Evaluation, and Treatment of High Blood Cholesterol in Adults (Adult Treatment Panel III))- Третий отчет Комиссии экспертов по выявлению, оценке и лечению гиперхолестеринемии у взрослых в рамках Национальной образовательной программы по гиперхолестеринемии США, AACE (American Association of Clinical Endocrinologists)- Американская ассоциация клиниче-ских эндокринологов, IDF (International Diabetes Federation) - Международная федерация диабета, НГН- нарушенная гликемия натощак, НТГ- нарушенная толерантность к глюкозе, СД - сахарный диабет, ОТ - окружность талии, ОБ- окружность бедер, ИМТ- индекс массы тела, ТГ- триглицериды, ЛПВП- липопротеины высокой плотности, САД- систолическое артериальное давление, ДАД- диастолическое артериальное давление *В 2009 г. IDF и AHA/NHLBI (American Heart Association/ National Heart, Lung and Blood Institute- Американская ассоциация кардиологов / Национальный институт сердца, легких и крови США) разработали дефиниции, согласно которым висцеральное ожирение является равнозначным критерием по отношению к другим дефинициям метаболического синдрома, при этом любые 3 комбинации из 5 факторов соответствуют наличию метаболического синдрома. Чувствительность к инсулину (индекс HOMA).

Продолжительность наблюдения пациентов составила в среднем 7,4 года. Наличие ожирения вне зависимости от его исходных метаболических характеристик к концу периода наблюдения было ассоциировано с повышением риска изучавшихся заболеваний.

В проспективное исследование, выполненное G.M. Hinnouho и соавт. (2013), было включено 5269 человек; наличие ожирения диагностировано у 638 (12,1%). Распространенность МЗО в зависимости от дефиниций (использовано 5 различных вариантов) составила от 9 до 41%. Через 17 лет риск общей и сердечно-сосудистой смерти при метаболически здоровом и осложненном ожирении был сопоставим (за исключением варианта диагностики МЗО по критерию индекса HOMA) .

На основании выполненного метаанализа, включавшего результаты обследования 61 386 человек, C.K. Kramer и соавт. (2013) пришли к сходным выводам. При периоде наблюдения не менее 10 лет относительный риск общей и сердечно-сосудистой смерти у пациентов с ожирением даже в случаях отсутствия метаболических нарушений был статистически значимо выше, чем у здоровых участников с нормальной массой тела.

По данным систематического обзора, объединившего результаты 20 исследований (15 когортных и 5 одномоментных), о повышении риска сердечно-сосудистых заболеваний при МЗО сообщалось в 3 работах (33%), риска смерти вследствие сердечно-сосудистой патологии - в 1 работе (14%), общей смерти в 2 работах (30%). По мнению авторов, МЗО представляет собой временное, переходное состояние от нормы к патологии; для изучения данного феномена необходимо проведение новых длительных проспективных исследований. Однако нельзя исключить, что многие пациенты, включавшиеся в исследования, не вполне идеально соответствовали концепции МЗО. Как отмечают R. Brown и J.L. Kuk (2014), истинное МЗО без клинических и субклинических факторов риска представляет собой достаточно редкое явление, его реальная распространенность не может превышать 3-6% среди пациентов с ИМТ>30 кг/м2 [34]. Показатели риска смерти, ассоциированной с ожирением, требуют дальнейшего тщательного изучения с учетом работы. Метаанализ, включавший выборку в составе 1,52 млн человек, показал: наличие избыточной массы тела снижало риск смерти, ожирение I степени не оказывало существенного влияния на риск смерти, повышение риска смерти ассоциировано с ожирением II и III степени.

ЛИТЕРАТУРА

1 Fleming T.M,, Robinson M, Thomson B.et al Regional and national prevalence of overweight and obesity in children and adults during 1980-2013: a systematic analysis for the Global Burden of Disease Study // Lancet, 2014, v.384(9945), p.766-81.

2 World Health Organization Media Centre. Obesity and overweight. Fact sheet no Geneva: World Health Organization, 2013.

3 Primeau V., Coderre L., Karelis A.D. et al Characterizing the profile of obese patients who are metabolically healthy // Int J Obes (Lond), 2011, v.35(7), p.971-81.

4 Bluher M. The distinction of metabolically 'healthy' from 'unhealthy' obese individuals // Curr Opin Lipidol., 2010, v.21(1), p.38-43.

5 Wildman R.P., Muntner P., Reynolds K. et al The obese without cardiometabolic risk factor clustering and the normal weight with cardiometabolic risk factor clustering: prevalence and correlates of 2 phenotypes among the US population (NHANES 1999-2004) //Arch Intern Med., 2008, v.168(15), p.1617-24.

6 Samocha-Bonet D., Chisholm D.J., Tonks K. et al Insulin- sensitive obesity in humans - a 'favorable fat' phenotype? // Trends Endocrinol Metab., 2012, v.23(3), p.116-24.

7 Alam I., Ng T.P., Larbi A. Does inflammation determine whether obesity is metabolically healthy or unhealthy? The aging perspective. Mediators Inflamm. 2012, p.456456.

8 Sims EAH. Characterization of the syndromes of obesity / Brodoff BN, Bleicher SJ, editors. Diabetes Mellitus and Obesity. Baltimore: Williams and Wilkins; p. 219-26.

9 Keys A. Overweight and the risk of heart attack and sudden death. In: Obesity in perspective. DHEW Publ. No. (NIH) 75-708. Washington, D.C.: U.S. Government Printing Office;

10 Andres R. Effect of obesity on total mortality //Int J Obes., 1980, v.4(4), p.381-6.

11 Aguilar-Salinas CA, Garcia EG, Robles L. et al High adiponectin concentrations are associated with the metabolically healthy obese phenotype // J Clin Endocrinol Metab., 2008, v.93(10), p.4075-9.

12 Karelis A.D., Brochu M., Rabasa-Lhoret R. Can we identify metabolically healthy but obese individuals (MHO)? // Diabetes Metab., 2004, v.30(6), p.569-72.

13 Meigs J.B., Wilson P.W., Fox C.S. et al Body mass index, metabolic syndrome, and risk of type 2 diabetes or cardiovascular disease // J Clin Endocrinol Metab., 2006, v.91(8), p.2906-12.

14 Expert Panel on Detection, Evaluation, and Treatment of High Blood Cholesterol in Adults. Executive Summary of The Third Report of The National Cholesterol Education Program (NCEP) Expert Panel on Detection, Evaluation, And Treatment of High Blood Cholesterol In Adults (Adult Treatment Panel III) // JAMA, 2001, v.285(19), p.2486-97.

15 Phillips C.M. Metabolically healthy obesity: definitions, determinants and clinical implications // Rev Endocr Metab Disord., 2013, v.14(3), p.219-27.

16 Alberti K.G., Eckel R.H., Grundy S.M. et al International Diabetes Federation Task Force on Epidemiology and Prevention; Hational Heart, Lung, and Blood Institute; American Heart Association; World Heart Federation; International Atherosclerosis Society; International Association for the Study of Obesity. Harmonizing the metabolic syndrome: a joint interim statement of the International Diabetes Federation Task Force on Epidemiology and Prevention; National Heart, Lung, and Blood Institute; American Heart Association; World Heart Federation; International Atherosclerosis Society; and International Association for the Study of Obesity // Circulation, 2009, v.120(16), p.1640-5.

17 Stefan N., Haring H.U., Hu F.B., Schulze M.B. Metabolically healthy obesity: epidemiology, mechanisms, and clinical implications // Lancet Diabetes Endocrinol., 2013, v.1(2), p.152-62.

18 Rey-Lopez J.P., de Rezende L.F., Pastor-Valero M., Tess B.H. The prevalence of metabolically healthy obesity: a systematic review and critical evaluation of the definitions used //Obes Rev., 2014, v.15(10), p.781-9

Xülasə

Metobolik sağlam piylənməsi olan xəstələrdə protektiv faktorlar və kliniki əhəmiyyət

A.H.Mustafayeva

Piylənmə ürək-damar xəstəlikləri və şəkərli diabet tip 2 inkişaf amillərindən biridir. Hərçənd, piylənmədən əziyyət çəkən xəstələrin çoxunda ağırlaşmalar olmur. Bu qrup pasiyentlər üçün 1982-ci ildə "metabolik sağlam piylənmə" (MSP) termini yaranmışdır. Hal-hazırda MSP-nin müəyyən edilməsi üçün standartlar yoxdur və onun yayılma tezliyində böyük fərqlər vardır. Bu fenotipin əsas mexanizmləri aydın deyil. Fərz olunur ki, insulinə qarşı həssaslıq qalır, həmçinin fiziki aktivliyin yüksək səviyyəsi və genetik uyğunluq sağlam böyükləri metabolik zərərli piylənməsi olanlardan fərqləndirir. Piy toxumasında aşağı dərəcəli iltihab maddələr mübadiləsi xəstəliklərinin patogenezinin həlledici faktorudur. Fenotipin metabolik qeyri-sağlam piylənməsi ilə müqayisədə MSP piy toxumasında iltihabın daha əlverişli profili, daha az vistseral piy, piy toxumasının daha az makrofagial infiltrasiyası, hüceyrənin adipositlərinin kiçik ölçüsü ilə xarakterizə olunur. MSP fenotipinin stabilliyi məsələsi sual kimi qalır.Verilən məqalənin məqsədi MSP fenotipinin xarakteristikaları haqqında ədəbiyyatdan cari verilənlərin, MSP-nin yayılmasının, mümkün mühafizə mexanizmlərinin və MSP fenotipinin klinik əhəmiyyətini müzakirəsidir.

Summary

Protective factors and clinical significance in patients with metabolically healthy obesity

A.G.Mustafayeva

Obesity is a risk factor for the development of cardiovascular disease and type 2 diabetes; nev-ertheless, in many obese patients no cardiometa- bolic complications are present. For this group of patients the term "metabolically healthy obesity" (MHO) has been established in 1982. Currently, there is no standardized definition of MHO, and there are large variations in its prevalence rate. The underlying mechanisms of this phenotype are not clear. It has been suggested that preserved insulin sensitivity, as well as high levels of physical activity and genetic predisposition may differen-tiate metabolically healthy from unhealthy obese adults. Low grade inflammation in the adipose tissue is considered to be a crucial factor for the pathogenesis of metabolic diseases. Compared to the metabolically unhealthy obese phenotype, MHO is characterized by a more favorable inflam-matory profile in adipose tissue, less visceral fat, less macrophagal infiltration of adipose tissue, smaller

adipocyte cell size. The question remains of stability of the MHO phenotype. The aim of this review is to discuss the current lit-erature data concerning characteristics of MHO phenotype, definitions, prevalence and potential protective mechanisms underlying MHO. We also discuss clinical implications of MHO phenotype.

Daxil olub: 08.05.2015

AZƏRBAYCAN RESPUBLİKASININ ŞİMAL VƏ ŞİMALİ-QƏRB REGİYONLARI ÜZRƏ AYRI-AYRI RAYONLARIN ƏHALİSİ ARASINDA SİDİK DAŞI XƏSTƏLİYİNİN YAYILMASININ COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

R.T. Hüseynzadə
Azərbaycan Tibb Universiteti, urologiya kafedrası, Bakı

Açar sözlər: sidik daşı xəstəliyi, epidemiologiya
Ключевые слова: мочекаменная болезнь, эпидемиология.
Key words: urinary stone disease (USD), epidemiology, body mass index (BMI).

SDX-nin formalaşmasında coğrafi risk amilləri mühüm rol oynayır. Coğrafi risk faktorları dedik də, ilk öncə insanların yaşadıqları yaşayış yerinin növü, yayaış yerinin iqlim tipi, ilin fəsili dəyişiklikləri, günəşli günlər, havanın atmosfer təzyiqi, havanın nisbi rütubətliliyi və.s başa düşülür.

ABŞ-da SDX-nin yayılmasına coğrafi zona müxtəlifliyinin təsirini araşdırmaq üçün 1.167.009 (kişi və qadın olmaqla) SDX olan xəstələr araşdırılmışdır. Xəstələrin yaşı 30 və daha artıq olmuşdur. Çalışmalar 1982-ci ildə aparılmışdır. Ətraf mühitin temperaturu və günəşli günlər risk faktorlarına daxildir. SDX Cənubi-Şərqdə və Şimali-Qərbdə (kişi və qadınlar arasında) 2 dəfəyə yaxın çox yayılmışdır. Nəticə olaraq məlum olmuşdur ki, ətraf mühitin temperaturu və günəşli günlər SDX-nin formalaşması üçün əsas coğrafi risk faktorlarıdır [1].

ABŞ-ın Cənubi-Qərbində gün ərzində SDX artır, bu qlobal narahatçılıqlardan biridir. Belə ki, ABŞ əhalisi SDX üçün yüksək risk zonasına daxildir. SDX 2000-ci ildə 40% olmuşdur və düşünülür ki, 2050-ci ildə 56%, 2095-ci ildə 70% SDX-nin artımı müşahidə ediləcək. Bu risk faktorlarının və müşahidə səviyyəsinin artması temperaturda olan dəyişikliklərlə əlaqələndirilir [2].

M.C.Cavadzadə və R.K.Həsənov [3] SDX-nin çox rast gəlinməsini suyun codluğunun yüksək olması, torpaqda ftorun çatışmazlığı, kobaltın miqdarının isə çox olması ilə əlaqələndirirlər.

Xüsusilə isti fəsillərdə sidiyin miqdarının davamlı olaraq az olması SDX-nin artmasında epidemioloji faktor olaraq rol oynadığı düşünülür [4]. SDX-nin formalaşmasında isti-günəşli havanın effekti bir sıra faktorlarla izah oluna bilər və bu fikir bir sıra çalışmalarda öz əksini tapmışdır [5].

Tədqiqatlardan birində göstərilir ki, sidik daşları xüsusilə yay və qış fəsillərində daha çox formalaşır. Digər başqa çalışmalar da da isti hava şəraitinin sidik daşlarının yaranma riskini artırdığını qeyd edirlər [6-9].

Berto və əmakdaşları qeyd edirlər ki, İtaliya əhalisi arasında sidik daşlarının formalaş-masında fəsili dəyişikliklərin mühüm rolu vardır. Belə ki, isti və quru havada, xüsusilə havanın temperaturu 27 dərəcə üstü olarsa və rütubətlilik dərəcəsi 45%-dən aşağı düşürsə bu amillər sidik daşının formalaşmasında mühüm təsir amili olur [9].

Bildiyimiz kimi məlum səbəblərdən yay fəslində ifraz edilən sidiyin miqdarı azalır. Bu mənada Nouri və əməkdaşlarının tədqiqatında göstərilir ki, 33% hallarda sidik daşları isti havada və az miqdarda sidik ifrazı səbəbindən yaranır. Digər bir sual ortaya çıxır bəs qış fəslində sidik daşının yüksək yaranma riski nədəndir. Qış fəslində xüsusilə yaşlı əhali qrupu az miqdarda maye qəbulu edir. Belə ki, məlum olduğu kimi əgər insan az miqdarda maye qəbul edərsə, az miqdarda sidik yaranar və nəticədə bu da sidik daşının yaranmasında mühüm risk amili rolunu oynamış olar [10].

Qış ayları ilə müqayisədə yay aylarında SDX-nin çox müşahidə edilməsini yayda D hipervitaminozu ilə əlaqələndirən çalışmalar vardır [11].

Yay fəslində sidikdə urat mineral tərkibli duzların kristallaşması artırsa, kalsium oksalat və fosfat mineral tərkibli duzların artımı olmur. Yay fəslində qış fəslinə nisbətən sidik turşulu duzlarının toplanması artırsa, monosodium urat da azalır [12].

Tədqiqatın məqsədi. Tədqiqatın əsas məqsədi hər bir coğrafi zonaya daxil olan ayrı-ayrı rayonların əhalisi arsında SDX-nin illər üzrə dinamikası, ilin fəsli dəyişiklikləri və xəstələrin yaşadıqları coğrafi şəraitin bir risk amili kimi təsir imkanları təhlil edilmişdir.

Tədqiqatın material və metodları. Tədqiqat işi Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının nəzdində olan bazası və Azərbaycan Respublikası Şimal (Quba-Xaçmaz coğrafi zonası: Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran və Dağlıq Şirvan coğrafi zonası: Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonları) və Şimali-Qərb (Şəki-Zaqatala coğrafi zonası: Şəki, Zaqatala, Balakən, Qax, Oğuz və Qəbələ rayonları) coğrafi zonalarına daxil olan rayonların mərkəzi xəstəxanalarının bazaları əsasında aparılmışdır.

Kliniki müşahidənin predmetini 2007-2011-ci ilər ərzində SDX diaqnozu əsasında müayinə və müalicə aparılmış xəstələr təşkil edir.


Ümumi olaraq 2305 xəstə tədqiq edilmişdir. Xəstələrin 1505-i kişi (65,29±0,99%), 800-ü (34,71±0,99%) qadın olmuşdur. χ^2 =2305 və p<0,001.

Xəstələrdən 867-i (37,61±1,01%) şəhərdə, 1438-i (62,39±1,01%) kənddə yaşayan əhali qrupuna daxildir. Xəstələrin cinsləri üzrə bölgüyə baxsaq, kişi cinsinə daxil olanlarının 565-i (37,54±1,25%) şəhərdə, 940-ı (62,46±1,25%) kənddə, qadın cinsinə daxil olanların isə 302-i (37,75±1,71%) şəhərdə, 498-i (62,25±1,71%) kənddə məskunlaşan əhali qrupuna aiddir. χ^2 =0,01 və p>0,05.

Ümumi xəstələrin (2305 xəstə) stasionarda qalma müddəti 1-48 gün (12,59±0,17%) arasında dəyişmişdir. Kişi xəstələrinin (1505 xəstə) stasionarda qalma müddəti də eyni ilə 1-48 gün (12,46±0,22%) intervalında dəyişmişdirsə, qadın xəstələrində bu müddət 1-38 gün (12,85±0,27%) arasında olmuşdur.

Ümumi xəstə sayı üzrə müşahidə etdiyimiz xəstələrin yaş intervalı 1-90 (43,75±0,36%) yaş arasında olmuşdur. Bu göstərici kişi xəstələrində də 1-90 (44,50±0,47%), qadın xəstələrində isə 4-87 (42,34±0,53%) yaş intervalında qeydə alınmışdır.

Nəticələr və onlarin müzakirəsi. Tədqiqatın ilk predmetini SDX ilə illər üzrə xəstələnmələrin statistikası təşkil edir. Bununla biz illər üzrə xəstələnmə dinamikasında artımın olub-olmaması dəqiqliklə öyrənmiş oluruq. Əgər statistikada yüksəlmə ilə nəticə alınarsa bu o deməkdir ki, xəstələnmədə iştirak edən risk amilləri, xüsusilə coğrafi risk faktorlarının təsir gücü atmışdır. Bu mənada SDX ilə xəstələnmələrin dəqiq təhlili məqsədi ilə xəstələnmə hadisələrinin illər üzrə dinamik şərhi mühüm əhəmiyyət kəsb edir.



Şək. 1. Şamaxı-İsmayıllı regionunda üzrə illər üzrə xəstələnmə


Şamaxı rayonu üzrə kişilərdə 38 xəstə 2007-ci ildə (34,86±4,56%), 36 xəstə 2008-ci ildə (33,03±4,50%), 8 xəstə 2009-cu ildə (7,34±2,50%), 4 xəstə 2010-cu ildə (3,67±1,80%) və 23 xəstə 2011-ci ildə (21,10±3,91%), qadınlarda isə 2 xəstə 2007-ci ildə (5,56±3,82%), 8 xəstə 2008-ci ildə (22,22±6,93%), 6 xəstə 2009-cu ildə (16,67±6,21%), 6 xəstə 2010-cu ildə (16,67±6,21%) və 14 xəstə 2011-ci ildə (38,89±8,12%) xəstə qeydə alınmışdır. Cinslər arasında statistik dürüstlük nəticəsi-χ^2=21,89 p<0,001.

Ağsu rayonu üzrə kişilərdə 28 xəstə 2007-ci ildə (22,40±3,73%), 25 xəstə 2008-ci ildə (20,00±3,58%), 20 xəstə 2009-cu ildə (16,00±3,28%), 27 xəstə 2010-cu ildə (21,60±3,68%) və 25 xəstə 2011-ci ildə (20,00±3,58%), qadınlarda isə 11 xəstə 2007-ci ildə (32,35±8,02%), 7 xəstə 2008-ci ildə (20,59±6,93%), 5 xəstə 2009-cu ildə (14,71±6,07%), 9 xəstə 2010-cu ildə (26,47±7,57%) və 2 xəstə 2011-ci ildə (5,88±4,04%) xəstə qeydə alınmışdır. Cinslər arasında statistik dürüstlük nəticəsi-χ^2=4,53 p>0,05.

İsmayıllı rayonu üzrə kişilərdə 28 xəstə 2007-ci ildə (21,21±3,56%), 24 xəstə 2008-ci ildə (18,18±3,36%), 17 xəstə 2009-cu ildə (12,88±2,92%), 14 xəstə 2010-cu ildə (10,61±2,68%) və 49 xəstə 2011-ci ildə (37,12±4,21%), qadınlarda isə 10 xəstə 2007-ci ildə (7,52±2,29%), 9 xəstə 2008-ci ildə (6,77±2,18%), 20 xəstə 2009-cu ildə (15,04±3,10%), 34 xəstə 2010-cu ildə (25,56±3,78%) və 60 xəstə 2011-ci ildə (45,11±4,31%) xəstə qeydə alınmışdır. Cinslər arasında statistik dürüstlük nəticəsi-χ^2=25,03 p<0,001.

Qobustan rayonu üzrə kişilərdə 9 xəstə 2007-ci ildə (16,67±5,07%), 14 xəstə 2008-ci ildə (25,93±5,96%), 11 xəstə 2009-cu ildə (20,37±5,48%), 9 xəstə 2010-cu ildə (16,67±5,07%) və 11 xəstə 2011-ci ildə (20,37±5,48%), qadınlarda isə 5 xəstə 2007-ci ildə (15,63±6,42%), 6 xəstə 2008-ci ildə (18,75±6,90%), 5 xəstə 2009-cu ildə (15,63±6,42%), 8 xəstə 2010-cu ildə (25,00±7,65%) və 8 xəstə 2011-ci ildə (25,00±7,65%) xəstə qeydə alınmışdır. Cinslər arasında statistik dürüstlük nəticəsi-χ^2=1,602 p>0,05.

Bu hissədə alınmış nəticələrə baxsaq görərik ki, Şamaxı və İsmayıllı rayonlarında cinslər arasında yüksək statistik dürüstlük nəticəsi alınmışdırsa, digər iki rayonda-Ağsu və Qobustanda dürüstlük nəticəsi alınmamışdır. İllər üzrə xəstə sayındadı paylanmaya gəldik isə elə bir ciddi fərq aşkarlanmamışdır.



Şək. 2. Şəki-Zaqatala regionunda illər üzrə xəstələnmə

Şəki rayonu üzrə kişilərdə 53 xəstə 2007-ci ildə (21,20±2,59%), 62 xəstə 2008-ci ildə (24,80±2,73%), 45 xəstə 2009-cu ildə (18,00±2,43%), 56 xəstə 2010-cu ildə (22,40±2,64%) və

34 xəstə 2011-ci ildə (13,60±2,17%), qadınlarda isə 18 xəstə 2007-ci ildə (26,09± 5,29%), 20 xəstə 2008-ci ildə (28,99±5,46%), 19 xəstə 2009-cu ildə (27,54±5,38%), 12 xəstə 2010-cu ildə (17,39±4,36%) və 0 xəstə 2011-ci ildə (0,00±0,00%) xəstə qeydə alınmışdır. Cinslər arasında statistik dürüstlük nəticəsi-χ^2=13,42 p<0,01.

M.T. Berdiyarov yanıq yaralarının kompleks müalicəsində cərrahi nekrektomiyadan sonra immobilizasiya tripsinin (DAS-tripsin) 10% sidik cövhər ilə məhlulunun effektivliyini qeyd edir. Kliniki effekt yaraların yara detritindən təmizlənməsinin müddətinin azaldılması, iltihab reaksiyasının azaldılması, reparativ fazanın, fəallaşmanın azalması, birləşdirici qranulyasiya toxumasının əmələ gəlməsini və yetişməsinin tezləşməsin ilə əsaslandırılmışdır. Üsul yaranın auto dermoplastikaya hazırlanmasını əhəmiyyətli dərəcədə sürətləndirir və yanıq yaralarmm sağalmasım müddətini 1.5-2 dəfə azaldır [6]. Kliniki təcrübədə yaraların papainin köməkliyi ilə təmizlənməsi üsulu yaxşı tanınmışdır. Papain papaya meyvəsindən alman (Carica papaya) qeyri-spesifik proteolitik fermentdir. Papain nekrotik toxumada fıbroz materialları dağıdır və proteolitik fəallığın aşkar olunması üçün sulfhidril qrupun olmasını tələb edir. O kollagenləri dağıtmır [7] və nektotik toxumalarda spesifik aktivatorları tələb edir ki, öz proteolitik fəallığını aşkara çıxarsın. Bunun üçün papainin adətən sidik cövhəri və dialdehidselliiloz tripsinlə immobilizasiya ilə kombinasiyasından istifadə olunur , çünki sidik cövhəri papain aktivatorlarını nekrotik toxumalarda azad edir. Cidik cövhəri zülalın denaturlaşdırılmasına səbəb olur, onu papainin və tripsinin proteolitik xüsusiyyətlərinə qarşı hissiyatlı edir. Dialdehidsellüloz tripsinlə immobilizasiya olunmuş papainin və sidik cövhərinin kombinasiyası təmiz papainin və ya immobilizasiya olunmuş tripsinin xüsusiyyətlərindən təqribən iki dəfə artıq üstünlük təşkil edir.: (DAS-tripsin) [13].

Mexaniki sağlamlaşdırma nekrotik toxumaların və detritin yaradan mexaniki gücdən istifadə olunma yolu ilə çıxarılması qeyri-selektiv fiziki üsuludur. Üsul adətən asan yerinə yetiriləndir və autolitik və ya fermentativ nekrektomiyadan daha effektlidir. Lakin üsulun qeyri-selektivliyi yarada olduğu kimi, həm də onun kənarları sahəsində sağlam toxumaların zədələnməsinə gətirib çıxara bilər, bu isə xəstə üçün əhəmiyyətli dərəcədə narahatlığa səbəb olur. Yaralarm mexaniki təmizlənməsinin bir neçə növü tətbiq olunur. Antiseptik məhlul hopdurulmuş nəm-quruyan sarğılar; miramistin, dioksidin kimi; yaraların mexaniki təmizlənməsinin sadə üsulusur [10]. Nəm, tənzif sarğı yaranın səthinə yerləşdirilir, tədricən quruyaraq, nekrotik toxumam və detriti udur. Dətişdirilən sarğı ilə birlikdə mexaniki olaraq ona hopmuş nekrotik toxumalar sa çıxır [9]. Yaranm su şırnağı il və ya təzyiq altında antiseptiklə işlənməsi yaradan bakteriyaların, yad cisimlərin və nekrotik toxumaların yuyulmasına gətirib çıxarır. Lakin təzyiq həddindən artıq olanda bakteriyaların və detritin yaranın daha dərinə nüfuz etməsi və həyat qabliyyəti olan toxumaların zədələnməsi riskini artırır [12]. Pulsasiya edən şırnağın istifadəsi detritin, ekssudatm, kiçik ölçülü bakteriyaların yumşalması və çıxarılması üçün daha effektli ola bilər. Ultrasəsin effektvliyi sübut olunmuşdur: nekrotik toxumaların çıxarılması və yoluxmanı azaltmaq üçün yaraların işlənməsi [2].

Vakkumlaşdırma yara səthinin üzərində hermetik sistemdə "mənfi" təzyiqin yaradılması

(təxminən atmosfer təzyiqindən 125 mm c.s. aşağı) yolu ila yaraların müxaniki təmizlənməsinin qeyri-invaziya üsuludur. O, xroniki yaralann müalicəsində tətbiq edilir və ekssedatın miqdarını azaltmağa, nekrotik kütələrin qopmasmı sürətləndirməyə, şişkinliyi və tomaların sirayət etməsini azaltmağa, periferik qan axınını artıqmağa, toxumaların oksigenləşməsini yaxşılaşdırmağa və qranulyasiyaların angiogenezininin artmasını stimullaşdırmağa imkan yaradır [3]. Orqanizmin bütöv sistem kimi normal işləməsinin bərpa edilməsi məqsədi ilə yanıq travmasının əsas patogenetik həlqələrinə təsir etdiyi qədər çətin həll edilən məsələ olaraq qalır. Bu problemin həlli üçün əsas məlumatlar yalnız patogenezin xüsusiyyətlərini nəzərə almaqla formalaşmır, həm də patofizioloji əsaslanmaya müvafiq olaraq, müxtəlif ümumi, yerli və az invaziya vasitələrindən istifadənin mümkünlüyü və məqsədə müvafiqliyi ilə formalaşır, bunlardan biri aşağı intensivli lazer şüasıdır (AİLŞ) və termik yanıqların müalicəsində onların kombinasiyasıdır.

Lazer tibbi kliniki tibbin gənc sahələrindəndir, lakin axırıncı onillikdə onun nailiyyətləri praktiki səhiyyənin, o cümlədən cərrahiyyənin bir çox bölmələrində tətbiq edilmişdir [1,4,6,11].

Aşağı intensivli lazer şüası şüalanma qüvvəsinin 10" -dən 10" qədər Vt/sm hüdudunda olur və toxumalarda görünən destruktiv dəyişikliklərə səbəb olmur. Bu və ya digər bioloji strukturlar tərəfindən udulan şüanın bu halı onlara fotokimyəvi təsir göstərir [16]. Aşağı intensivli lazer şüası (AİLŞ) ümumi xüsusiyyəti yerli və ümumi biostimullaşma təsirinə malikdir [4,11,16]. Stimullaşdırma effekti onun nuklein turşusuna, mitoxondriya, su molekullarının və elektrolitlərin əlaqələnməsi, həmçinin energetik proseslərlə daxili hüceyrə təsiri ilə bağlıdır, bunun nəticəsində mikrosirkulyasiyanın yaxşılaşması, kolleteralların açılması, trofiklərin fəllaşması və əsəb qıcıqlanmasının normallaşması əldə olunur. AİLŞ toxumalara bioloji təsiri mexanizminin əsasında hüceyrə və molekul səviyyəsində baş verən proseslər durur. Bu proseslərin xarakteri bir çox hallarda hələ də tapılmamışdır. Lazer şüasımn təsiri mexanizmi haqqmda təsəvvürlərin mövcudluğu ona gətirib çıxarır ki, kvantlarm bir hissəsi biotoxumalardan keçərkən hüceyrələrin molekullan tərəfmdən udulur. Bununla molekullaraları əlaqədə zəifləmə, hətta məhv edilmə əmələ gələ bilər və böyük reaksiya qabiliyyətinə malik olan yeni sərbəst radikallar əmələ gələ bilər [4,5,6,7,8,19]. Lazer şüasmm hüceyrələrdə perekis birləşmələrinin səviyyəsini tənzimləyən hüceyrədaxili katalazanın peroksidaz fəallığına, onların makroerq resintezinə cəlb olunmasına təsiri kim əhəmiyyəti var [34]. Katalaza fermenti helium - neon lazeri şüasının spesifik akseptidir, çünki spektrin (628 nm) qırmızı sahəsində maksimum udmaya malikdir, bu isə bu lazerin şüasının uzunluğuna uyğun gəlir (632.8 nm). Katalazanın fəallığının artırılması qırmızı işığın işığı nəticəsində antioksidant sisteminə sonradan fızioloji effektlərlə müsbət təsir göstərir. Əliyev İ.M. şərik müəllif ilə birlikdə (1989) müəyyən etmişlər ki, qırmızı işığın təsiri altında toxumalarda superoksiddismutaza fermentlərində reaktivizasiya baş verir, hansı ki, spektrin qırmızı sahəsində maksimum udmaya malikdir [34]. Superoksiddismutazamn reaktivləşməsi toxumalarda antioksidant statusunun artmasına və LPO səviyyəsinin aşağı enməsinə gətirib çıxarır. Bioloji obyektin helium - neon lazeri ilə işıqlanması onun membranının LPO məhsullarına davamlılığını artırır.

Bir sıra müəlliflərin məlumatlarına görə bioloji obyekt tərəfindən İQ lazer şüalarının udulması zamanı, axırıncı tamamilə isti enerjiyə çevrilir Sitoplazmanın isti genişlənməsi, müxtəlif ferment sistemlərinin fəallaşması və ehtimal ki, bioloji sahənin ayrılmasının təbii sərhədlərinə xidmət edən membranların qatı-elastik xüsusiyyətlərinin dəyişməsi baş verir. Molekulyar səviyyədə bu dəyişikliklər daha dərin ikincili effektlər üçün təkan ola bilər [4,6,7,8,11].

Az gücə malik olan lazer şüası neovaskulogenezlərin inkişafını stimullaşdırır, arterial kollateralların formalaşmasına imkan yaradır, bunun nəticəsində zədələnmiş toxumalarda daha erkən və tam vaskulyarizasiya baş verir [8,12].

Canlı orqanizmin toxumalarına təsirin terapevtik effekti maqnit sahəsində işıq diodların və lazer şüalarını əhəmiyyətli dərəcədə artırır. Son illər aşağı enerjili lazer şüası və daimi maqnit sahəsinin (DMS) eyni vaxtda eksperimentdə və klinikada tətbiqinin effektliyi barədə işlər meydana çıxır. Yerli alimlərin təcrübə və kliniki şəraitdə işləri ilə sübut olunur ki, lazer şüasının və maqnit sahəsinin biostimullaşdırıcı təsiri bioloji obiyektə eyni zamanda təsiri göstərilən fiziki faktorların ayrı-ayrılıqda istfadə olunması ilə müqayisə zamanı daha fəal ifadə olunur [9,15,16,17]. Bu mikrosirkulya-

siyanın çoxsəviyyəli və müxtəlif istiqamətli aktivləşməsi, toxuma metabolizminin fəallığının artırılması, neyrohumoral həlqələrin işinin güclənməsi və bioloji substratın işinin fəallaşması amillərinin hesabma baş verir. AİLŞ ionlar arasında, su və ionların molekulları arasında elektrolitik əlaqəni dağıdır DMS isə ionların rekombinasiyasına mane olur. Yönəldilmiş EHQ yuxarıda göstərilən qaydaya birləşdirilmiş təsiri zamanı ayrılıqda AİLŞ və DMSönin təsirin nisbətən, disahələrin oriyentasiyasını dəyişməsi hesabına lazer şüasının toxumalara nüfuzunun dərinliyini artırır.

Yüksək intensivli MS təsiri bir çox dərəcədə maqnit elektrik effektə əsaslandırılmışdır, çünki yüksək gərginlik sahəsində unisahə ionlarının və yüklü molekullarm kütləvi qısa müddətli yerdəyişməsinə səbəb olur, hansı ki, yarımnüfuzlu hüceyrə membranlarında toxumalarm ion konyukturasını kritik dəyişikliyinə, sinir və əzələ elementlərinin depolyarizasiyasına , köndələn-zolaq yığılmasına və hamar əzələlərin canlanmasına gətirib çıxarır. MLT trofik və antidistrofik təsiri hüceyrədaxili ererjinin (hüceyrədaxili ATF səviyyətinin artması) və hüceyrələrin plastik funksiyasının (zülal sintexinin aktivləşməsi) stimullaşmasına əsaslanmışdır. Şişkinlik əleyhinə təsir, ehtimal ki, hüceyrələrin membran K-Na-"nasos"un aktivləşməsinin əmələ gəlməsinə, suyun "maqnitləşməsinə", periferik damarların məcrasının genişlənməsinə, o cümlədən samarların həcminin genişlənməsinə borcludur. MLT yumşaq keyləşdirmə effekti, fiziomüalicə prosesində tədricən sürətlənir, bu isə periferik əsəb sonluğununun hərəkətsizlik və həyəcan həddinin transmembran potensialının artması ilə əlaqədardır.

MLT yerli və ümumi qan dövranma yaxşı təsiri də az əhəmiyyət kəsb etmir. Xırda reistiv damarların və prekapillyar sfmkterlərin spazmasının çıxarılması, həmçinin qanda heparinin artırılması və trombositlərin adgezivliyinin azalması yerli hemidinamikanm əhəmiyyətli yaxşılaşmasına, mikrosirkulyasiya məcrasının genişlənməsinə, bu səbəbdən, toxumaların oksigenləşməsi və qidalanmasının artması baş verir. MLT lokal tətbiqi hamar əzələli daxili orqanlara və toxumalara spazmolitik təsir göstərir.

MİL- təsirin müalicəvi effekti orqanizmin enerji potensialının biostimulyasiyası və mobilizasiyasına əsaslanmışdır və immunodolyasiya edən, şişkinlik əleyhinə, regenerator, qan reologiyasını və hemodinamikanı normallaşdıran, hipoxolesterinemik xüsusiyyətlərə malikdir. Bu MİL-terapiya üçün geniş diapazon göstəricilərini termik yanıq xəstələrinin kompleks müalicəsini müəyyən edir. Hal-hazırda yanı yaralarının mülicəsində fıtoditazinin aşağı toksik amfifil polimetlərlə istifadəsinin effektivliyi barədə təsadüfi məlumatlar var, lakin patent informasiyasının məlumatlarına görə və bizə mümkün ədəbiyyata görə kombinə olunmuş fotodinamika terapiyası antioksidant-arqosulfan birləşməsi dərinin termik yanığı zamanı kliniki şəraitdə istifadəsi tətbiq olunmamışdır. Hazırki araşdırma dərinin II-III AB dərəcəli termik yanıqlarının müalicəsi məsələlərinə həsr edilmiş və həmin termiki zədələnmələrin venadaxili lazer şüalanması və yerli - antioksidant-arqosulfan fotodinamik müştərək terapiyası məsələlərinə toxunulmuşdur.

ƏDƏBİYYAT

1. Алексеев А.А., Лавров В.. Ожоговая болезнь: Патогенетические принципы и методы лечения //Анналы хирургии, 1996, №3, с.24-28
2. Попова Е.А. Прогнозирование, профилактика и коррекция эндотоксикозов у ожоговых больных: Автореф. дисс. докт. мед. Наук. СПб, 2000, 48 с.
3. Баткин А.А., Полушин Ю.С., Скорняков В.В. и др. Прогнозирование исхода термической травмы / Сочетанная и множественная механич. травма:. Клиника, диагностика, лечение. СПб, 1997, с.54-58.
4. Sherman R.A. Maggot versus conservative debridement therapy for the treatment of pressure ulcers // Wound Repair Regen., 2002, v.10(4), p.208-14.
5. Бердияров Ш.Т. Комбинированное лечение ожоговых ран с использованием иммобилизованного трипсина и мочевины: Автореф. дис. ... канд. мед. наук. Самарканд,1990, 20 с.
6. Азимшоев А.М. Лазерная фотодинамическая терапия гнойных ран; с фотосенсибилизатором хлоринового ряда: Автореф. дис. ... канд: мед..наук. М., 2008, 21с.
7. Гейниц А.В., Москвин С.В., Азизов Г.А. Внутривенное лазерное облучение крови. М., 2006, 143 с.

8. Дадашев А.И. Комплексное лечение ожоговых ран с применением новых биологически активных раневых покрытий и их сочетания с лазерным излучением: Автореф. дисе. докт. мед. наук. М., 1999, 23с.
9. Гостищев В.К. Некрэктомия: ее возможности и место в гнойной хирургии / 50 лекций по хирургии. М., 2003, с. 342-350
10. Гребенник С.Ф. Внутривенное лазерное облучение крови и раневое покрытие «Фолидерм» в комплексном лечении» пострадавших с термической травмой: Fdnjhta. Lb. ... канд. мед. наук. М., 2009, 180 с.
11. Дербенев В.А. Лазеры, низкочастотный ультразвук и иммобилизованные протеиназы в комплексном лечении гнойных заболеваний мягких тканей: Автореф. дис. ... докт. мед. наук. М., 1990, 30 с.
12. Глянцев С.П. Рана, повязка, больной. М., 2005, 203 с.
13. Герасимова Л.И. Лазеры в хирургии и терапии термических ожогов: Руководство для врачей. М.: Медицина, 2000, 224 с.
14. Ефименко Н.А., Шин Ф.Е., Толстых М.П. и др. Современные тенденции в создании биологически активных материалов для лечения гнойных ран // Воен. мед. Журн., 2002, №1, с.48-52
15. Ефименко Н.А., Чернеховская Н.Е., Федорова Т.А. и др. Микроциркуляция и способы ее коррекции. М.: Российская медицинская академия последипломного образования, 2003, 172 с.
16. Захарченко М.П., Новожилов Г.Н., Положенцев С.Д. и др. Тепловые поражения / Межгос. НИИ реабилитации участников войны. СПб., 2000, 128 с.
17. Странадко Е.Ф., Меркичев Н.В., Рябов М.В. Фотодинамическая терапия в лечении злокачественных новообразований различных локализаций. Пособие для врачей. М., 2002, 21 с.
18. Иванцов В.А., Шанин Ю.Н., Сидельников В.О. и др. Комбинированные ожоговые поражения. СПб, СОТИС, 2003, 140 с
19. Кошелев В.Н., Чалык Ю.В., Сафронов Д.В. Влияние внутривенного лазерного облучения крови (БЛОК) на систему гемостаза при ДВС- синдроме / Матерал. межд. конф. «Клиническое и экспериментальное применение новых лазерных технологий». Казань, 1995, с.393-394
20. Макоев С.Н. Лазерная фотодинамическая терапия ожоговых ран: Автореф. дис. .. канд. мед. наук. М., 2009, 22 с.
21. Agarwa l.R., Athar M., Bickers D.R., Mukhtar H. Evidence for the involvement of singlet oxygen in the photodestruc-tion by chloroaluminum phthalocyanine tetrasulfonate // Biochem Biophys Res Commun, 1990, v.173, p.34-41
22. Мамонтов П.Т. Сравнительная оценка методов стимуляции заживления плоскостных асептических ран: Автореф. дисс... канд. мед. наук. М., 2008, 22 с.
23. Скуба Н.Д., Стрекаловский В.П., Устинова Т.С. Термическая травма в сочетании ожогов дыхательных путей // Хирургия, 2000, № 11, с.37-41
24. Molan P.C. Re-introducing honey in the management of wounds and ulcers theory and practice // Ost Wound Manag., 2002, v.48(11), p.28-40

Резюме

Возможности совместного применения низкочастотного лазерного излучения и антиоксиданта аргосулфата

Ш.К.Мамедов

Ожоговая рана является источником патогенетических нарушений. Спустя несколько часов после ожоговых ран происходит появления токсических агентов. Лечение этих агентов является важнейшей задачей терапии ожоговой болезни. Эта статья посвящена проблеме лечения ожогов II-III АВ степени и совместного применения низкочастотного лазерного излучения и антиоксиданта аргосулфата

Summary

Possible joint use of the low-frequency laser radiation and antioxidant Argosulfan

Sh.K.Mamedov

Burn injury is a source of pathogenic disorders. A few hours after the appearance of burn wounds occur toxic agents. Treatment of these agents is an important goal of therapy of burn disease. This article is devoted to the treatment of burns II-III AB degree and joint use of low-frequency laser radiation and antioxidant argosulfata

Daxil olub: 05.05.2015

PARODONTITIN MÜALICƏSININ EFFEKTIVLIYININ SUBYEKTIV QIYMƏTLƏNDIRILMƏSININ DINAMIKASI

S.V. Puri-zahidan, K.B. Şahbazov, H.İ.İsmayilova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: parodontit, müalicə, eəffektivlik, klinika, qiymətləndirmə

Ключевые слова: пародонтит, лечение, эффективность, клиника, оценка

Key words: periodontitis, treatment effectiveness, clinical evaluation

Xroniki generalizə olunmuş parodontit parodontun mürəkkəb patologiyasıdır və ÜST-ün məlumatlarına əsasən yayılması kariyesindən sonra ikinci yeri tutur. Epidemioloji tədqiqatlar müxtəlif regionlarda yaşayan əhalinin müxtəlif yaş qruplarında bu patologiyanın nisbətən yüksək rast gəlinməsinin tezliyini aşkar etmişdilər [1,2,5].

Məlumdur ki, diş ətində qanama, ödem, ağrı, qaşınma və göynəmə, ağızdan pis qoxu kimi ilkin əlamətləri olan generalizə olunmuş parodontitin kliniki şəkli mühüm dərəcədə parodontda iltihabın nəzərə çarpmasından, orqanizmin ümumi vəziyyətindən asılıdır, başlanğıc və inkişaf etmiş mərhələlərinin tipik simptomlarına malikdir. Xəstəliyin artıq başlanğıc mərhələsində, əsasən də dişarası məsamələr nahiyəsində diş-dişəti ciblərini aşkar etmək olar [6,7,8].

Xəstəliyin gedişatının müddəti və nəticəsi patogenetik mexanizmlərin öyrənlməsinin aktuallığını və parodontda iltihabi- destruktiv dəyişikliklərin profilaktika və müalicə üsullarının mükəmməlləşdirilməsinin vacib olmasını müəyyən edir və bu, öz növbəsində, parodontun iltihabi xəstəliklərinə dair müalicəvi tədbirlərin kompleksinə daxil olan effektiv vasitələrin və dərman preparatların mümkün olan kombinasiyalarının məqsədə uyğun olmasını nəzərdə tutur [3,4,9,10].

Tədqiqatın **məqsədi** generalizə olunmuş parodontitli xəstələrdə müalicənin dinamikasında patologiyanın təzahürlərinin subyektiv qiymətləndirilməsinin dəyişilməsini analiz etməkdən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqata yüngül və orta ağırlıq dərəcəli xroniki generalizə olunmuş parodontit diaqnozu ilə 33 pasiyent daxil edilib.

Anamnezin toplanması özünə pasport məlumatlarını, xəstənin şikayətlərinin öyrənilməsini, klinikaya müraciət etməsinin səbəbini, keçirilmiş xəstəliklər haqqında məlumatları və həmçinin parodontitin inkişafından əvvəl mövcud olan xəstəliklərin aşkar edilməsini daxil edirdi. Stomatoloji statusun öyrənilməsi zamanı parodont toxumalarına, alveolyar çıxıntılarının və ağız boşluğunun selikli qişasına (iltihabi və trofik proseslərin mövcud olması və intensivliyi), parodontal ciblərin mövcud olmasına, dişlərin laxlamasına, ağız boşluğunun və dişlərin vəziyyətinə xüsusi diqqət yetirildi. Müayinə olunanlarda müşayət edən xəstəliklər aşkar edilməmişdir.

Bütün pasiyentlər 2 qrupa bölünmüşdür. Hər iki qrupda parodontitin mülicəsində qəbul edilmiş ənənəvi tədbirlər görüldü: dişəti üstü və dişəti altı çöküntülərin kənar edilməsi, diş-dişəti ciblərinin antiseptiklə işlənilməsi, küretaj. I qrupda müalcənin bütün dövrü boyu parodontal cibə turundalarda yalnız antibakterial preparat metronidazol daxil edilirdi, II qrupda isə antibakterial vasitələrin kombinasiyası: baktrim+metronidazol (Cədvəl 1).

Dişəti ciblərinin antiseptik işlənilməsi üçün xlorheksidin istifadə olunmuşdur. Parodontda olan dəyişikliklər dinamikada qiymətləndirildi: aparılan müalicənin 3, 6 və 9 günü. Müalicənin ümumilikdə müddəti 12 gün təşkil etmişdir.

Cədvəl 1
Müayinə qruplarının xarakteristikası

Qrup	Xəstələrin miqdarı	Parodontitin dərəcəsi	İstifadə olunan terapiya
I qrup	16	yüngül dərəcə -10 xəstə orta dərəcə - 6 xəstə	metronidazol
II qrup	17	yüngül dərəcə -10 xəstə orta dərəcə - 7 xəstə	metronidazol +baktrim

Tədqiqatın nəticələri və onların müzakirəsi. Parodontitin subyektiv əlamətləri xəstələrin əsəs şikayətlərinə görə qiymətləndirilib. Pasiyentlərin əsas şikayətləri: ağızdan pis qoxu, dişləri fırçalayanda diş ətinin qanaması, qida qəbulunda diş ətində ağrı, diş ərpi, dişlərin laxlaması, göynəmə və qaşınma hissləri olmuşdur. Müalicə dövründə I qrupda dəyişikliklər həm yüngül, həm də xəstəliyin orta dərəcəsində qeyd olunub (Cədvəl 2).

Cədvəl 2
I qrupun xəstələrində parodontitin subyektiv təzahürlərinin dəyişməsinin dinamikası

Göstərici		Müalicə dövrü					
		3 gün		6 gün		9 gün	
		yüngül	orta	yüngül	orta	yüngül	orta
Qanama	say %	7(70,0)	5(83,3)	4(40,0)	4(66,7)	2(20,0)	3(50,0)
Dişlərin laxlaması	say %	-	5(83,3)	-	4(66,7)	-	3(50,0)
Diş ərpi	say %	5(50,0)	4(66,7)	3(30,0)	3(50,0)	-	2(33,3)
Ağızdan pis qoxu	say %	6(60,0)	5(83,3)	4(40,0)	3(50,0)	2(20,0)	2(33,3)
Diş ətində ağrı	say %	7(70,0)	4(66,7)	4(40,0)	2(33,3)	2(20,0)	2(33,3)
Göynəmə və qaşınma hissləri	say %	6(60,0)	4(66,7)	3(30,0)	2(33,3)	2(20,0)	2(33,3)

Analiz göstərdi ki, metronidazolun istifadəsində (I qrup) müalicənin 6 və 9 gününə özündə qanama qeyd edən, parodontitin yüngül dərəcəsi olan xəstələrdə bu simptom uyğun olaraq 1,7 və 3,5 dəfə, xəstəliyin orta dərəcəsi ilə olanlarda isə -1,2 və 1,7 dəfə azalmışdır.

Məlumdur ki, generalizə olunmuş parodontitin xarakter simptomlarından biri ağızdan pis qoxunun gəlməsidir. Metronidazolla müalcənin 6 və 9 gününə bu əlaməti özündə hiss edən yüngül dərəcəli parodontitlə müayinə olunanların 40,0 və 20% qeyd etmişdir və bu müalicə kursunun 3 gününə olan göstəricisi ilə müqayisədə uyğun olaraq 1,5 və 3,0 dəfə azalmışdır. Parodontitin orta dərəcəsi olan xəstələrdə müalicədən 6 və 9 gün sonra ağızdan pis qoxunun 50,0% və 33,3% pasiyent özündə qeyd etmişdir və bu müalicənin 3 gününə olan göstəricisi ilə 1,7 və 2,5 dəfə aşağı idi.

Generalizə olunmuş parodontitin başlanğıc mərhələsində simptomlar diş əti nahiyəsində ağrı hissləri, çeynəmə prosesində diskomfortdan ibarətdir. Belə ki, parodontitin yüngül dərəcəsində I qrupun xətələrində metronidazolla müalicə kursunun 3 gününə 70,0% xəstələrin diş ətində qeyd olunmuş ağrı müalicənin 6 gününə 40,0% xəstələrdə müşahidə olunub, müalicənin 9-cu gününə isə -20,0% xəstələrdə qeyd olunub, yəni əvvəlki ölçülərlə müqayisədə azalma 1,7 və 3,5 dəfə təşkil edib. Parodontitin orta dərəcəsi olan xəstələrdə ilkin ölçülərlə müqayisədə olan fərq terapiyanın 6 və 9 gününə qeyd olunmayıb və uyğun olaraq 2,0 dəfə təşkil etmişdir.

Metronidazolla terapiyanın təsiri altında həmçinin qaşınma və göynəmə hissləri olan xəstələrin sayının dinamik azalması qeyd edilmişdir. Parodontitin yüngül dərəcəsində I qrupun bu simpomu olan xəstələrin sayı 6-cı günə 2,0 dəfə, terapiyanın 9 gününə – 3,0 dəfə, parodontitin orta dərəcəsində isə uyğun olaraq 2,0 dəfə azalmışdır.

Laxlayan dişləri olan xəstələrin sayının azalması diqqəti cəlb edirdi. Yüngül dərəcəli xəstələr bu simptomu qeyd etməmişdir, lakin xəstəliyin orta dərəcəsi olan pasiyntlərin arasında terapiyanın 6 gününə, dişlərin laxlaması -1,2 dəfə, 9 gün- 1,7 dəfə az qeyd edilmişdir nəinki 3 günü ilə müqayisədə.

Parodont xəstəliklərinin öyrənilməsində diş ərpinin əmələ gəlməsi xüsusi vacibdir. Parodontitin yüngül dərəcəsi olan I qrupda metronidazolla terapiya fonunda 6 günə diş ərpi olan xəstələrin sayı müalicənin 3 gününə olan göstəricisi ilə müqayisədə 1,7 dəfə azalmışdır və terapiyanın 9 gününə xəstələr dişlərində diş ərpinin olmasını qeyd etməmişlər. Parodontitin

orta dərəcəsi olan 6 xəstə arasında metronidazolla müalicə kursunun 6 gününə dişlərdə ərpin olmasını 50,0% xəstələr qeyd etmişdir və bu həmin simptomu olan xəstələrin miqdarı ilə müqayisədə 1,3 dəfə az olmuş, 9 günə diş ərpi 33,36% xəstələrdə rast gəlinirdi və bu terapiyanın əvvəli ilə müqayisədə 2,0 dəfə az olmuşdur.

Deməli, metronidazolla terapiya parodontitin kliniki təzahürlərinə, xüsusən də diş ətində ağrı və həmçinin qaşınma və göynəmə kimi simptomlarına pozitiv təsir göstərirdi.

Metronidazol və baktrimdən ibarət olan müalicə alan II qrupun xəstələrində parodontitin kliniki təzahürlərinin dinamikasının nəticələri cədvəl 3 təqdim edilib.

Cədvəl 3-dən göründüyü kimi, parodontitin yüngül dərəcəsi olan II qrupun xəstələri terapiyadan 6 gün sonra göynəmə və qaşınmadan şikayət etmirdi, baktrim+ metronidazol terapiyasından 2 gün sonra isə bütün simptomlar yox olurdu. Eyni zamanda yüngül dərəcəli xəstələrdə qanama və diş ərpi, ağızdan pis qoxu və dişətində ağrı halları baktrim+metronidazolla kombinəedilmiş terapiyasından 6 gün sonra uyğun olaraq 1,7 və 1,5 dəfə, 2,0 və 1,7 dəfə azalmışdır. Bu qrupun pasiyentlərində I qrupun pasiyentlərində oldugu kimi dişlərin laxlaması qeyd olunmamışdır.

Parodontitin orta dərəcəsi olan II qrupun xəstələrində terapiyadan 6 gün sonra parodontitin bütün simptomlarına dair şikayətlər hələ də qalırdı, lakin onların hallarının sayı mühüm dərəcədə azalmışdır.

Belə ki, qanama şikayətləri olan xəstələrin sayı terapiyanın əvvəli ilə müqayisədə 1,7 dəfə, dişlərin laxlaması şikayətləri, dişlərdə ərpin olması, ağızdan pis qoxu və göynəmə və qaşınma şikayətləri olanların sayı uyğun olaraq 2,0 dəfə, diş ətində ağrı şikayətləri ilə isə 1,5 dəfə azalmışdır.

Kombinəedilmiş terapiyadan 9 gün sonra diş ərpi, diş ətində ağrı və həmçinin göynəmə və qaşınma kimi simptomlar rast gəlinmirdi. Qanamanın (5,0 dəfə), laxlayan dişlərin (6,0 dəfə) və ağızdan pis qoxu gəlməsinin (4,0 dəfə) rast gəlinməsinin tezliyi azalmışdır.

I və II qrupların xəstələrində parodontitin subyektiv kliniki təzahürlərinin dəyişilməsinin dinamikasının müqayisəvi analizi, xroniki generalizə olunmuş parodontitin müalicəsində antibakterial preparatların kombinasiyasının istifadəsinin effektivliyini təstiq etdi (Şək.1).

Cədvəl 3

II qrupun xəstələrində parodontitin subyektiv təzahürlərinin dəyişilməsinin dinamikası

Göstərici		Müalicə dövrü					
		3 gün		6 gün		9 gün	
		yüngül	orta	yüngül	orta	yüngül	orta
Qanama	say %	5(50,0)	5(71,4)	3(30,0)	3(42,8)	-	1(14,3)
Dişlərin laxlaması	say %	-	6(85,7)	-	3(42,8)	-	1(14,3)
Diş ərpi	say %	3(30,0)	2(28,6)	2(20,0)	1(14,3)	-	-
Ağızdan pis qoxu	say %	4(40,0)	4(57,1)	2(20,0)	2(28,6)	-	1(14,3)
Diş ətində ağrı	say %	5(50,0)	3(42,8)	3(30,0)	2(28,6)	-	-
Göynəmə və qaşınma hissləri	say %	4(40,0)	2(28,6)	-	1 (14,3)	-	-


Yalnız metronidazolla və baktrim+ metronidazolla kombinəedilmiş müalicədən 6 və 9 gün sonra alınmış nəticələrin müqayisəvi qiymətləndirilməsində kliniki simptomatikanın reqressi hər iki qruplarda parodontitin həm yüngül, həm də orta dərəcəsi olan xəstələrdə aşkar edilmişdir. Lakin, aparılmış müalicənin təsiri altında kliniki sipmtomatikanın reqressinin analizi metronidazol+baktrimin kombinəedilmiş istifadəsinin üstünlüyünü aşkar etdi və bu da xəstəliyin əsas subyektiv əlamətlərinin artıq 6 gündən sonra tez dayandırılması ilə təzahür edirdi. Belə ki, bu müddətə kombinəedilmiş müalicə fonunda, metronidazolla terapiya ilə müqayisədə, parodontitin yüngül və orta dərəcəsi olan xəstələrdə qanama uyğun olaraq 1,3 və 1,5 dəfə azalmışdır. Hər iki qruplarda parodontitin yüngül dərəcəsi olan xəstələrdə dişlərin laxlamasına dair şikayətlər olmamışdır, lakin parodontitin orta dərəcəsi olan pasiyentlərdə preparatların kombinasiyası fonunda, yalnız metronidazolla terapiyası ilə müqayisədə, bu şikayətlər 1,5 dəfə daha az qeyd olunmuşdur.

Kombinəedilmiş müalicə almış xəstələrin dişlərində diş ərpinin mövcudluğu uyğun olaraq, parodontitin yüngül və orta dərəcəsində 1,5 və 3,5 dəfə azalmışdır. Həmçinin preparatların kombinasiyası ilə terapiyadan sonra ağızdan pis


qoxu gəlməsində də fərq qeyd olunmuşdur - parodontitin yüngül dərəcəsi olan xəstələrdə bu simptomla halların sayı 2,0 dəfə, orta dərəcəli parodontitlə xəstələrin isə -1,7 dəfə azalmışdır.

Kombinəedilmiş müalicədən sonra diş ətində ağrı yüngül dərəcəli parodontitli xəstələrdə 1,3 dəfə, parodontitin orta dərəcəsi olan xəstələrdə isə 1,2 dəfə az rast gəlinirdi. Kombinəedilmiş müalicə almış, parodontitin yüngül dərəcəsilə xəstələr göynəmə və qaşınmanı qeyd etmirdi, lakin bu qrupda parodontitin orta dərəcəsi olan xəstələrdə bu simptomlarda şikayətlər 2,3 dəfə az olmuşdur.

Müalicədən 9 gün sonra alınmış nəticələrin müqayisəvi analizi yüngül dərəcədə kombinəedilmiş terapiya almış xəstələrdə kliniki sipmtomların olmamasını göstərdi. Pasiyentlər ağızdan pis qoxunun, ağrının, qanamanın və s. yox olmasını qeyd edirdi. Parodontitin orta dərəcəsi olan bu qrupun xəstələri qanamanın (14,3%-50,0% I qrupda əleyhinə), dişlərin laxlamasının (14,3%- 50 % I qrupda əleyhinə), ağızdan pis qoxunun gəlməsinin (14,3%-33,3% I qrupda əleyhinə) azalmasını və həmçinin dişlərdə diş ərpinin, diş ətində ağrıların, göynəmə və qaşınmanın yox olmasını qeyd edirdi.



Şək. 1. Müalicədən 6 gün sonra müayinə olunan qrupların xəstələrində parodotitin subyektiv təzahürləri



Şək 2. Müalicədən 9 gün sonra müayinə olunan qrupların xəstələrində parodotitin subyektiv təzahürləri

Beləliklə, baktrim+metronidazol preparatlarının kombinasiyası ilə müalicənin istifadəsinin təsiri altında bütün subyektiv simptomların kəskin müsbət dinamikası qeyd olunmuşdu, hansı ki müalicə kursundan sonra, daha nəzərə çarpan olaraq bu göstəricilər normaya yaxın olan səviyyəyə çatırdı. Kombinəedilmiş terapiya üsulu xroniki gene-

ralizə olunmuş parodontitin əsas təzahürlərinin masına səbəb olur.
daha tez və nəzərəçarpan tərzdə dayandırıl-

ƏDƏBİYYAT

1.Əliyev B.F. Parodont xəstəliklərin subtropik şəraitdə yayılması və müalicə-profilaktika tədbirlərin səmərəsi (eksperimental-klinik tədqiqatlar): Tibb elm.nam. ..dis. avtoref. Bakı,1995, 21 s.

2.Везиров Т.Р. Клинико-эпидемиологические особенности и лечение воспалительных заболеваний пародонта у мигрантов и вынужденных переселенцев в г.Баку: Автореф. дис. … канд.мед.наук. Баку, 2005, 25 с.

3.Мамедли Дж.А., Пашаев А.Ч., Мамедова С.А. Клинико-лабораторное обоснование эффективности лечения агрессивных форм пародонтита // Стоматология детского возраста и профилактика, 2009, том 7, №2(29), с. 17-20

4.Мамедова С.Г., Пашаев А.Ч., Курбанов С.Н. Лечение заболеваний пародонта у беженцев, проживающих в палаточных условиях // Сагламлыг, 2007, №2, с.167-172

5.Пашаев А.Ч. Эпидемиологические аспекты основных стоматологических заболеваний населения Азербайджана и разработка эффективных лечебно-профилактических мероприятий: Автореф. дис. … докт. мед. наук. Баку, 2011, 50 с.

6.Гильмутдинова Л.Т., Герасимова Л.П., Хайбуллина Р.Р., Хайбуллина З.Р. Оценка применения ультразвука в сочетании с антисептиком бетадин в восстановительном лечении хронического генерализованного пародонтита // Современные наукоемкие технологии, 2012, №8, с.16-18.

7.Журавлев В.А., Казакова А.В. Методы фиксации подвижных зубов при лечении хронического генерализованного пародонтита // Проблемы стоматологии, 2014, №2, с. 4-8.

8.Shaddox L.M., Walker C.B. Treating chronic periodontitis: current status, challenges, and future directions // Clinical, Cosmetic and Investigational Dentistry, 2010, No2, p.79–91.

9.Sharma D.A., Pradeep D.A. Clinical efficacy of 1% alendronate Gel in adjunct to mechanotherapy in the treatment of aggressive periodontitis-A randomized controlled clinical trial // Journal of Periodontology, 2011, vol.82, No8, p.1-11.

10.Soares F.M., Mendes J.A.V., Silva M.P. et al. Metronidazole alone or with amoxicillin as adjuncts to non-surgical treatment of chronic periodontitis: a 1-year double-blinded, placebo-controlled, randomized clinical trial // J Clin Periodontol, 2013, vol.39, No12, p.1149-1158.

Резюме

Динамика субъективной оценки эффективности лечения пародонтита

С.В. Пури-захидан, К.В. Шахбазов, Х.И.Исмайылова

С целью оценки изменения субъективных проявлений у больных с генерализованным пародонтитом проведено лечение 33 пациента с легкой и средней степенью тяжести. Больные разделены на 2 группы. В течение всего периода лечения в I группе в пародонтальный карман вносили на турундах только антибактериальный препарат метронидазол, во II группе обследования - комбинацию антибактериальных средств: бактрим + метронидазол.

При сравнительной оценке результатов, полученных через 6 и 9 дней после лечения только метронидазолом и комбинированным лечением бактрим+метронидазол, был выявлен регресс клинической симптоматики как у больных с легкой, так и средней степенью пародонтита в обеих группах. Анализ регресса клинической симптоматики под влиянием проведенного лечения выявил преимущество комбинированного применения метронидазола и бактрима, что проявлялось сравнительно более быстрым купированием основных субъективных признаков заболевания.

Summary

Dynamics of subjective estimation of efficiency of treatment periodontitis

S.V. Puri-zahidan, K.B. Shakhbazov, Kh.I. Ismayilova

At 33 patients with light and moderate periodontitis were treatmented for the purpose of the estimation of change of subjective displays. Patients are divided into 2 groups. During all period of treatment in I group in the periodontal pockets brought only the antibacterial drug - metronidazole, in II group - the combination of antibacterial drugs: bactrim + metronidazole.

There was the recourse of clinical symptoms as at patients with light and moderate periodontitis in both groups has been revealed, at a comparative estimation of the results received in 6 and 9 days after treatment only by metronidazole and combined treatment bactrim+ metronidazole, The analysis

of recourse of clinical symptoms after the treatment has revealed advantage of the combined treatment of metronidazole and bactrim that was shown faster disappearance of the basic subjective displays of disease.

Daxil olub: 16.06.2015

NİKAHDAN ƏVVƏL GENETİK MÜAYİNƏNİN BİOETİK VƏ HÜQUQİ ASPEKTLƏRİ

A.İ.Mustafayeva, İ.S.Əhmədov, A.A.Bəndəliyeva
İnsan Hüquqları İnstitutu, AMEA

Açar sözlər: nikah, genetik müainələr, reproduktiv sağlamlıq, hüquqi aspekt
Ключевые слова: брак, генетические исследования, репродуктивное здоровье, прововые аспекты
Keywords: marriage, genetic testing, reproductive health, legal aspects

İnsan bioloji və sosial varlıq kimi fərdi mövcudluğunu təmin etmək, heç bir məhdudiyyət qoyulmadan fəaliyyət göstərmək və müxtəlif maddi və mənəvi nemətlərdən bəhrələnmək üçün yaşamaq hüququna malikdir. Bu hüquq ən ali hüquqdur və insanın bütün hüquqları bundan sonra gəlir. İnsanın yaşamaq hüququnun reallaşmasının ən mühüm atributlarından biri ailədir. Ailənin social institute kimi bir çox funksiyaları var. Bunlardan ən mühümü reproduktiv unksiyadır. İrqindən, cinsindən, yaşından və dinindən asılı olmayaraq hər bir insan reproduktiv və sosial sağlamlıq hüququna malikdir. Bu hüquqlar beynəlxalq standartlara əsaslanır və hər bir şəxsə nikah bağlamaq, məcburiyyət olmadan nəsil artırmaq məsələlərində əsərbəst qərar qəbul etmək imkanı verir. Hər bir ailə cəmiyyətin social dayağıdır və onun qarşısında məsuliyyət daşıyır. Ailə gələcək nəslin artımında, onun sağlam və cəmiyyətə yararlı olmasında əsas rol oynayır. Ailənin sağlam təməl üzərində qurulması isə nikaha daxil olan fərdlərin şəxsi keyfiyyətlərindən və onların reproduktiv sağlamlığından asılıdır.

Reproduktiv sağlamlıq. Reproduktiv sağlamlıq ilk dəfə keçən əsrin 90-cı illərində BMT-nin konfranslarında müzakirə edilmişdir. Reproduktiv sağlamlıq hər bir insanın fiziki, mənəvi və sosial sağlamlıq vəziyyətinin göstəricisidir. Bu təkcə onun reproduktiv orqanlarının sağlamlığı, onların funksiyaları ilə bağlı problemlər və xəstəliklərin olması demək deyil. Reproduktiv sağlamlıq həm də insanların gənaətbəxş və təhlükəsiz cinsi aktivliyə malik olması deməkdir. Reproduktiv sağlamlıq nəsil artırmaq, ailədə uşaqların nə zaman, hansı tezliklə və nə qədər olması haqqında qərar vermək azadlığı deməkdir. Reproduktiv sağlamlıq ailə planlaşdırılması üçün təhlükəsiz, effektiv, ödənilə bilən, qanuni və qəbuledilmiş üsullardan istifadə etməklə, müvəffəqiyyətli hamiləlik və doğum dövrünü yaşamaq və sağlam uşağa sahib olmaq üçün əsasş ərtdir. Reproduktiv sağlamlıq anadangəlmə xəstəliklər, yenidoğulan uşaqların patalogiyaları, ətraf mühitin reproduktiv orqanlara təsiri, vaxtından əvvəl doğuşlar, doğumun aşağı düşməsi, impotensiya və sonsuzluq problemləri ilə məşğul olur. Reproduktiv sağlamlıq bu sahədə müvafiq səhiyyə xidmətlərini əldə etmək üçün kişi və qadınların hüquqlarını nəzərdə tutur [1].

Sonsuzluq. Hələ də insanların əksəriyyəti uşaq dünyaya gətirməyin qadın problem olduğunu düşünürlər. Lakin statistik analiz göstərir ki, bu problemin yarıya qədəri elə kişilərə də aiddir. Bu bir faktdır ki, doğumun 20 -30% aşağı olmasına əsas səbəb mayalandırmanın zəif olmasıdır. Odur ki, kişilər də qadınlar kimi sonsuzluq testini keçməlidirlər. Bu onlar üçün arzuolunmaz hal olsa da hər halda hamiləliyin müvəffəqiyyətli olması üçün əvvəlcədən müalicəyə ehtiyac yaradır. Kişilərin sonsuzluq testi həm də qadınların lazımsız stress keçirmələrinin və lazımsız müalicə almasının qarşısını alar. Müəyyən edilmişdir ki, sonsuzluğun 1/3 hissəsi qadın, 1/3 hissəsi kişi sonsuzluğunun nəticəsində və qalan 1/3 hissəsi isə hər iki tərəfə təsir edən amillərin nəticəsində yaranır. Ailədə sonsuzluq çox ağrılı bir haldırsa, genetik xəstəliklə doğulmuş uşaqların olması ikiqat ağrılı və ömrüboyu günahkarlıq hissi ilə yaşayan valideynlərin maddi və mənəvi stress altında yaşamalarıdır. Odur ki, nikahdan əvvəl genetik test gələcək ailənin bünövrəsinin sağlam əsaslarla qoyulmasını şərtləndirən mühüm prosedurdur.

Genetik xəstəliklər. Genetik xəstəliklər dünya əhalisinin reproduktiv sağlamlıq problemlərinin həllində əsas məsələlərdən biridir. İndi dünyada hamilə olan qadınların 5% ciddi genetik xəstəlikləri olan uşaq dünyaya gətirir. Müşahidələr göstərir ki, genetik problemləri olan uşaqların 43% əqli çatışmamazlıq (IQ <50) sindromu ilə üzləşir. İnkişaf etmiş ölkələrdə uşaq xəstəliklərinin 36-53% məhz genetik xəstəliklərinin payına düşür. Genetik xəstəlikləri olan uşaqların 15-25% prenatal və doğuşdan sonranın ilkin dövrlərind məhv olur [16,17,21]. Genetik anormallığı olan uşaqların əksəriyyəti infeksion xəstəliklərə daha çox tutulur [14].

Genetik xəstəliklərin yayılmasının əsas səbəblərindən biri yaxın qohumla ailə qurmaqdır. Hal-hazırda dünya əhalisinin bir milyardından çoxu qohumluq əlaqəsi olan ailələrdə yaşayır [4,15]. Yaxın qohumla ailə qurmaq Afrika, Yaxın Şərq və Qərbi Asiya ölkələrində geniş yayılmışdır. Bu ölkələrdə ümumilikdə nikahların 25-50% qohumluq əlaqələri olan şəxslər arasında bağlanır [3,12,19]. Genetik klinikada yaxın qohum dedikdə inbriding əmsalı (F) 0,0156 –dan yuxarı olan şəxslər nəzərdə tutulur [2]. Bunlara adətən əmi və xala uşaqları daxildir. Yaxın qohumluq əlaqələri olan ailələrdə genetik xəstəliklərin yayılması riskindın başqa fizioloji anormal, vaxtından əvvəl, morfoloji çatışmamazlıqları və inkişafı zəif olan uşaqların olması tezliyi daha böyük olur [11].

Genetik xətəliklər həm spesifik və həm də bütün millətlər üçün ümumi hal ola bilir. Məsələn Yəhudilərdə Teya-Saks (Tay-Sachs) genetik xəstəliyi 80% təşkil edir və XIV əsrdən mövcuddur. Yəhudilərdə süni olaraq hamiləliyin dayandırılması həm dini və həm də etik cəhətdən ciddi qadağan olunduğundan bu xəstəlik üçün genetik test vacibdir. Son zamanlar genetik testə Teya-Saksdan başqa sistik fibroz, I tip Qoşe, Kanavana xəstəliklərini, Disautonomiya, Bluma sindromu, Fankoni anomiyasını, glikogen ehtiyatı yaradan 1a tipli xəstəliyi, IV tip mikolipid, A tipli Niaman-Pik xəstəliklərini də daxil etmişlər.

Kipr əhalisində isə Talassemiya xəstəliyi (qanda qlobin zülallarının olmaması) geniş yayılmışdır. Talassemiya genetik xəstəlikdir və bu xəstəlikdən əziyyət çəkən insanların hər zaman qan köçürülməsinə, bahalı dərmanlarla müalicəyə və prosedurlara ehtiyacı var. Məlum olmuşdur ki, ciddi tədbirlər görülməsə Kipr əhalisində bu xəstəlik 40 il ərzində 40% əhalinin donor olmasına gətirib çıxara bilər, hansı ki, ildə 78 000 vahid qan tələb olunur.

Odur ki, 1970-ci ildən başlayaraq Kiprdə nikahdan əvvəl Talassimiya üçün test keçmək üzrə Ümumdünya Səhiyyə Təşkilatının köməyilə layihələr həyata keçirməyə başladılar. Nikaha daxil olmaq istəyində olan bütün şəxslərdən Talassimiya testini keçməyi tələb etdilər. Müasir test cihaz və avadanlıqları ilə təchiz edilmiş çoxlu sayda laboratoriyalar yaradıldı. Lakin testdən keçən cütlüklərin əksəriyyəti (90%) öz istəklərindən dönməyərək nikaha daxil olmaqdan imtina etmədilər. Onlar yalnız prenatal diaqnostikaya və talassimiya aşkar edilmiş uşaqların abort olunmasına razılıq verdilər.

Hal-hazırda genetik xəstə uşağın doğulmamasının qarşısının alınması üçün iki variant mövcuddur. Bunlardan biri hamiləliyin ilk həftələrində embrion analizidir. Tibbi praktikada bu çətin və bahalı bir analiz olsa da prinsipcə mümkündür və bioetik cəhətdən daha faydalıdır. Belə ki, genetik durumu bir-birini maraqlandırmayan, sevgi ilə və ya hər hansı bir səbəbdən nikaha daxil olmuş iki şəxsin sağlam üşaq dünyaya gətirmələrinə tam zəmanət verir. DNT analizi deyilən bu yoxlama zamanı embrionda genetik test həyata keçirilir. Analizin nəticəsindən asılı olaraq embrion yaşamaq hüququ qazanır. Embrion tam sağlamdırsa o yenidən ana bətninə qaytarılır və inkişafını davam etdirir.DNT analizində hər hansı bir genetik xəstəlik müşahidə edilərsə embrion məhv edilir. Bu analiz ailə qurmuş şəxslərdə elə də çətin mənəvi sarsıntılara səbəb olmur və onlar gələcək uşaqlarının sağlam olması üşün qərar qəbul etmək imkanı qazanırlar.

İkinci variant nikaha girməmişdən əvvəl genetik test analizidir. Bu tibbi nöqteyi nəzərdən tam sağlam uşaq dünyaya gətirmək problemin tam həlli olsa da mənəvi və bioetik cəhətdən xeyli başqa bir problemlər yaradır. PGT deyilən bu analiz ailə qurmaq istəyən iki şəxsin sevgi azadlılığını, azad seçim hüququnu, könüllülük prinsipini və nəhayət nikaha daxil olmaq hüququnu əvvəlcədən pozmaq kimi qiymətləndirilir.

Nikahdan əvvəl tibbi müayinə. Nikaha daxil olan şəxslərin ailə qurmaqdan əvvəl tibbi müayinədən keçməsi çox vacibdir. Nikahdan əvəll tibbi müayinənin əsas sahələrindən biri genetic müayinədir. Ailənin planlaşdırılmasında, onun dayanıqlığında, iqtisadi və mənəvi durumunun stabilliyində və nəhayət gələcək nəslin sağlamlığındanikahdan əvvəl genetik testin əhəmiyyəti olduqca vacibdir.

Genetik xəstəliklərin nəsildə özünü büruzə verməsi valideynlərin genetik sağlamlığından, xəstə genin dominant və ya resessiv olmasından asılıdır. Valideynlərdən biri və ya hər ikisi hər hansı bir genetik xəstəliyin daşıyıcısıdırlarsa onlardan olan uşaqlarda bu xəstəliyin büruzə verməsi Mendelin çarpazlaşma qanunlarına əsasən baş verir. Heteroziqot valideynlərin hər ikisində xəstə gen olarsa onlardan olan uşaqların 4-dən ikisi daşıyıcı, biri tam sğlam, biri isə mütləq xəstə olacaq. Homoziqot valideynlərdən (hətta biri tam sağlam olsa belə) olan uşaqların isə hamısı xəstə olacaq. Odur ki, nikahdan əvvəl hər iki tərəfin genetik yoxlamadan keçməsi əsas şərtdir.

Genetik test bu sahənin mütəxəssisi ilə məsləhətləşmədən sonra aparılmalıdır. Genetik yoxlama üçün hansı məsləhətlər verilir? Bunlardan birincisi genetik yoxlamanın tipinin razılaşdırılmasıdır. Nikaha daxil olmaq istəyən hər iki şəxsə hansı genetik test daha uyğundur onu məsləhət edirlər. Bunun üçün onların nəsil ağacı araşdırılır, hər iki tərəfin valideynlərinin tibb müayinə tarixcələri nəzərdən keçirilir və genetik məsləhətçi bundan sonra qərar qəbul edir. Əgər hər iki şəxsdə genetik anormal uşaq dünyya gətirilməsi riski yüksək olarsa onda onlar tibbi məsləhət şurası tərəfindən planlaşdırılmış genetik yoxlamadan keçməli olurlar. Nikaha daxil olmaq istəyində olan şəxslərin qərarı bu zaman ola bilər: 1) ailə qurmamaq,2) ailə qursalar da uşaq dünyaya gətirməmək, 3) ailə qurub uşaq istəyərlərsə, onda embrion analizinin aparılmasına razı olmaq və nəhayət 4) genetik xəstə uşağın dünyaya gətirilməsinin sosial, iqtisadi, mənəvi problemlərini başa düşərək üzərilərinə məsuliyyət götürmək.

Genetik analiz paketinə daxildir: baza paketi, kişi və qadın sonsuzluğu testi (CBC, FBS, PPBS, BUN, Urine rt, Semen rt, FSH, LH, Prolactin, Testosterone, ASAB, Chlamydia IgG/IgA), kariotip analizi.

Nikahdan əvvəl genetik test dünya praktikasında. Dünya praktikasında genetik test üçün hər bir şəxsin öz razılığı əsas şərtdir. Azyaşlı uşaqlar üçün onların valideynləri razılıq verməlidir. Genetik test üçün hər şəxsin gizli kodu olur. Genetik yoxlamanın nəticəsinə görə nikaha daxil olmaq istəyən hər iki şəxs məlumat bazasında araşdırıldıqdan sonra onlara nikahın mümkün olub-olmaması haqqında yalnız məsləhət verilir. Onların daşıyıcı olduğu haqqında heç bir məlumat verilmir. Odur ki, bu şəxslər heç vaxt hansı geni daşıdıqları haqqında heç nə bilmirlər. Məlumat yalnız telefonla verilir, testdən keçən şəxslərin test aparan həkimlərlə heç bir fiziki kontaktı olmur.

Nigeriyalı tədqiqatçılar tələbəlr arasında sorğu keçirərək nikagdan qabaq genetik testin tətbiqinə onların münasibətini öyrənmişlər. Tələbələrin 99,4% bunun vacib olduğunu qeyd etmiş, 90,9% nikahdan qabaq genetik testin islama zidd olmadığını söyləmişlər. Tələbələrin 67,1% genetik yoxlamadan keçən şəxslərin yoxlamanın nəticəsindən asılı olaraq nikaha daxil olmaq istəklərindən imtina edəcəklərin söyləmişlər.Onların 44,8% nikaha daxil olmaq istəyində olanları genetik tesdən keçməyə məcbur edilməsinin əleyhinə olmuşlar. Sorğunun nəticələrinə görə iştirakçıların 64,6% genetik test zamanı xəstəliyin aşkar edilməsindən sonra nikaha daxil olanların evlənmək istəyindən imtina etmələrinə kiminsə müdaxilə etməsinin yolverilməz olduğunu qeyd etmiş, bu onların şəxsi işi olduğunu söyləmişlər [7]

Genetik müayinə hər bir şəxsin potensial reproduktiv sağlamlığını müəyyən etməyə, öz ailəsinə və cəmiyyətə faydalı olmasına imkan verir. Genetik yoxlama, 1) ilkin etapda sağaldıla bilən genetik xəstəliklərin müəyyən edilməsinə, 2) şüurlu şəkildə valideyn olub olmamaq seçimini etməyə, 3) gələcək nəsillərdə ciddi genetik xəstəliklərin yayılmasının qarşısını almağa imkan verir.

Genetik yoxlamanın müxtəlif formaları var. Bunlara sitogenetik (xromosomların patologiyası), tək bir genin yoxlanması, biokimyəvi yoxlama və ultrasəs yoxlaması aiddir. Sitogenetik yoxlamada xromosomların sayı və defektləri mikroskopda müəyyən edilir. Tək bir genin yoxlanmasında iki yanaşma metodu tətbiq edilir. Bu metodlardan biri birbaşa yoxlamadır, hansı ki, istehsal etdiyi zülal məlum olarsa gen izolə edilir (məsələn qan xəstəliklərindən oraqvari anemiyya və talissemiya xəstəliklərini müəyyən emək üşün). İkinci yanaşmada isə genin xromosomda yeri məlum olduqda izolə edilir. Bu genin funksiyası haqqında heç nə məlum deyilsə belə onun DNT-də tutduğu vəziyyət aydınlaşdırılır və gen xəritəsi tərtib edilir. Bu xəritədən sonra xromosomlarda olan pozuntuları aşkar etmək üçün marker kimi istifadə edilir. Biokimyəvi yoxlamada isə genin özü deyil onun funksiyasının bəzi aspektləri yoxlanılır. Mühüm genetik yoxlama üsullarına son zamanlar ültrasəs müayinəsini də daxil edirlər. Bu dölün inkişafı zamanı tətbiq edilir və mühüm genetik xəstəlikləri müəyyən etməyə imkan verir. Məsələn, gələcəkdə böyrəklərdə daşın əmələ gəlməsini, ürəyin işemik

xəstəliklərinin riskini müəyyən etməyə imkan verir.

Nikahdan əvvəl genetik test proqramları adətən talassimiya, orqvari hüceyrə anemiyası, HİV, hepatit B və C xəstəliklərinin endemik olan ölkələrdə daha ciddi şəkildə həyata keçirilir. Bu proqramların faydasının şübhəsiz olduğuna baxmayaraq bir sıra dini və hüquqi, mədəni və mentalitetlik səbəbindən dünyanın əksər ölkələrində qanunların qəbul edilməsi hələ də müzakirə mövzusudur. Nikahdan əvvəl genetik test proqramlarının müvəffəqiyyəti hər şeydən əvvəl adekvat dini dəstək, dövlət siyasəti, geniş tibbi maarifləndirmə və məsləhətləşmə tələb edir. Nikahdan əvvəl genetik test proqrqmı ilk dəfə 1970-ci ildə ABŞ-ın Vrciniya ştatında oraqvar-hüceyrə anemiyası üçün, 1975-ci ildə İtaliyada talassimiya xəstəliyi üçün qəbul edilmişdir.Sonralar Kanada, Kipr, Yunanıstan, İtaliya və Böyük britaniya bu məsələ üzrə ümumimilli proqramlar həyata keçirməyə başlamışlar [10]. Uzun müddətdir talassimiya xəstəliyi üçün nikahdan əvvəl genetik test Kipr, Yunanıstan və İtaliyada qohumluq əlaqələri ilə qurulan ailələrin sayı çox olduğundan normal qəbul edilmişdir və müvəffəqiyyətlə davam edir. Buna oxşar proqramlar Çində, Hindistanda, İranda, İndoneziyada, Maldivdə, Malaziyada, Sinqapur və Tailandda həyata keçirilir. Böyük Britaniya və Şimali İrlandiyada prenatal genetik test daha çox yayılmışdır. Çində nikaha daxil olmaq istəyən şəxslər, fiziki yoxlama ilə yanaşı ciddi tibbi müayinədən keçirlər. Onlara nikahdan əvvəl sağlamlıq instruksiyası və məslət verilir. Onlara hətta genetik xəstəliklə doğulan uşaqların videoları göstərilir. Bu yanaşmanı insan hüquqlarının pozulması, evgenika, təhdidetmə və nəzarət kimi qiymətləndirsələrdə onu dövlət tibbi biliklərin çatdırılması kimi izah edir [13]. Livanda xroniki talassemiya xəstəliyi olan pasiyentlər Sosial təminat və Səhiyyə nazirliklərinin dəstəyi ilə yaradılan tibbi mərkəzlərdə daimi nəzarətə götürülürlər. Onlara məlumatlandırılmış razılıq əsasında treyninglər keçirirlər, tibbi personalın iştirakı ilə maarifləndirilir və xüsusi materiallarla təmin edilirlər (Inati A, Zeineh N, Ismaeel H, et al. 2006). Türkiyədə qohumluq əlaqələri olan nikahlar 30% təşkil edir və bu da yüksək səviyyə hesab edilir. Əgər həm kişi və həm də qadın hemoqlobinopatiya daşıyıcısıdırlarsa onlara konfidensiyallıq saxlanmaq şərtilə prenatal yoxlamadan keçməyi məsləhət görürlər [20].

müalicədən sonra 42,1±0,8 mm.c.süt.; fərqlər dürüst olmamışdır) azalması tendensiyası qeydə alınmışdır. ACXOX ilə yanaşı ÜİX olan xəstələr qupunda PO_2 6,9% (66,6±1,4 mm.c.süt- dan 71,5±1,5 mm.c.süt-ə qədər; p<0,05), artmış, PCO_2 isə 4,6% (44,3±1,0 mm.c.süt- dən 41,8±0,7 mm.c.süt- ə qədər; p<0,05) azalmışdır Qeyd etmək lazımdır ki, bu xəstələrdə kapillyar qanda PO2- in artması və PCO2- in azalması baş vermişdir.

Lizinopril ilə 6 həftəlik müalicənin təsiri altında ayrı-ayrı exokardioqrafik göstəricilərin dinamikası hər iki qrupda nəzarətdə olmuşdur. I qrup (ACXOX) xəstələrdə sol mədəciyin vəziyyətini xarakterizə edən exokardioqrafik göstəricilər lizinoprilin təsiri altında dəyişmişdir, lakin sağ mədəcəyin son diastolik ölçüsü 2,56±0,06 sm-dən 2,43±0,04 sm- ə qədər sağ mədəciyin qalınığı 0,55±0,03 sm-dən 0,50±0,02 см sm- ə qədər (p<0,05) dürüst azalmışdır. Lizinopril ilə müalicə nəticəsində II (ACXOX=ÜİX) qrup xəstələrdə exokardioqrafik göstəricilərin nəzərəçarpacaq dinamikası qeydə alınmışdır. Həmin qrupda ürəyin bütün səthləri, o cümlədən sağ və sol mədəciklərin ölçüləri dürüst azalmışdır. İlkin göstəricilərlə müqayisədə sol mədəcik son diastolik ölşüsü 5,34±0,10 sm-dən 5,16±0,09 sm- ə qədər (p<0,05), sağ mədəcik son diastolik ölçüsü 2,6± 0,05 sm-dən 2,44±0,05 sm-ə qədər (p<0,05), sağ mədəciyin qalınlığı 0,57±0,02 sm- dən 0,53±0,02 sm-ə qədər (p<0,05) azalımışdır. Həmin qrupdan olan xəstələrdə sol mədəcik miokardının çəkisi c 276,2±10,9 q-dan 250,6±8,4 q-a qədər, miokard çəkisi indeksi 148,6±5,7 q/m^2 dan 134,7±4,5 q/m^2 –a qədər dürüst azalması qeydə alınmışdır (p<0,01). Lizinopril ilə müalicə nəticəsində ürəkdaxili hemodinamikda atım fraksiyasının 57,4±1,5% -dən 60,7±1,7%-ə qədər artması şəkilndə dəyişiklər qeydə alınmışdır.

Lizinopril ACXOX olan xəstələrdə miokardın remodelləşməsi prosesinə müsbət təsir göstərir və nəticədə sağ mədəciyin morfometrik göstəriciləri hipertrofiya və dilatasiyanın reqressi şəklində dəyişiklilər baş vermişdir. ACXOX ilə yanaşı ÜİX olan xəstələrdə lizinopril ilə müalicə nəticəsində sağ və sol mədəciklərin ölçüləri azalmış, sağ mədəcik hipertorfiyası və sol mədəcik miokardı çəkisinin azalması, sol mədəciyin yığılma funksiyasının artması, antiişemik effekti müşahidə olunmuşdur ki, bu da nitroqliserin preparatana tələbatın azalmasında özünü göstərmişdir.

Lizinopril ilə müalicə fonunda 6 dəqiqəlik addım testi üzrə keçirilən məsafənin dürüs olaraq (p<0,001) artması qeydə alınmışdır. Müalicəyə qədər ACXOX+ÜİX olan xəstələr tərəfindən qət edələn məsafənin orta göstəricisi 400,52±56,91 m olduğu halda, müalicədən sonra 438,58+66,63 m qeydə alınmışdır. Bu da həmin xəstələr arasında fiziki yüklənməyə tolerantlığın artdığını göstərir. Borq şkalası üzrə də təngnəfəsliyin kəskinlik dərəcəsində də dürüst azalma qeydə alınmışdır (p<0,001). Borq şkalası üzrə gəzinti zamanı ACXOX ilə yanaşı ÜİX olan xəstələr qrupunda təngnəfəsliyin kəskinlik dərəcəsi 3,25+1,16 ball hesablandığı halda, müalicədən sonra 2,23+1,02 ball hesablanmışdır.

Cədvəl 4

ACXOX ilə ÜİX olan xəstələrdə lizinopril ilə 6 həftəlik müalicənin təsiri altında sutkalıq EKQ monitoru göstəricilərinin dinamikası

Göstəricilər	ACXOX ilə ÜİX (n=28)	
	Müalicəyə qədər	Müalicədən sonra
Ürək yığılmaları tezliyi	93,6±1,4	92,2±1,5
Mədəciküstü ekstrasistolların sutkalıq sayı	267,5±102,4	134,5±27,4
Mədəcik ekstrasistolların sutkalıq sayı	346,1±84,9	131,3±74,1
Yüksək qradasiyaslı mədəcik ekstrasistolların sutkallq sayı	2,21±0,2	1,08±0,26
Sutka ərzində ST seqmentinin depressiyası epizodlarının sayı	2,78±0,38	1,09±0,28
Sutka ərzində ST seqmentinin depressiyasının ümumi davametmə müddəti, dəqiqə	12,3±1,1	3,18±0,99

Bizim tədqiqatlarda ACXOX və ACXOX ilə yanaşı ÜIX olan xəstələrdə mədəciküstü və mədəcik aritmiyalarının sutkalıq miqdarının aşkar olunma tezliyində dürüst fərqlər qeydə alınmamışdır (cədvəl 4). Müalicə fonunda bu xəstələrdə yüksək qradasiyalı mədəcik aritmiyalarının azalması tezliyi (p<0,01), sutka ərzində mədəciküstü və mədəcik ekstrasistollarının sayının azalması (p<0,01), mədəcik aritmiyalarının orta hədlərinin maksimal qrada-

siyalarının azalması (p<0,01) qeydə alınmışdır (Cədvəl 4). Aparılan müalicə nəticəsində ürək yığıl- malarının orta tezliyinda azalma tendensiyası qeydə alınmışdır, lakin dürüst dəyişməmişdir. Aparılan müalicə nəticəsində ST seqmentinin depressiya epizodlarının sayının dürüst azalması və sutka ərzində ST seqmentinin depressiya epizodlarının ümumi davametmə müddətinin dürüst azalması müşahidə olunmuşdur. ST seqmentinin depressiya epizodlarının sayı 2,78±0,38- dən 1,09±0,28-ə qədər (p<0,01), ümumi davametmə müddəti 12,3±1,1 dəqiqədən 3,18+0,99 dəqiqəyə qədər (p<0,01) azalmışdır

Beləliklə, ACXOX ilə yanaşı ÜİX olan xəstələrdə lizinopril ilə kurs müalicəsi mədəciküstü və mədəcik aritmiyalarının, xüsusilə yüksək qradasiyalı mədəcik ekstrasitollarının sayının azalması qeydə alınmışdır. Həmçinin işemiyanın kəskinliyinin azalması da baş vermişdir ki, bu da ST seqmentinin depressiyasının tezliyi və davametmə müddətinin azalmasında özünü göstərimişdir.

ƏDƏBİYYAT

1. Ağ ciyərlərin xronik obstruktiv xəstəlikləri üzrə klnik protokol. Bakı, 2009, 40s.
2. Авдеев С.Н., Баймаканова Г.Е. ХОБЛ и сердечно- сосудистые заболевания: механизмы ассоциации // Пульмонология, 2008, №1, с.5-13.
3. Задионченко В.С., Нестеренко О.И., Погонченкова И.В., Щикота А.М. и др. Коррекция эндотелиальной дисфункции у больных хроническим легочным сердцем ингибиторами ангиотензин превращающего фермента // Журнал Сердечная недоста., 2006, №1(35), с.8-13.
4. Карпов Р.С., Дудко В.А., Кляшев С.М. Сердце-легкие. Томск, 2004, 605.
5. Чучалин А.Г. Руководство по респираторной медицине. М.: 2007, 814с.
6. Карпов Ю.А., Сорокин Е.В. Стабильная ишемическая болезнь сердца: стратегия и тактика лечения. М.: Реафарм, 2003, 244 с.
7. Киняйкин М.Ф., Суханова Г.И., Удовиченко И.А.,КондрашоваЕ.А. Миокардиальные повреждения у больных хронической обструктивной болезнью легких // Пульмонология, 2008, №5, с.71-74
8. Ремоделирование сердца у больных хронической обструктивной болезнью легких // Медицинский альманах, 2011, №3 (16), с.112-115.
9. Кароли Н.А., Ребров А.П. Коморбидность у больных ХОБЛ: место кардиоваскулярной патологии // Рациональная фармакотерапия в кардиологии, 2009, №4, с.4-16.
10. Чазова И.Е., Чучалин А.Г., Зыков К.А., Ратова Л.Г. Диагностика и лечение пациентов с артериальной гипертонией и хронической обструктивной болезнью легких. (Рекомендации РМОАГ и РРО) // Системные гипертензии, 2013, №10 (1), с.5-35.
11. Хроническая обструктивная болезнь легких. Практическое руководство для врачей. НИИ пульмонологии МЗ РФ. М., 2004, 61 с.
12. Шепеленко А.Ф., Миронов М.Б. Сидоров Ю.О. Комплексное лечение обострений хронической обструктивной болезни легких // Лечащий Врач, 2006, № 8, с.14-16.
13. Шилов А.М., Тарасенко О.Ф., Осия А.О. Особенности лечения ИБС в сочетании с ХОБЛ // Лечащий Врач, 2009, № 7, с.44-48.
14. Calverley P.M., Pauwels R., Vestbo J. et al. Combined salmeterol and fluticasone in the chronic obstructive pulmonary disease: a randomized controlled trial // Lancet, 2003, v.361, p.449-456.
15. Gan W.Q., Man S.F., Senthilselvan A., Sin D.D. The association between chronic obstructive pulmonary disease and systemic inflammation: a systematic review and a metaanalysis. Thorax 2004, v.59, p.574-580.
16. Gan W.Q., Man S.F., Sin D.D. The interactions between cigarette smoking and reduced lung function on systemic inflammation. Chest 2005, v.127, p.558-564.
17. Yu C.M., Lin H., Yang H. et al. Progression of systolic abnormalities in patients with "isolated" diastolic heart failure and diastolic dysfunction // Circulation, 2002, v.105, p.1195-1201.

Резюме

Сравнительная оценка влиянии ИАПФ некоторым кардиопульмонологическим показателям у больных ХОБЛ с ИБС

В.А.Абдуллев

Целью исследования явилось оптимизирование фаркмологического лечение больных ХОБЛ С ИБС с применением ИАПФ. Из первой группы (ХОЬЛ) 29 больным, из воторой

группы (ХОБЛ+ИБС) 28 больным был назначен лизиноприл. С применением лизиноприл было отмечено снижение наджелудочковых и желудочковых аритмий, а также уменьшились высоко градационные желудочковые экстрасистолы. А также было отмечено уменьшение острых ишемий.

Summary

Comparative evaluation of the effect of ACE inhibitors in some kardiopulmonologicheskim parameters in COPD patients with coronary artery disease

V.A.Abdulayev

The aim of the study was to optimize farkmologicheskogo treatment of COPD patients with coronary artery disease with the use of ACE inhibitors. Of the first group (HOL) 29 patients from group votoroy (COPD + CHD), 28 patients were given lisinopril. With the use of lisinopril was decreased supraventricular and ventricular arrhythmias, as well as reduce high gradation PVCs. Also, it was noted a decrease in acute ischemia.

Daxil olub: 14.05.2015

HAGLUND XƏSTƏLİYİNİN MÜAYİNƏSİNİN MÜASİR ASPEKTLƏRİ

R.B. Bayramov, S.R.Nəcəfov, V.R. Həsənova

Azərbaycan Tibb Universiteti

Açar sözlər: Haglund xəstəliyi, Axill vətəri, müayinə, kompüter tomoqrafiyası, maqnist-rezonans-tomoqrafiya

Ключевые слова: болезнь Haglund, ахилловы сухожилия, исследование, компьютерная томография, магнитно-резонансная томография

Key words: disease Haglund, Achilles tendon, computed tomography, magnetic resonance imaging

Haglund xəstəliyi Axill vətərinin yapışma yerində tendinoz, retrokalkaneal bursit və Haglund deformasiyası (kalkaneusun postero-superior hissəsində sümük hipertrofiyası) ilə xarekterizə olunan xəstəlikdir [1,2,3]. Xəstəlik əsasən orta yaşlı qadınlarda rast gəlinir. Xəstələrdə oturub durandan sonra ağrılar və dabanın arxa hissəsində şişkinlik kimi klinik əlamətlər olur.

Xəstələrin əksəriyyəti dabanı düz ayaqqabılar geyən zaman topuq hissəsində ağrıların artmasından şikayət edirlər. Xüsusən Axill vətərinin daban sümüyünə yapışma yerində qızartı, şişkinlik və iltihabi proses müşahidə edilir. Bu xəstələrdə Axill vətəri ilə daban sümüyü arasında olan retrokalkaneal bursada maye yığılır. Xəstələrdə zaman keçdikcə daban sümüyünün yuxarı arxa hissəsində sümük çıxıntı inkşaf edir ki, buna da Haglund deformasiyası adı verilmiçdir. Bəzi xəstələrdə isə daban sümüyünün arxa hissəsində olan sümük çıxıntı (şpur) ailəvi olur və bu da sonrada bu xəstəliyin əmələ gəlməsinə səbəb olur.

Xəstəliyin diaqozunu qoymaq üçün rentgenoloji, kompüter tomoqrafiya (KT) və maqnit rezonans tomoqrafiya (MRT) müayinələrindən istifadə olunur. Rentgenoloji müayinə zamanı "Kager üçbucağının" itməsi və daban sümüyünün arxa hissəsindəki şpuru görmək mümkündür. KT müayinəsi zamanı isə Axill vətərində hissəvi qalınlaşma və daban sümüyünün arxa hissəsindəki şpur müşahidə edilə bilir [2]. Ümumiyətlə ədəbiyatda Haglund xəstəliyinin diaqnostikasında MRT müayinəsi daha informativ müayinə üsulu hesab olunur. Bu müayinə vasitəsilə Axill vətərində ödem, daban sümüyünün arxa hissəsində şpur, Axill vətərinin yapşma yerində tendinoz və retrokalkaneal bursada maye yığıntısını təyin etmək mümkündür [3].

Tədqiqatın məqsədi Haglund xəstəliyi diaqnozunun qoyulmasında daha informativ müayinə üsullarını araşdırmaqdır.

Tədqiqatın material və metodları. Təcrübə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasında aparılmışdır. Xəstələr topuq nahiyəsində olan ağrı şikayətləri ilə ilk öncə travmotoloqa müraciət etmiş və travmotoloqun baxışından sonra rentgenoloji müayinədən və MRT müayinələrindən keçmişdirlər. Tədqiqat kontingentinə 2-i kişi (29%), 5-i qadın (71%) olmaqla Haglund xəstəliyi diaqnozu qoyulan 7 xəstə daxil edilmişdir. Haglund xəstəliyi diaqnozu qoyulmuş xəstələrin ortalama yaş göstəricisi 34 olmuşdur. 7 xəstənin hamısı

rentgenoloji və MRT müayinəsindən, xəstələrin yalnız 3-ü isə KT müayinəsindən keçmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Rentgenoloji müayinədən keçmiş 7 xəstənin 5-də Haglund xəstəliyinə şübhə olmuşdur və diaqnozu dəqiqləşdirmək üçün xəstələrə MRT müayinəsi məsləhət görülmüşdür. Belə ki rentgenoloji müayinələrdə yalnız daban sümüyünün arxa yuxarı hissəsində şpur müşahidə edilmişdir. Rentgenoloji müayinədən keçmiş digər 2 xəstədə isə müxtəlif dianqozlar qoyulmuşdur. KT müayinəsindən keçmiş 4 xəstənin 2-də daban sümüyünün yuxarı arxa hissəsində şpur və Axill vətərində qalınlaşma izlənilmiş və Haglund xəstəliyi diaqnozu qoyulmuşdur


KT müayinəsi keçmiş xəstələr travmatoloqa müraciət etməmişdən əvvəl bu müayinədən keçmişdirlər. Tədqiqat kontingentinə daxil etdiyimiz 7 xəstənin hamısında MRT müayinəsi vasitəsilə Haglund xəstəliyi diaqnozu təsdiqlənmişdir. Belə ki, MRT müayinəsi zamanı retrokalkaneal bursada şişmə və maye artışını əks edən siqnal dəyişikliyi, Axill vətərində qalınlaşma (norma 9 mm) və tendinozisə aid T2, PdFs rejimlərdə hiperintens siqnal artışı və kalkaneusun arxa hissəsində əsasən sagittal T1 rejimdə daha aydın seçilən sümük çıxıntıya (şpur) aid görüntünün aşkar olunması Haglund xəstəliyi diaqnozunun qoyulmasına səbəb olmuşdur.

Nəticə. Əldə olunan nəticəyə əsasən demək olar ki, Haglund xəstəliyinin dianqostikasında KT müayinəsinin aparıması o qədər də infromativ heab olunmur. Rentgen müayinəsi keçmiş xəstələr birbaşa MRT müayinəsindən keçməlidirlər. MRT müayinəsi zamanı aşkarlanan xarakter radioloji triada (retrokalkaneal bursada şişmə, maye artışı, Axill vətərində qalınlaşma və kalkaneusun arxa-üst hissəsində sümük çıxıntı) digər müayinələrdə tam müşahidə edilmir. Aldığımız nəticələr ədəbiyyat məlumatları ilə üst-üstə düşür. Belə ki, aldığmız nəticələrə əsaslanaraq söyləmək olar ki, kliniki Haglund xəstəliyi şübhəsi olan xəstələrdə tam diaqozu təsdiqləmək üçün MRT müayinəsinin aparılması məqsədə uyğundur.



A B

Şək.1. A və B rentgenoloji şəkillərdə daban sümüyünün arxa-yuxarı hissəsində sümük çıxıntı (şpur)



A B

Şək.2. A.Sagittal STIR. B. Sagittal T1 MRT şəkilləri. Hər iki şəkildə daban sümüyünün yuxarı arxa hissəsində şpur, retrokalkaneal bursada maye və Axill vətərində qalınlaşma və tendinoz müşahidə edilir.

ƏDƏBİYYAT

1.Olivieri I., Barozzi L., Padula A. Et al Retrocalcaneal bursitis in spondyloarthropathy: assessment by ultrasonography and magnetic resonance imaging // J Rheumatol., 1998, v.25(7), p.1352-1357.

2.Stephens M.M. Haglund's deformity and retrocalcaneal bursitis // Orthop Clin North Am., 1994, v.25(1), p.41-46

3.Kolodziej P., Glisson R.R., Nunley J.A. Risk of avulsion of the Achilles tendon after partial excision for treatment of insertional tendonitis and Haglund's deformity: a biomechanical study // Foot Ankle Int., 1999, v.20(7), p.433-437

4.Watson A.D., Anderson R.B., Davis W.H. Comparison of results of retrocalcaneal decompression for retrocalcaneal bursitis and insertional Achilles tendinosis with calcific spur // Foot Ankle Int., 2000, v.21(8), p.638-64

Резюме

Современные аспекты исследования болезни Haglund

Р.Б.Байрамов, С.Р.Наджафов, В.Р.Гасанова

Целью исследования явилось изучение более информативных методов исследовний для постановки диагноза Haglund. В исследование вошли 7 больных с диагнозом Haglund. Из них 2(29%), были мужчинами, а 5(71%) женщинами. По полученным данным при сопоставлении рентген диагностики, компьютерную томография и магнитно-резонансную томографию мы пришли к выводу, что МРТ является более информативным методом исследования для постановки диагноза болезни Haglund

Summary

Modern aspects of disease research Haglund

R.B.Bayramov, S.R.Najafov, V.R.Gasanova

The aim of the study was to examine the investigations, a more informative methods for diagnosis Haglund. The study included 7 patients with a diagnosis of Haglund. Of these, 2 (29%) were male and 5 (71%) women. The data obtained by comparing the x-ray diagnostics, computed tomography and magnetic resonance imaging, we concluded that MRI is more informative method of research for the diagnosis of disease Haglund

Daxil olub: 30.06.2015

İNSANIN GÖZ YUVASI DİVARLARININ MORFOLOJİ VƏ KRANİOMETRİK GÖSTƏRİCİLƏRİNİN YAŞ XÜSUSİYYƏTLƏRİ

N.A.Mustafayeva
Azərbaycan Tibb Universiteti, İnsan anatomiyası kafedrası,Bakı

Açar sözlər: kraniometrik göstərici, göz yuvası divarları, üz skeleti, yaş xüsusiyyətləri
Ключевые слова: краниометрические показатели, стенки глазницы, лицевой скелет, возрастные особенности
Keywords: craniometric indexes, walls of orbit, facial skeleton, age pecualirities

Göz yuvası görmə orqanının mühafizəsinin, dayağının əmələ gəlməsinin, eləcə də hərəkətlərinin icrasının təminində iştirak edir.Lakin göz yuvasının bu növ mühüm funksiyalarının mövcudluğuna baxmayaraq, üz skeletinin, o cümlədən göz yuvasının öyrənilməsini qarşısına məqsəd qoyan bir sıra müəlliflərin morfoloji işlərinin əksəriyyətində göz yuvasının quruluş xüsusiyyətləri haqqında yalnız ümumi, eynitipli məlumatlar verilmişdir [5;7;9].Bu da onu göstərir ki, belə yanaşma tərzində oftalmologiya təcrübəsində istifadə edilən müasir üsulların imkanlarının heç də hamısı nəzərə alınmamışdır.

Tədqiqatın məqsədi. Üz skeletinin ayrı-ayrı elementlərinin təşkilində ümumi qanunauyğunluqların səciyyələndirilməsi ən çox inkişafın genetik faktorları, həmçinin mühafizəsini, dayağını, hərəkətini təmin etdikləri orqanların yaş və fərdi xüsusiyyətləri ilə müəyyənləşdirilir [4;6;8]. Məlumdur ki, üzün yuxarı üçdəbir hissəsi ən mühüm distant analizatorlardan olan görmə orqanı ilə əlaqəlidir və onun periferik hissəsi göz yuvasında yerləşir [2;10]. Bütün bunlar müasir üsullarla göz yuvası divarlarının morfoloji və kraniometrik göstəricilərinin yaş xüsusiyyətlərinin tədqiqinin aktuallığını təsdiq edın amillərdəndir. Qeyd olunanlarla əlaqədar olaraq nəzərə çatdırırıq ki, insanın göz yuvası divarlarının kraniometrik göstəricilərinin yaş xüsusiyyətlərinin öyrənilməsi yerinə yetirdiyimiz tədqiqat işinin əsas məqsədini təşkil edir.

Tədqiqatın material və metodları. Tədqiqatın materialını müxtəlif yaş qruplarından olan 64 insan kəlləsi təşkil edir. Kəllələr Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının əsaslı muzeyinin kraniologiya kolleksiyasından götürülüb və istifadə edilib.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqat işində bir sıra köməkçi vasitələrdən və yeni üsullardan istifadə olunub. Qonşu anatomik törəmələrdən göz yuvasına açılan ayrı-ayrı yolların obyektiv meyarlarının həcminin səciyyələndirilməsini xüsusi hazırlanmış bucaqölçən-xətkeşdən istifadə etməklə müəyyənləşdirdik. Biz üz kəlləsinin ümumi ölçülərini təyin etmək üçün istiqamətverici nöqtələrin seçilməsində kraniometriya üzrə mövcud olan göstərişləri rəhbər tutduq.

İnsan kəllələrində göz yuvası divarlarının ölçü göstəriciləri kraniometrik üsulların köməyi ilə tədqiq olunub [1]. Kəllələr üzərində aparılan bütün ölçülər müasir kraniologiyada geniş tətbiq edilən xüsusi alətlərdən (ştangenpərgardan, ölçü-pərgardan və bölgü dəyəri 1 mm olan xətkeşdən) istifadə etməklə yerinə yetirilib.Tədqiq olunan hər bir kəllə üzərində tərəfimizdən göz yuvası və üz kəlləsinin R.Martin (1928) tərəfindən təklif olunan standart ölçüləri (almacıq diametri, üzün yuxarı eni, üzün yuxarı hündürlüyü, göz yuvası divarlarının hündürlüyü və eni) aparılıb. Ölçülərin öyrənilməsi üçün vacib sayılan dəlillərə aid məlumatlar kraniometriya blankına köçürülmüşdür.

Kəllələrdə kraniometrik metodla yanaşı, korroziya üsulundan (stomatologiyada ölçüqəlib materialı kimi tətbiq olunan stomalginlə göz yuvası boşluğunun doldurulması) da istifadə edilib. Göz yuvası boşluğuna doldurulmuş stomalgin oradan çıxarıldıqdan sonra gipsdən və ya özübərkiyən plastmasdan onun qəlibi düzəldilib. Bu üsulla əldə olunan qəliblər üzərində göz yuvası strukturlarının ölçüləri müəyyən edilib.


Tədqiqatın gedişində alınan rəqəm dəlillərinin statistic işlənməsi aparılıb. Bununla yanaşı, tibbi və bioloji tədqiqatlar üçun mövcud olan ümumi tövsiyələrə riayət edilib [3]. Sıraların əldə olunan hissələrinin (M), standart səhvlərin (m), minimal (min), maksimal (max) əhəmiyyətinin orta qiymətlərinin hesablanması aparılıb. Variant sıralarının arasındakı fərqin əvvəlcədən qiymətləndirilməsi üçun Uilkoksonun (Manna-Uitni) qeyri-parametrik ranqlı U-meyarından istifadə olunub.

Tədqiqatın yekunları və onların müzakirəsi. Göz yuvasının özəlliyi onun həm topoqrafiya, həm də yerləşmə vəziyyətinə görə üz kəlləsi tərkibinə daxil olan anatomik

törəmələrə aid olmasındadır. Lakin «beynin periferiyaya atılmış bir hissəsi» kimi qiymətləndirilən gormə orqanının reseptor aparatının inkişafı, onun funksional əhəmiyyəti göz yuvasını kəllənin beyin hissəsinə daha çox yaxınlaşdırır. Bu «ikitirəlik» göz yuvası strukturlarının formalaşmasında kəllə sümüklərinin iştirakında da aşkar edilir. Beləliklə, göz yuvasında yerləşən törəmələri alın cibindən və ən çox da beynin alın paylarının aşağı səthindən ayıran göz yuvasının yuxarı divarı tamamilə kəllənin beyin hissəsi sümüklərindən təşkil olunmuşdur. Göz yuvasının aşağı divarı isə əksinə, ən çox üz kəlləsi sümükləri hesabına formalaşmışdır. Beləliklə, göz yuvasının timsalında biz onun təşkilində iştirak edən kəllənin beyin və üz hissəsinin sümük strukturlarının qarşılıqlı əlaqəsini görürük. Belə ki, beyin kəlləsi elementlərinə xas olan postnatal dəyişikliklər başın üz hissəsi skeletinin sümük strukturları üçün də səciyyəvidir və onların formalaşması eynitiplidir.

Aparılan tədqiqatın nəticələri göstərdi ki, göz yuvası özünün erkən postnatal inkişafı dövrlərində kəllənin digər sümük strukturlarının inkişafını xeyli qabaqlayır. Belə ki, uşaqların həyatının ilk yaş dövrlərində göz yuvasının hündürlüyü bütün üz skeleti hündürlüyünün təxminən yarısı boyda olur. Yaş keçdikcə, ən çox dəyişiklik göz yuvasının aşağı divarında baş verir. Göz yuvasının aşağı divarının çeynəmə aparatının təşkilində iştirakı, onun strukturları daxilində süd və daimi dişlərin mayalarının yerləşməsi həyatın ilk illərində onlarda müşahidə edilən dəyişiklikləri şərtləndirən səbəblərdəndirlər.

Tədqiqatlarımız göstərdi ki, yaşla əlaqədar olaraq, xüsusilə də postnatal inkişafın ilk illərində göz yuvasının bütün digər parametrlərinə nisbətən onun uzunluğu daha intensiv şəkildə böyüyür. Belə ki, əgər yenidoğulmuşlarda göz yuvasının eninin uzunluğuna nisbəti 1: 22,1- 1: 26 həddində olursa bu mütənasiblik yaşlılarda 1:0,73 - 1:0,84 nisbətinə müvafiq olur. Uşaqlarda göz yuvası divarları arasındakı dəqiq hüdudları heç də həmişə təyin etmək mümkün olmur. Göz yuvasının yaşla əlaqədar dəyişikliklərinə, hər şeydən əvvəl, onon divarlarının böyümə dəyişikliklərini aid etmək lazımdır ki, bu dəyişikliklər də uşağın həyatının ilk illərində daha intensiv şəkildə nəzərə çarpır (Şəkil).



Şəkil. Göz yuvalarının yaş xüsusiyyətləri: 1.Yenidoğulmuşun kəlləsi; 2.I uşaqlıq dövrünə aid olan unsanın kəlləsi

Onu da qeyd etmək vacibdir ki, göz yuvasının yaş xüsusiyyətlərinə təkcə birbaşa onun divarlarının əsasını təşkil edən strukturları yox, həm də onunla həmsərhəd nahiyələrdə yerləşən sümüklərə xas olan xüsusiyyətləri də aid etmək lazımdır.Belə ki, uşaqların həyatının

ilk illərində göz yuvası girəcəyini aşağıdan və bayır tərəfdən hüdudlandıran almacıq sümüyünün alın çıxıntısı yaşla əlaqədar, demək olar ki, böyümür.Almacıq sümüyünün qalan hissəsinin kütləsi isə xüsusi çeynəmə əzələsinin təsiri altında yaş artdıqca xeyli dərəcədə dəyişikliyə uğrayır.

Uşaqlarda göz yuvasına keçən damar və sinirlərə məxsus dəlik, yarıq və kanalların həcmcə nisbətən böyük olması da göz yuvasının yaş xüsusiyyətlərinin göstəricilərindəndir.

Yaşlı insanların kəllələri ilə müqayisədə uşaqlarda üz kəlləsi dəliklərinin kəllənin ölçülərinə nisbətən qeyri-mütənasib olması başqa dəliklərə də xas olan xüsusiyyətdir [11].

Göz yuvası yaşlılarda formasına görə girdə kənarlı dördguşəli piramidə bənzəyir.Piramidin zirvəsi arxaya gedərək görmə siniri kanalı dəliyinə, əsası isə önə-başın üz şöbəsinin ön səthinə baxır.Göz yuvası əsas parametrlərinin nisbətinə görə iki kənar formada olur: 1)hündür və qısa , 2) alçaq və uzun. Göz yuvasının əsas parametrlərinin ölçülərini kəllənin forması və ölçüləri ilə müqayisə etdikdə bizim tərəfimizdən aşağıdakı nəticələr əldə edilib. Yaşlılarda göz yuvasının uzunluğunun 38-44 mm, həddində olan ən az göstəricisi əksər müşahidələrdə (9 halda- 14,1%), braxisefal kəllə formasına malik olanlarda, və əksinə, göz yuvası dərinliyi ən uzun 52-58 mm olduqda ən çox (7 halda-10,9%) dolixosefal formaya malik kəllələrdə müşahidə olunur (Cədvəl 1).

Cədvəl 1

Müxtəlif formalı kəllələrdə göz yuvalarının uzunluğu

Kəllənin formaları	Göz yuvalarının uzunluğu (mm-lə)			Cəmi
	38-44	45-51	52-58	
Dolixokran	2 (3,1%)	4 (6,3%)	7 (10,9%)	13 (20,3%)
Mezokran	7 (10,9%)	25 (39,1%)	5 (7,8%)	37 (57,8%)
Braxikran	9 (14,1%)	3 (4,7%)	2 (3,1%)	14 (21,9%)
Ümumi	18 (28,1%)	32 (50%)	14 (21,9%)	64 (100%)

Cədvəl 2

Kəllənin üz hissəsinin və göz yuvalarının hündürlüyü

Kəllənin üz hissəsinin hündürlüyü (mm-lə)	Göz yuvalarının hündürlüyü (mm-lə)			Cəmi
	24-29	30-35	36-42	
51 - 62	8 (12,5%)	4 (6,2%)	2 (3,1%)	14 (21,8%)
63- 75	7 (10,9%)	20 (31,3)	6 (9,4%)	33 (51,6%)
76- 88	3 (4,7%)	6 (9,4%)	8 (12,5%)	17 (26,6%)
Ümumi	18 (28,1%)	30 (46,9%)	16 (25,0%)	64 (100%)

Bütövlükdə kəllənin bütün forma və ölçülərini müqayisə etməklə yanaşı, biz həm də göz yuvasının parametrləri ilə kəllənin üz şöbəsinin ölçüləri arasındakı əlaqələri də müəyyənləşdirmişik. Bizim preparatlarda üz skeletinin yuxarı hündürlüyü 51mm-dən 88 mm arasında tərəddüd etmişdir (cədvəl 2).

Nəticələr göstərdi ki, göz yuvasının ən böyük hündürlüyü (36-42mm) daha çox, maksimal üz skeleti hündürlüyünə (76-88mm) malik olan kəllələrdə rast gəlinir. Üz skeleti hündürlüyünün minimal ölçüsündə (51-62mm) göz yuvası hündürlüyünün də ən az ölçüdə olması (24-29mm) qeyd edilir.

Göz yuvasının divarlarının quruluşu haqqında əldə edilən morfoloji məlumatlar gözyuvasıdaxili anatomik strukturlarda operativ müdaxilələr edilməsinə, həmçinin onların zədələnməsində bərpa cərrahiyyəsi aparılmasına dair metodiki işləmələr hazırladıqda böyük əhəmiyyət kəsb edə bilər.

Nəticələr: 1.Gözyuvası inkişafın postnatal ontogenezinin erkən dövrlərində kəllənin bütün digər sümük strukturlarının böyüməsini əhəmiyyətli dərəcədə qabaqlayır. Belə ki, uşaqların həyatının ilk illərində göz yuvası hündürlüyü bütövlükdə üz skeleti hündürlüyü ölçüsünün təxminən yarısı qədər olur. Uşaqlarda gözyuvası divarları arasında heç də həmişə dəqiq sərhədlər təyin olunmur.

2. Göz yuvasının yaş xüsusiyyətlərinə, ilk növbədə, həyatın ilk illərində göz yuvası divarlarının daha intensiv şəkildə böyüməsini aid etmək lazımdır. Yaşla əlaqədar olaraq göz yuvasının aşağı divarının daha çox transformasiya etməsi baş verir.

3. Uşaqlarda göz yuvası ilə əlaqəli damar və sinirlərin keçdikləri dəlik, yarıq və kanalların yaşlılara nisbətən böyük ölçüdə olmalarını da göz yuvasının yaş xüsusiyyətlərinə aid etmək olar.

4.Yaşlılarda göz yuvasının forması dördguşəli piramidə bənzəyir. Göz yuvasının əsas parametrlərinin nisbətinə görə iki kənar formada –hündür və qısa; alçaq və uzun formalarda ola bilər.

ƏDƏBİYYAT

1. Алексеев В.П., Дебец Г.Ф., Краниометрия. Методика антропологических исследований. М.:Наука, 1964, 448с.

2. Артемьева В.И., Осипова В.А. Координатная анатомия внутреннего отверстия канала зрительного и верхней глазничной щели / Общие закономерности морфогенеза и регенерации. Тернополь, 1975, с.12

3. Гланц С.Т. Медико-биологическая статистика: Перевод с английского языка / Под ред. Н.Е. Бузикашвили и Д.В.Самойлова. М.: Практика,1999, 200с.

4. Горбачева Д.С. Краниометрическая характеристика глазницы и анатомо-топографические взаимоотношения некоторых анатомических структур глазничного органокоплекса: Автореф. дисс... канд. мед. наук, СПб., 1998, 18с

5. Золотарева Т.В., Топоров Г.Н. Хирургическая анатомия головы. М.: Медицина, 1968, 227с.

6. Калманова М.В. Возрастные особенности в строении костных структур лица и их значение в стоматологической практике. Автореф.дисс... канд. мед.наук. М., 2005, 21с.

7. Сперанский В.С. Основы медицинской краниологии. М.: Медицина, 1988. с.269

8. Шадлински В. Б. Топография и внутриствольное строение подглазничного и нижнего альвеолярного нервов. Автореф.дисс... канд. мед.наук. 1982, 25с.

9. Bercovitz B., Holland G.R. Moxam B.J.A. Colour Atlas and Textbook of Oral Anatomy // Z Wolfe Med. Publ. Ltd., 1978. S.123-128

10. Kiryakow I. Morphometric characteristics of the orbital region of the skull of the newborn // Folia med. (Sofia). 1983, v.25, p.31

11. Lang J., Bruckner B. Uber dicke und dünne Zonen des Neurocra Impressiones gyorum und Foramina parietale bei Kinder und Erwachsenen. //J. Anat., Anz., 1981, v.149. 1, p.11-50.

12. Martin R. Kraniologie Kraniometrische A. Technik / Lehrbuch der Antropologie in systematischer Darstellung. 2, Auft. Jena., 1928. Bd4

Резюме

Возрастные особенности морфологии и краниометрических показателей стенок глазницы челоека

Н.А.Мустафаева

В представленной работе изучены возрастные особенности краниометрических показателей стенок глазницы человекаМатериалом для исследования являлись 64 черепа людей разного возраста из краниологической коллекции фундаментального музея кафедры анатомии человека Азербайджанского Медицинского Университета. На черепах людей размерные показатели стенок глазницы были исследованы с помощью краниометрических методов. Результаты исследования показали, что в своем раннем постнатальном периодах развития, глазница значительно опережает все другие костные структуры. Так, у детей первых лет жизни, высота орбиты имеет примерно половину величины высоты всего лицевого скелета. У детей не всегда определяется четкая граница между стенками глазницы. К возрастным изменениям следует отнести, прежде всего, увеличение стенок глазницы, отмечаемое наиболее интенсивно в первые годы жизни. У взрослых глазница по своей форме приближается к четырехгранной пирамиде. По соотношению основных параметров, глазница может высокой и короткой, низкой и длинной. Результаты показали, что в зрелом возрасте наибольшая высота глазницы чаще всего отмечалась на черепах, которые имели максимальную высоту лицевого скелета. Сведения о краниометрических показателях стенок глазницы имеют большое значение, с точки зрения разработок оперативных доступов к внутриорбитальным анатомическим структурам, а также в восстановительной хирургии при их повреждении.

Summary

Age features of morphology and craniometric indexes of walls of human orbit

N.A.Mustafayeva

In the presented work age features of craniometric indexes of walls of human orbit are studied. Material for research were 64 skulls of people of different age from a craniologic collection of the fundamental museum of Human Anatomy Department of Azerbaijan Medical University. On skulls the dimensional indexes of walls of orbit were investigated by the craniometrics methods. Results of research showed that in early postnatal development periods, the orbit considerably advances all other bone structures.So at children of first years the height of the orbit has about a half of size of height off all facial skull. At children the clear boundary between orbit walls is not always defined.The age changes, first of all, is the increase of size of orbit walls which is noted most intensively at the first years of life.At adults the shape of orbit near to the tetrahedral pyramid. On a ratio of basic parameters, the orbit can be the high and short, and the low and long .Results showed that at mature age the greatest height of the orbit was most often noted on skulls with maximal height of a facial skull. Data about the craniometric indexes of walls of orbit have great importance for development of operative accesses to intraorbital anatomical structures, and also in the plastic surgery at their damage.

Daxil olub: 14.05.2015

BƏDXASSƏLI OBSTRUCTIV SARILIQLARDA METALLIK YOXSA PLASTIK STENT?

C.R.İsayev, A.İ.Çoker

Ege Universiteti Tibb Fakültəsi Ümumi Cərrahiyyə və Orqan Transplantasiyası kafedrası, İzmir

Açar sözlər: xolangiokarsinoma, plastik stent, metallik stent

Ключевые слова: холангиокарцинома, пластический стент, металлический стент

Key words: cholangiocarcinoma, plastic stent,metallic stent

İkter kliniki olaraq dərinin, skleraların və mukozanın rənginin saralmasıdır. Bunun səbəbi orqanizmdəki mayedə bilirubinin miqdarının artmasıdır. Qanda bilirubin normal səviyyəsi 0,5-1,0 mg/dl-dir. Bu dəyər 2 mg/dl-ə şatdıqda, konyuktivada, 3-4 mg/dl-ə çatdıqda dəridə və mukozanın membranlarında sarılıa görülür. Obstruktiv sarılıqlarda əsasən birləşmiş bilirubin səviyyəsi yüksəlməkdədir. Biliyar obstruksiyaların üç əsas səbəbi var: öd yolları daşları, benign darlıqlar, malign şişlər. Obstruktiv sarılığı olan xəstələrdə öd yollarının təcili dekompressiyası (cərrahi, endoskopk, və ya perkutan) həyat üşü göstərişdir [10]. Öd yollarının cərrahi müalicəsi haqqında ilk fikirlər İbn Sinaya məxsusdur (980-1037). İlk dəfə isə xoledoxoduodenostomiyanı isə Baselli Ludwig Courvasisie icra etmişdir [1]. 1968 ci ildə ilk dəfə olaraq Mc Cune tərəfindən endoskopik retrograd kolanjiyo pankreatografiya (ERCP) icra edilmişdir. ERCP yandan görüşlü bir endoskopla biliar trakt və pankreatik duktusun kateterizasiyası və görüntülənməsi ilə ampulyar bölgə, öd və pankreatik kanalı göstərən diaqnostika və müalicə məqsədi ilə istifadə olunan bir metoddur. Obstrutiv sarılığı olan xəstələrdə ERCP son illərdə gedərək artan bir populyarlığa malikdir [9,13].

Obstruktiv sarlığın səbəblərindən biri də xolangiokarsinomalardır. Xolangiokarsinomalar intrahepatik və ekstrahepatik olmaqla iki yerə ayrılır ki, ekstrahepatik malignitelərin ən çox rast gəlinən yeri qaraciyərin hilusudur (Klatskin Tm). Ekstrahepatik xolangiokarsinomların 58%-i üst, 17%-i orta və 18%-i alt 1/3-də baş verir [14].

Biliar stentləmə malign biliar darlığı olan xəstələrdə sarılığın korreüksiyasında effektiv bir üsuldur, lakin xəstənin həyatına təsirə malik olduğu mübahisəli mövzudur. Stentin sayı və stent tipi şişin anotomik yerləşiməsi üzrə və gözlənən yaşam müddətinə görə fərdi olur. Stentin yerləşdirilməsi endoskopik və ya perkutan üsulla həyata keçirilə bilər. Həm plastik, həm də metallik stentler xolangiokarsinomalı xəstələrdə müvəffəqiyyətlə istifadə olunmuşdur. Metallik və plastik stentlərin istifadəsini müqayisə edən bir çox tədqiqatlar aparılmışdır [2,4]. Plastik stentlər daha kiçik ölçüyə malikdirlər və asanlıqla tutula bilirlər. Buna


görə də təxminən 3 ayda bir dəyişmələri lazım gəlir. Bundan fərqli olaraq, metallik stentlər daha geniş ölçüyə malikdir və daha uzun müddətli drenajı təmin edirlər. Xəstənin yaşama müddəti 6 aydan daha çox olduğu ehtimal olunursa, metallik stent daha uygun bir seçimdir. Çünki metallik stent qoyulan xəstələrin stasionarda qalma müdəti daha az olur və daha az maliyyə vəsaitləri tələb edir. Metallik stentlər tıxandığı zaman mənfəzi içərisindən yeni bir metallik stent və ya plastik stent taxılması mümkündür [5,6].

Tədqiqatın material və metodları. Hazırki tədqiqatda 2001 və 2010-cu illər arasında Ege Universiteti Tibb fakultəsi Ümumi Cərrahiyyə klinikasına ekstrahepatik öd yolu tumoru diaqnozu ilə müraciət edən 77 xəstənin xəstəlik tarxıçəsini retrospektiv araşdırılmış və onlardan stent qoyulan 23 xəstə hazırki tədqiqata daxil edilmişdir.

Hər xəstəyə şişin yerləşməsinə görə ERCP və PTK (Perkutan Transhepatik Kolangiografiya) proseduru icra edilmişdir. Ümumilikdə, 23 xəstəyə qoyulmuşdur ki, bunlardan 7-si metallik, 16-sı isə plastik stent olmuşdur (Cədvəl).

Cədvəl
Stent qoyulan xəstələrdə stentin növünə görə paylaşım

Stent	Xəstə (müt.r.)
Metallik	7
Plastik	16
Total	23



Şəkil Stent tipinə görə Kaplan Meier yaşama əyrisi.

Metallik stent qoyulan xəstələrin orta yaşama göstəricisi 6,4 ay, plastik stent qoyulan xəstələrdə bu müddət 10,5 ay olmuşdur. Log Rank testi ilə hesablandıqda p=0,198 qeydə alınmışdır ki, bu da statistik olaraq qeyr-dürüst olmuşdur (Şəkil).

Alınan nəticələrin müzakirəsi. Biliar drenaj preoperativ bilirubin səviyyələrini azaltmaq və postoperativ ağırlaşma və ölüm hallarını azaltmaq üçün istifadə olunmaqdadır [12,7,8]. Aparılan bir sıra araşdırmalara əsasən stentləmənin ağırlaşmalar və ölüm hallarına dürüst təsir etmədiyi məlum olur [7].

Yan LN. və həmmüəl. (2001) malign obstruktiv sarılıqlarda icra olunan biliar drenajın yaşama müddətini artırmadığı, lakin

həyat keyfiyyətini yaxşılaşdırdığı fikrini irəli sürmüşlər [16]. Ridtitid və həmmüəl. bir çalışmada metallik stent qoyulan xəstələrdə orta yaşama müddətinin 230 gün plastik stentli xəstələrdə isə orta göstəricinin 130 gün olduğunu qeyd etmişlər ki, bu da statistik olaraq dürüst olmuşdur [11].

Ursula və həmmüəl. tədqiqatda 1 illik yaşama müddəti gözlənən xəstələrdə stentləmənin düzgün seçim üsulu olduğunu göstərilmişlər [15]. Kaassis və həmmüəl. 119 xəstənin daxil olduğu bir randomizə olunmuş tədqiqatda plastik və metallik stent olan qruplar arasında yaşama müddəti baxımından dürüst bir fərqin olmadığını göstərmişlər [5].

Florentina və həmmüəl. isə 133 xəstənin daxil olduğu bir prospektiv tədqiqatda metallik stentin yaşama müddəti plastik stentlə müqayisə edildikdə daha təsirli olduğunu qeyd edilmişlər. Birillik yaşama müddəti metallik stent qrupunda 40,4%, plastik stent qrupunda isə 12,5% olaraq göstərilmişdir [3].

Bizim tədqiqatda cəmi 23 xəstəyə stent qoyulmuşdur ki, bunlardan 7-si metallik, 16-sı isə plastik stent olmuşdur. Metallik stent qoyulan xəstələrdə orta yaşama müddəti 6,4 ay, plastik stent qoyulan xəstələrdə isə orta yaşama müddəti 10,5 ay idi. Log Rank testi ilə qarşılaşdırıldığında p=0,198 hesablanmışdır ki, bu da statistik olaraq qeyri-dürüst olmuşdur.

Nəticə. Bədxassəli törəmələr obstruktiv sarılığın etiologiyasında əsas yerlərdən birini tutur. Bu xəstələrdə eksternal və ya internal yolla qoyulan stentlər həm palliativ müalicə həmdə preoperativ hazırlıq mərhələsində önəmli rola malikdir. Tibbi ədəbiyyatda bu xəstələrdə qoyulan stentin metallikmi, yoxsa plastikmi olması və bu stent tipinin xəstələrin yaşamını uzadıb uzatmaması mübahisəli mövzulardan biridir. Biz də 23 xəstəlik bu çalışmamızda bu suala cavab verməyə çalışdıq. Tədqiqatın nəticələri Log-Rank testi ilə qarşılaşdırldığında metallik və plastik stentin malign obstruktiv sarılıqlı xəstələrdə yaşama müddətinə olan təsirləri statistik olaraq dürüst olmuşdur.

ƏDƏBİYYAT

1. Aran Ö: Safra yolları hastalıkları. in: Temel Cerrahi. Sayek İ: Ankara Güneş kitabevi, 1996, s.1293-1310

2. Ballinger A.B., McHugh M., Catnach S.M. et al Symptom relief and quality of life after stenting for malignant bile duct obstruction // Gut, 1994, v.35, p.467-70

3.Florentina Mihalache, Marcel Tantau, Bridusa Diaconu, Monica Acalovshci. Survival and Quality of Life of Cholangiocarcinoma Patients: a Prospective Study over a 4 Year Period // J Gastrintestin Liver Dis., 2010, v.19(3), p.285-290

4.Kaassis M., Boyer J., Dumas R. et al Plastic or metal stent for malignant sticture of the common bile duct?Results of a Randomized prospective study // Gasrointest Endosc., 2003, v.57(2), p.178-82

5. Khan S.A., Davidson B.R., Goldin R. et al. Guidelines for the diagnosis and treatment of cholangiocarcinoma: consensus document // Gut, 2002, v.51(suppl), p.9

6. Lazaridis K.N., Gores G.J. Cholangiocarcinoma // Gastroenterology, 2000, v. 128, p.1655-67

7.Maingot's Abdominal Operations 11 th edition Nobel Tıp Kitapevleri 2008, s. 929-935

8.Osman Temizöz, Ömer Etik, Mustafa Harman et al Malign biliyer obstrüksiyonlarda preoperatif perkutan bilier drenajın prognoza etkisi // Tıp araştırmaları dergisi, 2005, v.3(1), p.8-13

9. Roslyn J.J., Zinner M.J. Gallbladder end extra hepatic biliary system. In: Schwartz SI, Shires GT, Spencer FC (eds): Principlles of surgery. 6th international edition, Mc Graw-Hill Inc. USA, 1994, p 1367-99

10. Rage R.V., Nahrwold D.L. Cholangitis, choledocholithiasis and bile duct strictures. In Shackelford's Surgery of the Alimentary Tract. Edited by Zuidema GD. Philadelphia, W.B. Saunders Company, 1991, p 199-209

11.Ridtitid W., Rerknimitr R., Janclai A. Et al Outcome of second intervention for occluded metallic stents in patients with malignant biliary obctruction // Surg Endosc., 2010, v. 24, p.2216-2

12.Sabiston . Textbook of Surgery 2010 cilt 2 1631-1639.17 th ed. Nobel Tıp Kitapevleri

13. Speer A.: Endoscopic Retrograde Cholangiopancreatography / Surgery of the biliary tract. Edited by Toouli J. Great Britain: Churchill Livingstone, 1993, p 89-96.

14.Tompkins R.K., Thomas D., Wile A. Prognostic fastors in bile duct carcinoma Analysis of 96 cases // *Ann Surg., 1981, v.* 194, p.447

15.Ursula Dahlstrand, Gabriel Sandblom, Lars-Gunnar Eriksson and Rickard Nyman. Primer patency of percutaneuously inserted self-expanding metallic stent in patients with malignant biliary obstruction // HPB(Oxford), 2009, v11(4), p.358-363

16.Yan L.N., Complex therapy of malignant obstuction jaundice // Zhongguo Shiyong Waike Zazhi, 2001, v.21, p.473

Резюме

Металлические или пластические стенты при злокачественных обструктивных желтух?

Дж. Р. Исаев, А.И. Чокер

Злокачественные опухоли являются одной из наиболее важных желтух. В таких пациентах, стенты, которые ставят через внутренние или внешние пути играет важную роль в паллиативном лечении, а также в подготовке к предоперационной. В медицинской литературе стенты, которые надевают на этих пациентов являются металлом или пластиком и этот стент продлевает срок службы или не является одним из неоднозначных вопросов. Мы попытались ответить на вопрос, в работе с 23 больными. Когда результаты наших работ сталкиваются с Log-Rank тестом, эффекты в процессе жизни из металла и пластика стента у больных с механической желтухой были статистически бессмысленными.

Summary

Malignant obstructive jaundice metallic or plastic stent?

J. R. Isayev, A. I. Choker

Malignant tumors are one of the most important obstructive jaundice. In such patients, stents which put through internal or external ways has an important role in palliative treatment, also in preparation for preoperative. In medical literature the stents which put on these patients are whether metal or plastic and this stent whether extend the life or not is one of the controversial topics. We tried to answer the question in the work with 23 patients. When the results of our works are confronted with Log-Rank test, effects to the process of life of metal and plastic stent in patients with obstructive jaundice were statistically meaningless.

Daxil olub: 19.05.2015

QALXANVARİ VƏZİDƏ QEYRİ-TOKSİK KİSTOZ DEGENERASİYASI PARENXİMATOZ DÜYÜNLÜ UR ZAMANI SKLEROTERAPİYA VƏ LAZERTERMİYA İLƏ MÜALİCƏNİN NƏTİCƏLƏRİ

M.M. Məmmədov, A.M.Əliyev

M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi

Açar sözlər: qalxanvari vəzi, qeyri-toksik kista, parenximatoz düyün, müalicə

Ключевые слова: щитовидная железа, нетоксическая киста, паренхиматочный узел, лечение

Key words: thyroid, non toxic cyst parenchymal unit, treatment

Klinik endokrinologiyanın ən aktual problemlərindən biri qalxanvari vəzi xəstəliklərinin profilaktika, diaqnostika və müalicəsi məsələləridir [1,3,5,8,9,11]. Problemin aktuallığı xəstəliyin yayılma dərəcəsi, son illər gənc və orta yaşlı şəxslərdə urun ağırlaşmış formalarının nəzərəçarpacaq dərəcədə artması ilə əlaqədardır. Qeyri- toksik düyünlü urun, hətta diametri 10 mm-dən böyük olan urun yayılma dərəcəsi ümumi populyasiyada 20-30% təşkil edir və yod defisiti olan ərazilərdə artaraq 50%-ə çatır [2,4,5,6,7,9]. Beləliklə, qeyri- toksik düyünlü ur Yer kürəsinin bütün regionlarında, eləcə də Azərbaycanda tez- tez rast gəlinən və yüksək artıma meyilliliyi olan xəstəlikdir**.** Bir qayda olaraq qeyri- toksik düyünlü ur olan xəstələrin böyük əksəriyyəti düyünün ölçüsü 1-3 sm olduqda həkim- endokrinoloqun "nəzər nöqtəsinə" düşür. Bu halda tireoid hormonları və ya yod preparatlarını təyin etmək "artıq gecdir", xəstəni əməliyyat etmək "hələ tezdir" [10,11,13,15]. Belə halda müalicə edən həkim hansı taktikanı seçməlidir? Passiv olaraq düyünün əməliyyat üçün "uyğun" ölçüyə qədər yetişməsinimi gözləməlidir? Bu halda ultrasəs müayinənin nəzarəti altında düyünün


böyüməsinin qarşısının alınması üçün azinvaziv metodlar alternativ müalicə ola bilər [8,9,14, 15,16]. Ona görə də hazırda ətraf parenximaya təsir göstərməyən, yəni xəstə üçün minimal invaziv olaraq düyün toxumasında lokal destruksiyaya nail olmağa imkan verən yeni metodların klinik praktikaya tətbiq olunması tələbatı qarşımızda durur.

Tədqiqatın **məqsədi** qeyri- toksik qarışıq quruluşlu düyünlü urun müalicəsində USM nəzarəti altında etanol destruksiya və lazer induksiyaedici termoterapiyanın yanaşı tətbiq metodikasının effektivliyinin öyrənilməsindən ibarətdir. Qeyri-toksik qarışıq quruluşlu düyünlü urun müalicəsində USM nəzarəti altında etanol destruksiya və lazer induksiyaedici termoterapiyanın yanaşı tətbiqi metodikasının fektliyinin qiymətləndirilməsi.


Tədqiqatın material və metodları. Tədqiqat işinə 2010-2015-ci illər ərzində müalicə alan qeyri-toksik qarışıq quruluşlu düyünlü ur olan 16 xəstə daxil edilmişdir. Onların müalicəsində minimal invaziv kombinəolunmuş istifadə olunmuşdur. Tədqiqat işinə Azərbaycan ərazisində yaşayan və uzun müddət həkim-endokrinoloqun nəzarəti altında olan qeyri-toksik qarışıq quruluşlu düyünlü urolan xəstələr daxil edilmişdir. Onların hamısı konservativ müalicə almışlar ki, o da effektiv verməmişdir. Çünki klinik və ultrasəs müayinələrin nəticələrində düyünün artması fiksə olunmuşdur. Minimal invaziv müalicəyə başlanmazdan əvvəl klinik müayinələr aparılmışdır. Buraya xəstəliyin anamnezinin öyrənilməsi, palpasiya və qalxanvari vəzinin ultrasəs müayinəsi daxil edilmişdir. Bütün xəstələrə nazik iynəli aspirasiya punksiya biopsiyası aparılmış, alınan materialın histoloji müayinədən keçirilmiş, tireoid hormonların səviyyəsi və hipofizin tireotrop hormonu təyin edilmişdir. Qalxanvari vəzidə bədxassəli törəmənin olduğunu göstərən klinik, ultrasəs və sitoloji əlamətlər olmadıqda müalicə üçün minimal invaziv metodikaların istifadə olunması haqqında qərar qəbul olunmuşdur. Xəstələrə bu növ müalicənin mahiyyəti, onun xüsusiyyətləri, çatışmazlıqları və nəzəri cəhətdən mümkün ağırlaşmalar izah olunmuşdur. Bundan sonra lazerlə müalicəyə könüllü infor- masiyaverici razılıqlarını imzalayırlar. Belə düyünlərir müalicəsi üçün tərəfimizdən kombinəolunmuş metodika təklif olunmuşdur, bu zaman kistoz komponentlər etanol inyeksiyaları, toxuma komponenti isə yüksək- intensivlikli lazer şüalanması ilə aradan qaldırı- lır. Bu metodika qalxanvari vəzidə müxtəlif quruluşlu qeyri- toksik düyünlü urun sklero- terapiya ilə mülaicəsinin nəticələrinin təhlilinə əsaslanmışdır. Bizim kilinikada yerinə yetirilən bu təqdiqatlar qalxanvari vəzidə kista və düyünlərin müalicəsində skleroterapiyanın yük- sək effektivliyində bərabər nəticələrin əldə olunmasına imkan vermişdir. 90% xəstədə törəmələri 80% azaltmaq mümkün olumuşdur. Kolloid quruluşlu düyünlərin müalicəsində skleroterapiya daha az effektivdir. Yalnız 50% xəstələrdə törəmənin həcmi 50% azlanmışdır. Digər tərəfdən kistoz düyünlərin lazer induksi-yaedici metodla müalicəsi cəhdləri zamanı biz kistoz ur olan 4 xəstədə müsbət nəticə əldə etmədik, onlarda lazertemiyadan 1 ay sonra törəmələrin azalması qeydə alınmamışdır.Ona görə də qarışıq quruluşlu düyünlər zamanı mayeli komponentin aradan qaldırılması üçün skleroterapiya, düyünün parenximasında des-truksiyanın aradan qaldırılması üçün lazertemiyanın tətbiq olunması əsaslandırıl-mışdır. Təklif edilən kombinə olunmuş müalicə metodikasının köməkliyi ilə qeyri-toksik düyünlü 16 xəstə müalicə olunmuşdur.

9 xəstədə kistoz komponentin aradan qal-dırılması üçün skleroterapiya LİTT-dən əvvəl birinci mərhələdə istifadə olunmuşdur. Bu düyünlərdə mayenin miqdarı 0,5-13,0 ml arasında tərəddüd etmişdir, toxuma komponenti ilə müqayisədə 18,2- 46,7 % arasında olmuşdur. Beləliklə, hər bir halda toxuma komponenti üstünlük təşkil etmişdir. 9 nəfərdə düyünün ümumi həcminin orta hesabla 2/3 - ¾-nü təşkil etmişdir (Şək. 1).

Şəkil 1-dən göründüyü kimi düyünlərin ilkin həcmi 1,5-55,0 sm^3 arasında tərəddüd edir, düyünlərin həcminin medianı 2,3 sm^3 azal-mışdır. Müalicənin birinci mərhələsindən sonra (skleroterapiya) düyünlərinin həcmin medianı-nın azalması 67,6% təşkil etmişdir. Sklerote-rapiyadan sonra minimal həcm 0,7 sm^3, maksimal həcmin 39,5 sm^3-a qədər dəyişmişdir. Beləliklə, skleroterapiyadan sonra düyünlərin mütləq azalması 0,1- 15,0 sm^3 arasınd tərəddüd etmiş, median 2,8 sm^3 təşkiletmişdir. Etanol ilə inyeksiyadan sonra düyünlərin həcminin orta nisbi azalması 40,2% təşkli etmişdir. Lazertermiyadan əvvəl orta həcmli düyünü olan xəstələrə hər düyünə 2 seans olmaqla 1-4 skleroterapiya seansı aparılmışdır.



Şək. 1. Qalxanvari vəzidə düyünün kombinə olunmuş müalicəsından əvvəl və sonra maye və toxuma komponentlərinin nisbəti



əvvəl sonra

Şək. 2. Skleroterapiya və lazer induksiyaedici termoterapiyadan sonra qarışıq quruluşlu düyünlərin həcminin azalmasının mütləq həddi




A **B** **C**

Şək. 3. Xəstə K- ın, 43 yaş qalxanvari vəzisinin sol payının ultrasonoqramı. A)düyün müalicəyə qədər, həcmi- 2,1 sm^3; B)skleroterapiya ilə 1 seans müalicədən sonra sonra maye komponenti yoxdur, düyünün həcmi-1,6 sm^3; C) müalicənin iknici mərhələsindən sonra (LİTT) düyünlü törəmə, düyünün həcmi 0,5 sm^3

Skleroterapiya ilə müalicənin birinci mərhələsinin müddəti seansların sayından asılı olmuş və 1-6 ay təşkil etmişdir. Birinci mərhələnin orta davametmə müddəti 2,4 ay olmuşdur. Kistoz komponent aradan qaldırıldıqdan sontam üalicənin ikinci mərhələsinə- LİTT-ə başlanmışdır. Prosedurlar standart sxem üzrə aparılmışdır. Hər xəstəyə orta gücü 2,73 Vt, təsir müddət və enerji mediarı 750 san və 2100 C olmaqla 1-3 seans lazer şüalanması aparılmışdır. İkinci mərhələdə müalicənin orta müddəti 2-3 ay təşkil etmişdir. LİTT-dən sonra

düyünlərin həcminin mediani 2-3 sm^3-dan 1,0 sm^3–a qədər olmuş, yəni 56,5% azalmışdır. LİTT-dən sonra düyünün həcminin mütləq azalma mediani 1,3 sm^3 təşkil etmişdir (Şək. 2). Beləliklə, iki mərhələli kombinə olunmuş müalicədən sonra orta hesabla 5 ay müddətində düyünlərin mediani 1,7 sm^3- dan 1,0 sm^3-a qədər dəyişmiş, yəni 86% azalmışdır. Müalicədən sonra uzun müddətli müşahidələr zamanı mayenin toplanması və ya düyünün artması qeydə alınmamışdır (Şək. 3). 6 xəstədə LİTT kursu zamanı və ondan sonra skleroterapiya aparılmışdır. Çünki düyünün toxuması fonunda maye formalaşmışdır. Bu fenomen onunla izah olunur ki, düyün toxumasının lazer destruksiyasında aseptik iltihab nəticəsində özünü göstərən qabarıq ekssudativ hallar zamanı mayenin sovrulması ləng baş verir. Bu halda aspirasiya düyünün maye tərkibindən başlanılır- bir dəfəyə 1-3 ml seroz- hemorragik ekssudat aradan qaldırılır. Bundan sonra 0,5- 2,0 ml dozada 96%-li etanol inyeksiyası aparılır. Bu prosedur düyünlərin həcminin LİTT- dən sonra 2,8-41,2% azaltmağa imkan vermişdir. Düyünlərinin həcminin azalmasının mütləq rəqəmləri 0,2-5,2 sm^3 , median 0,7 sm^3 təşkil etmişdir.

Bu qrupda hər xəstədə 2 müalicə metodundan istifadə olunduğu üçün biz skleroterapiya və lazer induksiyaedici müalicə zamanı vizual analoq şkalasının köməkliyi ilə ağrı sindromunun qabarıqlıq dərəcəsini ballarla qiymətləndirərək müqayisə etdik. Nəticələr aşağıdakı kimi olmuşdur. Skleroterapiya zamanı ağrı etanol yeridildiyi anda və punksiya iynəsi qalxanvari vəzinin toxumasından çıxarıldıqda baş vermişdir. Onun müddəti 10-70 saniyə arasında olumuşdur, ballarla intensivlik 35-95 bal arasında olmuş, ağrı sindromunun orta ağırlıq dərəcəsi 68 olmuşdur. Əksər xəstələr baş verən ağrıları çox güclü ağrılar kimi xarakterizə etmişlər və müqayisəli olaraq bu ağrıları təmiz yaraya yod məhlulu düşdükdə baş verən ağrılar və ya ilkin cərrahi işləmə zamanı baş verən ağrılara bənzətmişlər. Lazer induksiyaedici termoterapiya zamanı çox zaman ağrı müalicə başlandıqdan 1-2 dəqiqə sonra, qalxanvari vəzi kapsulu və onu əhatə edən toxuma qızdıqda baş vermiş və müddəti 5 saniyədən çox olmamışdır, çünki ağrı baş verdikdə biz ya lazeri söndürmüş, ya da işıqötürücüsünün dəstəyinin vəziyyətini dəyişmişdik. Ağrı sindromunun intensivliyi 10-50 bal arasında olmuşdur (orta hesabla 29 bal), bu zaman 5 xəstə öz hisslərini ağrı deyil, təzyiq hissləri kimi xarakterizə etmişlər. Qısa müddətli ağrılar keçirən elə həmin xəstələr onu ya zəif, ya da orta ağrılar kimi xarakterizə etmişlər (Şək.4).



Şək. 4. Minimal invaziv metodikalar zamanı ağrı sindromlarının intensivliyi: 1- skleroterapiya; 2-lazertemiya.

Beləliklə, etil spirti yeridildikdə xəstələr 2,3 dəfə çox güclü ağrılar keçirmişlər, ağrıların müddətin lazer induksiyaedici termoterapiyaya nisbətən 6 dəfə çox olmuşdur.

Alınan nəticələr və onların müzakirəsi. Qalxanvarı vəzidə qarışıq tipli düyünlərin kombinəolunmuş müalicə metodikasından sonra düyünlü törəmələrin həcmi 86% azalmışdır, belə düyünlərin müalicəsində yalnız sklerote0 rapiyadan istifadə olunduqda effekt daha az qabarıq- 65% olmuşdur. Xəstələr qrupunda prosedurlar zamanı ağrı sindromunun qabarıqlığı təhlil olunmuşdur, çünki burada minimal invaziv mülicəinin hər iki metodundan istifadə

olunmuşdur. Bu zaman müəyyən olunmuşdur ki, xəstələr lazer terapiyasını daha yaxşı keçirirlər, çünki onlarda ağrı sindromu daha az qabarıq olmuşdur. Bu onunla bağlıdır ki, LİTT zamanı düyündə işıqötürücüsünün dəstəyinə hər zaman nəzarət etmək mümkün olur və xoşagəlməz hisslər baş verdikdə işıqötürücüsünün dəstəyini çevirmək və ya lazeri söndürmək və ağrı sindromunu aradan qaldırmaq mümkündür. Etil spirti yeridildikdə xəstələr 2,3 dəfə daha güclü ağrı hiss etmişlər, ağrı lazer induksiya olunmuş termoterapiyaya nisbətən 6 dəfə uzun olmuşdur.

Nəticə: 1.Skleroterapiya və lazer induksiyaedici termoterapiyanın kombinəolunmuş müalicədən kistoz degenerasiyalı kolloid düyünlü ur zamanı istifadə etmək məqsədəuyğundur; 2.Lazer induksiyaedici termoterapiyadan istifadə olunduqdan sonra uzaq dörlərdə xəstələr dinamik nəzarətdə olmalıdırdar, bu zaman onlarda düyünün sonradan artması vaxtında müayinə olunmalı və bu halda təkrar müalicə kursu aparılmalıdır.

ƏDƏBİYYAT

1. Барсуков А.Н. Восьмилетний опыт чрезкожной склерозирующей терапии этанолом доброкачественных образований щитовидной железы / Современные аспекты хирургической эндокринологии: материалы одиннадцатого (тринадцатого) Рос. симпозиума с международным участием по хирургической эндокринологии. СПб., 2003, с.20-24.
2. Барсуков А.Н., Коноплев О.А., Чеботарёв Н.В. Методы лечения доброкачественных новообразований щитовидной железы / Современные аспекты хирургической эндокринологии: материалы IX (XI) Рос. симпозиума по хирур. эндокринологии. Челябинск, 2000, с. 52- 55
3. Барсуков А.Н., Коноплев О.А., Чеботарёв Н.В. Склерозирующая терапия доброкачественных новообразований щитовидной железы/Современные аспекты хирургической эндокринологии: материалы девятого (одиннадцатого) Рос. симпозиума по хирургической эндокринологии. Челябинск, 2000, с.46-50
4. Белоногов А.В. Лазерная и электрохирургическая реканализация злокачественных стенозов пищевода и кардии: Автореф. дис. ... канд. мед. наук. Иркутск, 2000, 24 с.
5. Бондаревский И.Я., Бордуновский В.Н.Использование высокоинтенсивного лазерного излучения при органосберегающем хирургическом лечении очаговых образований печени // Лазерная медицина, 2004, № 3, с.8-9
6. Бубнов А.Н., Кузьмичев А.С., Гринева Е.Н. Заболевания щитовидной железы. СПб., 2002, 107с.
7. Валдина Е.А. Заболевания щитовидной железы. СПб.: Питер, 2001, 416 с.
8. Antonelli A., Campatelli A., Di Vito A. Comparison between ethanol sclerotherapy and emptying with injection of saline in treatment of thyroid cysts // Clin.Investig., 1994,v.72,p.971-974.
9. Ashcraft M.W., Van Herle A.J. Management of thyroid nodules. I. History and physical examination, blood tests, x-ray tests, and ultrasonography // Head Neck Surg.1981, v.3, p.216-230.

Резюме

Результаты склеротерапии и лазертермии при паренхиматозных зобах не-токсической кистозной дегенерации в щитовидной железе

М.М.Мамедов, А.М.Алиев

Целью исследования явилось изучение эффективности совместного применения этанольной деструкции и лазерноиндуцированной термотерапии под наблюдением УЗИ у больных с паренхиматозным зобом не-токсической кистозной дегенерации в щитовидной железе. В исследование вошли 16 больных. По результатам исследования выяснилось, что совместное применение склеротерапии и лазерноиндуцированной термотерапии является целесообразным методов лечения при зобах коллоидного узла с кистозной дегенерацией.

Summary

The results of sclerotherapy and laser teeth when parenchymal non-toxic cystic degeneration of the thyroid gland

M.M.Mamedov, A.M.Aliyev

The aim of the study was to evaluate the effectiveness of the joint use of ethanol and laser-induced thermotherapy destruction under the supervision of ultrasonography in patients with parenchymal non-toxic goiter cystic degeneration of the thyroid gland. The study included 16 patients. The study

revealed that the combined use of laser-induced thermotherapy sclerotherapy and is appropriate treatment when the crops of colloidal assembly with cystic degeneration.

Daxil olub: 02.06.2015

UŞAQLARDA KƏSKİN RESPİRATOR İNFEKSIYALAR ZAMANI ANTİHOMOTOKSİK PREPARATLARIN TƏSİRİNİN MÜQAYİSƏLİ EFFEKTİVLİYİ

N.M. Hüseynova, R.T. Nəzərova, Y.K. Rüstəmova, X.Ə. Əhmədzadə, N.V.Əzizov
Azərbaycan Tibb Universiteti

Açar sözlər: immun sistem, interferonogen preparatlar, antihomotoksik preparatlar
Ключевые слова: иммунная система, интерфероногенные препараты, антигимотоксичные препараты
Keywords: immune system interferonogen preparations, antihomotoxic drugs

Ümumi xəstəliklərin struktur quruluşuna fikir verdikdə, uşaqlar arasında əsas yeri yuxarı tənəffüs yollarının xəstəlikləri tutur. Bunların içərisində kəskin respirator virus infeksiyalarına daha tez-tez rast gəlinir. Bununla yanaşı KRİ ümumi infeksiyaların 90% ni təşkil etdiyi halda, 1-2 yaşlı uşaqlar arasında umumi patologiyanın 60% təşkil edir [1,2]. Kəskin respirator infeksiyalar daha çox məktəbəqədər uşaq müəssisələrinə gedən uşaqlarda rastgəlinir [1,4]. Beləki KRİ nın maksimal rast gəlmə tezliyi məktəbə gədər yaslı dovr uşaqlarda daha çoxluq təşkil edir. Bu uşaqlar il ərzində 6-10 dəfə KRİ yoluxurlar. Bu isə uşaq orqanizminin ümumi funksional vəziyyətindən və xüsusilə də immun sistemindən asılıdır. Uşaqlarda interferonun əmələ gəlməsinin və aktivliyinin aşağı səviyyədə olması virus əleyhinə müdafiəni zəiflədir [2]. Uşaqlarda həyatın ilk illərində faqositoz aktifliyi yuksək olmasına baxmayaraq, faqositoz tam formalaşmamışdır. Bugunkü gündə KRİ müxtəlif patogenliyə malik olan virus və bakteriyalar törətdiyinə gorə onların mualicə metodları tam olaraq öyrənilməmişdir. Bir neçə on illiklərdir ki, uşaqlarda respirator xəstəliklərin müalicə və profilaktikasında universal virus əleyhinə təsir mexanizminə malik olan interferon preparatlarından istifadə olunur.İnterferonun orqanizm hüceyrələrinə təsiri nəticəsində virus zulalını tormozlayan və virus RNT nı məhv edən xususi fermentlər ifraz edilir. İnterferon huceyrə membranının topo-qrafiyasını dəyişərək, virusun hüceyrə qişasına yapışmasına və bununlada huceyreye daxil olmaga mane olur.

Interferon preparatları təbii (insan leykositar interferonuna) və rekonbina olunmuş (viferon, qripferon) olurlar. Interferon induktorlarına amiksin, arbidol və sikloferon kimi sintetik birləşmələr aiddir.Bu preparatın seçilməsində yaş həddi nəzərə alınmalıdır.Anaferon 6 aydan uşaqlara təyin olunduğu halda, arbidol isə 2 yaşdan təyin olunur.Beləki amiksin və sikloferon daha kəskin yaş həddlərinə malikdir: sikloferon 4 yaşdan yuxarı, amiksin isə 6 yaşdan yuxarı təyin olunur [5]. Əsasən qeyd etmək lazımdır ki, maksimal terapeftik effect bu preparatları xəstəliyin ilk saatlarında təyin edildikdə olur.

Sözsuz ki, sintetik immun stimulyatorlar immun sisteminə güclü, effektiv təsir göstərir. Ancaq bu preparatların istifadə olunması, uşaqlarda klinik muayinə aparılması nəticəsində ayird olunan disfunksiyanın tipi, immun sistemin vəziyyəti və klinik-immunoloji gostərişlərə əsasən olunmalıdır. Məşhur uşaq immunoloqu professor M.N Yarçeva görə etiraf etmək lazımdır ki, immunokorreqə olunmuş preparatların seçilməsi, tez-tez xəstələnən uşaqların klinik immunoloji müayinəsinə əsaslanmalı olduğu halda, bugun bunu etmək mumkün deyil". Bu grup pasientlərə eləcə də erkən yaşli uşaglara elə preparatlar təyin etmək lazimdır ki əlavə immunoloji müayinəyə ehtiyac olmasın və həmçinin farmakoloji immunokor-reksiyanın mümkünlüyünə imkan versin. Bu tip preparatlara Almaniyanın HELL kompaniya-sının antihomotoksik preparatları Engistol və Euphorbium compositum aiddirlər.

Bu preparatlar xəstəliyin erkən stadiyalarında təyin edildikdə nəinki müalicəvi effekt, həm də profilaktik təsir göstərirlər. Antihomotoksik preparatlar ziyanlı maddələri orqanizmdən təbii yolla tez xaric olmasını həyata kecirirlər, toksik və allergic deyillər.Adları çəkilən preparatlar mübadilə prosesslərini normallaşdırır, immun sistemin işini aktivləşdirir və requlyə edir və orqanizmə mənfi təsir göstərmirlər.

Bizim işimizin məqsədi interferonogen və antihomotoxik preparatların kəskin respirator xəstəliklərin gedişatına müqayisəli təsirini öyrənmək idi.

Bir yaşdan on yaşa qədər 86 uşaq AXDG QSC-nin uşaq poliklinikasinda ambulator şəraitdə bizim müşahidəmiz altinda kəskin respirator infeksiyalardan müalicə almışdır. Bunlardan I qrupa aid uşaqlar (n=28) interferonogen preparatlarla yanaşı standart müalicə, II qrup (n=33) standart müalicə ilə yanaşı antihomotoksik preparatlar və control qrup (n=25) yalnız standart terapiya almışdır. II qrup xəstələrə Enqistol (həb) və Euphorbium compositum (sprey) preparatları istifadə etmişik.


Enqistol həm kəskin, həm də xroniki xəstəliklərdə virusun eliminasiyasına yönələn immun sistemin mexanizmini aktivləşdirir. Bu zaman qaraciyərə birbaşa olaraq virostatik və toksiki təsir göstərmir. Enqistolun terapevtik effekti aşağdakılara əsaslanır. Vinsetoksinin və asklep turşusunun damarlara və simpatik sinir sisteminə təsir edir.Sulfur orqanizmin pozulmuş ferment strukturunu bərpa edir və mübarizə qabiliyyətini artırır.

Bu preparatın həb forması II qrup xəstələrə 7 gün ərzində təyin edilib. Xəstəliyin ilk 3 günündə gündə 6 dəfə təyin olunduğu halda, sonrakı günlər gündə 3 dəfə təyin edilmişdir. 3 yaşa qədər uşaqlara ½ həb toz halında, az miqdarda suda həll etməklə, 3 yaşdan böyük uşaqlara isə 1 həb sublinqval yeməkdən 20-30 dəq qabaq və ya 1 saat sonra təyin olunub.


Cədvəl 1

KRİ xəstəliklərinin bal şkalsı ürə qiymətləndirilməsi


Simptomlar	0 bal	1 bal	2 bal	3 bal
Ümumi vəziyyət	Yaxşıdır	Kafidir	Pisdir	Çox pisdir
Hərarət	Yoxdur	37.5-3 qədər	37.6-38.5	38.5 və çox
Burun tutulması	Yoxdur	Az miqdarda	Çox miqdarda	Daimi
Öskürək	yoxdur	Az miqdar	Zəif	Çox miqdarda



Şək.1.I qrup uşaqlarda xəstəliyin simptomlarının dinamikası (n=28)



Şək.2. II qrup uşaqlarda xəstəliyin simptomlarının dinamikası (n=33)



Şək.3. Kontrol qrupa aid uşaqlarda xəstəliyin simptomlarının dinamikası (n=25).

Cədvəl 2
Xəstələrdə simptomların davam etmə müddəti(sutka)

Simptomlar	I (n=28)	II (n=33)	III (n=25)
Tempratur reaksiyası	3,5	3,6	4,2
Rinit	4,3	4,4	5,4
Öskürək	6,8	6,2	8,1
İştahanın itməsi ürəkbulanma	2,7	2,8	3,5

Euphorbium compositum preparatının tərkibi aprobasiya olunmuş dərman bitkilərinin kombinasiyasından ibarətdir və farmakoloji xüsusiyyətlərinə görə iltihab, virus və allergiya əleyhinədir [6]. Bu preparat II qrup uşaqlara nasal sprey formasında təyin edilmişdir. 6 yaşa qədər uşaqlara gün ərzində 1 doza 3-4 dəfə, 6 yaşdan yuxarı 1-2 doza 3-4 dəfə hər burun deşiyinə fısqırdılmaqla təyin edilmişdir.

2 saylı cədvəldən görünür ki tempratur reaksiya I qrupda orta hesabla 3.5 sutka, II qrupda 3.6, kontrol qrupda 4.2 sutka. Rinit I qrupda 4.3 sutka, II qrupda 4.4 sutka kontrol 5.4 sutka. Öskürək I qrupda 6.8 sutka, II qrupda 6.2 sutka, kontrol qrupda 8.1 sutka, iştahanın itməsi, ürəkbulanma I qrup uşaqlarda 2.8 sutka, II qrupda 2.8, III qrupda isə 3.5 sutka davam etmişdir. Beləliklə kəskin respirator infeksiya simtomları kontrol qrupda daha uzun müddətli olublar. I və II qruplarda simptomların davamlılığı biri birindən cuzi fərqlənirdi.

1 və 2 sayli cədvəllərdən görünür ki,control qrupa aid xəstə uşaqlarda kəskin respirator infeksiyalari müşayət edən simptomlar daha uzun müddətli və qabarıq idi. I və II-cü qrup xəstələrdə KRİ simptomlarının davam etmə müddəti biri birindən az fərqlənir. Bu faktlar və antihomotoxik preparatların yüksək effektivliyi və təhlukəsizliyi bu preparatların bütün yaş uşaqlara uzun müddət təyin etməsini mümkün edir.

ƏDƏBİYYAT

1.Guaithey İ.M., Rhinoviruses. Vitral İnfections of Humans: Epidemiology and Control. 4th ed Evans A.S.,Kaslow R.A.,eds New York: NY Plenum Press, 1997, p. 815-38

2.Рейзерс А.Р. Возрастные особенности реактивности детского организма. В кн.„Инфекционные болезни в поликлинической практике. СПб: Гиппократ, 1993, с.228-231

3.Зайцев А.А. Лечение острых респираторных вирусных инфекций // Лечащий врач, 2008, №8, с.10

4.Кладова О.В., Замахина Е.В., Учайкин В.Ф. Иммунокоррегирующая терапия при ОРЗ // Практика педиатра, 2006, №12, с.8-11.

5.Государственный реестр лекарственных средств. М.:МЗиСР РФ (интернет-версия www. drugreg.ru ,обновление 2006)

6.Appendino G,Szallasi A Euphorbium: modern research on its active principl, resiniferatoxin, revives an ancient medicine. Life Sci 1997

Резюме

Сравнительная эффективность влияний антигомотоксических препаратов у детей при острых респираторных инфекциях

Н.М.Гусейнов, Р.Т. Назаров, Я.К.Рустамова, Г.А.Ахмедзаде, Н.В.Азизов

Целью нашей работы было сравнение действия интерфероногенных и антигомотоксических противовирусных препаратов компании HEEL. Под нашим наблюдением находилось 86 детей в возрасте от 1 до 10 лет с ОРИ. В I группе детей (n =28) наряду со стандартной терапией применяли интерфероногенные препараты. Во II группе больных(n =33) наряду со стандартной терапией применялись антигомотоксические препараты: Engistol и Euphorbium compositum. Было выявлено,что симптомы болезни у детей контрольной группы были более продолжительными и выраженными, чем у детей I и II групп.Но симптомы заболевания I и II групп детей мало отличались друг от друга. Таким образом, проти- вовирусные антигомотоксические препараты могут быть рекомендованы в комплексном лечении детей с ОРИ.

Summary

Comparative efficacy effects of antihomotoxic drugs in children with acute respiratory infections

N.M.Huseynov, R.T. Nazarov, Y.K.Rustamova, G.A.Ahmedzade, N.V.Azizov

The aim of our work was to compare deystviya interferonogenic and antihomotoxic antivirals company HEEL.Pod We observed 86 children aged 1 to 10 years with ARI. In the I group of children (n=28) in addition to standard therapy used interferonogenous drugs. In group II patients (n=33) in addition to standard therapy used antihomotoxic medications: Engistol and Euphorbium compositum. It was found that the symptoms of the disease in the control group were longer and more pronounced than in children I and II group. No symptoms groups I and II children were little different from each other. Thus, antiviral antihomotoxic medications may be recommended in treatment of children with ARI.

Daxil olub: 15.04.2015

I TIP VƏ II TIP ŞƏKƏRLİ DİABET ZAMANI KARBOHIDRAT MÜBADILƏSININ KOMPENSASIYASININ MEYARLARI

G.Ə. Vəliyeva

Respublika Endokrinoloji Mərkəzi

Açar sözlər: I tip şəkərli diabet, II tip şəkərli diabet, karbohidratlar mübadiləsi, kompensasiya

***Ключевые слова*:** сахарный диабет I типа, сахарный диабет II типа, обмен углеводов, компенсация

Key words: type I diabetes, type II diabetes, carbohydrate metabolism, compensation

Bütün dünyada şəkərli diabet (ŞD) ilə xəstələnmənin artması real təhlükə təşkil edir. Bu vəziyyət ona səbəb olmuşdur ki, Ümumdünya Səhiyyə Təşkilatı ilk dəfə xronik degenerativ xəstəliyə dair «epidemiya» terminini istifadə etmişdir [1,2,3]. Son 30 il ərzində ŞD ilə xəstələnmənin kəskin artması nəzərə çarpmışdır, xüsusilə sənayesi inkişaf etmiş ölkələrdə – orada bu xəstəliyin yayılması səviyyəsi müasir dövrdə 5-6% təşkil edir və getdikcə artma meylinə (ilk növbədə 40 yaşdan yuxarı yaş qruplarında) malikdir [4,5,6].

ŞD-nin yüksək sosial əhəmiyyəti ondadır ki, o, erkən əlilliyə və letallığın artmasına gətrib çıxarır ki, bu da diabetin gecikmiş ağırlaşmalarının olması ilə şərtlənmişdir. ŞD-nin və onun bəzi ağırlaşmalarının, məsələn, makro- və mikroangiopatiyalar, neyropatiyaların inkişaf patogenezi çoxamilli proses sayılır və metabolizmin, immunitetin, hemostazın və digər inteqrativ sistemlərin genetik şərtlənmiş vəziyyətləri, həmçinin mühit amillərinin təsiri ilə müəyyən edilir [7].


Tədqiqatın məqsədi I tip və II tip ŞD ilə xəstələrdə karbohidrat mübadiləsinin kompensasiya meyarları nəzərə alınmaqla xarakteristikasını aşkar etməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq 2009-2015-ci illər ərzində işlənib hazırlanmış klinik-laborator meyarların əsasında ŞD ilə 156 xəstə müayinə olunmuşdur. Onlardan I tip ŞD ilə 99 xəstə (63,0%) 33,2±1,6 yaşda olmuş, xəstəliyin davametmə müddəti 15 ilə qədər olmuş və I qrupu təşkil etmiş, II tip ŞD ilə 57 xəstə (37,0%) 46,4 ±1,5 yaşda olmuş, xəstəliyin müddəti 15 ilə qədər olmuş və II qrupu təşkil etmişlər. Kontrol qrupu bir-biri ilə yaşa və cinsə görə müqayisə olunan 42 sağlam şəxs təşkil etmişdir ki, onların ətraflı müayinəsi daxili orqanların vəziyyətinə təsir göstərən hər hansı gözə çarpan dəyişiklikləri istisna etməyə imkan vermişdir.

Tədqiqata qoşulan xəstələrin hamısında əvvəldə və 12 həftədən sonra müayinə aparılmışdır: qanda qlükozanın dinamikası (laborator və özünənəzarət məlumatlarına əsasən), qanın ümumi müayinəsi, sidiyin ümumi müayinəsi, EKQ, qanın biokimyəvi müayinəsi, qaraciyərin ultrasəs müayinəsi. Flüoqrafiyanın nəticələri və endokrinoloq, qastroenteroloq, nevroloq, oftalmoloq, kardioloq, ginekoloq (qadınlar üçün) tərə-findən verilən məsləhətlərin məlumatları qeydə alınmışdır.USM metodu qaraciyərin və öd kisəsinin EXO-mənzərəsinin öyrənilməsi məqsədilə istifadə edilmişdir. Qaraciyərin müayinəsi zamanı aşağıdakılar öyrənilmişdir: sağ və sol payların ölçüləri və qalınlığı, onların sərhədləri, kənarları, exostrukturu, exogenliyi, qaraciyərdaxili və qaraciyərxarici öd axarlarının, venaların vəziyyəti, damar şəkli. Öd kisəsinin tədqiqi zamanı həmçinin öyrənilmişdir: ümumi öd axarlarının ölçüləri, eni, divarının qalınlığı, forması, öd kisəsinin möhtəviyyatı. Əldə olunan nəticələrin statistik işlənməsi Microsoft Excel 2007 kompüter proqramının köməyi ilə həyata keçirilmişdir. İki tip göstəriciləri müqayisəli təhlil etdikdə Styudent dürüstlük meyarından istifadə edilmişdir. $p<0,05$ olduqda fərqlər etibarlı hesab edilmişir.

Tədqiqatın nəticələri və müzakirəsi. Karbohidrat mübadiləsinin kompensasiyasının qiymətləndirilməsi zamanı I tip ŞD ilə 18 (18,0±3,7%) xəstədə kompensasiya fazası, 76 (76,0±4,2%) xəstədə subkompensasiya fazası müşahidə edilmiş, I tip ŞD zamanı 6 (6,0±2,2%; χ^2=4,20; p=0,040) xəstədə dekompensiya fazası qeydə alınmışdır. II tip ŞD ilə 11 (20,0±5,2%; χ^2=3,90; p=0,048) xəstədə kompensasiya fazası, 46 (80,0±5,2%; χ^2=4,8; p=0,042) xəstədə subkompensasiya fazası müşahidə edilmiş, dekompensiya fazası isə aşkar edilməmişdir (Şəkil).

Karbohidrat mübadiləsinin kompensasiya fazası haqqında fikir söyləmək üçün qlikolizləşmiş hemoqlobinin (HbA1c) %-lə səviyyəsi müayinə olunmuşdur. ŞD-nin kompensasiya dərəcəsinə görə xəstələrin əksəriyyəti subkompensasiya mərhələsində olmuşlar ki, bu da qlikolizləşmiş hemoqlobinin (HbA1c) yüksək qiymətləri (6,6%-dən 7,5 %-ə qədər) ilə təsdiq edilmişdir (Cədvəl 1).



Şək. I tip və II tip ŞD ilə xəstələrdə karbohidrat mübadiləsinin kompensasiya meyarları nəzərə alınmaqla xarakteristikası.

Bədən çəkisi əmsalı (BÇƏ) I tip ŞD ilə xəstələrdə orta hesabla 23,4±1,6 kq/m^2 təşkil etmiş və sağlam şəxslər qrupundan (22,4±0,8 kq/m^2) dürüst fərqlənməmişdir ($p>0,05$). II tip ŞD ilə xəstələrdə BÇƏ 28,5±1,8 kq/m^2 təşkil etmişdir ki, bu da sağlam şəxslər qrupundakı

oxşar göstəricinin qiymətlərindən dürüst yüksək olmuşdur (p<0,01). 70,0±3,6%-dən çox xəstələrdə bu xəstəliyin gecikmiş ağırlaşmaları vardır. Belə ki, diabetik senso- motor neyropatiya I tip ŞD ilə 81 xəstədə (81,0±3,8%; χ^2=9,97; p<0,01) və II tip ŞD ilə 39 (68,0±6,2% ; χ^2=11,34; p<0,001) xəstədə aşkar edilmişdir.

Qeyri-proliferativ retinopatiya I tip ŞD ilə 42 (42,0 ±4,8%) xəstədə və II tip ŞD ilə 16 (28,0±5,9%) xəstədə aşkar edilmişdir. Preproliferativönü retinopatiya isə I tip ŞD ilə 17,0±3,7% (t=3,52, p<0,001) xəstədə və II tip ŞD ilə 9 xəstədə (15,0±4,6%; t=6,88, p<0,001) müşahidə edilmişdir. Proliferativ retinopatiya II tip ŞD ilə xəstələrdə tək-tək halarda (2,0%) aşkar edilmişdir. Diabetik nefropatiya ŞD ilə xəstələrdə çox vaxt mikroalbuminuriya mərhələsində aşkar edilmişdir: I tip ŞD ilə 28 (28,0±4,8% ; t=2,75, p<0,001) xəstədə, II tip ŞD ilə 19 (33,0±6,1%; t=1,74, p>0,05) xəstədə. Proteinuriya mərhələsi yalnız I tip ŞD ilə 22 (22,0±4,1%) xəstədə (böyrəklərin funksiyası saxlanmış) aşkar edilmişdir. Arterial təzyiqin yüksəlməsi I tip ŞD ilə 17 (17,0±3,7%) xəstədə və II tip ŞD ilə 9 (15,0±4,6%) xəstədə aşkar edilmişdir (cədvəl 2).

Cədvəl 1

I tip və II tip ŞD zamanı karbohidrat mübadiləsinin kompensasiyasının meyarları

Göstərici	kompensasiya	subkompensasiya	dekompensasiya
	I tip ŞD		
HbA1c	<6,1	6,6 – 7,5	>7,5
I tip ŞD ilə xəstələr (n=99)	18,0±3,7%	76,0±4,2%	6,0±2,2%
	II tip ŞD		
HbA1c	6,0-6,5	6,6-7,0	>7,0
II tip ŞD ilə xəstələr (n=57)	20,0±5,2%	80,0±5,2%	0

Cədvəl

ŞD ilə xəstələr qrupunun klinik-laborator xarakteristikası

Öyrənilən parametrlər	I tip ŞD (n=99)		II tip ŞD (n=57)	
	Müt.	%	Müt.	%
ŞD-nin davametmə müddəti (il)		11,4	6,5	
Yaş (il)		33,2±1,6	46,4 ±1,5	
Bədən çəkisi əmsalı (kq/m^2)		23,4	28,5	
ŞD-nin kompensasiya dərəcəsi: Kompensə olunmuş	18	18,0±3,7	11	20,0±5,2
Subkompensə olunmuş	76	76,0±4,2	46	80,0±5,2
Dekompensə olunmuş	6	6,0±2,2	-	-
Sensomotor neyropatiya	81	81,0±3,8	39	68,0±6,2
Qeyri-proliferativ retinopatiya	42	42,0±4,8	16	28,0±5,9
Proliferativ retinopatiya	2	2,0	-	-
Proliferativönü retinopatiya	17	17,0±3,7	9	15,0±4,6
Proteinuriya	22	22,0±4,1	-	-
Mikroalbuminuriya	28	28,0±4,4	19	33,0±6,2
Qlikemiya acqarına (mmol/l)		9,9	8,8	
Qlükozuriya (%)		0,8	0,9	
AT sistolik (mm c.süt.)		123,8±5,2	146,5±8,1	
AT diastolik (mm c.süt.)		81,4±3,8	86,6±4,6	
ŞD-nin labil gedişi	9	9,0±2,8	-	-
ŞD-nin stabil gedişi	91	91,0±2,8	57	100
Ümumi xolesterin (mmol/l)		6,7	5,4	
Triqliseridlər		2.26	2,79	
YSLP (mmol/l)		0,96	0,78	
ASLP (mmol/l)		4,23	4,65	

I tip ŞD ilə xəstələrin hamısında ümumi xolesterinin səviyyəsi II tip ŞD ilə xəstələr qrupunun göstəricilərindən yüksək olmuşdur ($p<0,01$). Hipertriqliseridemiya ŞD ilə xəstələrin hamısında müşahidə edilmişdir, lakin daha yüksək göstəricilər II tip ŞD ilə xəstələrdə dürüst nəzərə çarpmışdır ($p<0,01$). II tip ŞD ilə xəstələrin hamısında ASLP I tip ŞD ilə xəstələrin göstəricilərindən dürüst yüksək olmuşdur ($p<0,01$). YSLP göstəriciləri I tip ŞD ilə xəstələrin yarısından çoxunda və II tip ŞD ilə xəstələrin, demək olar ki, hamısında hər iki müqayisə qruplarında normadan aşağı olmuşdur ($p<0,01$). ŞD-nin labil gedişi I tip ŞD 9,0±2,8% xəstədə rast gəlmişdir. ŞD-nin stabil gedişi çox vaxt II tip ŞD ilə xəstələrdə qeydə alınmış, lakin həm 1-ci, həm də 2-ci qrupda olmuşdur (müvafiq olaraq 91,0±2,8% və 100 %).

ŞD ilə xəstələrdə öd-ifrazı yollarının ümumi vəziyyətinin qiymətləndirilməsi məqsədilə kompleks USM aparılmışdır ki, bunun nəticəsində öd kisəsinin həcm ölçülərinin təyin olunmasına, xronik xolesistitin səciyyəvi əlamətlərinin olmasına: öd kisəsinin divarlarının bərkiməsinə və qalınlaşmasına, sonradan onun deformasiyasına, boşluqdakı möhtəviyyatın qeyri-həmcins olmasına xüsusi diqqət verilmişdir. Beləliklə, öd kisəsinin USM məlumatlarının təhlili şəkərli diabet ilə xəstələrdə öd-çıxarıcı yolların vəziyyəti haqqında mövcud təsəvvürləri tamamlamağa və təsdiq etməyə imkan verdi. I tip ŞD ilə xəstələr qrupunda 15,0% halda öd kisəsinin deformasiyası aşkar edilmiş və bu, xəstəliyin 5 ildən artıq davam etməsi zamanı (b, c yarımqrupu) müşahidə edilmişdir. II tip ŞD ilə xəstədə öd kisəsinin deformasiyası 38,0% xəstədə aşkar edilmiş və diabetin davametmə müddətindən asılı deyildir. Öd kisəsinin müxtəlif deformasiyaları, görünür ki, öd yollarında xronik iltihabi prosesin nəticəsi sayılır.

ƏDƏBİYYAT

1. Дедов И.И. Сахарный диабет в Российской Федерации: проблемы и пути решения // Сахарный диабет, 2007, №1, с.7 -18
2. Зимин Ю.В. Происхождение, диагностическая концепция и клиническое значение синдрома инсулинорезистентности или метаболического синдрома X // Кардиология, 2007, № 6, с.71-81
3. Маслова О.В. Эпидемиология сахарного диабета и микрососудистых осложнений // Сахарный диабет, 2011, № 3, с.6-11.
4. Мохорт Т.В. Гипогликемии и сахарный диабет 2 типа: влияние на прогноз // Медицинские новости, 2011, № 3, с.30-35.
5. Amos A.F. The rising global burden of diabetes and its complications: estimates and projections to the year 2010 // Diabet Med., 2007, v.25, p. 14
6. Kozak G.P. Diabetic Coma. In GP Kozak, Clinical Diabetes Mellitus. Philadelphia: Saunders, 2009, v.12, p. 109
7. Zimmet P.Z. The global epidemiology of non-insulin-dependent diabetes mellitus and the metabolic syndrome //Diabetes Complications., 2007, v.35, p.11-60

Резюме

Критерии компенсации углеводного обмена при сахарном диабете I и II типов

Г.А.Велиева

Проведенными исследованиями установлено, что легкая степень тяжести выявлено только у 12 больных (7,0±2,0%) с сахарным диабетом (СД) II типа. У 81 (51,0±4,0%) выявлена средняя степень тяжести у СД I типа и у 45 (30,0±3,6%) при СД II типа; тяжелая степень течения заболевания у 18 (12,0±2,4%) больных при СД I типа и больных при СД II типа тяжелой степени не выявлено. С целью оценки компенсации углеводного обмена у 18 (18,0±3,7%) пациентов с СД I типа наблюдалось фаза компенсации, фаза субкомпенсации 76 (76,0±4,2%) и декомпенсированы - 6 (6,0±2,2%) больных при СД I типа. У 11 (20,0±5,2%) больных СД II типа наблюдалось фаза в стадии компенсации, фаза в стадии субкомпенсации у 46 (80,0±5,2%) и фаза декомпенсации не выявлено. Определение в % уровня гликозилированного гемоглобина использовался для определения фазы стадии компенсации углеводного обмена. По степени компенсации СД большинство пациентов находились в стадии субкомпенсации, отмечались повышенные значения гликозилированного гемоглобина (в среднем от 6,6 до 7,5 %). Определение индекса массы тела при СД I типа в среднем показал значения – 23,4 ±1,6 кг/м^2 и при этом не отличался от лиц контрольной группы (22,4±0,8 кг/м^2), ($p>0,05$). У больных СД II типа индекс массы тела составил - 28,5 ±1,8 кг/м^2 .

Summary

Criteria for glycemic control in diabetes mellitus type I and II

G.A.Valiyeva

Research evidence that mild found only in 12 patients (7,0±2,0%) with diabetes mellitus (DM) II type. In 81 (51,0±4,0%) revealed moderate in type I diabetes and 45 (30,0±3,6%) in diabetes type II; severe degree of the disease in 18 (12,0±2,4%) patients with type I diabetes and patients with type II diabetes have been identified severe. In order to evaluate compensation of carbohydrate metabolism in 18 (18,0±3,7%) patients with diabetes type I observed phase compensation, phase subcompensation 76 (76,0±4,2%) and decompensated- 6 (6,0±2,2%) of patients with type I diabetes. In 11 (20,0±5,2%) of patients with type II diabetes were observed in the stage of phase compensation, the phase in progress subcompensation 46 (80,0±5,2%) and the phase of decompensation were found. Determination in% of the level of glycosylated hemoglobin used to determine phase compensation stage of carbohydrate metabolism. By the degree of compensation of diabetes, most patients were under subcompensation, observed increased values of glycated hemoglobin (an average of 6,6 to 7,5%). Determination of the body mass index in diabetes type I showed the average value - 23,4±1,6 kg/m^2 and it does not differ from the control group (22,4±0,8 kg/m^2) (p>0, 05). Patients with type II diabetes the body mass index amounted to - 28,5±1,8 kg /m^2.

Daxil olub: 14.05.2015

BAKI ŞƏHƏRİNDƏ HAMİLƏ QADINLAR ARASINDA KAMPİLOBAKTERİOZLARIN XARAKTERİSTİKASI

S.İ.Şirəliyeva

Akad.M.Mirqasımov ad. Respublika Klinik Xəstəxanası

Açar sözlər: hamilə qadınlar, kampilobkterioz, gedişatı, xarakteristikası

***Ключевые слова*:** беременные женщины, кампилобактериоз, течение, характеристика

Key words: pregnant women, campylobacteriosis, for a characteristic

Müəyyən edilmişdir ki, son illər ərzində kampilobakterioz ilə xəstələnmə nəinki yüksəkdir, həmçinin sürətlə artma meylinə malikdir [1,2,3]. Bakterial zoonoz ocaqlarının praktik olaraq hər yerdə yayılması, həmçinin təbii rezervuarların müxtəlif növ spektri onların lokal ləğvini və xüsusilə də kökünün tam kəsilməsi imkanını istisna edir, yalnız hər hansı regionda bu patologiya ilə xəstələnmənin azaldılması üzrə proqramların yerinə yetirilməsini nəzərdə tutur [4,5,6].

Kampilobakteriozların müasir gedişi bəzi dəyişikliklərə məruz qalmış və klinik simptomların dəyişkənliyi ilə səciyyələnir [7]. Buradan proqresiv şəkildə sosial-iqtisadi əhəmiyyət təşkil edən həmin infeksiyanın epidemiologiyasının əsas məsələlərinin öyrənilməsinin vacibliyi özünü göstərir ki, bu da tədqiqatlarımızın məhz bu istiqamətdə aparılmasını müəyyən etmişdir.

Tədqiqatın material və metodları. Bizim elmi işdə qarşımıza qoyduğumuz məqsədə nail olmaq üçün hazırlanmış klinik-laborator meyarların əsasında 2009-cu ildən 2015-ci ilə qədər davam edən müddətdə kampilobakterioz ilə xəstə və hamiləliyin 16-40-cı həftəsində olan 114 qadın müayinə edilmişdir ki, onlar da Respublika Klinik Xəstəxanasının bazasında müşahidə altında saxlanmışlar. Kontrol kimi 50 sağlam qadın iştirak etmişdir. Müayinə materia= lının bakterioloji əkmələri yarımmaye aqarda və 5%-li fermentativ hidrolizin əlavə edilməklə bərk selektiv mühitlərdə aparılmışdır. Əgər müayinə materialının həmin an selektiv mühitə əkilməsi mümkün deyildirsə, onu saxlama mühitinə: tioqlikol bulyonu və ya içərisində reduksiya edən maddələr (natrium tioqlikolat və sistein) olan qələvi peptonlu suya yerləşdirmişlər. Nativ material 40^oC temperaturda konservantda saxlanmışdır. Kampilobakteriyaları selektiv mühitlərdə becərdikdə anaerostatlardan istifadə edilmişdir ki, onlar inkubasiya mühitində oksigenin aşağı miqdarda (5-10%) saxlanmasını təmin edir. Campylobacter izolyatların seroloji xüsusiyyətləri aqqlütinasiya reaksiyası (AR) və koaqqütinasiya reaksiyasında (KOAR) öyrənilmişdir.

Fetoplasentar kompleksin (FPK) vəziyyəti instrumental müayinə metodlarının vasitəsilə öyrənilmişdir ki, buraya kompleks ultrasəs müayinəsi (plasentoqrafiya, fetometriya, dölün daxili orqanlarının inkişaf etməsi və dölyanı

suların miqdarının qiymətləndirilməsi), göbək ciyəsi (GC) arteriyasında, uşaqlıq arteriyalarında (UA), dölün venoz dövranında (DV) və orta beyin arteriyasında (OBA) qan axınının dopplerometrik müayinəsi daxildir. Müayinənin gedişində USM-nin müxtəlif funksiyalarından istifadə edilmişdir: ciftin, göbək ciyəsinin 2D-skanlaması, 3D/4D skanlaması, FPK-nin qan dövranının qiymətləndirilməsi üçün spektral doppleroqrafiya tətbiq edilmişdir.

Müayinənin nəticələri aşağıdakı biometrik metodlarla işlənmişdir: orta riyazi xəta, χ^2-meyarı.

Nəticələr və onların müzakirəsi. Reproduktiv yaşlı qadınlar arasında kampilobakteriozun geniş yayılmasının səbəblərindən biri dünyanın bir çox ölkələrində onun törədicilərinin epidemioloji xüsusiyyətlərinin kafi dərəcədə öyrənilməməsi hesab edilir ki, bu da xəstəliyin profilaktikası üzrə radikal tədbirlərin hazırlanmasını və həyata keçirilməsini məhdudlaşdırır. Hamilə qadınların kampilobakteriozla yoluxmasının strukturunda aşağıdakı qanunauyğunluqlar aşkar edilmişdir. Hamilə qadınların kampilobakteriozla yoluxması səviyyəsi kifayət qədər yüksək olmuşdur – orta hesabla 65,0±3,6% ki, bu da hamiləliyin gedişinə və ilk növbədə onun vaxtındanəvvəl baş verməsinə, əlverişsiz nəticələnməsinə bu infeksiyanın ağırlaşdırıcı təsiri haqqında bizim məlumatlarımızı təsdiq edən etibarlı faktdır (cədvəl 1).

Cədvəl 1

Hamilə qadınların kampilobakterioz ilə yoluxmasının səviyyəsi və strukturu

Yaş qrupları, yaş	Müayinə olunanların sayı	Yoluxmuş hamilə qadınların sayı	
		Müt.	%
≤20 yaş	35	15	43,0±5,5
21- 29 yaş	79	52	66,0±5,3
≥30 yaş	62	47	76,0±5,4
Cəmi	176	114	65,0± 3,6

Cədvəl 2

Hamilə qadınların xəstələnməsində maddi amilin əhəmiyyəti

Maddi səviyyə	Kampilobakteriozla xəstə hamilə qadınlar (n=114)		Kontrol qrup (n=50)	
	Müt.	%	Abs.	%
Aşağı	60	53,0±4,6	9	18,0±5,4
Orta	38	34,0±4,4	16	32,0±6,6
Yüksək	16	13,0±3,2	25	50,0±7,0
Cəmi	114	100,0±00	50	100,0±00

Epidemioloji baxımdan o da maraqlıdır ki, hamilə qadınların yoluxmasının yaş strukturu özünəməxsus, spesifik qanunauyğunluğa malikdir. Bu, onunla özünü biruzə verir ki, hamilə qadınların yaşı artdıqca onların kampilobakterioz ilə yoluxması səviyyəsi də güclü müsbət korrelyasiya asılılığı ilə yüksəlir (Ґ=+0,97±0,01). Belə ki, o, məsələn, əgər 20 yaşa qədər hamilə qadınlar arasında 43,0±5,5-ə bərabərdirsə, onda 30 və yuxarı yaşda olan hamilə qadınlar arasında maksimal səviyyəyə çatır – 76,0±5,4% (χ^2=3,68; p>0,05).

İltihabi-infeksion xəstəliklərin yayılması bir sıra sosial və epidemioloji amillər kompleksindən asılıdır. Ona görə də, bu amillərin aşkar edilməsi və dürüst qiymətləndirilməsi təkcə xəstələnmənin səviyyəsinin aşağı salınmasında və onun profilaktikasında deyil, həm də qadınlara göstərilən məqsədyönlü və effektiv tibbi yardımın təşkilində son dərəcə mühüm əhəmiyyət kəsb edir. Əhalinin tibb müəssisələrinə müracətində, müalicə vasitələrinin əldə edilməsində və yeridilməsində maddi amilin rolunu nəzərə alaraq, biz ilk növbədə kampilobakteriozu olan qadınlar arasında onun əhəmiyyətini öyrənmişik. Hamilə qadınların hamısını anket sorğusunun əsasında maddi durumunun səviyyəsinə görə qruplara ayırmış və kampilobakteriozu olan hamilə qadınlar və kontrol qrupun hamilə qadınları arasında onun rolunu təhlil etmişik (cədvəl 2).

Təqdim olunan məlumatlar hətta ən gözlənilən nəticələri də ötüb keçmişdir və hamilə qadınlar arasında kampilobakterioz ilə xəstələnmədə maddi rifahın son dərəcə mühüm

əhəmiyyət daşıdığını göstərir. Belə ki, maddi səviyyəsi aşağı olan ailələrdə kontrol qrupdakı hamilə qadınların xüsusi çəkisi o qədər də böyük deyildir 18,0±5,4%, halbuki bu ailələrdə kampilobakterioz ilə xəstə hamilə qadınların xüsusi çəkisi çox yüksəkdir - 53,0±4,6% (χ^2=94,12, p<0,001). Maddi səviyyəsi orta olan ailələrdə bu göstəricilər müvafiq olaraq- 32,0± 6,6 və 34,0±4,4% təşkil edir (χ^2=1,42, p>0,05), lakin diqqəti o cəlb edir ki, kontrol qrupdakı hamilə qadınlarda bu göstərici xeyli artmış (χ^2=76,13, p<0,001), kampilobakterioz ilə xəstə hamilə qadınlar arasında isə bir bu qədər azalmışdır (χ^2=72,17, p<0,001). Kontrol qrupda olan hamilə qadınların xüsusi çəkisi maddi səviyyəsi yüksək olan ailələrdə daha çox artmış və 50,0±7,0% təşkil etmişdir (χ^2=12,46, p<0,001), halbuki kampilobakterioz ilə xəstə hamilə qadınların xüsusi çəkisi eyni tempdə azalmışdır- 13,0±3,2% (χ^2=12,25, p<0,001), kontrol qrupdakı hamilə qadınların və kampilobakterioz ilə xəstə hamilə qadınların xüsusi çəkisində olan fərq isə xeyli artmışdır (χ^2=38,62, p<0,001).

Beləliklə, maddi səviyyəsi aşağı olan kampilobakterioz ilə xəstə hamilə qadınlar qrupunda tibb müəssisələrinə müraciətlərin aşağı olması, ucuz və primitiv müalicə vasitələrindən istifadə etməklə özbaşına müalicəyə üstünlük verilməsi yekunda reproduktiv yaşlı qadınlar arasında iltihabi-infekson xəstələnmənin artmasına gətirib çıxarır. Ona görə də, hamilə qadınlara ixtisaslı tibbi yardımın təşkili zamanı ilk növbədə maddi durumu qeyri-qənaətbəxş olan ailələrə diqqət ayırmaq lazımdır.

İnsanın heç bir xəstəliyi müxtəlif orqan və sistemlərin iltihabi-infeksion xəstəlikləri qədər belə geniş yayılmamışdır. Belə güman edilir ki, əhali bu xəstəliklərin qarşısının alınması və ya müalicəsi üçün vacib olan tədbirlər haqqında yaxşı məlumatlandırılmışdır, lakin həqiqətdə bu, belə deyildir. Qadınların anket sorğusunun əsasında biz kampilobakterioz ilə xəstələnmənin səviyyəsinə təsir göstərən sualların siyahısını tərtib etmiş, onları qiymətləndirmişik (cədvəl 3).

Cədvəl 3

Qadınlar arasında kampilobakteriozun profilaktikasına və müalicəsinə dair tədbirlərin yerinə yetirilməsinin qiymətləndirilməsi

Müalicə-tədbirlərinin siyahısı	Kampilobakterioz ilə xəstə hamilə qadınlar (n=114)		Kontrol qrupun hamilə qadınları (n=50)	
	Müt	%	Müt.	%
Özbaşına müalicəyə üstünlük verilməsi	52	46,0±4,6	16	32,0±6,6
Klinik mənzərənin şiddətlənməsinin gözlənilməsi	47	42,0±4,4	11	22,0±5,5
Ümumi gigiyenik vəziyyətə hər gün diqqət ayrılması	51	45,0±4,6	34	68,0±6,6
Tibb müəssisələrinə vaxtında müraciət edilməsi	63	56,0±4,6	47	94,0±3,5

Kontrol qrupdakı hamilə qadınlarda müalicə-profilatik baxımdan vacib olan tədbirlərə, məsələn, orqanizmin gigiyenik vəziyyətinə hər gün diqqət ayrılması və müxtəlif xəstəliklər zamanı tibb müəssilərinə vaxtında müraciət edilməsinə hazırlıq səviyyəsi xeyli yüksək olmuşdur- müvafiq olaraq 68,0±6,6% və 94,0±3,5%, nəinki kampilobakterioz ilə xəstə hamilə qadınlar qrupunda - 45,0±4,6% (χ^2=32,18, p<0,01) və 56,0±4,6% (χ^2 =53,67, p<0,01). Hamilə qadınların kontrol qrupunda gözləmə mövqeyidir bu zaman tibb müəssisələrinə müraciətlər təxirə salınır ki, bu da qadınlarda ciddi narahatlıq yaratmağa başlayan və çox vaxt xəstəliyin gedişinin ağırlaşmasına təkan verən klinik mənzərənin tam şiddətlənməsinə qədər davam edir- onların sayı kampilobakterioz ilə xəstə hamilə qadınlar qrupunda aşağı olub 22,0±5,5 və 42,0±4,4% təşkil edir (χ^2=38,12, p<0,01). Özbaşına müalicə göstəricisi kontrol qrupdakı hamilə qadınlar arasında kifayət qədər yüksək olmuşdur - 32,0±6,6%. Kampilobakterioz ilə xəstə hamilə qadınlar qrupunda da bu göstərici yüksək olmuşdur - 46,0±4,6% (χ^2=12,42, p<0,01).

Kampilobakterioza yoluxmuş hamilə qadınların xəstələnməsinin sosial-epidemioloji təhlili ilk növbədə onların sosial cəhətdən uyğunlaşmasını və epidemioloji qanunauyğunluqlarla idarə olunduğunu göstərir.

ƏDƏBİYYAT

1. Игонина И.В. Клинико-эпидемиологическая характеристика кампилобактериозов в Липецкой области // Вопросы эпидемиологии инфекционных болезней, № 4, 2006, с.76-78.
2. Колос Е.Н., Гнутов И.Н., Ющенко Г.В. Клинико-эпидемиологическая характеристика кампилобактериоза в условиях интенсивно развитого животноводства // Здравоохранение Казахстана, 2008, №12, с. 46-48.
3. Сидельникова В.М. Инфекция как фактор риска невынашивания беременности // Гинекология, 2008, № 5, с.28 - 30
4. Cypierre A., Denes E., Barraud O., Jamilloux Y. Campylobacter fetus infections // Med Mal Infect, 2014, vol 44, № 4, p.167-173
5. Kirk K.F., Nielsen H.L. The susceptibility of Campylobacter concisus to the bactericidal effects of normal human serum // APMIS, 2015, v. 123, №3, p.269-274
6. Li X., Harwood V.J., Nayak B., Staley C. A Novel Microbial Source Tracking Microarray for Pathogen Detection and Fecal Source Identification in Environmental Systems // Environ Sci Technol., 2015, v.16, № 12, p.7319-7329
7. Skuhala T., Škerk V., Markotić A., Bukovski S. Septic abortion caused by Campylobacter jejuni bacteraemia // J Chemother. 2015, № 4, p.197- 199

Резюме

Характеристика кампилобактериоза среди беременных в г.Баку

С.И.Ширалиева

Проведенные исследования показали, что уровень инфицированности кампило-бактериозом беременных оказалась довольно высокой- в среднем 65,0± 3,6%, что является весомым фактом в подтверждение наших данных о отягощающем воздействии этой инфекции на течение беременности, и прежде всего, на ее преждевременный, не благополучный исход. С увеличением возраста беременных с сильной положительной коррелятивной зависимостью повышается уровень их инфицированности кампилобак-териозом, которая, если среди беременных в возрасте менее 20 лет равняется 43,0±5,5, то среди беременных в возрасте 30 лет и старше достигает максимального уровня- 76,0±5,4%. Социально-эпидемиологический анализ заболеваемости кампилобактериозом прежде всего показывает на их социальную приуроченность и подверженность эпидемиологическим закономерностям.

Summary

Feature among pregnant campylobacteriosis in Baku

S.I.Shiraliyeva

Studies have shown that the infection rate of pregnant campylobacteriosis was quite tall-average 65,0±3,6%, which is a significant fact in confirmation of our data aggravates the impact of the infection on pregnancy, and especially at its early without successful outcome. With increasing age of pregnant women with a strong positive correlative dependence increases their level of infection campylobacteriosis, which, if among pregnant women aged less than 20 years is equal to 43,0±5,5, then among pregnant women aged 30 years and older up to the maximum level - 76.0± 5,4%. The socio-epidemiological analysis of the incidence of campylobacteriosis in the first place shows their social confinement and the epidemiological patterns of exposure.

Daxil olub: 20.04.2015

MƏDƏCİKLƏRİN ERKƏN REPOLYARİZASİYASI SİNDROMU

Z.K. Rəhmanov, B.M. Xəlilova, E.V.Qədimova
C.Abdullayev adına ET kardiologiya institutu

Açar sözlər: ürək- damar sistemi, miokard, mədəciklərin repolyarizasiyası, ürək ritminin pozulmaları, mərkəzi kardiohemodinamika
Ключевые слова: сердечно-сосудистая система, миокард, реполяризация желудочков, нарушение сердечных ритмов, центральная гемодинамика
Keywords: cardiovascular system, myocardium, ventricular repolarization, cardiac arrhythmia, central hemodynamics

Mədəciklərin erkən repolyarizasiyası sindromu (MERS) idiopatik elektrokardioqrafik fenomen olaraq, QRS kompleksinin enən hissəsində J-dalğası və ST seqmentinin psevdokoronar qalxması ilə xarakterizə olunur [24,36,47]. MERS ilk dəfə R.Shipley və W.Halleran tərəfindən 1936-cı ildə qeyd olunub və uzun müdət normanın variantı kimi hesab olunurdu.

MERS-un ümumi qəbul olunmuş təsnifatı yoxdur. Ayrı-ayrı müəlliflər MERS-un təsnifatını yanaşı olan ürək-damar sisteminin xəstəlikləri, sindromun lokalizasiyası, topoqrafiyası və daimiliyi kimi kriterilərinə əsasən təklif edirlər [4,19,44].

Həmi sağlam, həm də müxtəlif xəstəlikləri olan insanlarda aşkarlandığına görə MERS-un yaranması ilə bağlı birmənalı fikir yoxdur. Məlumdur ki, bu sindrom müxtəlif dərman qəbulu və fiziki təsirlər nəticəsində əmələ gələ bilər [10,26]. Daha çox bu sindrom aşağıdakı xəstəliklər və patoloji vəziyyətlər zamanı qeyd olunur:

-Ailə hiperlipidemiyası. MERS-u üçün xarakter olan EKQ dəyişikliklər erkən ürək-damar xəstəlikləri olan ailələrin demək olar ki bütün uşaqlarında aşkarlanıb [12]. Bu zaman qanın lipid spektrında aterogen tipli dəyişikliklər qeyd olunmuşdur.

-Aralıq toxumanın displaziyası. Bir sıra müəlliflər MRES-nu bu displaziyanın əsas kardial əlaməti kimi qiymətləndirirlər. Tədqiqatçıların məlumatlarına görə, MERS olan şəxslərdə aralıq toxumanın displaziyası əlamətləri 57,1% təşkil etdiyi vaxtda, MERS olmayan insanlarda bu əlamətlər 33,3% hallarda aşkarlanıb [13,16,22].

-Bundan başqa, MERS ürəyin anadan gəlmə qüsurları və ürəyin keçiricilik sisteminin anadan gəlmə anomaliyaları zamanı daha çox qeyd olunur [9].

-Axır illər MERS-un genetik təbiyyətli olduğu haqda fikirlər irəli sürülür [21,31]. MERS-un əmələ gəlməsində miokrdda gedən elektrofizioloji proseslərin anadan gəlmə individual xüsusiyyətləri durur ki, bu da ürək əzələsinin subepikardial qatının erkən repolyarizasiyası ilə nəticələnir.

-Hesab olunur ki, bu fenomenin əmələ gəlməsi əlavə anteqrad atrioventrikulyar yaxud paranodal yolların fəaliyyəti nəticəsində yaranan qulaqcıq-mədəcik keçiriciliyinin anomaliyası səbəbkardır [39].

-Elektrofizioloji tədqiqatların nəticələri göstərmişlər ki, MERS-un əsasında ürəyin bazal şöbələrində yerləşən ayrı, və yaxud, əlavə miokardial strukturlarının de- və repolyarizasiyasının anomal xronotopoqrafiyası durur [17]. Normal halda repolyarizasiya epikarddan endokard istiqamətində ürəyin əsasından başlayaraq zirvəsində qurtarırsa, MERS-u zamanı mexanizmi axıra qədər öyrənilməmiş qalan miokardın subepikardial qatlarının repolyarizasiyası tezləşir [23,35,37,42,43].

-MERS vegetativ sinir sisteminin disfunksiyası zamanı yarana bilər. Vegetativ sinir sisteminin həmi simpatik, həm də parasimpatik şöbələrinin fəallaşması zamanı MERS-ın yaranmasına dair məlumatlar mövcuddur [17,21,41].

-Elektrolit pozulmaları. Hiperkalsiemiya və hiperkaliemiya zamanı "J" dalğasının əmələ gəlməsinə əsaslsnaraq bir sıra tətqiqatçılar MERS-ın əsas yaranma səbəbi kimi elektrolit pozulmalarını göstərirlər [6,25,27,29,38,45]. Bununla belə, bir sıra araşdırmalar zamanı MERS olan xəstələrdə heç bir elektrolit pozulmaları qeyd olunmadığından, tədqiqatçıların çoxu bu sindromun yaranmasının elektrolit nəzəriyyəsini qəbul etmirlər [14].

EKQ müayinəsi zamanı MERS ümumi populyasiyanın 1-9%-da müəyyən olunur [1,2,7,8,14]. Yaşın artması ilə bu sindromun rast gəlmə tezliyi azalır [36]. Əsasən oturaq həyat tərzi keçirən kişilərdə, idmançılarda və tünd dərili insanlarda MERS daha çox qeyd olunur (18,20,30,40). Qadınlarla müqaisədə kişilərdə MERS 2-3 dəfə daha çox rast gəlir [33].

Aralıq toxumanın displaziyası, sinir sistemi xəstəlikləri, mədə-bağırsaq patologiyası olan

xəstələrdə MERS-ın rast gəlmə tezliyi artır [17,36]. Ekstrakardial patologiyası olan xəstələrlə müqaisədə, ürək-damar sistemi xəstəlikləri olan pasiyentlərdə MERS nəzərə çarpacaq dərəcədə çox müşahidə olunur [16]. Qeyd olunur ki, intensiv terapiya şobələrinə döş qəfəsi ağrıları ilə qəbul olunan xəstələrin 13-48%-da aşkarlanır [32,41]. CASPER tədqiqatının nəticələri göstərmişdir ki, naməlum səbəbli ürək dayanmalardan sağ qalmış orqanik kardial patologiyası olmayan pasiyentlərdə, MERS-un rast gəlmə tezliyi 8% təşkil edir [34]. QT intervalının qısalması sindromu olan xəstələrdə erkən repolyarizasiyanın EKQ əlamətləri 65% halda qeyd olunur və bunun mövcutluğu aritmik epizodların yaranmasının risk faktoru hesab edilir [50].

MERS çoxsaylı diaqnostik səhflərin səbəbi ola bilər. Bu sindrom sol mədəciyin hipertrofiyası, Hiss dəstəsinin sol şahəsinin blokadası, perikardit, ağ ciyər arteriyasının tromboemboliyası, kəskin miokard infarktı kimi xəstəliklərlə diferensial diaqnostikası aparılmalıdır [28,32,37,48]. Eyni zamanda yuxarıda göstərilən patoloji hallarla paralel MERS-un olması, həkimlərdən xəstəliyin kliniki gedişatına, laborator göstəricilərin dəyişməsinə, instrumental diaqnostik metodların göstəricilərinə daha diqqətli yanaşmasını tələb edir [11].

MERS-n proqnostik əhəmiyyətilə bağlı birmənalı fikir yoxdur. Müəlliflərin çoxu bunu xoşxassəli EKQ fenomeni sayır [8,49]. Bununla belə, bu vaxta qədər toplanan məlumatlar MERS-na miokardda baş verən patoloji proseslərin bir hissəsi kimi baxmağa məcbur edir [5,14,15].

Tikkanen J.T. və h.m. məlumatlarına görə aşağı aparmalarda MERS qeyd olunan sindromu olmayan insanlarla müqayisədə ürək və aritmogen ölüm riski statistik dürüst çoxdur [46].

Ürək-damar patologiyası ilə yanaşı MERS olan xəstələrdə ürək ritminin və keçiriciliyinin stabil pozulmalarının rast gəlmə tezliyi MERS olmayan xəstələrlə müqayisədə 2-4 dəfə çoxdur. MERS-un aritmogenliyinin səbəbi kimi ürəyin keçiricilik sisteminin anadan gəlmə anomaliyaları ilə yanaşı vegetativ sinir sisteminin parasimpatik şöbəsinin hipertonusu da göstərilir [9].

MERS-un mərkəzi hemodinamika göstəricilərinə olan təsirləri axıra qədər oyrənilməmiş qalır. Bobrov A.L. və h.m. məlumatlarına görə MERS olan şəxslərdə sindrom olmayanlarla müqayisədə ürəyin sistolik və diastolik funksiyalarının göstəricilərinin pozulmaları, sol mədəciyin kütləsinin artması qeyd olunur. Mərkəzi hemodinamika göstəricilərinin pisləşməsini, sistolik və diastolik funksiyaların patoloji dəyişilməsini əsas götürərək, müəlliflər MERS və ürək çatmamazlığı arasında olan patogenetik əlaqələr olması barədə fikir irəli sürürlər [3,5].

Beləliklə, mədəciklərin erkən repolyarizasiyası sindromu əvvəllər hesab olunduğu kimi təhlükəsiz elektrokardioqrafik fenomen deyil. Bu sindrom ürək-damar patologiyası olan xəstələrdə daha çox aşkarlanır. MERS olan insanlarda supraventrikulyar ürək ritminin pozulmaları daha çox qeyd olunur. Bu sindromu olan insanlarda mərkəzi kardiohemodinamikanın vəziyyətinin pisləşməsi aşkarlanır ki, bu da ürək çatmamazlığının yaranmasının səbəbi ola biər.

ƏDƏBİYYAT

1. Андрейченко Т.А., Шепелева А.А., Сергеев И.Н. Состояние здоровья выпускников медицинского колледжа // Приложение к журналу «Кардиоваскулярная терапия и профилактика», 2005, Т. 4, № 4, с.14-15.
2. Ахмедов Н.А. Синдром ранней реполяризации и функциональное состояние сердца у жителей Азии, Африки и Латинской Америки // Кардиология, 1986, Т. 26, № 6. - С. 63-65.
3. Бобров А.Л., Бойцов С.А., Темнов А.Н. Электро- и эхокардиографические особенности синдрома ранней реполяризации желудочков // Журнал Сердечная недостаточность, 2002, №4, с.565-569
4. Бобров А.Л., Шуленин С.Н. Новая классификация синдрома ранней реполяризации желудочков: клиническое значение и применение // Кардиология, 2006, т. 4, № 1, с.123.
5. Большакова Т.Ю., Шульман В.А. О патогенезе синдрома ранней реполяризации // Кардиология, 1996, Т. 36, № 10, с.55-56.
6. Воробьев Л.П., Грибкова И.Н., Петрусенко Н.М. Возможные механизмы возникновения синдрома ранней реполяризации желудочков // Кардиология, 1985, Т. 25, № 4, с. 110-112.
7. Гриценко Э.Т. Некоторые аспекты генеза синдрома ранней реполяризации желудочков // Кардиология, 1990, Т. 30, № 6, с. 81-85.

8. Дупляков Д.В., Емельяненко В.М. Синдром Вольфа-Паркинсона-Уайта у лиц с синдромом ранней реполяризации желудочков // Кардиология, 1998, Т. 38, № 3, с.46-48.

9. Компендиум 2009 - лекарственные препараты / Под ред. В.Н. Коваленко, А.П. Викторова. Киев: Морион, 2008, Т. 1, 720 с.

10.Локшин С.Л., Васильева Л.И., Правосудович С.А. и др. Клинико-инструментальная оценка синдрома ранней реполяризации желудочков / Материалы 2-го международного панславянского конгресса по электрокардиостимуляции и клинической электрофизиологии сердца. СПб, 1994, 146с.

11.Мурашко Е.В. Синдром ранней реполяризации миокарда у детей // Российский вестник перинатологии и педиатрии, 2005, № 5, с. 25-27.

12.Осовська Н.Ю., Сєркова В.К. Аномальні хорди шлуночків як прояв синдрому сполучнотканинної дисплазії серця // Укр. кардіол. журн., 2007, № 2, с. 24-25.

13.Скоробогатый А.М. Синдром ранней реполяризации желудочков // Кардиология, 1986, Т. 26, № 11, с. 89-94.

14.Сторожаков Г.И., Струтынский А.В., Авадьяев Р.А., Кисляк О.А. Синдром ранней реполяризации желудочков // Кардиология, 1992, Т. 32, № 9/10, с.107-111.

15.Шуленин С.Н., Бойцов С.А., Бобров А.Л. Клиническое значение синдрома ранней реполяризации желудочков, алгоритм обследования пациентов //Вест.арит,2008,№ 50,с.33-39.

16.Ягода А.В., Гладких Н.Н. Синдромы перевозбуждения или ранней реполяризации желудочков при недифференцированной дисплазии соединительной ткани // Вестник аритмологии, 2003, № 32, с. 75-78

17.Ahmed M.E., Shatoor A.S., Board A. Resting ECG abnormalities among asymptomatic Arab men and comparison with other ethnic populations // Ethn. Dis., 2001, v.11, № 3, p.446-453

18.Antzelevitch C., Yan G.X. J wave syndromes // Heart Rhythm., 2010, v., № 4, p. 549-558.

19.Bianco M., Bria S., Gianfelici A. et al. Does early repolarization in the athlete have analogies with the Brugada syndrome? // Eur. Heart J., 2001, v.22, № 6, p. 504-510.

20.Boineau J.P. The early repolarization variant-normal or a marker of heart disease in certain subjects // J. Electrocardiol.,2007, v. 40, № 1, p. 3

21.Boitsov S., Bobrov A. Correlations between connective tissue dysplasia and early repolarization syndrome // Eur. Heart J., 2003, v.24 (abstr. suppl.), p. 49.

22.Brady W.J., Perron A.D., Chan T. Electrocardiographic ST-segment elevation: correct identification of acute myocardial infarction (AMI) and non-AMI syndromes by emergency physicians // Acad. Emerg. Med., 2001, v. 8, № 4, p. 349-360.

23.Di Grande A., Tabita V., Lizzio M.M. et al. Early repolarization syndrome and Brugada syndrome: is there any linkage? // Eur. J. Intern. Med., 2008, v. 19, № 4, p. 236-240.

24.Douglas P.S., Carmichael K.A., Pavlsky P.M. Extreme hypercalcemia and electrocardiographic changes // Am. J. Cardiol.,1984, v. 54, № 6, p. 674.

25.Gavaliatis I.P. Electrocardiographic issues related to action potential phases 1 and 2 on the occasion of a case of accidental mild hypothermia // Int. J. Cardiol., 2001, v. 77, № 1, p. 81-86.

26.Goldberger E. Electro-vectorcardiography; a simple method of studying vectorcardiography, using the conventional electrocardiogram // Am. J. Cardiol., 1959, v.3, № 1, p.124-128.

27.Guo Z.G., Peng J., Meng S.R., Wang P. Differential diagnosis of early repolarization syndrome in patients with ST-segment elevation: report of 5 cases // Di Yi Jun Yi Da Xue Xue Bao, 2002, v. 22, № 11, p. 1033.

28.Gussak I., Antzelevitch C. Early repolarization syndrome: clinical characteristics and possible cellular and ionic mechanisms // J. Electrocardiol., 2000, v. 33, № 4, p.299-309.

29.Haissaguere M., Derval N., Sacher F. et al. Sudden cardiac arrest associated with early repolarization // New Engl. J. Med., 2008, v 358, p. 2016-2022.

30.Haissaguerre M., Chatel S., Sacher F. et al. Ventricular fibrillation with prominent early repolarization associated with a rare variant of KCNJ8/KATP channel // J. Cardiovasc. Electrophysiol., 2009, v. 20, № 1, p. 93-98.

31.Hasbak P., Engelmann M.D. Early repolarization. ST-segment elevation as a normal electrocardiographic variant // Ugeskr. Laeger, 2000, v. 162, № 44, p. 5928-5929.

32.James A.F., Choisy S.C., Hancox J.C. et al. Recent advances in understanding sex differences in cardiac repolarization. Prog // Biophys. Mol. Biol., 2007, v. 94, № 3, p.265-319.

33.Krahn A.D., Healey J.S., Chauhan V. et al. Systematic assessment of patients with unexplained cardiac arrest: Cardiac Arrest Survivors With Preserved Ejection Fraction Registry (CASPER) // Circulation, 2009, v.120, № 4, p. 278-2785.

34.Kralios T.A., Martin L., Burgess M.L., Malar K. Local ventricular repolarisatioin changes due to sympathetic nerve branch stimulation // Amer. J. Physiol., 1975, v. 228, № 5, p. 16-21.

35.Letsas K.P., Efremidis M., Pappas L.K. et al. Early repolarization syndrome: is it always benign? // Int. J. Cardiol., 2007, v. 114, № 3, p.390-392.

36.MacKenzie R. Asymptomatic ST segment elevation // J. Insur. Med., 2004, v. 36, p.84-87.

37.Morace G., Padeletti L., Porciani V.C., Ранам F. Effect of isoproterenal on the "early repolarisation" syndrome // Amer. Heart J., 1979, v. 97, № 3, p. 343-347.

38.Poh K.K., Low A., Tan H.C., Chia B.L. Early repolarization pattern occurring with the Wolff-Parkinson-White syndrome // Asian Cardiovasc. Thorac. Ann., 2003, v.11, № 3, p.263-265.

39.Richter S. The surface ECG in the diagnosis of cardiac arrhythmias: the value of the right precordial leads // Herzschrittmacherther. Elektrophysiol., 2007, v. 18, № 1, p. 8-16.

40.Riera A.R., Uchida A.H., Schapachnik E. et al. Early repolarization variant: epidemiological aspects, mechanism, and differential diagnosis // Cardiol. J., 2008, v. 15, № 1,p. 4-16.

41.Shu J., Zhu T., Yang L. et al. ST-segment elevation in the early repolarization syndrome, idiopathic ventricular fibrillation, and the Brugada syndrome: cellular and clinical linkage // J. Electrocardiol., 2005, v. 38, № 4 (suppl), p. 26-32.

42.Silva J., Rudy Y. Subunit interaction determines IKs participation in cardiac repolarization and repolarization reserve // Circulation, 2005, v. 112, № 10, p. 1384-1391.

43.Skorobogatıy A.M. Electrocardiographic diagnosis and classification of the early ventricular repolarization syndrome // Klin. Med (Mosk), 1985, v. 63, № 1, p. 47-51.

44.Sridharan M.R., Horan L.G. Electrocardiographic J wave of hipercalcemia // Am. J. Cardiol., 1984, v. 54, № 6, p. 672.

45.Tikkanen J.T., Anttonen O., Junttila M.J. et al. Long-Term Outcome Associated with Early Repolarization on Electrocardiography // N Engl J Med., 2009, v.361(26), p.2529-37.

46.Towbin J.A. Early repolarization syndrome and the Brugada syndrome: forme frustes? // Eur. Heart J., 2001, v. 22, № 6,p. 448-449.

47.Vacanti L.J. Thoracic pain and early repolarization syndrome at the cardiologic emergency unit // Arq. Bras. Cardiol., 1996, v 67, № 5, p. 335-338.

48.Wasserburger R.D., Alt W.I. The normal RS-T segment elevation // Amer. J. Cardiol., 1961, № 8, p. 184-192.

49.Watanabe H., Makiyama T., Koyama T. et al. High prevalence of early repolarization in short QT syndrome // Heart Rhythm., 2010, v. 7, № 5, p. 647-652.

Резюме

Синдром ранней реполяризации желудочков

З.К.Рахманов, В.М.Халилов, Э.В.Гадимова

Синдром ранней или преждевременной реполяризации желудочков (СРРЖ) — электрокардиографический феномен с характерными изменениями графической записи работы сердца на электрокардиограмме в виде характерного подъёма места перехода желудочкового комплекса в сегмент ST над изолинией. Данный феномен регистрируется вследствие раннего возникновения волны возбуждения в субэпикардиальных участках миокарда. В этой статье анализированы проблемы диагностики данной патологии.

Summary

The syndrome early ventricular repolarization

Z.K.Rahmanov, V.M.Halilov, E.V.Gadimova

The syndrome of early or premature ventricular repolarization (SRRZH) - electrocardiographic phenomenon with characteristic changes in the graphic recording of the heart on an electrocardiogram as a typical lifting places transition ventricular complex in the ST segment of the contour line. This phenomenon is recorded as a result of the early appearance of the excitation wave in the subepicardial myocardial areas. This article analyzed the problem of diagnosis of this disease.

Daxil olub: 29.04.2015

ATRİSORB TƏTBİQ OLUNAN VƏ RADİKAL TƏMİZLƏYİCİ FERMENTLƏR "SUPEROXIDE DISMUTASE (SOD) VƏ CATALASE (CAT)" VERİLƏN İTLƏRİN PERİODONTAL TOXUMALARINDA SUPEROXIDE DISMUTAZ AKTİVLİYİNİN DÖVRÜ NƏZARƏTİ

E.R.Əliyev

Mərkəzi neftçilər xəstəxanası, GENLAB laboratoriyası, Bakı

Açar sözlər: oksigen sərbəst radikalları, sərbəst radikal efrmentləri, liposomlar, biomaterillar, dişəti

Ключевые слова: свободные радикалы кислорода, ферменты свободных радикалов, липосомы, биоматериалы, десны

Key words: oxygen free radicals, free radical scavenging enzymes, liposomes, biomaterials, gingiva.

Yaxın zamanlarda xərçəng xəstəliklərinin müalicəsində, peyvənd hazırlanmasında, ortopediya, periodontologiya və başqa sahələrdə müalicə məqsədilə absorbasiya oluna bilən bariyeraların absorbasiyası sırasında radikalların meydana çıxdığı məlum olmuşdur. Bariyeralar canlı orqanzimlərə yad maddələr olub, parçalanmaları və ya absorbasiya olmaları sırasında meydana gələn radikallar hüceyrələrə zədələyici təsir göstərirlər [1,2]. Bariyeraların istifadəsi üçün cərrahi müalicə tələb olunur və bu prosedura sırasında meydana gələn işemiya və reperfuziya nəticəsində də radikalların meydana gələ biləcəyi nəzərə alınaraq, həm bariyera ilə müalicədə, həm də cərrahi müdaxilədə antioksidantların istifadə edilməsi məqsədyönlü hesab edilir. Müalicə məqsədilə istifadə edilən antioksidantlardan superoxide dismutase, catalase hüceyrələrin təbii fermentləri olub, oksigen mənşəli radikalların aradan qaldırılmasına imkan verirlər [3].

Tədqiqatın material və metodları. Təcrübədə istifadə olunan diş əti nümunələri Ondoqquz May universiteti (OMU) tibb fakultəsi Cərrahi Araşdırma Mərkəzində nəzarətdə saxlanan itlərin (Canis lupus familiaris) təxminən 10-15 kq ağırlığındakı müxtəlif variantlarından əldə olunmuşdur.

Araşdırma qruplarının təşkil olunması və itlərdə tətbiq olunan proseduralar (Tədqiqat proqramı və qruplar):

1)Əməliyyat proseduraları Ondoqquz May universiteti Tibb fakultəsi Cərrahi Araşdırma mərkəzində aparılmışdır. Nümunə toplama, inyeksiya etmə və oral gigiyena kontrolu proseduralarından əvvəl heyvanlar əzələ daxili inyeksiya (intramuskulyar) ilə anesteziya edilərək keyləşdirilmişdir. Dehisiens tipli peridontal xəstəlik periodontoloq tərəfindən süni olaraq yaradılmışdır. Əməliyyatlar periodontioloq ilə birlikdə həyata keçirilmiş və numunələr periodontoloq nəzarəti və köməyi ilə alınmışdır.

2)İtlərin alt və üst çənələri 3 qrupa ayrılmışdır: (Kontrol- (K), Atrisorb- (A) və Atrisorb və antioksidant-(B) qrupu)

3) Əməliyyatdan əvvəl və əməliyyatdan sonra 3-cü gün; əməliyyatdan sonra 12-ci gün (12 gün); əməliyyatdan sonra 21-ci gün və 30-cu günlərdə biopsiya aparılmış və alınan materialların biokimyəvi müayinələri aparılmışdır. 30 günlük ərzində dişəti altına hər 3 gündən bir liposom daxilinə superoksid dismutaza və katalaza yeridilmişdir.

4) Qruplar əməliyyatdan əvvəl, əməliyyatdan sonra iş qrupları olmaqla 2 yerə ayrılmışdır. Təcrübə heyvanlarından hər dəfə 2 test və 1 kontrol qrupu olmaqla dişətləri müayinə edilmiş və hər biokimyəvi müayinələr zamanı 2-3 dəfə təkrar edilərək, əldə edilən göstəricilərin orta statistik hesablamaları aparılmışdır.

Diş əti üzərində aparılan proseduralar. Əməliyyatdan əvvəl və əməliyyatdan sonra 3, 12, 21 və 30-cu günlərdə itlərdən alınan diş əti nümunələri içində 0,25 M həllolmuş saxaroz olan sınaq şüşələrinə qoyuldu. Alınan nümunələr -70°C temperaturda Deep-Freeze′də saxlanıldı. Diş ətləri homogenizasiya, sonifikasiya və sentrifuqasiya proseslərindən keçirildi. Sentrifuqa prosesindən sonra əldə edilən supernatantlarda ferment aktivlikliyi və proteinlər təyin edildi. Laboratoriya təcrübələri 0-4^{0}C-də həyata keçirildi. Protein Lowry (1951) metoduna əsasən təyin edilmişdir. SOD aktivliyi Mc Cord və Fridovich (1969) və Flohe və Otting (1984) spektrofotometrik metodu ilə müəyyən edildi.

Liposom hazırlanması. Liposom hazırlanmasında modifikasiya edilmiş Batzri Korn (1973) (7) və Vorauer-Uhl və başqalarının (2001) [3] metodundan istifadə edilmişdir. Müayinələr ciddi şəkildə steril qaydalara riayət olunmaqla aparılmışdır.

Statistik hesablamalar zamanı Friedmann testindən istifadə edilmiş və P dəyərləri nəticələr

(tapılanlar) bölümündə tabloların altında göstərilmişdir.


Tədqiqatın nəticəsi. *Kontrol (nəzarət) və əsas qruplarında total SOD ferment aktivliyinin zamana görə dəyişməsi.* SOD aktivliyi əməliyyatdan əvvəl kontrol və əsas qruplarının hər birində eyni olmuşdur. Qrup daxilində aktivlik müqayisə edildikdə, əməliyyatdan sonrakı 3-cü gündə K qrupunda aktivlik əməliyyatdan əvvəlki göstəriciyə nisbətən təqribən 46%-ə qədər, A və B qrupunda isə ardıcıl olaraq 56% və 27%-ə qədər artmışdır (şəkil və cədvəl). Hər 3 qrupda daha sonrakı günlərdə aktivliyin aşağı düşməsi müşahidə olunmuşdur. Əməliyyatdan sonra 3-cü və 12-ci günlər müqayisə edildikdə, nəzarət qrupunda aktivliyin 3-cü günə nisbətən 12-ci gündə 53%-ə qədər azalaraq, əməliyyatdan əvvəlki səviyyədən aşağı düşməsi müşahidə edilmişdir. B qrupunda aktivliyin 50%-ə qədər azaldığı və əməliyyatdan əvvəlki səviyyədən aşağı düşməsi, A qrupunda isə aktivliyin azalma istiqamətində 20%-ə qədər dəyişdiyi və aktivliyin əməliyyatdan əvvəlki səviyyədən aşağı düşmədiyi qeydə alınmışdır. 12 və 21-ci günlər müqayisə edildikdə nəzarət qrupunda təxminən 35%-ə qədər aktivliyin yenidən yüksəldiyi qeydə alınsa da, digər 2 qrupda azalma davam etmişdir. A qrupunda 12-ci günlə müqayisədə 31%-ə qədər, B qrupunda 2,4%-ə qədər azalmışdır. Eksperiment qruplarından 21 və 30-cu günlərdə alınan göstəricilər müqayisə edildikdə, aktivliyin 30-cu gündə nəzarət qrupunda 64%, A qrupunda 51%, B qrupunda təxminən 13 %-ə qədər azaldığı müşahidə olunmuşdur.

Cədvəl

Əsas və nəzarət qruplarında SOD ferment aktivliyinin zamana görə dəyişməsi (IU/mg protein /ml)

Nümunələrin qəbul olunan vaxtı	Nəzarət qrupu	Atrisorb qrupu	Atrisorb və Liposom qrupu
Əmliyyatdan əvvəl	4,862**± 4,6834*	4,8621±4,68345	4,8621±4,68345
Əməliyyadan sonra 3-cü gün	9,0321±4,22568	10,9771±11,8671	6,6107±5,00649
Əməliyyatdan sonra 12-ci gün	4,2057±2,23102	8,7457±9,75259	3,2921±1,76829
Əməliyyatdan sonra 21-ci gün	5,9393±2,46415	6,0036±5,87429	3,2129±2,6123
Əməliyyatdan sonra 30-cu gün	2,1157±0,87931	2,9387±1,44698	2,8029±2,02092
	p=0,006	p=0,058	p=0,006

Qeyd: **-orta göstərici; *-dürüst fərq



Şək. Test və kontrol qruplarında SOD ferment aktivliyinin zamana görə dəyişməsi (IU/mg protein/ml)

Əldə edilən nəticələrdən məlum olur ki, 30-cu gündə hər 3 qrupdakı ferment aktivliyi əməliyyatdan əvvəlkinə nisbətən K qrupunda 56%, A qrupunda 40% və B qrupunda 42%-ə qədər azalmışdır. B qrupunda əməliyyatdan əvvəlkinə görə aktivliyin aşağı düşməsi ilk olaraq 12-ci gündə aşkar olunmuşdur. Aktivlikdə baş verən dəyişiklik K və B qrupu üçün dürüst, lakin A qrupu üçün statistik olaraq dürüst olmamışdır.

Hər 3 qrup üçün qruplar arası müqayisə aşağıda görüldüyü kimi olmuşdur.

Əməliyyatdan sonrakı 3-cü gündə ən yüksək aktivlik A qrupunda, ən aşağı aktivlik isə B qrupunda müşahidə olunmuşdur. K qrupu ilə müqayisədə A qrupunda aktivlik təxminən 22%-ə qədər artmış, B qrupunda isə təqribən 27%-ə qədər azalmışdır (p=0,565).

Nəticələrin müzakirəsi. Biomaterialların tətbiq olunduğu orqanizmin hər hansı bir nahiyəsində radikalların əmələ gəlməsi nəzərə alınırsa, dişətlərində biomaterial tətbiq olunması ilə əlaqədar olaraq, radikalların əmələ gəlməsini izləmək məqsədilə aparılan tədqiqatlar arasında periodontologiyada radikal və biomaterialları əlaqələndirən müəyyən perioda əsaslanan tədqiqata rast gəlinməmişdir [2]. Lakin biomaterial tətbiq olunmadan sadəcə əməliyyatdan əvvəl və sonra davamlı izlənilmiş bir tədqiqat yenə bizim tərəfimizdən daha əvvəlcədən edilmiş olub, tədqiqat nəticəsində əməliyyatdan sonra reaktiv oksigen növlərinin artdığı qərarına gəlinmişdir [8,9].

Apardığımız eksperimental tədqiqat zamanı RON yaranması və RON miqdarının periyodik təqibdə saxlanması, onları parçalayan fermentlər göstərici qəbul edilərək ölçülmüşdür. Periodontal və biokimyəvi tədqiqatımız nəticəsində əldə etdiyimiz məlumatlar, əməliyyatdan əvvəl aldığımız dişətlərində SOD aktivliklərinin bütün qruplarda eyni olduğu görülmüşdür. Lakin əməliyyatdan sonra 3-cü gündə SOD fermentlərin aktivliyi yüksələrək pik səviyyəyə çatmışdır. Bunun səbəbi təbii olaraq əməliyyatla əlaqəli işemiya-reperfuziya və travma ilə bağlı iltihab ola bilər. Həmçinin qruplararası müqayisə zamanı ölçülən SOD fermentlərin aktivliklərinin 3 qrupun hər birində, 3-cü gündə atrisorb tətbiq edilən dişətlərində, nəzarət və əsas qrupa nisbətən yüksək olduğu qeydə alınmışdır. Bizə görə, orqanizmdə yad maddələr radikalların əmələ gəlməsinə, yad maddələr isə PMN kimi faqosit hüceyrələri bölgəyə çəkərək radikalları yaratmasına səbəb olur. Radikallar biomaterialların parçalanmasında da iştirak edir [2]. Ferment aktivliyinin yüksəlməsində həmçinin işemiya-reperfuziyaya bağlı olaraq RON artımının payı olduğu ehtimalı yüksəkdir. Radikalların yaranması mövzusunda təklif etdiyimiz bu fikirlər yara nahiyəsi sağalması mövzusunda edilən başqa müəlliflərin fikri ilə üst-üstə düşür. Əksər müəlliflər 1-4-cü gün arasında bölgədə leykosit və makrofaq filtrasiyasının olduğunu bildirirlər [10]. Yara nahiyəsində 4-cü gündən başlayaraq matriks sintezi, yenidən vaskularizasiya və epitelizasiya kimi proseslər başlar. Yaranın sağalmağa başladığı 3-cü gündən sonra sərbəst oksigen radikal ya da reaktivlərin azalması və dolayı yolla bu reaktiv maddələrin göstəricisi olan fermentlərin aktivliyini azalması baş verir. Belə ki. 12-ci gündə qruplar müqayisə olunduqda hər 3 qrupda SOD aktivliyini 3-cü günə nisbətən azaldığı qeydə alınmışdır.

Bizim tədqiqatda nəzarət qrupu ilə müqayisədə B qrupunda ferment aktivliklərinin aşağı olması liposomal SOD və CAT-ın, radikalları azaltma baxmından istər nəzarət, istərsə də A qrupuna görə faydalı olduğunu göstərir. Bəzi müəlliflərin fikrincə SOD fermenti PMN (polimorf leykositlər) sayısını və iltihabı azaldır. Nəticələrimiz bu fikirlər ilə üst-üstə düşür [11]. Belə ki, PMN sayının azalması mühitdə radikalların azalması demək olub, radikal göstəricisi olaraq qəbul etdiyimiz ferment aktivliyinin düşməsi normaldır.

Ümumiyyətlə, qruplar arası müqayisələrdə B qrupunda radikalları parçalayan fermentlərin əksərən həm nəzarət, həm də müayinə qrupuna nisbətən aşağı olduğu qeydə alınmışdır. Həmçinin A qrupu kimi B qrupunda da atrisorbun verilməsinə baxmayaraq, bölgədə radikal göstəricilərinin aşağı olması liposomal SOD və CAT-ın effektivliyinin göstəricisidir. Əməliyyatdan sonra həm K, həm də A qrupunda ferment aktivliyində həddindən artıq yüksəlmə olmasına baxmayaraq, B qrupunda aktivlik elə də çox olmamışdır. Bu da liposomal fermentlərin RON-un bölgəyə zərərini azaltma baxımından çox faydalı olduğunu göstərir. Lakin 30-cu gündə B qrupunun SOD ferment aktivliyinin nəzarət qrupu ilə müqayisədə qismən yüksək olması, liposomların parçalanmasında da faqositoz proseslərinin iştirak etdiyini göstərir və bu da radikal artımda qismən effektiv olur [12]. Nəzarət qrupundan fərqli olaraq A və B qruplarında kollagen sintezinin davam eməsi və bu sintezdə oksigen radikallarının iştirak etməsi səbəbi ilə 21 və 30-

cu günlərdə SOD aktivliyi miqdarı nəzarət qrupuna nisbətən yüksək olabilər.

Statistik hesablama zamanı istər qruplar arası, istərsə də qruplar daxili bəzi göstəricilərin statistik dürüst olmadığı nəzərə alınmışdır. Bunun səbəbi tədqiqat zamanı müxtəlif variasiyadan itlərin istifadə edilməsi nəticəsində uc dəyərlərin meydana çıxması ola bilər. Uc dəyərlərin tapılması standart kənara çıxmanı yüksəldərək p əmsalının bəzi hesablamalarda 0,05-dən yüksək olmasına səbəb olmuşdur. Aparılan tədqiqata əsasənməlum olmuşdur ki, atrisorb tətbiq olunaraq yaranın daha səliqəli və arzu olunan formada regenerasiyası təmin olunur, atrisorba görə yaranan radikalların zərərli təsirini azaltmaq üçün bu baryerlə birgə liposomal SOD və CAT tətbiq edilməsi məqəsədə uyğundur.

ƏDƏBİYYAT

1.Brem H., Walter K., Langer R., Polimers as controlled drug delivery devices for the treatment of malignant brain tumors // Eur J Pharmaco Biopharmacol., 1993, v.39, p.2-7

2.Lee K.H., Chu C.C. The role of superoxide ions in the degradation of synthetic absorbable sutures // J Biomed Mater Res., 2000, v.49(1), p.25-35.

3. Vorauer-Uhl K., Wagner A., Borth N. et al. Topically applied liposome encapsulated superoxide dismutase reduces postburn wound size and edema formation // Eur.J. Pharm.Sciences, 2001, v.14, p.63-67

4.Lowry O.H., Rosebrough N.J., Farr A.L., Randall R.J. Protein measurement with the Folin-Phenol reagents // J. Biol. Chem. 1951, v.193, p.265-275

5.McCord J. M., Fridovich I. Superoxide dismutase an enzymic function for erytrocopreine // The journal of Biological Chemistry, 1969, v.22, p.6049-6055.

6.Flohe L., Otting F. Superoxide dismutase assays // Methods in Enzymol, 1984, v.105,p.93-104.

7. Batzri S., Kron E.D. // Biochim Biophys Acta, 1973, v.298, p.1015

8.Aliyev E., Sakallioglu U., Eren Z., Açıkgöz G. The effect of polylactide membranes on the levels of reactive oxygen species in periodontal flaps during wound // Healing. Biomaterials, 2004, v.25, p.4633-4637

9.Sakallioglu U., Aliyev E., Eren Z və b. Reactıve oxygen specıes scavengıng actıvıty durıng perıodontal mucoperıosteal healıng:an experımental study ın dogs.Archives of oral biology 2004.

10.Buerk A.A., Vitello W.A., Laughin R.T. Advances in wound heealing // Curr Opin Orthop., 2000, v.11, p.92-98.

11.McMichael M., Moore R.M. I/R injury pathophysiology // Journal of Veterinary Emergency and Critical Care, 2004, v.14(4), p.231-241.

12.Liberman H.A., Rieger M.M., Banker G.S. Pharmaceutical dosage forms:disperse systems, 1989, v.II, p.599.

Резюме

Периодичный контроль над пародонтальными тканями собак, которым применялся атрисорб и введенным радикально очищающие ферменты “superoxide dismutase və catalase”

Э.Р.Алиев

Для исследования отобраны собаки 10-15 кг в разных вариантах в Университете Ондоггуз Май. Верхние и нижние челюсти собак были разделены на три группы: контрольная группа, шрупрпа- атрисорб и группа антиоксидант. Липосомы были подготовлены по методике Batzri Korn (1973) и Vorauer-Uhl и соавтор. При исследовании было определено, что при использовании атрисорба можно добиться более аккуратной и желательной регенерации. Использовании наряду с атрисорбом липосомальных SOD и CAT считается целесообразном, в том в смысле, что они уменьшают воздействий радикалов на рану.

Summary

Periodic control of the periodontal tissues of dogs, which are used atrisorb and introduced radical cleaning enzyme "superoxide dismutase və catalase"

E.R.Aliyev

To study the selected dogs 10-15 kg in different ways at the University Ondogguz May. The upper and lower jaws of dogs were divided into three groups: a control group, shruprpa - atrisorb and a group of antioxidant. Liposomes were prepared by the method Batzri Korn (1973) and Vorauer-Uhl and co. In the investigation, it was determined that using atrisorba can achieve a more

accurate and desirable regeneration. Used alongside atrisorbom liposomal SOD and CAT sees fit, including in the sense that they reduce the effects of radicals in the wound.

Daxil olub: 29.04.2015

BALDIR NAHİYƏSININ DEFORMASİYALARINDA İMPLANTLA BƏRPA ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ

V.M.Qələndərov
Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası;
Qələndər Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası.

Açar sözlər: baldır nahiyəsi, bərpa əməliyyatları, implantlar, kapsulyar kontraktura
Ключевые слова: область икры, восстановительные операции, импланты, капсулярная контракура
Keywords: the shank area, reconstructive operations, the implants, capsular contracture

İmplantlar kosmetik və rekonstruktiv cərrahiyyədə geniş tətbiq edilir. Bədənin müxtəlif nahiyələrində çox müxtəlif deformasiyaları və toxuma defektlərini implantlar vasitəsilə uğurla bərpa etmək mümkündür. Hazırda müxtəlif nahiyələrdəki deformasiyaları bərpa etmək üçün müvafiq implantlar kommersiya yolu ilə əldə edilə bilir.

Yumşaq toxumaların – yanaq, burun, baldır nahiyəsinin, süd vəziышnin və s. müxtəlif deformasiyalarında implantla bərpa əməliyyatlarından sonra ən arzuolunmaz fəsadlaşmalardan biri kapsulyar kontrakturanın formalaşmasıdır. Kapsulyar kontraktura implant ətrafında əmələ gələn birləşdirici toxuma ilə zəngin qalınlaşmadır [2,3,6,7]. Patoloji anatomik olaraq bu, orqanizmin yad cisimə verdiyi cavab reaksiyası olan proliferativ iltihabın nəticəsidir, ona görə də bu reaksiyanın intensivliyi fərdi xarakter daşımaqla müxtəlif insanlarda müxtəlif intensivlikli ola blər. Bu kapsula qalın olduğu təqdirdə implantın üzərindəki toxumaları deformasiya edərək kosmetik nəticənin pisləşməsinə səbəb olur, həm də müvafiq nahiyədəki yumşaq toxumaların elastikliyini pozur. Kapsulyar kontraktura bərpa əməliyyatlarından təqribən 20 gün sonra əmələ gəlməyə başlayır, lakin bəzi fərdlərdə (15-18% halda) daha çox qalınlaşaraq yuxarıda göstərilən problemlərin yaranmasına səbəb olur [1,3,4,5,7]. İmplantla bərpa əməliyyatlarına çoxsaylı modifikasyalar təklif edilsə də, bu əməliyyatlardan sonrakı fəsadlaşmalar hələ də mövcud olmaqdadır və göstərilən bərpa əməliyyatının nəticələrinə mənfi təsir göstərərək xəstə məmnuniyyətini azaltmaqda davam edir.

Tədqiqatın məqsədi baldır nahiyəsinin implantla bərpa əməliyyatına bizim tərəfimizdən təklif edilmiş modifikasiyalı əməliyyatla klassik bərpa əməliyyatının nəticələrini müqayisəli qiymətləndirməkdən ibarət olmuşdur.

Material və metodlar. 12 xəstədə baldır nahiyəsinin deformasiyalarından sonra bərpa üçün implant tətbiq edilmişdir. Bu xəstələrdən 5-də klassik, 7-də modifikasiyalı əməliyyat icra edilmişdir.

Baldır nahiyəsinin deformasiyalarında implantla klassik bərpa əməliyyatının texnikası. Baldır nahiyəsinin yumşaq toxumalarının deformasiyası zamanı buradakı dolğunluğun az olması kosmetik qüsur əmələ gətirir. Bu deformasiyaları bərpa etmək üçün baldır implantlarından istifadə edilir. Dizaltı çuxurun baldıra keçid nahiyəsində təqribən 2-3 sm uzunluğunda horizontal kəsik aparılır. Dəri və dərialtı piy toxuması əzələüstü fasiyyaya qədər kəsilir. Fassiya üzərində içəri topuğa qədər cib hairlanır. Cibin içərisi diqqətlə təftiş edildikdən sonra implant diqqətlə bu cibin icərisinə yerləşdirilir. Sonra dərialtı piy toxuması implantı zədələmədən 3,0-4,0 vikril sapla tikilir. Dəri isə 4,0 prolen sapla intradermal tikilir. Bundan sonra kəsik xəttinə kip sarğı qoyulur və xüsusi sıxıcı corab geyindirilir.

Yumşaq toxumaların müxtəlif deformasiyalarında implantla bərpa əməliyyatlarının modifikasiyası. İmplantla bərpa əməliyyatından sionra kapsulyar kontrakturanın qarşısını almaq üçün bizim tərəfimizdən xüsusi üsul təklif edilmişdir. Bu üsulun mahiyyəti əməliyyatdan təqribən 25 gün sonra kapsula ilə implantın arasına autogen piy toxuması yeritməkdən ibarətdir - bədənin piyli nahiyələrindən (qarın, sarğı və s.) alınmış piy toxuması xüsusi alətlərlə alınaraq bu nahiyəyə yeridilir. Autogen piy toxumasının tərkibindəki hüceyrələr, o cümlə-

dən kök hüceyrələri kapsulyar kontrakturanın əmələ gəlməsinə səbəb olan birləşdirici toxumanın inkişafının qarşısını alır.

Nəticələr və müzakirələr. Klassik əməliyyat icra edilmiş xəstələrin hamısında təbii görünüş və dolğunluq əldə edilmiş, lakin 5 xəstənin 1-də kapsulyar kontraktura səbəbindən estetik nəticələr qənaətbəxş olmamışdır. Ona görə də bu xəstələrdə kapsulatomiya icra edilmiş və residivin qarşısını almaq üçün bu nahiyəyə kortikosteroid (kenakort A) məhlulu yeridilmişdir. Həm də, kapsulatomiya əməliyyatından 5-6 gün sonra fizioterapiya və massaj təyin edilmişdir.


Xəstələrin 7-də implantla bərpa əməliyyatı modifikasiyalı variantda tətbiq edilmişdir. Kapsulyar kontrakturanın qarşısını almaq üçün yuxarıda qeyd edildiyi kimi əməliyyatdan təqribən 25 gün sonra kapsula ilə implantın arasına autogen piy toxuması yeridilmiş, 2 həftə sonra isə fizioterapiya və massaj təyin edilmişdir. Nəticədə bu xəstələrdə kapsulyar kontraktura müşahidə edilməmiş, ona görə də bu xəstələrin hamısında təbii görünüş və dolğunluq əldə edilmişdir (cədvəl 1). Ətraf toxuma ilə implantın arasına 25 gün fasilələrlə təbii dolğunluq əldə edilənə qədər autogen piy toxuması yeridilmiş və estetik nəticələr daha da yaxşılaşdırılmışdır (şəkil 1). Bundan əlavə, bu xəstələrdə ətraf toxuma ilə implantın arasına köçürülmüş piy toxuması dolğunluğu daha da yaxşılaşdırdığından, palpasiya zamanı implantın mövcudluğu hiss edilməmiş, dəri və implant arasındakı keçid sezilməz olmuşdur.

Cədvəl 1.

Baldır nahiyəsində implantla klassik və modifikasiyalı bərpaları zamanı fəsadlaşmaların rastgəlmə tezliyi

Fəsadlaşmalar	İmplantla klassik bərpa (5 xəstə)	İmplantla modifikasiyalı bərpa (7 xəstə)
Kapsulyar kontraktura	1 (20%)	--
Baldır nahiyəsinin dol-ğunluq və simmetrikliyi	3 (60%)	7 (100%)*
Ekssudat və hematoma	1 (20%)	--

Qeyd: * - klassik əməliyyatla müqayisədə fərqlər statistik cəhətdən etibarlıdır ($p<0,05$).



Şək. Baldır nahiyəsində implantla modifikasiyalı bərpa əməliyyatından öncə və sonra xəstənin kosmetik görüntüsü

Beləliklə, baldır nahiyəsinin müxtəlif deformasiyalardan sonra implantla modifikasiyalı bərpa əməliyyatı fəsadlaşmaların rastgəlmə tezliyini klassik əməliyyata nisbətən müəyyən qədər azaltmışdır. Belə ki, əsas fəsadlaşmalardan olan kapsulyar kontraktura implantla klassik bərpa olunmuş 5 xəstədən 1-də (20%) rast gəlindiyi halda, implantla modifikasiyalı bərpa olunmuş 7 xəstədən heç birində rast gəlinməmişdir. Bundan əlavə modifikasiyalı bərpa əməliyyatından sonra bütün xəstələrdə (100%) hematoma və ekssudat müşahidə edilməmiş, baldır nahiyəsinin dolğunluq və simmetrikliyi təmin olunmuşdur. Müqayisə üçün, implantla klassik bərpa əməliyyatdan sonra baldır nahiyəsinin dolğunluq və

simmetrikliyi 5 xəstədən 3-də (60%, p<0,05) təmin olunmuşdur.

Baldır nahiyəsinin deformasiyalarında implantla bərpa əməliyyatına təklif etdiyimiz modifikasiyanın nəticələrinin implantla klassik bərpa əməliyyatlarının nəticələri ilə müqayisəsi göstərir ki, modifikasiyalı bərpa əməliyyatından sonra fəsadlaşmalar əhəmiyyətli dərəcədə azalır, eləcə də deformasiya olunmuş toxumalarda dolğunluq və simmetriklik, xəstə məmnuniyyəti klassik bərpa əməliyyatlarına nisbətən daha çox hallarda təmin olunur. Bunları nəzərə alaraq yumşaq toxumaların deformasiyalarında implantla bərpa əməliyyatına təklif etdiyimiz modifikasiyanın kosmetik və rekonstruktiv cərrahiyyədə geniş tətbiq edilməsi məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. Araco A., Gravante G., Araco F. et al Capsular contracture: results of 3002 patients with aesthetic breast augmentation // Plast Reconstr Surg, 2006, v.118(6), p.1499-1500.
2. Carpaneda C.A. Inflammatory reaction and capsular contracture around smooth silicone implants // Aesthet Plast Surg, 1997, v.21, p.110-114.
3. Coleman D.J., Sharpe D.T., Naylor I.L. et al. The role of the contractile fibroblast in the capsules around tissue expanders and implants. Br J Plast Surg, 1993, v.46(7), p.547-556.
4. Friedman H.I., Friedman A.C., Carson K. The fate of the fibrous capsule after saline implant removal // Ann Plast Surg 2001, v.46, p.215-221.
5. Kamel M., Protzner K., Fornasier V. et al. The peri-implant breast capsule: an immunophenotypic study of capsules taken at explantation surgery // J Biomed Mater Res., 2001, v.58, p.88-96.
6. Minami E., Koh I.H., Ferreira J.C. et al. The composition and behavior of capsules around smooth and textured breast implants in pigs. // Plast Reconstr Surg 2006, v.118, p.874-884.
7. Prantl L., Schreml S., Fichtner-Feigl S. et al. Clinical and morphological conditions in capsular contracture formed around silicone breast implants // Plast Reconstr Surg 2007, v.120(l), p.275-284.

Рехюме

Результаты восстановительных операций с имплантатами при деформациях в области икор

В.М.Галендеров

Целью исследования явилось сравнительная оценка результатов восстановительных операций с имплантатами при деформациях в области икор и клссических восстановительных операций. В исследование вошли 12 больных с деформациями в области икор. Из этих пятеро прошли классическую восстановительную операцию, а 7 больным была проведена модифицированная восстановительная операция. По основным параметрам было определено, что модивицированная воссатновительная операция с приминением имплавтов является эффективным методом устранения этих деформаций.

Summary

The results of reconstructive operations on different deformations of shank area using implants

V.M.Galandarov

The aim of the study was a comparative evaluation of the results of reconstructive surgery with implants at strains in the ICOR klssicheskih and recovery operations. The study included 12 patients with deformities in the ICOR. Of these, five have been classical reconstructive surgery, and 7 patients underwent a modified recovery operation. On the basic parameters it was determined that modivitsirovannaya vossatnovitelnaya operation to demonstrate how implavtov is an effective method to eliminate these distortions.

Daxil olub: 29.04.2015

ALT ÜÇÜNCÜ BÖYÜK AZI DİŞİ CƏRRAHİYYƏSİNDƏ LEVOBUPİVAKAİNİN TRİSMUSA TƏSİRİ

E. Nəcəfov
N. Tusi adına klinika

Açar sözlər: trismus, cərrahi somatologiya, levobupivakain
Ключевые слова: трисмус, хирургическая стоматология, левобупивакаин
Key words: trismus, dental surgery, levobupivacaine

Müasir oral cərrahiyyədə retansial diş əməliyyatı ən geniş yayılmış əməliyyatlardan biridir. Bu əməliyyatlardan sonra 10% halda yüngül dərəcəli ağırlaşmalar baş verir [10,15].

Əməliyyatdan iki gün sonar trismus maksimal səviyyəyə çatır və ilk həftənin sonunda yox olur. Ağız açıqlığı, bir çox araşdırmalarda ağıl dişlərinin çəkimindən sonra ağrıkəsici dərman istifadələrində təsiredici bir parametr olaraq istifadə edilmişdir [1,8,13,22].

Levobupivakain, amid qrupu, uzun təsirli yerli keyləşdirici maddədir. Tərkibində damarbüzücü maddə olmamasına baxmayaraq damarbüzücü təsir göstərir və əməliyyatdan sonra daha uzun müddət ağrıkəsici effekti vardır [7]. Levobupivakain, bupivakainin S(-) enantiomeri olub, daha uzun keyləşdirici təsirə malikdir və bupivakain R(+) enantiomerə görə mərkəzi sinir və qan damar sisteminə daha az toksiki təsir göstərir [2,14].

Tədqiqatın **məqsədi** alt üçüncü böyük azı dişi cərrahiyyəsində levobupivakainin trismusa təsirinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqata ümumilikdə 100 xəstə daxil edilmişdir. Tədqiqat daxil edilən xəstələrin hamısı Səlcuq Universiteti Ağız Diş və Çənə Cərrahiyyəsi Şöbəsinə retansiyalı alt üçüncü böyük azı dişinin çəkimi ilə əlaqədar müraciət etmişlər Xəstələrdə heç bir sistem xəstəliyin olmamasına və ən az bir sümük retansiyalı alt üçüncü böyük azı dişi olmasına diqqət edilmişdir.

Tədqiqata heç bir sistem xəstəliyi olmayan 55 qadın və 45 kişi daxil edilmışdır. Orta yaş həddi 18-41 olmuşdur. Əməliyyatdan sonra infeksiyası olan və ikinci və yeddinci günlərdə yoxlamaya gəlməyən xəstələr tədqiqatdan kənar edilmişdir. Xəstələr təsadüfi şəkildə iki qrupa ayrılmışdır. Bir qrupa lokal anestetik olaraq artikain digər, qrupa isə levobupivakain istifadə edilmişdir.

Parant şkalasına [16] görə II-IV cərrahi dərəcəsi olan və yerli infeksiya olmayan dişlər tədqiqata daxil edilmişdir. Panaromik və klinik müayinələr aparıldıqan sonra, bir ay müddətində heç bir antibiotik və ya ağrıkəsici dərmanlar qəbul etməyən xəstələr seçilmişdir. Siqaret çəkən, periodontal problem olan, hamilə olanlar, hamiləliyə qarşı dərman istifadə edənlər və əmizdirmə dönəmində olanlar tədqiqatdan kənar edilmişdir.

Araşdırma ikili randomizə olaraq aparılmışdır. Bütün əməliyyatlar eyni cərrah tərəfindən eyni üsulla aparılmışdır. Əvvəlcədən hazırlanan 0,25%-lik levobupivakain (Chirocaine, Abbot Laboratoriyaları, Nycomed Pharma Norveç) ya da artikain (Ultracain DS Forte, Sanofi-Aventis, Almaniya) təsadüfi seçilərək xəstəyə alveolaris inferior və bukkal anesteziyası edilmişdir. İkinci azı dişin orta üçlüyündən keçəcək şəkildə kəsik aparılaraq, zərf şəkilli toxuma qaldırılmışdır. Dişin ətrafındakı sümük rond və fissur frezlərlə qaldırılan bəzi hallarda kron-kök ayrılaraq diş çəkilmışdır. Çəkim yeri küretaj edilib 3.0 ipək sapla tikilmışdır. Əməliyyatdan sonra xəstələrə amoksisillin 500mq 3x1, parasetamol 2x1 və xlorheksidin qlükonat ilə qarqara təyin edilmişdir. Xəstələrə yalnız ağrı olduğu halda ağrıkəsici istifadə etməsi tövsiyə edilmişdir.

Trismusu qiymətləndirmək üçün əməliyyatdan əvvəl intersiziyal açıqlıq ölçülmüşdür. Əməliyyatdan sonra ikinci və yeddinci günləri trismusun dərəcəsini ölçmək üçün xəstələr yenidən baxışa çağrılmışlar.

Əldə olunan məlumatların statistik analizi SPSS 12 proqramı vasitəsilə aparılmışdır. Homogen dağılım göstərən məlumatların statistik analizi t testi ilə, digər məlumatların statistik analizi isə Mann-Whitney U testi ilə aparılmışdır.

Alınan nəticələr və onalrın müzakirəsi. Əməliyyatların orta davametmə müddəti 16,33± 5,76 dəqiqə olmuşdur. Levobupivakain istifadə olunan qrupda induksiya vaxtı 13,42±6,86 dəqiqə, artikain istifadə olunan qrupta isə 3,34±1,51 dəqiqə qeydə alınmışdır. Levobupivakainin induksiya vaxtı gec olmasına baxmayaraq, təsir vaxtı artikainə görə daha uzun olduğu məlum olmuşdur. Levobupivakaində təsir vaxtı 5,675±2,227 saat, artikaində isə 3,835±1,55 saatdır.

Əməliyyatdan əvvəl intersizial açıqlıq ölçülmüş və xəstələrə ikinci və yeddinci

günlərdə ölçmə üçün gəlmələri bildirilmişdir. Əldə edilən məlumatlardan ikinci gün trismus göstəriciləri normal dağılım göstərdiyindən t testi, yeddinci gün göstəriciləri normal dağılım göstərmədiyindən Mann-Whitney U və Wilcoxon W testi istifadə edilmişdir.

İkinci gündə trismusun statistik nəticəsinə görə p=0,61; yeddinci gündə p=0,136 olmuşdur. Əldə etdiyimiz nəticələrdən p>0,05 olduğundan hər iki qrup arasında heç bir fərq olmadığı məlum olmuşdur. Əməliyyatdan sonra yaranan trismusa təsirinə görə artikain və levobupivakain arasında fərq tapılmamışdır.

Bəzi tədqiqatlarda trismusun əmələ gəlmə sıxlığı ilə vaxtı uzanan cərrahi müalicəsi cərrahın səriştəsi ilə əlaqədar olduğu ortaya çıxmışdır [4,5,21]. Lakin bəzi müəlliflərin göstəriciləri buna zidd olmuşdur [6,11]. Şişkinlik üçün steroid verilən xəstələrdə trimus daha az qeydə alınmışdır [3,12,18].

Garcia Garcia və həmmüəl əməliyyat sonrasında birinci və beşinci günlərdə maksimum ağız açıqlığını ölçərək trismusu qiymətləndirmişlər. Trismus bəsit çəkimlərdə daha az, cərrahi çəkim sonrasında daha çox olmuşdur. Lakin cərrahi əməliyyatın çətinliyi trismusa təsir etməmişdir. [9].

J.P.Rood və həmmüəl. tərəfindən aparılan tədqiqatlarda 0,75%-li levobupivakainin (vazo= konstriktorsuz) təsir və təhlükəsizliyi 2%-li lignokain (1:80000 adrenalinli) və placebo ilə müqayisə edilmişdir. 93 xəstə, ümumi anesteziya altında retansiyalı alt üçüncü böyük azı dişi əməliyyatı olunmuşdur. Təsadüfi qarışıq, ikili randomizə və plasebo kontrou üzrə bu araşdırmada premedikasiya və analgeziya istifadə olunmamışdır, lakin əməliyyat zamanı tələbat olduqda qısatəsirli opoidlər istifadə edilmişdir. Xəstələrə xəstəxanadan çıxdıqdan sonra iki gün ərzində günlük tutmaları deyilmişdir. Levobupivakain verilən xəstələrdə ən aşağı VAS dəyəri görülmüş və analgetik təsiri uzun olmuşdur. Buna səbəb oral əməliyyatlarda lignokain əvəzinə levobupivakainin istifadə edilməsi qeydə edilmişdir [19].

Heyvanlar üzərində tədqiqatlarda levobupivakainin ürək damar və mərkəzi sinir sisteminə toksiki təsiri bupivakainə nisbətən daha az olduğu göstərilmişdir [20]. Könüllülər üzərində aparılan tədqiqatlarda intravenoz istifadə olunan levobupivakainin rasemik bupivakainə nisbətən kardioloji indeks, akselerasiya indeks daha az məhdudlaşdırıldığı qeyd edilmişdir [2].

Nəticə. Aparılan tədqiqatda yeni anestetik olan 0,25%-li levobupivakainin istifadəsi nəticəsində alınan nəticələr oral cərrahiyyədə çox istifadə olunan artikainlə müqayisə edilmişdir. Ümumilikdə 100 nəfər üzərində aparılan tədqiqatda levobupivakainin induksiya vaxtının uzun olmasına baxmayaraq, postoperatif analgetiq təsirin nəzərəçarpacaq dərəcədə çox olduğu məlum olmuşdur.

Preoperativ və postoperativ ikinci və yeddinci günlərdə intersizial açıqlıq ölçülərək trismus qiymətləndirilmişdir. Statistik təhlildən sonra artikain və levobupivakain arasında önəmli fərqlərin olmadığı aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Amin M.M. Prophylactic use of indomethacin for prevention of postsurgical complications after removal of impacted third molars. // Oral Surg Oral Med Oral Pathol., 1983, v.55, p.448
2. Bardsley H., Gristwood R., Baker H. et al A comparison of the cardiovascular effects of levobupivacaine and rac-bupivacaine following intravenous administration to healthy volunteers // Br J Clin Pharmacol., 1998, v.46, p.245-249.
3. Beirne O.R., Hollander B. The effect of methylprednisolone on pain, trismus and swellimg after removal of third molars // Oral Surg., 1986, v.61, p.134.
4. Berge T.I., Gilhuus-Moe O.T. Pre- and post-operative variables of mandibular third molar surgery by four general practitioners as one oral surgeon //Acda Odontol Scand., 1993, v.51, p.389-397.
5. Capuzzi P., Montebugnoli L., Vaccaro M.A. Extraction of third molars. A longitudinal prospective study on factors that affect postoperative recovery // Oral Surg Oral Med Oral Pathol., 1994, v.77, p.341-343.
6. de Boer M.P., Raghoebar G.M., Stegenga B. et al Complications after mandibular third molar extraction // Quintessence Int., 1995, v.26, p.779-784.
7. Foster R.H., Markham A. Levobupivacaine: A review of its pharmacology and use as a local anaesthetic // Drugs, 2000, v.59, p.53-59.
8. Gallardo F., Carstens M., Ayarza M. Analgesic and antiinflammatory effects of glucamethacin (a nonsteroidal antiinflammatory analgesic) after the removal of impacted third molars // Oral Surg., 1990, v.69, p.157.

9. Garcia Garcia A., Gude Sampedro F., Gandara Rey J., Gallas Torreira M. Trismus and pain after removal of impacted lower third molars // J Oral Maxillofac Surg., 1997, v.55, p.1223-1226.
10. Goldberg M.H., Nemarch A.N., Marco WP. Complications after mandibular third molar surgery: statistical analysis of 500 consecutive procedures in private practice // J Am Dent Assoc., 1985,v.111, p.277-79.
11. Handelman S.L., Black P.M., Desjardins P. Removal of third molars by oral/maxillofacial surgery and general dentistry residents // Spec Care Dentist, 1993, v.13, p.122-126.
12. Huffman G.G. Use of methylprednisolone sodium succinate to reduce postoperative edeme after removal of impacted third molars // J Oral Surg., 1977, v.35, p.198.
13. Lysell L., Anzen B. Pain control after third molar surgery: A comparative study of ibuprofen (Ibumetin) and a paracetamol/codein combination (Citodon) // Swed Dent J, 1992, v.16, p.151.
14. Mather L.E., McCall P., McNoil P.L. Bupivacaine enantiomer pharmacokinetics after intercostal neural blockade in liver transplantation patients // Anesth Analg., 1995, v.80, p.328-335.
15. Nordenram A. Postoperative complications in oral surgery // Swed Dent J, 1983,v.7, p.109-14.
16. Parant M. Petite Chirurgie de la Bouche. Paris: Expansion Cientifique, // J Oral Maxillofac Surg, 1977, v.55, p.1223-26
17. Peterson L.J., Indersano A.T., Marciani R.D. Priciples of oral and maxillofacial Surgery. Vol.1 Philadelphia: Lippincott-Raven Publishers, 1997, p.117-119.
18. Pedersen A. Decadronphosphate in the relief of complaints after third molar surgery // Int J Oral Surg., 1985, v.14, p.235.
19. Rood J.P., Coulthard P., Snowdown A.T., Genery B.A. Safety and efficacy of levobupivacaine for postoperative pain relief after the surgical removal of impacted third molars: a comparison with lignocaine and adrenaline // Br J Oral Maxillofac Surg., 2002, v.40, p.491-96.
20. Shiwa S.S., Macleod B.A., Day B. Intraarticular bupivacaine after arthroscopic menisectomy: a randomized double-blind study // Arthroscopy, 1989, v.5, p.33-35.
21. Sisk AL., Hammer W.B., Shelton D.W., Joy E.D.Jr. Complications following removal of impacted third molars: the role of the experience of the surgeon // J Oral Maxillofac Surg., 1986, v.44, p.855-859.
22. Troullos E.S., Hargreaves K.M., Buttler D.P. et al. Comparison of nonsteroidal antiinflammatory drugs, ibuprofen and flurbiprofen, with methylprednisolone and placebo for acute pain, swelling and trismus // J Oral Maxillofac Surg., 1990, v.48, p.945.

Резюме

Влияние левобупивакаина на трисмус при хирургии нижнего третьего коренного зуба

Э.Наджафов

В исследование вошли 100 больных со средним возрастом 18-40 лет без системных болезней у которых хотя с одним ретонционным нижним третьим AZI DİŞİ. Больные были рандомизированно разделены на две группы. Операции велись одним и тем хирургом. Всем больным после операции были одинаковые назначения (амоксициллин, парецетамол, хлоргексин глюконат). Для оенцки трисмуса до операции и после операции на 7 день измерялся открытие рта.

Summary

Influence of levobupivacaine on trismus during surgery of the lower third molar

E.Najafov

The study included 100 patients between ages of 18-40 do not have any systematic disease and at least have one impacted lower third molar that is bone retentioned. The patients separated randomly into 2 groups via using double blind experiment. Operations performed by the same surgeon and almost with the same method. After the operation, all patients obtained the same prescription that included amoxicillin, paracetamol, chlorhexidine gluconate. Trimus evaluations are recorded before surgery and on the second and seventh days after surgery.

Daxil olub: 17.06.2015

BÖYRƏK, SİDİK SİSTEMİ İNFEKSİYALARI VƏ HAMİLƏLİK

G.İ.Axundova, İ.A.Şamxalova
Ə.Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

Açar sözlər: hamiləlik, böyrək xəstəliyi, sidik infeksiyaları, bakteriyauriya, sistit, pielonefrit
Ключевые слова: беременность, болезни почек, мочевые инфекции, бактерияурия, цистит, пиелонефрит
Key words: pregnancy, kidney disease, urinary tract infections, bacteriuria, cystitis, pyelonephritis

Normal hamiləlik zamanı erkən vaxtlardan başlayaraq, 80% qadınlarda sidik sistemində funksional dəyişikliklər baş verir ki, bu da özünü böyrək kalikslərinin və sidik axarlarının genişlənməsi, uretranun tonusunun aşağı düşməsi ilə özünü biruzə verir [1]. Bu fonda uretrada durğunluq artır, reflükslar əmələ gəlməyə başlayır, nəticədə mikrob toksikliyi böyrəyi zədələyir və pielonefrit əmələ gəlir [1].

Bəzi hamilələrdə progesteronun əzələ qatına relaksiya təsiri nəticəsində hamiləliyin 14-cü həftəsindən tez sidik axarlarında genişlənmə baş verir. Bu hal çox zaman böyümüş uşaqlığın təsiri nəticəsində müşahidə olunur [2]. Böyrəklərdə funksional hipertrofiya əlamətləri olur. Qlomerullar böyüyür, lakin hüceyrə sayı artmır [3]. Hamiləliyin 12-ci həftəsindən qlomerullarda filtrasiyanın sürəti 20% artır [4].

Hamiləlik zamanı böyrək funksiyalarının qiymətləndirilməsi. Sidiyin müayinəsi zamanı bir çox dəyişikliklər müşahidə olunmur. Airaldi və Weinstein (2007) apardıqları təcrübə əsasında belə qərara alınmışdır ki, sutkalıq sidikdə zülalın miqdarı 300 mq/gün keçərsə, o zaman proteinurinin olduğunu demək olar. Hamiləliyin 20 həftəsindən əvvəl sidikdə +1 və daha çox qan qeydə alındıqda idiopatik hematuriya sayılır və bu hamiləlikdə preeklampsiya riskini 2 dəfə artırır [4]. Bir çox hamilələrdə az miqdarda hematuriya 40% halda yalan müsbət olur [5]. Serumda kreatin 0,9 mq/dl-dən çox olarsa, bizə böyrək xəstəliyindən şübhələnməyə əsas verir [5].

Sidik sistemi infeksiyaları. Hamiləlikdə ən çox bakterial infeksiyalara rast gəlinir. Bunlar da infeksion sistitə və ya pielonefritə səbəb olur. Urinar sistem infeksiyalarına yol açan orqanizmlər normal perinə florasıdır. Qeyri-abstruktur pielonefritə səbəb olan 90% Eschericha coli ştamlarının virulentliyi artmış olur, S və ya P formalarında olur [6].

Hamiləlikdə bu bakteriyaların virulentliyinin artması ilə bərabər, urinar staz və vezikoureterol reflüks nəticəsində bakterial toksinlər böyrəkləri zədələyir və pielonefrit əmələ gəlir. Bu, xüsusən diabetik xəstələrdə kəskin olur [7].

Asimptomatik bakteriyalar urinar sistemdə aktiv şəkildə çoxsaylı bakteriyaların persistə etməsi ilə müşahidə olunur. Normal hamiləliyi olna 4-6% qadında sidikdə bakteriyalar aşkar edilir [8].

Bakteriyaların ilk perinatal müayinələr nəticəsində sidikdən alınan yaxmada aşkar edildikdə və müalicə alındıqdan sonra yalnız 1% qadında bakteriuriya inkişaf edə bilər [9]. Asimptomatik bakteriyauriya müalicə olunmadıqda, hamilələrin 25%-də yayılmış simptomatik infeksiya əmələ gələr.

Bəzi araşdırmalardan məlum olmuşdur ki, vaxtından əvvəl doğuş, azçəkili uşaqların doğulması kimi halların səbəbi gizli bakteriyauriya da olur [10].

Scheikl və həmmüəl. (1994) tərəfindən asimptomatik bakteriyauriya olan 25,746 ana üzərində aparılan perinatal müayinələr nəticəsində müəyyən edilmişdir ki, bu analarda vaxtından əvvəl doğuş, hipertenziya və anemiya riski tezliyi yüksək olmuşdur.

Lakin sonralar aparılan çoxsaylı tədqiqatlarda təsdiq edilmişdir ki, asimptomatik bakteriyauriya sidik sistemi infeksiyalarından başqa hamiləliyə heç bir mənfi təsir göstərmir [11].

Hamiləlik zamanı bakteriyauriyaların müalicəsi. Bu zaman müalicənın məqsədi sidiyin sterilliyinə nail olmaq və ağırlaşmaların aradan qaldırılmasından ibarətdir [12].

Cədvəldə verilən antimikrob müalicə sxemlərindən hər hansı birinin tətbiqi müsbət nəticə verir. Sumdiqanan və həmmüəl. (2009) tərəfindən 7 günlük müalicədə gündə 2 dəfə verilən nitrofuron təyin edilməklə müsbət nəticə əldə edilmişdir. Təkrarlanan hallarda 21 gün müddətində gecə yatarkən 100 mq oral nitrofuronla aparılan müalicədə də müsbət nəticə alınmışdır [13].

Bu dərman preparatı nadir hallarda keçib gedən ağ ciyər reaksiyasına səbəbola bilər [13].

Hamiləlikdə aşağı sidik yollarının infeksiyası gizli bakteriyauriya olmadıqda sistit və uretrit baş verə bilər [13].

Xəstənin şikayətləri diurez, tez-tez sidiyə getmə, göynərti, qasıqda ağrılar, sidiyin tam

boşalmaması hissi olur. Sidiyin laborator müayinəsi zamanı bakteriyauriya və piuriya aşkar edilir. Pielonefriti olan hamilələrin 40%-da əvvəllər aşağı sidik yollarının infeksiyasının olduğu məlum olmuşdur [14]. Sistitin müalicəsində də cədvəldə verilən antimikrob müalicə sxemlərindən hər hansı birindən istifadə edilir. İstənilən 3 günlük müalicə sxeminin çoxu 90% hallarda yaxşı nəticə verir. Birdəfəlik müalicə az effektli hesab edilir [14].

Cədvəl

Asimptomatik bakteriyauriyanın antimikrob müalicə sxemi

Birdəfəlik müalicə	3 günlük müalicə	Başqa müalicə sxemləri	Bakterial təkrarlanma
Amoksilin 3 qr Ampisilin 2 qr Sefalosporin 2 qr Nitrofurontoin 200 mq Trimethoprim-sulfometoksozol 320/1600 mq	Amoksilin x 500 mg x 3 dəfə Ampisilin 250 mg x 4 dəfə Sefalosporin 250 mg x 4 dəfə Siprofloksasin 250 mg x 2 dəfə Selofloksasin 250 x 2 dəfə Nitrofurontoin 100 mq x 4 dəfə	1. Nitrofurontoin 100 mq x 4 dəfə 10 gün 2. Nitrofurontoin 100 mg x 7 gün 3. Nitrofurontoin 100 mg x 10 dəfə 10 gün	Nitrofurontoin 100 mg hamiləliyin axırına kimi

Hamiləlikdə ən çox rast gəlinən ekstragenital xəstəliklərdən biri pielonefrit olub, 8-12% hamilədə qeydə alınır [15.

Mabil və həmmüəl. (1997) tərəfindən müəyyən edilmişdir ki, hamiləlik zamanı septiki şokun əsas səbəbi pielonefritdir. Bu da xəstəliyin nə dərəcədə ciddi olfuğunu göstərir.

Həqiqətən son 2 il ərzində Parkland xəstəxanasının Doğum şöbəsinin reanimasiyasına daxil olan septiki şok keçirmiş xəstələrin 12%-də pielonefrit qeydə alınmışdır [16].

Erkən gənc yaşlarda hamilə qalan qadınlarda hamiləliyin 2-ci trimestrində pielonefrit daha çox müşahidə olunur [8]. Xəstələrin yarısında təktərəfli və sağ tərəfli, digər yarısında ikitərəfli pielonefrit olur. Simptomları: ani başlayan temperatur yüksəlməsi, üşütmə, bel nahiyəsində ağrılar.

Sidiyin müayinəsi zamanı çox miqdarda leykosit və bakteriyalar aşkar edilir. Xəstələrin sidik və qanında 75-80% E. coli, 3-5%-Klebsiella pneumaniae, 3-5% - Enterobakteri və proteus və 10%- streptokokk B tərkibli qram-müsbət mikroorqanizmlər aşkar edilir [17].

Plazmada kreatin izlənilməlidir, çünki bəzi tədqiqatçılara gördə hamilələrin 20%-də, digərlərinə görə 5%-də böyrək disfunksiyası inkişaf edir [17].

Böyrək disfunksiyası tərəfindən törədilən endotoksin nəticəsində 10% hamilədə alveol zədələnməsi, nəticədə tənəffüs çatışmazlığı və ağ ciyər ödemi meydana gələ bilir [8].

Bəzi hallarda ağ ciyər zədələnməsi kəskin respirator distress sindromuna (KRDS) səbəb ola biləcək qədər ciddi olur. Endotoksin nəticəsində uterusda kontroksiyalar artır [6].

Millar və həmmüəl. 2003-cü ildə apardıqları tədqiqatlarda müəyyən edilmişdir ki, pielonefritli hamilələrdə kontraksiyaların miqdarı saatda orta hesabla 5' olur, introvenoz maye və antimikrob müalicədən 6 saat sonra isə kontraksiyalar saatda 2 olur. Endotoksinlə əlaqədar olaraq hemoliz aparılır və piyelonefritli xəstələrin 1/3 anemiya inkişaf edir [7]. Sağalma müddətində hemoqlobin normal həddə çatır, çünki infeksiya eritropoetinin yaranmasına təsir göstərmir [8].

Pielonefritli hamilələrin aparılması mərhələləri:

1. Stasioanara göndərilir.
2. Sidik və qanın müayinələri aparılır.
3. Hemoqram, serum, kreatin və elektrolitləri təyin edilir.
4. Sidiyə getmə müşahidə edilir. Həyatı göstəricilər nəzarətdə saxlanılır.
5. İntravenoz antimikrob müalicə aparılır.
6. Dispnoe və tosipnoe olduqda, ağ ciyər rentgenoqramları alınır.
7. 48 saat ərzində təkrar hematoloji və biokimyəvi müayinələr aparılır.
8. temperatur düşdükdən 24 saat sonra evə yazılır və 7-10 gün antimikrob müalicə təyin edilir.

9. Antimikrob müalicə sona yetdikdən 1-2 həftə sonra sidik yaxmasının təkrar müayinələri aparılır [18].

Antimikrob müalicəni ampisilin + hentamisin, sefazolin və ya seftriaksonla yəni geniş spektrli antibiotiklərlə apardıqda 95% halda müsbət nəticə alınır [18]. Nefrotoksik dərmanlar təyin edildikdə qan zərdabında kreatinin səviyyəsi nəzarətdə saxlanılır.

Başlanğıc müalicə olaraq hentamisin + ampisilin və ya seftriakson təyin edilə bilər [31]. Bu müalicələr 95% halda müsbət nəticə verir və 72 saat ərzində temperaturun aşağı düşməsinə səbəb olur [18].

Wing və həmmüəl. 1999-cu ildə 92 hamilə üzərində tədqiqatlar aparmışlar. Onlara seftriakson 1 qr x 2 dəfə təyin edərək evdə müalicəyə buraxılmışlar və bu xəstələrin 1/3-də müalicə qeyri-effektiv olmuş və xəstələr yenidən stasionara daxil edilmişlər. Buradan belə qənaətə gəlmək olar çox az pielonefritli hamilələrin evdə müalicəsi effektiv olur.

48-72 saat ərzində klinik yaxşılaşma qeydə alınmadıqda, sidik sistemi obstruksiyasını araşdırmaq üçün sonoqrafiya aparılmalıdır [3]. Ən son isə maqnit rezonans uroqrafiya təyin edilər bilər [5]. Davam edən infeksiyanın digər səbəbi intrarenal və ya perinefrit opse və ya fleqmona ola bilər [5].

Yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, hamiləlik zamanı böyrək və sidik sistemi infeksiyaları son dərəcə təhlükəli xarakter daşıyaraq, həm ana, həm də döl üçün həyatı əhəmiyyət kəsb edir. Bu səbəbdən hamiləlik zamanı erkən mərhələlərdə bu infeksiyaların aşkar edilməsi, effektiv müalicənin aparılması mama-ginekoloqların xüsusi diqqət mərkəzində olmalıdır. Aparılan ədəbiyyat təhlillərindən məlum olur ki, böyrək və sidik yolları infeksiyalarının vaxtında aşkar edilməsi üçün son dərəcə informativ müayinə metodları vardır. Tam dəqiqliklə patologiya aşkar edildikdə adekvat müalicənin aparılması üçün praktik həkimlərin ixtiyarına müxtəlif spektrli antimikrob preparatlar arsenalı təqdim edilmişdir.

ƏDƏBİYYAT

1. Захарова Е.В. Течение почечных болезней во время беременностей // Гинекология, 2008, №6, с.4-12
2. Никонов А.П. Инфекция мочевых путей и беременность // Гинекология, 2007, №1, с.78-84
3. Foundes A., Bucola Filho M., pintoe Silva J. Proposal of a curve of maximal valicebl diameter by gestational age // Am. Obstet. Gynecol., 1998, v.178, p.1082
4. Strekens H., Wide-Swensson D., Hansen A. et al. Glomerular endothelisos in normal pregnancy and pre-eclampsia // Br. J. Obstet., 2003, v.110, p.831
5. Hlodunewich M., Lafayetta R., Derby G. et al. The dynamics of qlomerulla filtration the puerperium // Am. Physiol Renal Physiol., 2004, v.286, F.496
6. Stehman-Breen Co. Increased risk of preeclampsia amongnullporoos pregnant women with idiopatic hemoturia. 2002, v.187, p.703
7. Brown M., Holt J., Mangos G. Relavonce to pregnancy outcome // Am. J. Kidney, 2005, Dis.45, p.667
8. Hill I., Sheffield I. Acute pyelonephritis in pregnancy // Obstet. Gynecol., 2005, v.105, p.38
9. Dodson K., Pinkner I. Structural basis of the interaction of the pyelonephritic E. coli adhesin to its human kidney receptor // Cell, 2001, v.105, p.733
10. Czoja C., Rutledge B., Cleory P. et al. Urinary tract infections in women with type 1 diobltes mellitu; surkey of femele participonts in the epidemiology of diabets intervention and complications study cohort // J Urol., 2009, v.183, №3, p.1129
11. Whalley P. Bacteriuria of pregnancy // Am. J. Obstet., 1967, v.97, p.723
12. Kass E. Pyelonephritis and bacteriuria // Ann. Intern. Med., 1962, v. 56, p.46
13. Willoms 2014, Bölüm 48, səh.1035
14. Sobel I., Koye D., Dolin R. (eds) – In: Principles of practice of infections diseases / 2000, Fifty edition, v.1
15. Tihn S. Acute uncomplicated urinary tract infection in women // Med. J., 2003, v.349, p.259
16. Iremosuli V. Sidik yollarının infeksyon // Regyonun tibb jurnalı, 2007, t.15, №29, s.2231-2236
17. Zeeman G. A blueprint for obstetric critical care // Am. J Obstet. Gynecol., 2003, v.188, p.532

18. Wing D. Limited clinical utility of blood and uriner cultures in the treatment of acute pyelonephritics during pregnancy. 2000, v.182, p.1437

Резюме

Инфекции почек и мочевой системы и беременность

Г.И.Ахундова, И.А.Шамхалова

Инфекции мочевой системы имеет особенной значение при беременности, так как может быть причинном выкидышей, анемии и гипертензии у беременных женщин. Имея большой арсенал антимикробных препаратов лечение этой патологий при беременности может быть эффективным. Эта статья посвящена проблеме диагностики и лечение Инфекции почек и мочевой системы во время беременности.

Summary

Infections of the kidneys and urinary system and pregnancy

G.I.Ahundova, I.A.Shamhalova

Infections of the urinary system is especially important during pregnancy because it can be the cause of miscarriage, anemia, and hypertension in pregnant women. With a large arsenal of antimicrobial agents treatment of this disease during pregnancy can be effective. This article is devoted to the diagnosis and treatment of infections of the kidneys and the urinary system during pregnancy.

Daxil olub: 24.06.2015

YENİDOĞULMUŞLARDA SİNİR SİSTEMİ ZƏDƏLƏNMƏSİ FAKTORLARININ TEZLİYİ

N.Ə.Rzayeva

Azərbaycan Respublikası Müdafiə Nzirliyi Silahlı Qüvvələrin Baş Klinik Hospitalı, Bakı

Açar sözlər: hipoksiya, MSS, yenidoğulmuşlar, hamilələr,anamnez, hamiləlik

Ключевые слова: гипоксия, ЦНС, новорожденные, беременные, анамнез, беременность

Keywords: hypoxia, CNS, newborns, pregnant women, medical history, pregnancy

Mərkəzi sinir sisteminin (MSS) zədələnməsi perinatal xəstələnmə strukturunda tezliyi və gələcək insan həyatının mahiyyəti baxımından əsas yerlərdən birini tutur [1,2,5,7]. MSS-in perinatal zədələnmələri müxtəlif sinir-psixi pozuntuların, astenik vəziyyətlərin, uşaq və yeniyetməlik dövründə beyin disfunksiyalarının əsasını təşkil edir [4,8] və bununla da təkcə tibbi deyil, həm də sosial əhəmiyyət kəsb edir.

Perinatal patologiyanın tezliyi ümumi populyasiyada 15-20% təşkil edir və artım tendensiysı qeydə alnır [1]. ÜST göstəricilərinə əsasən 20% uşaqda psixi-sinir pozuntular qeydə alınır ki, onlar da 65-80% halda MSS-in hipoksik-işemik zədələnməsi ilə əlaqədar olur [5,7].

MSS zədələnmələri uşaq xəstəlikləri arasında xüsusi yer tutaraq 85% uşaqlarda aşkar edilir və təqribən 100% vaxtından əvvəl doğulmuş uşaqda qeydə alınır. [10,11]. Yenidoğulmuşların vəziyyəti sıx şəkildə ananın reproduktiv sağlamlığının vəziyyəti ilə bağlıdır. Uşaqlarda MSS patologiyaları üçün cavabdeh olan bir sıra pre- və perinatal faktorlar ayrılır [2,5,7]. Müxtəlif serebral pozuntuların, xüsusilə bətndaxili infeksiya, irsi və anadangəlmə patologiyaların səbəbləri arasında dölün xronik və kəskin hipoksiyasının xüsusi yeri vardır. Bir qayda olaraq ağırlaşmış gedişatlı hamiləlik və doğuşlar ilə bağlı olur. Yenidoğulmuşlarda hipoksik pozuntuların patogenezində ante- və intranatal faktorların rolu haqqında məsələ sona qədər öz həllini tapmamışdır. Hazırda perinatal ensefalopatiyanın yayılma dərəcəsi və diaqnostikası məsələsi ilə əlaqədar olaraq müzakirələr davam etməkdədir, uşaqların müalicəsi və reabilitasityası problemi akiv müzakirə edilir. Bütün bunlar sinir sisteminin perinatal patologiyası olan uşaqların müayinəsinə inteqrativ yanaşmanı tələb edir.


Tədqiqatın **məqsədi** kəskin və xronik hipoksiya keçirmiş yenidoğuımların analarında anamnestik göstəricilərn, klinik əlamətlər və simptomların öyrənilməsinədən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Nəzarət altında MSS-in hipoksiyası olan 100 yenido= ğulmuş olmuşdur. Doğum anında uşaqların bədən çəkisi 1800-1400 q, bədən uzunluğu 42-54 sm olmuşdur. 48 oğlan, 52 qız omuşdur. 31,0% halda tükənmə sindromu və iflic sindromu, 28,0% halda- hiporefleksiya, 24,0%-hiperrefleksiya, 22,0% halda hərəkət aktivliyinin aşağı düşməsi qeydə alınmışdır. MSS-in yüngül dərəcəli zədələnməsi 39,0% halda baş vermiş-dir, uşaqlarda orta və ağır dərəcəli zədələnmə uyğun olaraq 42,0% və 19,0% təşkil etmişdir. Apqar şkalası üzrə MSS-in yüngül dərəcəli zədələnməsi olan uşaqlar qrupu 1-ci dəqiqədə 7-8 ball, 5-ci dəqiqədə 8-9 ball, MSS-in orta və ağır dərəcəli zədələnməsi olan uşaqlar qrupu 1-ci dəqiqədə uyğun olaraq 5-6 və 2-6 ball, 5-ci dəqiqədə 7-8 və 3-7 ball təşkil etmişdir. Keçirilmiş hipoksiyanın xarakterinə görə bütün yenidoğumuşlar 3 qrupa ayrılmışlar: I qrupu kəskin hipoksik təsirə məruz qalan 26 (26,0%); II qrupu xronik hipoksiyalı 51(51,0%); III qrupu qarışıq patologiyalı 23(23,0%) yenidoğulmuş təşkil etmişdir.

Tərəfimizdən hamiləlik tarixçəsi, o cümlədən sosial, tibbi və mamalıq göstəricilər, eləcə də müayinə edilən yenidoğuımuşların analarında klinik əlamətlər və simptomlar ətraflı şəkildə öyrənilmişdir.

Alınan nəticələrin statistik təhlili SPSS (Statistical Package for the Social Sciences Inc., USA) statistic proqram paketinin köməkliyi ilə variasiya metodu üzrə aparılmışdır.


Tədqiqatın nəticələri və müzakirəsi. Hamilələrin yaşı 22-37 yaş arasında olmuşdur ki, bu da orta hesabla 28,7±1,3 təşkil etmişdir. Anamnestik göstəricilərin təhlilindən məlum olmuşdur ki, MSS zədələnməsi olan uşaqlar daha çox (36,0%) 26-30 yaş intervalında olan analardan doğulmuşlar. Bu səbəbdən həmin yaş dövrünü əlverişsiz yaş kimi nəzərdən keçirmək olar. Bununla yanaşı olaraq xronik hipoksiya daha çox 27 yaşdan yuxarı analardan doğulan uşaqlarda, kəskin hipoksiyası isə 27 yaşa qədər olan analardan doğulan uşaqlarda qeydə alınmışdır (Şək.1).




Şək.1. Ananın yaşından asılı olaraq yenidoğulmuşlarda hipoksiyanın rast gəlinməsi

Müxtəlif doğuş üsullarında nevroloji pozuntuların tezliyi təhlil edildikdə məlum olmuşdur ki, 28,05 halda MSS zədələnməsi mamalıq maşalarının istifadə edilməsi ilə əlaqədar olmuşdur (Şək.2). Ana tərəfindən göstəriş olduqda mamalıq maşalarından istifadə edilmişdir: 13,0% qadında zəif doğuş fəaliyyəti nəticəsində və 15,0% qanaxma nəticəsində. Doğuş fəaliyyətinin kəskin zəifliyi və dölün başının ananın çanağı eyni səthdə olmasından ibarətdir, medikametnoz vasitələr effektsiz olduqda, bir qayda olaraq, bu metoddan istifadə etməyə sövq etmişdir, çünki belə həm döldə (mexanik və hipoksik faktorların yanaşı olması), həm də anada (sidik-cinsiyyə və bağırsaq-cinsiyyət fistulları) doğuş travmatizmi riskinin artmsına səbəb olur [3]. Doğuşun ikinci dövründə qanaxmalar normal yerləşmiş ciftin qopması, göbək ciyəsi damarlarının partlması ilə bağlı olur.

Aparılna təhlillərdən məlum olmuşdur ki, keysəriyyəi ilə doğulan uşaqlarda daha çox xronik hipoksiyaya rast gəlinmişdir (Şək.3).



Şək.2. Doğuşun növündən asılı olaraq MSS zədələnmələrinin tezliyi




Şək.3. Müxtəlif formalı MSS zədələnməsi olan uşaqlarda keysəriyyə kəsiyi əməliyyatlarının tezliyi

Göründüyü kimi daha çox keysəriyyə kəsiyi əməliyyatı xronik hipoksiya zamanı aparılmışdır (39,0%).

MSS zədələnməsi ilə doğulan uaşqların analarında ekstragenital xəstəliklər arasında aparıcı yeri xronik patologiya tutmuşdur. Sidik yollarının xronik infeksiyaları (53,0%) və xronik xəstəliklər (44,0%) olan qadınların faiz göstəricisinin yüksək olması xüsusilə diqqəti cəlb edir. Sidik yolları xronik infeksiyalardan qadınların anamnezində sistit 28,0%, xronik pielonefrit 19,0% təşkil etmişdir. Xronik infeksiyanın yüksək tezliyi hamiləlik zamanı respirator infeksiyaların kəskinləşməsi ilə əlaqədar olur: angina (6,0%), xronik bronxit (7,0%), xronik tonzillit (8,0%) və mədə-bağırsaq traktı xəstəlikləri: xronik kolit (9,0%), xronik qastrit (8,0%) və xolesistit (6,0%) (Şək.4). 34 qadında hamiləliyin başlanması uşaqlıq qanaxmaları ilə müşayiət olunmuşdur, bununla yanaşı qanaxmalar daha çox 28-36 yaşlarda olmuşdur. Qeyd etmək lazımdır ki, 85% qadında 2-3- faktor yanaşı olmuşdur. Belə ki, 26% qadında uşaqlıq qanaxmaları və xronik tonzillit, 23%- arterail hipertenziya və xronik sidik yolları infeksiyaları qeydə alınmışdır. 13% zahı qadında xronik qastritlə irsən ağırlşamış şəkərli diabet yanaşı olmuşdur. Aparılan tədqiqatlardan məlum olur ki, 28,0% qadının anamnezində qeydə alınan hipertenziya 31-37 yaşlarına təsadüf etmişdir.

Hamiləlik tarixçələrinin təhlilindən məlum olmuşdur ki, 22 qadında vaxtından əvvəl douğuşlar olmuşdur. Onlardan 13 qadın

hamiləlikdən əvvəl cinsi yolla keçən infeksiyalar üzrə müalicə olunmuşdur. Anamnezində anadangəlmə uşaqların doğulduğu qeyd edilən 11 qadında 4 uşaq inkişaf qüsurları, 7 uşaq nefroloji qüsurlarla olmuşdur.



Şək.4.Anamnez göstəricilərində əsas risk faktorları

Cədvəl
Müayinə edilən yenidoğulmuşlar qrupunda antenatal dövrün gedişatının klinik xarakteristikası (%)

Əlamətlər	Yenidoğulmuşlar qrupu		
	I qrup (n=26)	II qrup (n=51)	III qrup (n=23)
İlk hamilələr	30,8	33,3	43,5
təkrar hamilələlər, lakin ilk doğanlar	30,8	43,1	65,2
təkrar doğanlar	38,5	23,5	34,8
33 yaşdan böyük birinci doğanlar	15,4	19,6	30,4
peşə zərərləri	42,3	37,2	39,1
əlverişsiz sosial status	46,1	49,0	60,9
hamiləlik zamanı siqaret çəkmə	7,7	9,8	8,7
düşüklər	26,9	58,8	43,5
uzun müddətli sonsuzluq	11,5	17,6	8,7
əvvəllər doğulmuş uşaqların ölməsi	11,5	11,8	8,7
4 həftədən çox hestoz	30,8	27,4	30,4
hamiləlik zamanı anemiya	19,2	33,3	47,8
bədən çəkisinin patoloji artımı	11,5	41,2	43,5
anamnezdə keçirilmiş cinsi yolla keçən infeksiyaların olamsı	7,7	35,3	30,4
uogenital nahiyədə infeksiyalar	46,1	66,7	30,4
mədə-bağırsaq traktı xəstəlikləri	3,8	27,4	34,8
üzrək yığılmaları tezliyi xəstəlikləri	7,7	35,3	30,4
endokrin pozuntular	7,7	15,7	26,1
allergik xəstəliklər	34,6	39,2	34,8
xronik infeksiya ocaqları	61,5	80,4	60,9
hamiəlik zamanı kəkisn infeksiyalar	11,5	43,1	39,1

Hazirki hamiləlik zamanı 89% qadında ekstrageniytal patologiya, 58% qadında toksikoz, 37%-də hamiləlik düşüyü təhlükəsi, 59% ağırlaşmış mamalıq anamnezi qeydə alınmışdır. 42,0% halda uzun müddət mayelilik dövrü, sürətli və coşğun doğuşlar, doğuş fəaliyyətinin birincili zəifliyi və yan gəlişi, göbək ciyəsinin dölün boyun ətrafına iki dəfə sıx dolanması baş vermişdir. 10,0% halda doğuşlar sərbəst olmuşdur, 62,0% halda ağır hestoz, doğuş fəaliyyətinin zəifliyi, ciftin qopmasının başlanması ilə əlaqədar olaraq keysəriyyə kəsiyi aparılmışdır. Xronik hipoksi- yası fonunda kəskin asfiksiya ilə 8,0%, 6,0%, 5,0% və 4,0% əlaqədar olaraq mamalıq maşası qoyulmuşdur.

Tədqiqatların gedişatında yenidoğulmuşlar üzrə qruplarda anaların anamnezinin göstə- riciləri müqayisəli təhlil edilmişdir (Cədvəl).

Alınan göstəricilərdən məlum olur ki, yanaşı formalı hipoksiyaları olan analarda əvvəllər əlverişsiz sosial status- 60,9%, xronik infeksiya- 60,9%, hamiləlik zamanı anemiya- 47.8%, düşüklər-43,5% kimi faktorlar qeydə alınmışdır. Elə həmin dərəcədə bədən çəksinin (43,5%) və peşə zərərləri - 39,1% sürətlə artması qeydə alınmışdır. Yanaşı patologiyaları olan analar arasında II qrupda olduğu kimi daha çox təkrar hamilə olub, ilk doğanlar 65,2% halda olmuşdur.

Beləliklə, müayinə qruplarında əlverişsiz faktorları müqayisə edərək aşkar edilmişdir ki, MSS-in hipoksik-işemik zədələnməsi üçün daha çox xarakterik olan xronik infeksiya ocaqları olmuşdur. Ümumlikdə, 100 anadan doğulan uşaqlarda bu əlamət 71% qadında, urogenital nahiyə infeksiyaları- 47,5% qeydə adlınmışdır. Düşüklər bütün 3 qrupda qeydə alnmış və 47,0% təşkil etmişdir.

Xoşagəlməz faktorların tezliyini qiymət- ləndirdikdə müayinə edilən yenidoğulmuşların analarında peşə zərərləri əlamətlərinin tezliyinin yüksək olduğu aşkar edilmişdir. Bu faktor 39,0% qeydə alınmışdır.

Aparılan təhlillərdən məlum olmuşdur ki, peşə zərərləri arasında sinir-emosional gərginliklər (12,0%) birinci yerdə, temperatur faktoru (8,0%) ikinci yerdə, fiziki gərginlik üçüncü yerdı (7,0%), qazların olması, tozluluq və vibrasiyalar dördüncü yerdə (uyğun olaraq 4% və 3%), kompütrelə fəaliyyət (2,0%) olmuşdur.

Qanla, irinli infeksiya ilə təmasda olma və USM (3,0%) kimi peşə zərərləri daha az çəkiyə malik olmuşdur. Peşə zərələrinin təsrinin dövrülüyünü 40,0%, daimi= liyini- 39,0%, qısa müddətliyini 7,0% qadən qeyd etmişdir.II və III qrupdan bütün uşaqlar yüksək risk qrupuna aid qadınlardan doğulmuşlar. Onlardan I trmestrdə toksikoz, anemiya, hestoz, kəskin infeksion xəstəlik epizodları, xronik iltihabi xəstəliklərin kəskinləşməsi yer almışdır. 29,0% uşaqda göbək ciyəsinin boyuna sarılması qeydə alınmışdır. Doğuş fəaliyyətinin başqa ağırlaşmaları (sürətli və ya uzun müddət davam edən doğuşlar, doğuş fəaliyyətinin zəifliyi, dölyanı mayenin vaxtından əvvəl açılması və s.) 18,0% uşaqda qeydə alınmışdır.

Qeyd etmək lazımdır ki, 30 təkrar doğandan 14-də əvvəlki hamiləliklərdən MSS zədələn- məsi olan uşaqlar doğulmuşdur.

Tərəfimizdən hər üç qrupdan olan uşaqların analarında mamalıq anamnezi müqayisəli təhlil edildikdə aşkar edilmişdir ki, III qrup uşaqların analarında (yanaşı hipoksiya) II qrupla (xronik hippoksiya) və I qrupla (kəskin hipoksiya) müqayisədə daha ağır mamalıq anamnezi olmuşdur. II və I qruplar arasında analarda düşüklərin olması üzrə dürüst fərqlər aşkar edilmişdir (58,8% vı 26,9%, $p<0,01$). III qrup analarda I qrupla müqayisədə düşüklərin tezli- yi də yüksək olmuşdur (43,5%, $p<0,05$). Müvafiq olaraq, MSS-də perinatal zədələnmə daha çox ante- və intranatal ağırlaşmış anamnezi olan uşaqlarda qeydə alınmışdır.

Alınan nəticələrdən məlum olur ki, hamiləlik düşükləri təhlükəsi arasında infeksiyalar üstün- lük təşkil etmişdir. Hestozlar, anemiyalar, pielonefrit və başqa növ patologiyalar, USM ilə təsdiq edilən xronik fetoplasentar çatışmazlığın inkişafına gətirib çıxarmışdır. Bizim göstəricilər başqa tədqiqatçıların məlumatalrı ilə üst-üstə düşür [6,9].

Beləliklə, aparılan tədqiqatlar nəticəsində yenidoğulmuşlarda sinir sisteminin hipoksik zədələnməsi çün perinatal risk faktorlarının xüsusi əhəmiyyəti təsdiq edilmişdir.

ƏDƏBİYYAT

1. Алиев С.А., Султанов Г.А., Эфендиев М.А. Некоторые аспекты патогенеза гипоксии и нефармакологические методы ее коррекции при гнойном перитонитекоррекции при гнойном перитоните // Вестник интенсивной терапии, 2003, №2, с. 20-27.

2. Барашнев Ю.И. Перинатальная неврология. Москва: Триада-Х; 2005; 672 с.
3. Замалеева Р.С. Диагностическое значение маркеров риска развития плацентарной недостаточности при невынашивании беременности / Матер. V Рос. форума "Мать и дитя": Тез. докл. (Москва, 6-10 октября 2003 г). Москва, 2003, с.70.
4. Кашина Е.В. Клинико-морфологические особенности врожденных пороков развития центральной нервной системы в онтогенезе у детей: Автореф. дис. ... канд. мед. наук. Хабаровск, 2008, 280 с.
5. Неонатология: национальное руководство. Под ред. Н.Н. Володина. Москва: ГЭОТАР Медиа, 2007, 848 с.
6. Оспанова Э.Н., Аскамбай К. Распространенность и причины возникновения перинатальной патологии центральной нервной системы у детей в условиях города Шымкента Южно-Казахской области // Фундаментальные исслед., 2014, № 4-1, с. 129-132.
7. Пальчик А.Б. Гипоксически-ишемическая энцефалопатия. Москва, 2005, 125 с.
8. Практическое руководство по неонатологии. Под ред. Г.В. Яцык. М.: Медицинское информационное агентство, 2008, 344 с.
9. Черняховский О.Б., Полянчикова О.Л. Факторы риска и прогнозирование перинатальных поражений ЦНС у новорожденных на антенатальном этапе развития // Вопросы современной педиатрии, 2008, №4, Том 7, с.24-29.
10. Ferriro D.M. Neonatal baim injury // N Engl Med., 2004, vol. 351, No19, p.1985-1995.
11. Perlman J.M. Brain injury in the term infant // Semin Perinatal, 2011, vol.28, No6, p.4l5-424.

Резюме

Частота факторов поражения нервной системы у новорожденных

Н.А.Рзаева

С целью изучения анамнестических данных, клинических признаков и симптомов у матерей новорожденных, перенесших острую и хроническую гипоксию, проанализированы истории беременности матерей 100 новорожденных с поражением ЦНС. Средний возраст беременных составил 28,7±1,3 лет. У матерей новорожденных с сочетанной формой гипоксии чаще отмечались такие факторы, как неблагоприятное социальное положение - 60,9%, хронические инфекции - 60,9%, анемия в период беременности - 47,8%, выкидыши - 43,5%, усиленное прибавление в весе (43,5%) и профессиональные вредности - 39,1%. Среди матерей новорожденных детей с сочетанной патологией повторнобеременные первородящие составили 65,2%. Согласно полученным данным, наиболее характерными для гипоксических-ишемических поражений ЦНС были очаги хронической инфекции. В целом, из 100 матерей новорожденных этот признак регистрировался у 71% женщины, инфекции урогенитальной области отмечались у 53,0% матерей, неблагоприятный социальный статус - 51,0% случаев, выкидыши - у 47,0%.

Summary

The frequency factors nervous system in newborns

NA.Rzayeva

To study the anamnesis, clinical signs and symptoms in mothers of newborns with acute and chronic hypoxia, analyzed the history of 100 pregnant mothers of infants with CNS disease. The average age of pregnant women was 28,7 ± 1,3 years. Mothers of newborns with combined forms of hypoxia were more common factors such as social disadvantage - 60.9%, chronic infections – 60,9%, anemia in pregnancy- 47,8%, abortions- 43,5%, increased in addition weight (43,5%), and occupational hazards- 39,1%. Among the mothers of newborns with comorbidity multigravida nulliparous totaled 65,2%. According to our data, the most typical for hypoxic-ischemic lesions of the central nervous system have been foci of chronic infections. Overall, 100 mothers of newborns, this feature was detected in 71% of female urogenital infections occurred in the region of 53,0% of the mothers, poor social status – 51,0% of cases, miscarriages - at 47,0%.

Daxil olub: 20.05.2015

BÖYRƏK VƏ SİDİK AXARI DAŞLARINA GÖRƏ DİSTANSİON ZƏRBƏ-DALĞA LİTOTRİPSIYASINDAN SONRA BAŞ VERƏN FƏSADLAR ZAMANI KONTAKT URETEROSKOPİK LİTOTRİPSİYANIN ÜSTÜNLÜKLƏRİ

S.B.İmamverdiyev, R.N.Məmmədov, İ.F.Mahmudov, A.F.Əhədov

Azərbaycan Tibb Universiteti, urologiya kafedrası, Bakı

Açar özlər: ureterosokopiya, distasion zərbə dalğa litotripsiyası, böyrək və sidik axarı daşları

Ключевые слова: уретроскопия, дистанционная ударно-волновая литотрипсия, камни почек и мочеточников

Key words: ureteroscopy, remote shock-wave lithotripsy, the stones of kidney and ureter

Ureteroskopiya böyrək və sidik axarı daşlarına görə DZDL-dən sonra tamamlayıcı bir üsul kimi geniş tətbiq olunur [5].

Pace K. və əməkdaşları ilk DZDL müalicəsindən sonra effektivlik əmsalının 68%, ikinci seansdan sonra isə az fərqlə 76%-ə çatdığını qeyd etmişlər [4]. Təkrarlanan DZDL daşsızlıq əmsalını üçüncü və dördüncü seanslarda müvafiq olaraq 77 və 78%-ə qədər yüksəldə bilmişdir ki, bu da ciddi fərq deyil.

Böyük ölçülü böyrək və sidik axarı daşlarının DZDL-dən sonra 1-4% halda fraqmentlərin sidik axarında yığılması nəticəsində "daş yolu" (Stein Strasse) əmələ gəlir. Bu göstərici daşın ölçüsü 2sm-dən böyük olan xəstələrdə 5-10%-ə, böyük ölçülü mərcanvari daşlarda isə 40%-ə qədər yüksələ bilər. Bu fraqmentlər isə bəzən sərbəst xaric ola bilmədiyindən güclü böyrək sancılarına və pielonefrit hücumlarına səbəb olurlar.

"Daş yolu"nun əmələ gəlməsinin əsas səbəbləri bunlardır:

-yuxarı sidik yollarının yığılma aktivliyinin əvvəldən olan pozğunluğu, periureterit, sidik axarlarının əyriliyi, nöqtəvari sidik axarı dəliyi$

-böyük ölçülü daşın (2 sm-dən böyük) bir mərhələli monolitotripsiyası, iri dispersli fraqmentlərin əmələ gəlməsinə səbəb olan azsaylı yüksək enerjili impulslar;

-okklüziya yaradan iri fraqment üzərinə eyni zamanda çoxlu sayda kiçik fraqmentlərin yığılması;

-həddindən artıq maye qəbulu və sidik qovucunun təyini.

Böyük ölçülü daşlarda DZDL-dən əvvəl stentin qoyulması "daş yolu" ilə bağlı fəsadları azaltmağa kömək edir. Nisbətən böyük ölçülü daşların DZDL ilə müalicəsi, həmçinin köməkçi üsulların tətbiqindən əvvəl kliniki dəyərləndir- mənin aparılması məqsədə uyğundur. Daş yolu uzun müddət qaldıqda və DZDL effekt vermədikdə KULT, litoekstraksiya göstərişdir. Buradan da belə bir nəticəyə gəlmişlər ki, effektsiz DZDL müalicəsindən sonra ureteroskopiyanın köməyi ilə "daş yolundan", daşlardan və onların parçalanmış fraqment- lərindən tamamilə azad olmaq mümkündür.

Sidik axarı daşlarının DZDL ilə müalicəsinin effektivliyinə bir sıra faktorlar təsir edir. Daşın uzun müddət sidik axarında qalması iltihabi dəyişikliklərə, bəzən hətta divarın nekrozuna səbəb olur [3].

Sidik axarının divarındakı ödem daşın orada qalma müddətindən asılı olaraq onun selikli qişaya adgeziyasını artırır. Bu da daşın fraqmentasiyasına və qəlpələrin eliminasiyasına maneçilik törədir.

Həmçinin bu zaman periureteritin də təsiri böyükdür. Buna görə də böyrək daşlarına nisbətən sidik axarı daşlarında DZDL-in nəticə- ləri daha pisdir və daşın lokalizasiyasından asılı olaraq impulsların sayının və gücünün artırılmasını tələb edir.

DZDL-in nəticələrinə yuxarı sidik yollarının urodinamikası da təsir edir [3]. Sübut olunmuşdur ki, urodinamikanın və böyrəyin sekretor funksiyasının azalması litotripsiyanın effektivliyini 50% azaldır.

Bundan başqa DZDL-in effektivliyi daşların kimyəvi-mineraloji tərkibindən də asılıdır [2].

Tədqiqatın **məqsədi** böyrək və sidik axarı daşlarına görə distansion zərbə-dalğa litotripsi- yasından sonra baş verən fəsadlar zamanı kontakt ureteroskopik litotripsiyanın üstünlük- lərinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqata Böyrək və sidik axarı daşlarına görə distansion zərbə-dalğa litotripsiyasından sonra fəsadları olan xəstələr daxil edilmişdir.

Buna misal olaraq aşağıdakı kliniki müşahidəni təqdim edirik.

Xəstə İ.Ə., 43 yaşında, klinikaya 16.07.2012-

də sol bel nahiyəsindəki kəskin ağrılar, üşütmə, titrətmə, hərarətin 39°S-yə qədər yüksəlməsi ilə əlaqədar daxil olub. Özünü bir neçə aydır ki, xəstə hesab edir.

Anamnezində 2 gün əvvəl sol böyrəyin daşlarına görə DZDL əməliyyatı keçirib. Bundan bir gün sonra vəziyyəti pisləşib, yuxarıda göstərilən əlamətlər meydana çıxmış- dır.

DZDL-dən bir gün əvvəl (13.07.2012-ci il tarixində) aparılmış nativ kompyuter tomoqrafiyası zamanı sol böyrəyin ölçüləri 13x8 sm, parenximanın qalınlığı yuxarı qütbdə azalmışdır (ən qalın yerdə 14 mm, ən nazik yerdə 3mm). Kasa-ləyən sistemi genişlənmiş, yuxarı və orta qrup kasalarda, həmçinin ləyəndə ən böyüyü 25 mm ölçüdə 4-5 ədəd konkrement aşkar edilir.Sağ böyrək və aşağı sidik yollarında patoloji dəyişikliklər aşkar olunmur (Şək.1).



Şək.1. Xəstə İ.Ə. DZDL-dən əvvəl çəkilmiş KT



Şək.2. Xəstə İ.Ə. DZDL-dən sonrakı icmal uroqramma



Şək.3. Xəstə İ.Ə. KULT-dan sonrakı icmal uroqramma

Qanın ümumi və biokimyəvi analizi: Hb-146q/l, EÇS - 46 mm/saat, kreatinin 0 1,89 mg/dl. EKQ və döş qəfəsinin R-skopiyası normaldır.

Çəkilmiş icmal uroqrammada sol böyrəyin aşağı və orta kasaları proyeksiyasında bir neçə ədəd 2-7 mm ölçüdə daş kölgəlikləri, sol sidik axarının aşağı 1/3-də 6-7 sm uzunluğunda " daş yolu" müəyyən olunur (Şək.2).

Kliniki, laborator, rentgenoloji müayinələrə əsasən xəstəyə "Sidik daşı xəstəliyi. Sol böyrəyin daşları. Sol sidik axarının aşağı 1/3-nin daşları.Sol tərəfli ureterohidronefroz II dər. Sol böyrəyin daşlarına görə DZDL-dən sonrakı vəziyyət. Kəskin obstruktiv pielonefrit" diaqnozu qoyuldu.

Aparılan antibakterial,infuzion və s. müalicənin effekti olmadığı üçün, 17.07.2012-ci il tarixdə xəstəyə həyati göstərişlə, spinal anesteziya altında sol tərəfli ureteroskopik litotripsiya əməliyyatı (böyrəyin stentləşdirilməsi ilə) aparılmışdır.

Əməliyyat zamanı daş fraqmentləri tamamilə sidik axarından xaric edilmişdir. Bu zaman böyrəkdən çoxlu miqdarda irinli sidik xaric oldu. Əməliyyat sol böyrəyin stentləşdirilməsi ilə başa çatdırıldı (Şək.3).


Əməliyyatdan sonra tədricən xəstənin hərarəti normallaşmış, sidik təmizlənmiş və sərbəst sidik ifrazı aktı zamanı sol böyrəkdə olan daş qırıntıları xaric olmağa başlamışdır.

31.07.2012-ci il tarixində stent xaric edilmiş və xəstə kafi vəziyyətdə ambulator müalicəyə yazılmışdır.

Stent çıxarıldıqdan sonra da daş fraqmentləri sərbəst şəkildə xaric oldu. DZDL və KULT-dan 4 ay sonra çəkilmiş icmal uroqrammada hər iki böyrək və sidik axarının proyeksiyasında daşa şübhəli kölgəliklər aşkar edilmir (Şək.4).



Şək.4. Xəstə İ.Ə. DZDL və KULT-dan 4 ay sonrakı icmal uroqramma



Şək.5. Xəstə İ.Ə. DZDL və URS-dən 4 ay sonrakı ekskretor uroqramma.8və40′

8 və 40-cı dəqiqələrdə çəkilmiş ekskretor uroqrammalarda hər iki böyrəyin fəaliyyəti kafidir, sol tərəfdə yuxarı qrup kasalarda mülayim hidrokalikoz aşkar edilir (Şək.5).

DZDL ilə müalicədə yüksək göstəricilər bir sıra hallarda təkrar seanslar, əlavə manipulyasiyalar hesabına baş verir ki, bu da müalicənin müddətini və sərf olunan xərcləri artırmış olur. Bəzən sidik axarında uzun müddət oturmuş daşlara görə aparılan DZDL sidik axarının zədələnməsinə, daş qəlpələrinin sidik axarı divarına pərçim olmasına gətitib çıxarır. Burada ureteroskopiya, lazım olarsa KULT-un aparılması sidik axarındakı daş parçalarının təmizlənməsi və böyrəyə JJ-stentin qoyulması müsbət nəticəyə gətirib çıxarır.

Yuxarıda qeyd olunanları kliniki müşahidə ilə təqdim edirik.

Xəstə Ə.A., 25 yaşında, qadın, 15.11.2013-cü il tarixində sol bel nahiyəsindəki küt ağrılarla əlaqədar klinikaya daxil olub. Özünü bir ilə yaxındır ki, xəstə hesab edir. Sol sidik axarının daşına görə iki seans DZDL aparılıb və bir dəfə sol böyrəyə JJ-stent qoyulub (lakin JJ-stentin proksimal ucu sidik axarının yuxarı 1/3-də qıvrıldığı üçün vaxtından əvvəl çıxarılmışdır).

Əvvəlki kontrastlı kompyuter tomoqrammalarda sağ böyrək-N, sol böyrəyin funksiyası saxlanılıb, aşağı kasada 8mm, sol sidik axarının yuxarı 1/3-də isə 8mm daş aşkar edilir (Şək.6).


Xəstədə son 3 ayda dəfələrlə sol bel nahiyəsində ağrılarla yanaşı üşütmə, titrətmə və hərarətin yüksəlməsi halları müşahidə edilib. Aparılan antibakterial müalicə müvəqqəti effekt verib.Bunları nəzərə alaraq xəstəyə sol sidik axarının daşının Ho-YAG lazerlə ureteroskopik litotripsiyası və sol böyrək daşının fleksibl ureteroskopik litotripsiyası aparıldı.

Əməliyyat zamanı məlum oldu ki,sol sidik axarının yuxarı 1/3-dəki daş təmamilə sidik axarının divarına adgeziya olunub, hətta daşın bir parçası divarın içərisində yerləşir, sidik axarının mənfəzi müəyyən olunmurdu. Çox böyük çətinliklə sidik axarındakı daş parçalandı və qırıntılar xaric edildikdən sonra aparılan retroqrad ureteropieloqrafiya zamanı sidik axarının daş oturan yerində ciddi bir daralmanın olduğu aşkarlandı (Şək.7).


Fleksibl ureterorenoskop bu daralmadan nisbətən çətinliklə keçirildikdən sonra sol böyrəyin aşağı kasasındakı daş tapılıb kiçik fraqmantlərə qədər parçalandı. Əməliyyatın sonunda sol böyrəyə JJ-stent qoyuldu.

Xəstə növbəti gün kafi vəziyyətdə evə yazıldı. Stent 6 həftədən sonra xaric edildi.

Göründüyü kimi böyrək və sidik axarı daşlarına görə DZDL-in effektsizliyindən sonra tamamlayıcı ureteroskopiya ilə daşdan tamam azad olmaq mümkündür.



Şək.6. Xəstə Ə.A. Abdominal kompyuter tomoqramma



Sək.7. Xəstə Ə.A. Retroqrad ureteropieloqramma

ƏDƏBİYYAT

1. Аляев Ю.Г., Рапопорт Л.М., Руденко В.И. и др. Мочекаменная болезнь // Актуальные вопросы диагностики и лечения // Врачебное сословие, 2004, №4, с. 4-9

2. Стецик О.В. Дистанционная и контактная лазерная литотрипсия в лечении больных уретеролитиазом (клинико-экспериментальное исследование): Автореф. дисс. … канд. мед.наук. СПб., 2000, 19с.

3. Трапезникова М.Ф., Дутов В.В. Дистанционная ударно-волновая литотрипсия в лечении

уролитиазадистопированных почек // Урология, 2006, № 2, с.3-6

4. Pace K., Weir M., Tariq N., Honey R. Low success rate of repeat shock wave lithotripsy for ureteral stones after failed initial treatment // J. Urol., 2000, v. 164, p. 1905-1907

5. Rippel S., Nikkel L., Lin Y. et al. Residual fragments following ureteroscopic lithotripsy: incidence and predictors on postoperative computerized tomography // J. Urol., 2012, v. 188, No 6, p. 2246-225

Резюме

Преимущества контактной уретероскопической литотрипсии при осложнениях возникающих после дистанционной ударно волновой литотрипсии камней почек и мочеточников

С.Б. Имамвердиев, Р.Н. Мамедов, И.Ф. Махмудов, А.Ф.Ахадов

При крупных камнях почек и мочеточников вероятность скопления камней после дистанционной ударно волновой литотрипсии в виде каменной дорожки составляет 1-4%. Порой выделение этих фрагментов затрудняется, что приводит к сильной почечной колике. Удаление их бывает возможным только при помощи контактной литотрипсии. Таким образом, уретероскопия широко используется как дополняющий метод лечения после дистанционной ударно волновой литотрипсии при камнях почек и мочеточников.

Summary

Advantages of the contact ureteroscopic lithotripsy at complications after ESWL of kidney and ureter stones

S.B. Imamverdiyev, R.N. Mamedov, I.F. Mahmudov, A.F.Ahadov

In this article are discussed the complications after an extracorporeal schok wave lithotripsy. The main indications and contraindications of this method are listed too. Authors are describe a method of contact ureteroscopic lithotripsy as the best at treatment of complications after ESWL. Here authors provide the description of patients from practice. These cases confirm the efficiency of URS in the treatment of complications after ESWL of the kidney and ureter stones.

Daxil olub: 04.05.2015

İNSAN ORQANİZMİNDƏKİ İNFEKSİYANIN DİAQNOSTİKASI ZAMANI BAKTERİAL MİKROFLORANIN SPEKTRİNİN KÜTLƏ SPEKTİRLİ XROMATOQRAFİYA ÜSULU İLƏ AŞKARLANMASI

E.Ə.Dadaşov

(Ə.Əliyev adına AzDHTİ mikrobiologiya və epidemiologiya kafedrası, Bakı).

Açar sözlər: kultivasiya edilməyən mikroorqanizmlər, kütlə spektrli qaz-maye xromatoqramı

Ключевые слова: некультивируемые микроорганизмы, газо – жидкостная хроматография с масс – спектрометрией

Key words: uncultured microorganism, Gas-liquid chromatography mass spectrometry

Bir sıra hallarda ilkin materialın mikroskopiyası zamanı mikrobların görünməsinə baxmayaraq, onların adi üsullarla kultivasiya olunmaması və eyni zamanda infeksion prosesin əsas törədicisi olması faktları məlumdur [1].

Bununla əlaqədar hazırda hələ də kultivasiya olunmayan mikroorqanizmlərin (KM) və əsasən də anaerobların infeksion iltihabi proseslərdəki rolunun qiymətləndirilməsi məsələsi aktualdır [2]. Habelə məlumdur ki, klinik praktikada insan orqanizminin mikroekoloji statusunun müəyyənləşdirilməsi və infeksiyanın diaqnostikası üçün tətbiq edilən üsulların məhdudiyyətləri və çatışmazlıqları vardır. Qeyd edilənlərə patogenlərin indikasiyası və identifikasiyası üçün həm klassik kultivasiya, həm də müasir molekulyar bioloji üsullar aiddir [3].

Yuxarıda sadalananlardan belə görünür ki, infeksiya törədicilərinin diaqnostikasında daha etibarlı ekspres-diaqnostika üsullarına ehtiyac vardır.

Qeyd edilənlərə əsasən bizim tədqiqatın **məqsədi** bağırsaq pozulması olan xəstə uşaqların fekal nümunəsindən bakterial mikroorqanizmlərin spektrinin müəyyən edilməsidir.

Tədqiqatın material və metodları. Tədqiqat üçün material bağırsaq pozulması olan 130 uşaqdan götürülən fekal nümunəsi olmuşdur.

Tədqiqat müqayisəli şəkildə iki üsulla: klassik kultural və KS-QMX üsulu ilə aparılmışdır [3,4].

KS-QMX üsulu ilkin nümunədə mikrob markerlərinin (piy turşuları, aldehidlər və sterinlər) müəyyənləşdirilməsinə əsaslanır.

Xromatoqramda alınmış məlumatlar NİST (National İnstitute Standart Technology) kitabxanasına müvafiq reyesterlə müqayisə edilmişdir [5].

Qaz xromatoqrafiya üsulunun mahiyyəti uçucu tərkibli maddələrin ayrılması və registrasiyasıdır.

Mikroorqanizmlərin metabolitlərə görə deteksiyası bu üsulu prinsipial şəkildə fərqləndirib, ona keyfiyyətcə yeni xüsusiyyət verməklə, bütün mikrob markerlərini ayırmaq imkanı yaradır və orqanizmin bu və ya digər orqanında məskunlaşan yüzlərlə növ mikroorqanizmlərdən hər birini müəyyən edərək qiymətləndirməyə imkan verir.

Üsul kifayət qədər yüksək həssas, sürətli (müayinənin tam dövrü 2,5 saatdır) və universal olub, iqtisadi cəhətdən əhəmiyyətlidir və geniş diaqnostik spektrə malikdir.

KS-QMX-nin tətbiqi zaman sərfini və tədqiqatın maya dəyərini azaltmaqla yanaşı, ilkin koloniyaların təkrar əkilməsi və anaerobların diaqnostikasında xüsusən mürəkkəb, çox əmək tələb edən və uzun çəkən fermentativ testlərdən yan keçməyə imkan verir. Üsul yalnız məlum nümunə hazırlama texnologiyası üzrə klinik materialdan ayrılmış təmiz kulturadan mikrob markerlərini təyin etməyə imkan verir və eyni zamanda konkret nümunənin markerlərinə əsasən mikrofloranın tərkibinə daxil olan mikrobların miqdarını da müəyyən edir [4].


Tədqiqat üçün material istənilən bioloji maye (qan, ağız suyu, sidik, likvor və s.) ola bilər [6].

Hazırda mikroorqanizmlərin əksəriyyətində olan piy turşularının tərkibi öyrənilmiş və onların cins və növ spesifikliyi subut edilmişdir. Mikroorqanizmlərin piy turşusu markerlərinə görə deteksiya üsulu genetik analizlərlə (PZR, 16s RNT-nin nukleotid ardıcıllığının təyini) oxşardır. Belə ki, piy turşularını sintez edən fermentlərin tərkibi DNT ilə müəyyən edilən genomun bir sahəsi olaraq nəqliyyat RNT kimi sintez ediləndən sonra, matriks RNT əsasında ribosomlar tərəfindən sintez edilərək piy turşularının sintezində iştirak edir. Yəni piy turşularının profili DNT-nin quruluşu kimi konservativdir.


Paleontologiya sahəsindəki tədqiqatlarla mikroorqanizmlərin ümumi şəkildə hamısının və ayrı-ayrı növlərinin piy turşularından ibarət tərkibinin 2,5 milyard ilə dək olan müddət ərzində sabit qaldığı sübuta yetirilmişdir.

Tədqiqatın nəticələri. Klassik kultural tədqiqat üsulu ilə tədqiq olunmuş 30 nümunədən (23%) E.coli aşkar edilmişdir. KS-QMX-nın tətbiqi ilə kifayət qədər geniş spektrdə anaerob və fakultativ anaerob mikroorqanizmlər aşkarlanmışdır.


Alınmış məlumatlar KS-QMX üsulunun infeksion xəstəliklərin diaqnostikasında və klassik kultural üsullarla kultivasiya olunmayan mikroorqanizmlərin aşkarlanmasında daha geniş imkanlara malik olduğunu deməyə əsas verir.




Şək. 1. 4-hidroksi butan turşusu ionları üçün xarakterik spektr.




Şək. 2.15-metil heksadekan turşusunun metil efirinin ionları üçün xarakterik spektr




Şək. 3. 9,10-epoksi oktan turşusunun metil efirinin ionlarının xarakterik spektri



Şək. 4. 10-oktadesen turşusunun metal efirinin ionlarının xarakterik spektri.



Şək. 5. Trimetilamin ionlarının xarakterik spektri



Şək. 6. 4-metil-2,4,6-tsikloheptatrien-1 ionlarının xarakterik spektri

Cədvəl

Mədə bağırsaq pozulması olan xəstə uşağın nəcis nümunəsində müəyyən olunmuş mikrob markerlərinin NİTS (İnternational İnstitute of Standart Technology) markerlərinə uyğun spektri

№	İşarəsi	Formulu	Turşunun adı	Mikroorqanizm
1	C4	$C_4H_8O_3$	Butan turşusu	Bağırsağın normal mikroflorasının bütün nümayəndələri
2	C16	$C_{18}H_{36}O_2$	15-metil heksadekan turşusunun metil efiri	Əksər mikroorqanizm növləri
3	C18:1Δ9	$C_{19}H_{36}O_3$	9,10-epoksi oktan turşusunun metil efiri	Bütün mikroorqanizmlər
4	C18:0	$C_{19}H_{36}O_2$	10-oktadesen turşusunun metil efiri	Bir çox mikroorqanizmlər
5	-	C_3H_9N	Trimetilamine	Məlumat yoxdur
6	-	C_8H_8O	4-methyl-2,4,6-tsikloheptatrien-1	Məlumat yoxdur

ƏDƏBİYYAT

1. Справочник по микробиологическим и вирусологическим методам исследовани / Под ред. М.О. Биргера. Издания третье, перераб. и дополненное. М.: Медицина, 1982, 445с.

2. Струкова Е.Г., Ефремов А.А., Гонтова А.А. и др. Определение микроэкологического статуса и диагностика инфекций организма человека с использованием метода хромато-масс-спектрометрия // Journal of Siberian Federal University, Chemistry, 2009, №4, с.351-358)

3. Крымцева Т.А., Осипов Г.А., Бойко Н.Б. и др. Минорные жирные кислоты биологических жидкостей урогенитальных органов и их значимость в диагностике воспалительных процессов // Журнал микробиологии, эпидемиологии и иммунобиологии, 2003, №2, с.92-101.

4. Митрука Б.М. Применение газовой хроматографии в микробиологии и медицине / Перевод с английского З.П. Васюренко, В.Г. Бабского. М.: Медицина, 1978, с.7-604.

5. Осипов Г.А., Дёмина А.М. Хромато- масс- спектрометрическое обнаружение микроорганизмов в анаэробных инфекционных процессах // Вестник» РАМН, 1996, т-13, №2, с. 15-27.

6. Осипов Г.А., Парфёнов А.И., Верховцева Н.В. и др. Клиническое значение исследования микроорганизмов слизистой оболочки кишечника культурально-биохмическим и хромато-масс-спектрометрическим методами // Экспериментальная и клиническая гастроэнтерология, 2003, №4, с.59-62.

7. Поздеев О.К. Медицинская микробиология. М.: «ГЭОТАР-Медиа», 2010, 736с.

Резюме

Определение бактериальной микрофлоры методом ГЖХ-МС при диагностике инфекций в организме человека

Э.А.Дадашев

В данной статье представлены данные по детекции некультируемых микроорганизмов методом ГЖХ-МС. Суть данного метода-определение микроорганизмов косвенно – по продуктам метаболизма патогенов, а именно по жирным кислотам, стерином, спиртам на хроматограмме.

Summary

Determination of bacterial flora by GLC-MS in the diagnosis of infections in humans

E.A.Dadashev

In this text is reported about the research the detection of uncultured microorganisms with alternative methods. For this is used Gas-liquid chromatography mass spectrometry. Consequently it is

detected metabolism products (fatty acids, spirits and sterols) of microorganisms and detected microorganisms.

Daxil olub: 23.06.2015

TOTAL TİROİDEKTOMİYA ƏMƏLİYYATI OLMUŞ XƏSTƏLƏRDƏ PERİOPERATİV VƏ POSTOPERATİV PARAMETRLƏRİN BƏDƏN KÜTLƏ İNDEKSİNDƏN ASILILIĞI

N.U. Eminov [1], F.M. Ayan [2]

[1] HB Güven Klinıkası, Bakı, Azərbaycan

[2] İstanbul Universiteti, Cərrahpaşa tibb fakultəsi, ümumi cərrahiyyə kafedrası, İstanbul, Türkiyə

Açar sözlər: total tiroidektomiya, piylənmə, bədən kütlə indeksi, periopertiv və postoperativ parametrlər

Ключевые слова: тотальная тироидектомия, ожирение, индекс масса тела, периоперативные и постоперативные параметры

Keywords: total thyroidectomy, obesity, body mass index, Perioperative and postoperative parameters

Piylənmə artmaqda olan,qlobal əhəmiyyətə malik bir səhiyyə problemidir. Piylənmə genetik, metabolik, ictimai, davranış və mədəni-sosial faktorların qarşılıqlı əlaqəsi nəticəsində inkişaf edən mürəkkəb multifaktorial bir xəstəlikdir [1]. Bədəndə piy toxuması nisbətinin artması və ya həddindən artıq miqdarda piy toplanması ilə xarakterizə olan bu xəstəlik, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə hər keçən gün artış göstərən əhəmiyyətli bir səhiyyə problemi vəziyyətinə gəlmişdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Asiya, Afrika və Avropanın altı ayrı bölgəsində aparılan və 12 il davam edən Multinational MONİtoring of Trends and Determinants in Cardiovascular Disease (MONICA) elmi araşdırmasında 10 il içərisində piylənmə tezliyində 10-30 % arasında bir artış müəyyən olunduğu bildirilmişdir [2]. Dünya Diabet Federasiyası (IDF) və Beynəlxalq Piylənmə İş Birliyinin (IASO) məlumatlarına görə dünyada 700 milyon yetişkin insan artıq çəkili, 300 milyon yetişkin insan isə piylənmə xəstəsidir [3]. İnkişaf etmiş ölkələrdə piylənmənin rast gəlmə tezliyi digər ölkələrə görə daha çoxdur [4]. Avropanın yetişkin əhalisində artıq çəkili olma sıxlığı kişilərdə 32-79 %, qadınlarda isə 28-78 % arasında dəyişir [5]. Türkiyədə də digər dünya ölkələrində olduğu kimi piylənmənin görülmə sıxlığı gün keçdikcə artmaqdadır. Türkiyədə 1990-cı ildə piylənmənin rast gəlinmə tezliyi kişilərdə 9 %, qadınlarda 24 % ikən, 1999-cu ildə kişilərdə 19 % -ə , qadınlarda isə 38,8 % - ə qədər yüksəldiyi müəyyən olunmuşdur [6]. 2002-ci ildə edilən digər bir araşdırmada isə Türkiyədə piylənmə göstəricisi 25,2 % olaraq müəyyən edilmişdir [7]. Türkiyə Səhiyyə Nazirliyi tərəfindən aparılan" Türkiyədə qidalanma və sağlamlıq araşdırması 2010 " ön hesabatına görə Türkiyədə piylənmə sıxlığı kişilərdə 20,5 %, qadınlarda 41 % və ümumi olaraq 30,3 % olaraq təyin olunmuşdur [2]. Müasir araşdırmalara görə türk xalqının üçdə ikisi artıq çəkilidir və ya piylənmə xəstəsidir. Bu tədqiqtların nəticələri piylənmənin Türkiyədə nə qədər çox görüldüyünü və gedərək artdığını göstərir.

Piylənmə xəstəliyinin cəmiyyətdə payının artması səhiyyə xərclərinin artmasına səbəb olmuşdur. Aparılmışbir sıra böyük miqyaslı tədqiqatlar piylənmənin bəzi önəmli xəstəliklər üçün müstəqil bir risk faktoru olduğunu ortaya qoymuşdur. Piylənmənin hipertenziya, dislipidemiya, II tip diabetes mellitus, ürəyin işemik xəstəliyi, insult, öd kisəsi xəstəlikləri, osteoartrit, yuxu apnoe sindromu və digər tənəffüs problemləri və süd vəzisi, prostat, kolon xərçəngi kimi xəstəliklərlə birlikdə görülmə faizi yüksəkdir [8]. Keçmiş nəşrlərdə,piylənmə xəstələrində müxtəlif cərrahi proseduralardan sonra, xüsusilə kolektomiya və ya pankreatikoduodenal rezeksiya kimi major abdominal cərrahiyyə əməliyyatlarından sonra xəstəxanada qalma və ölüm faizlərində artış müşahidə olunduğu göstərilmişdir [9-11].

Yüksək bədən kütlə indeksli (BKİ)xəstələr artıq daha çox cərrahi proseduralara məruz qalırlar və buna görə belə xəstələrdə əməliyyat sonrası nəticələrə olan maraq da artmışdır.

Tiroidektomiya əməliyyatı keçirən yüksək BKİ - li xəstə sayı əvvəlki illərə görə artmışdır.

Tədqiqatın məqsədi. Servikal endokrin proseduralara piylənmənin təsiri çox az araşdırılmışdır [13-15]. Hal-hazırda keçmişə nisbətdə BKİ-i yüksək olan daha çox xəstəyə servikal endokrin proseduralar həyata keçirilir [12,17]. Piylənməsi olub paratiroid cərrahiyyəsi icra olunan xəstələrlə əlaqədar son zamanlarda aparılmış bir neçə elmi tədqiqat mövcuddur [13-15]. Bununla birlikdə, piylənmənin tiroid cərrahiyyəsi üzərinə təsiri tam olaraq izah edilməmişdir [13]. Bu səbəblə, prospektiv olaraq aparılan bu elmi tədqiqatımızın məqsədi, tiroid xəstəlikləri səbəbi ilə total tiroidektomiya əməliyyatı olan xəstələrdə piylənmənin təsirini qiymətləndirmək və total tiroidektomiya əməliyyatı edilmiş xəstələrdə piylənmənin mənfi təsirlərini əvvəlcədən görmək və görülə biləcək bu mənfi təsirləri minimuma endirməkdir.

Tədqiqatın material və metodları. Tədqiqatımızı aparmaq üçün İstanbul Universiteti Cərrahpaşa tibb fakultəsi tibbi, cərrahi və farmakoloji tədqiqatlar komitəsindən icazə alındı (B302TST0309000/43425). Prospektiv olaraq olunan bu tədqiqata İstanbul Universiteti Cərrahpaşa tibb fakultəsi ümumi cərrahiyyə kafedrasının klinikasında 01 aprel 2012 - 30 avqust 2012 tarixləri arasında total tiroidektomiya əməliyyatı olunan 99 xəstə daxil edildi. Xəstələr ediləcək əməliyyat və proseduralar haqqında məlumatlandırıldı və əməliyyata razılıq barədə yazı və imza alındı.Preoperativ hazırlıq mərhələsində xəstələrin hamısının kütlələri (kq) və boyları (cm) ölçüldü. BKİ – bədən kütləsinin (kq) boyun kvadratına (m^2) bölünməsi şəklində hesablandı (kq/m^2). ÜST və NHI (Milli Səhiyyə İnstitutu) - na görə: Normal çəkili- BKİ <25 kq / m^2, lakin ≥18,5 kq/m^2; artıq çəkili – BKİ≥25 kq/m^2, lakin <30 kq/m^2; piylənmə - BKİ ≥30 kq/m^2, lakin <35 kq/m^2; morbid piylənmə - BKİ≥35 kq/m^2 olaraq təyin olunmuşdur. BKİ <18 kq/m^2 olan xəstələr isə çəki çatışmazlığı olaraq kateqorizə edilmişdir [16].

Tədqiqatımızda xəstələr 3 qrupda qiymətləndirildi: 1-Çəki çatışmazlıqlı-normal çəkili (BKİ: <18,5, 18,5-25), 2- Artıq çəkili (BKİ: 25-30), 3-Piylənməli (BKİ: >30). Tədqiqata daxil edilən 99 xəstədən heç biri morbid piylənmə qrupunda deyildi. Xəstələrdən yalnızca ikisi çəki çatışmazlıqlı kateqoriyasına girdiyi üçün, statistik olaraq əhəmiyyətli olmayacağından çəki çatışmazlıqlı və normal çəkili xəstələr eyni qrupda birləşdirilərək "çəki çatışmazlıqlı-normal çəkili" qrupunda qiymətləndirildi.

Xəstələrin 60-ı çoxdüyünlü zob (60,60%), 12-si toksik çoxdüyünlü zob (12,12%), 2-si substernal çoxdüyünlü zob (2,02%), 18-i papilyar tiroid xərçəngi (18,18%), 2-si Hurthle hüceyrəli neoplaziya (2,02%), 1-i Hurthle hüceyrəli lezyon (1,01%), 3-ü follikulyar neoplaziya (3,03%), 1-i follikulyar lezyon (1,01%) ilkin diaqnozu ilə yatırıldı və bütün xəstələr eyni cərrahi briqada tərəfindən əməliyyat edildi. Xəstələrin hamısına total tiroidektomiya (TT) əməliyyatı edildi.

Total tiroidektomiya əməliyyatları Ligasure TM LF1212 (Covidien, Boulder, CO, USA) damar möhürləmə aləti ilə icra edildi. Tiroidektomiya əməliyyatı zamanı hemostazı təmin etmək üçün liqasiya, klips və ya elektrokoaqulyator istifadə edilmədi.

Göstərişlərdən, yaş, cinsiyyət vəciddi yandaş xəstəliklərdən asılı olmayaraq total tiroidektomiya əməliyyatı edilmiş 99 xəstədə cərrahi kəsiyin uzunluğu, əməliyyat müddəti, patoloji materialın ağırlığı, postop ağrı, postop drenaj miqdarı, postop xəstəxanada qalma müddəti kimi parametrlərə baxıldı.

Kəsiyin aparılmağa başladığı andan kəsiyin dikilməsinin bitdiyi vaxta qədər keçən müddət əməliyyat müddəti olaraq təyin olundu. Rezeksiyadan dərhal sonra çıxarılan vəzin çəkisi müəyyən edildi.

Drenaj miqdarını ölçmək üçün bir ədəd cərrahi vakum drenaj borusu (‘minivac’ və ya ‘hemovac’) yerləşdirildi və postoperativ 12-ci saatda hər bir xəstənin drenaj miqdarı qeyd edildi.

Postoperativ ağrı əməliyyatdan sonra 6-cı və 18-ci saatlarda vizual (0-100 mm) və verbal (0-10 bal) ağrı şkalaları vasitəsi ilə qiymətləndirildi [21]. Xəstənin analgetik ehtiyacı olduğu zaman 75 mg diklofenak natrium əzələ daxilinə inyeksiya edildi və qeyd edildi.

Statistik təhlil: Qruplara görə daimi əldə olunan məlumatların normal dağılıma uyğunluğu Lilliefors düzəltməli Kolmoqorov-Smirnov testi ilə qiymətləndirildi. Dəyişənlərə aid məlumatların qruplar baxımından normal dağılıma uyğun gəlmədiyi müəyyən olundu. Statistik əhəmiyyətlilik müşahidə olunan vəziyyətdə Post-hoc üsullardan Tukey HSD tətbiq olundu. Digər

dəyişənlər isə Kruskal-Wallis analizi ilə qiymətləndirildi.

Statistik əhəmiyyətlilik sərhədi olaraq $p<0,05$ qəbul edildi.

Alınan nəticələr: Birinci - çəki çatışmazlıqlı-normal çəkili xəstə qrupuna 17-si qadın (68 %), 8-i kişi (32 %) 25 xəstə, ikinci - artıq çəkili xəstə qrupuna 25-i qadın (69,44 %), 11-i kişi (30,56 %) 36 xəstə və üçüncü - piylənməli xəstə qrupuna 29-u qadın (76,31 %), 9-u kişi (23,69 %) 38 xəstə daxil idi. Tədqiqata daxil edilən 25 - 79 yaş arası ümumi 99 xəstənin 71-i qadın (71,7 %), 28-i kişi (28,3 %) və orta yaş dəyəri 50,42±13,09 il idi. Əməliyyat müddəti, vizual ağrı şkalası, verbal ağrı şkalası, postoperativ drenaj miqdarı və postoperativ xəstəxanada qalma müddəti kimi dəyişənlər Kruskal-Wallis analizi ilə qiymətləndirildi. Qiymətləndirmə nəticəsinə görə qruplar arasında fərq olmadığı müşahidə olundu ($p>0,05$) (Cədvəl 1).

Cədvəl 1

Qrupların əməliyyat müddəti, vizual ağrı şkalası, verbal ağrı şkalası, postoperativ drenaj miqdarı və postoperativ xəstəxanada qalma müddəti parametrləri baxımından xüsusiyyətləri

Dəyişən	Çəki çatışmazlıqlı-normal çəkili	Artıq çəkili	Piylənməli	p
Əməliyyat müddəti (dəq)	33,56±7,4	38,97±12,2	38,79±13,33	0,12
Vizual ağrı şkalası (0-100 mm)	30,36±22,56	30,78±23,16	38,34±23,69	0,27
Verbal ağrı şkalası (0-10 puan)	3,04±2,28	3,03±2,33	3,74±2,41	0,35
Drenaj miqdarı (ml)	44,38±35,8	38,97±26,56	40,97±17,79	0,62
Xəstəxanada qalma müddəti (gün)	1,04±0,2	1±0	1±0	0,23

Qruplara görə çıxarılan patoloji materialın çəkisinin və cərrahi kəsiyin ölçüsünün normal dağılıma uyğunluğu Lilliefors düzəltməli Kolmoqorov-Smirnov testi ilə qiymətləndirildi. Normal dağılıma uyğun olmadığı üçün daha sonra Kruskal-Wallis analizi tətbiq olundu. Analiz nəticəsinə görə patoloji materialın çəkisi və kəsiyin ölçüsü baxımından qruplar arasında fərq olmadığı müşahidə olundu (Cədvəl 2).

Cədvəl 2

Qrupların çıxarılan patoloji materialın çəkisi və cərrahi kəsiyin ölçüsü baxımından xüsusiyyətləri

Dəyişən	Çəki çatışmazlıqlı-normal çəkili	Artıq çəkili	Piylənməli	p
Patoloji materialın çəkisi(gr)	63,16±66,05	58,06±51,56	61,87±49.50	0,727
Kəsiyin ölçüsü (cm)	3,60±0,70	3,78±1,01	4,03±0,88	0,112

Əməliyyat müddəti ilə çıxarılan patoloji materialın çəkisi arasında əlaqəyi göstərən nəticələr normal dağılıma uyğun olmadığından Spearman korrelyasiya analizi ilə (rs) qiymətləndirildi. Əməliyyat müddəti ilə patoloji materialın çəkisi arasında əlaqə olmadığı müşahidə olundu (rs = 0,18).

Patoloji materialın çəkisi ilə kəsiyin ölçüsü arasındakı əlaqəyi göstərən nəticələr normal dağılıma uyğun olmadığından Spearman korrelyasiya analiziylə (rs) qiymətləndirildi. Ümumi olaraq, müsbət istiqamətdə əhəmiyyətə malik zəif bir əlaqə olduğu müşahidə edildi (rs = 0,39).

Nəticələrin müzakirəsi. Buerba və başqaları [13] BKİ yüksək olub tiroidektomiya əməliyyatı edilmiş xəstələrin əməliyyat sonrası nəticələrini dərc etdirmişlər. BKİ yüksək xəstələrdə əməliyyat müddətinin uzandığı və eyni zamanda normal BKİ-li xəstələrə görə morbiditələrinin də artdığını bildirilmişlər. Ancaq bu nəticələrin klinik olaraq əhəmiyyətli olmadığı qənaətinə gəlmişlər.

Tədqiqatımızdakı xəstələrin 38,38 %-i piylənməli və buna əlavə olaraq 36,36 %-i isə artıq çəkilidir. Bu göstəricilər Buerba və başqalarının [13] tədqiqatlarındakı tiroidektomiya əməliyyatı olunmuş xəstələrin BKİ-i göstəricilərinə nisbətən daha yüksəkdir.

Total tiroidektomiya əməliyyatının bağlamasız olaraq, damar möhürləmə cihazı - Ligasure ™ LF1212 yardımı ilə həyata keçirilməsi və hemostaz üçün bağlama və ya klips istifadə olunmaması, yəni son illərdə ədəbiyyatlarda tez-tez bəhs edilən "bağlamasız texnika" ilə icra olunması, tədqiqatımızın əlavə bir xüsusiyyətidir [18-20].

Bağlamasız texnika ilə icra olunan total tirodektomiyada əməliyyat müddətində ciddi dərəcədə qısalma vardır (18-20). Biz öz seriyamızda da əməliyyat müddətində qısalma müşahidə etdik və qruplar arasında əməliyyat müddəti baxımından əhəmiyyətli bir fərqlilik olmadığını gördük (p=0,12). Ümumi olaraq əməliyyat müddəti ilə çıxarılan patoloji materialın çəkisi arasında da əlaqə olmadığını müşahidə etdik (rs=0,18).

Dionigi və başqaları [19] tərəfindən, bizim tədqiqatımızda olduğu kimi Ligasure TM LF1212 istifadə edilərək həyata keçirilən bağlamasız tiroidektomiya tədqiqatında kəsik uzunluğu və əməliyyatdan sonra ilk 12 saattakı drenaj miqdarları bizim tədqiqatımızdakı nəticələr ilə bənzərdir. Qruplar arasında əhəmiyyətli bir fərqlilik müşahidə olunmamışdır (müvafiq olaraq: p=0,112, p=0,62).

Bizim tədqiqatımızın əksinə Norman və başqalarının [14] tədqiqatında piylənməsi olan xəstələrdə daha böyük kəsiklər və uzanmış əməliyyat müddətləri bildirilmişdir.

Seriyamızda qruplar arasında cərrahi kəsik ölçüləri və əməliyyat müddətləri baxımından fərq olmaması Buerba və başqalarının [13] tədqiqatındakı nəticələr ilə ziddiyyət təşkil edir.

Xəstə gruplarımız arasında vizual və verbal ağrı şkalası baxımından mühüm fərq aşkarlanmamışdır. Xəstəxanada qalma müddəti isə Dionigi və başqalarının [19] tədqiqatında olduğu kimi bütün qruplarda bənzərdir.

Yekun. İstanbul Universiteti, Cərrahpaşa tibb fakültəsi, ümumi cərrahiyyə kafedrasında, 1 aprel 2012- 30 avqust 2012 tarixləri arasında, göstərişdən, yaşdan, cinsiyyətdən, ciddi yandaş xəstəliklərdən asılı olmayaraq total tiroidektomiya əməliyyatı olunmuş 99 xəstədə, kəsiyin ölçüsü, əməliyyat müddəti, çıxarılan patoloji materialın çəkisi, postoperativ ağrı, postoperativ drenaj miqdarı, postoperativ xəstəxanada qalma müddəti kimi parametrlərə baxılaraq aparılmış bu elmi tədqiqat, qalxanabənzər vəzi xəstəlikləri üçün tətbiq olunan total tiroidektomiya əməliyyatından sonra erkən dövr nəticələrə piylənmənin təsirinin, BKİ-dən asılı olmayaraq bütün xəstə qruplarında bənzər olduğu yönündə dəlil təmin etmişdir. Total tiroidektomiya əməliyyatı olunmuş çəki çatışmazlıqlı- normal çəkili, artıq çəkili və piylənməli xəstə qrupları arasında perioperativ və postoperativ parametrlər baxımından fərq olmadığı qənaətinə gəlinmişdir.

ƏDƏBİYYAT

1. National Institute of Health. The Pratical Guide. Identification, Evaluation and Treatment of Overvveight and Obesity in Adults. National Institute of Health October -2000; Publication Number 00-4084.
2. Türkiyə Respublikası Səhiyyə Nazirliyinin saytı (www.saglik.gov.tr). Giriş tarixi: 25.04.2013.
3. Diabetes and Obesity: Time to Act. International Diabetes Federation; 2004.
4. Flier JS, Maratos-Flier E. Obesity and the hypothalamus: novel peptides for new pathways. Cell 1998;92:437- 440.
5. Branca F, Nikogosian H, Lobstein T. The challenge of obesity in the WHO European Region and the strategies for response: summary. Denmark, WHO; 2007.
6. Satman İ, Yılmaz T. Dünyada ve Türkiye'de obezite epidemiyolojisi // Aktüel Tıp Dergisi 2001, v.6, s.9-12.
7. Hatemi H., Turan N., Arık N. et al. Türkiye obezite ve hipertansiyon taraması sonuçları (TOHTA) // Endokrinolojide Yönelişler Dergisi, 2002, v.11, s.1-16.
8. Brown C.D., Higgins M., Donato K.A. et al. Body mass index and the prevalence of hypertension and dyslipidemia // Obesity Research, 2000, v.8, p.605-619.
9. Dandona M., Linehan D., Hawkins W. et al. Influence of obesity and other risk factors on survival outcomes in patients undergoing pancreaticoduodenectomy for pancreatic cancer // Pancreas, 2011, v.40, p.931-937.

10.Leroy J., Ananian P., Rubino F. et al. The impact of obesity on technical feasibility and postoperative outcomes of laparoscopic left colectomy // Ann Surg., 2005, v.241, p.69-76.
11.Park J.W., Lim S-W., Choi H.S., et al. The impact of obesity on outcomes of laparoscopic surgery for colorectal cancer in Asians // Surgical Endoscopy 2010;24:1679-1685.
12.Engeland A., Tretli S., Akslen L. et al. Body size and thyroid cancer in two million Norwegian men and women // Br J Cancer, 2006, v.95, p.366-370.
13.Buerba R., Roman S.A., Sosa J.A. Thyroidectomy and parathyroidectomy in patients with high body mass index are safe overall: analysis of 26,864 patients // Surgery, 2011, v.150, p.950-958.
14.Norman J., Aronson K. Outpatient parathyroid surgery and the differences seen in the morbidly obese // Otolaryngol Head Neck Surg., 2007, v.136, p.282-286.
15.Pitt S.C., Panneerselvan R., Sippel R.S. et al. Influence of morbid obesity on parathyroidectomy outcomes in primary hyperparathyroidism // Am J Surg., 2010, v.199, p.410-415.
16.NHLBI. Obesity Initiative Task Force Member;The Practical Guideline: Identification, Evaluation And Treatment of Overweight and Obesity in Adults.2000.
17.Antonio C., Mario B., Panagiotis P. et al. Epidemiology of Thyroid Cancer in an Area of Epidemic Thyroid Goiter // Journal of Cancer Epidemiology, 2013, v.1, p.4.
18.Chang L.Y., O'Neill C., Suliburk J. et al. Sutureless total thyroidectomy: a safe and cost-effective alternative // ANZ J Surg., 2011, v.81, p.510-514.
19.Dionigi G., Boni L., Rausei S. et al. The safety of energy-based devices in open thyroidectomy: a prospective, randomised study comparing the LigaSure™(LF1212) and the Harmonic® FOCUS // Langenbeck's Arch Surg., 2012, v.397, p.817-823.
20.Sartori P.V., De Fina S., Colombo G. et al. Ligasure versus Ultracision® in thyroid surgery: a prospective randomized study //Langenbeck's Arch Surg., 2008, v.393, p.655-658.
21.Kelly A.M. The minimum clinically significant difference in visual analogue scale pain score does not differ with severity of pain // Emerg Med J., 2001, 18, p.205-207.

Резюме

Зависимость предоперационных и постоперационных параметров от индекса массы тела у больных, подвергнутых тотальной тироидектомии

Н.У. Эминов, Ф.М.Аян

По сравнению с предыдущими годами, сегодня все большему количеству больных с высоким индексом массы тела (ИМТ) проводятся цервикальные эндокринные хирургические процедуры. Работ, посвященных изучению влияния ожирения на тироидную хирургию, почти нет. В данное научное исследование было включено 99 больных, подвергнутых оперативному вмешательству в период с апреля по август 2012 года на медицинском факультете Cərrahpaşa, в клинике кафедры общей хирургии Стамбульского Университета. Среди изучаемых больных была 71 женщина, 28-мужчин, средний возраст больных составил 50,4 лет. Больные были разделены на 3 группы: 1-больные с недостаточностью веса-нормальным весом, 2- с избыточным весом и 3 – с ожирением. Всем больным была произведена операция тотальной тироидектомии с использованием специального инструмента для плотного сшивания сосудов Ligasure TM LF1212 без «закрытия». Между группами были оценены размеры разреза, продолжительность хирургического вмешательства, тяжесть патологического материала, послеоперационная боль, количество послеоперационного дренажа, а также время послеоперационного пребывания в больнице. Между группами не наблюдалось разницы с точки зрения таких параметров, как продолжительность операции, шкала визуальной боли, шкала вербальной боли, количество постоперационного дренажа и сроки постоперационного пребывания в больнице ($p>0,05$). Выявилось отсутствие связи между продолжительностью операции и весом патологического материла ($rs=0,18$). При оценке взаимосвязи между массой патологического материала и

размером разреза обнаружена слабая, видимая в положительном направлении связь (rs=0,39). Между группами больных с недостаточностью веса-нормальным весом, с избыточным весом и с ожирением во время тотальной тироидектомии с точки зрения предоперационных и послеоперационных параметров разница не выявлена.

Summary

Dependence of perioperative and postoperative parameters on body mass index in total thyroidectomized patients

N.U. Eminov, F.M.Ayan

Currently the patients with high BMI often underwent endocryne surgical prosedures. There are no any scientific research about effect of obesity on the thyroid surgery. Ninety-nine patients who underwent total thyroidectomy between April and August 2012 were included in this study in Istanbul University, Cerrahpasa Medical Faculty, Department of General Surgery . 71 were women , 28 – men, the average age is 50,4. Patient was divided into 3 groups : 1- normal body weight, 2- overweght, 3- obesity. All patiens were thyroidectomized with Ligasure TM LF1212. The analyzed parameters include incision length, operation duration, specimen weight, postoperative pain, amount of postoperative drainage, and duration of postoperative hospital stay. No differences were noticed among the groups in operation duration, pain score, amount of postoperative drainage and postoperative hospital stay ($p > 0,05$).No relation between operation duration and specimen weight was observed ($rs = 0,18$). The relation between specimen weight and incision length was evaluated and a meaningful but weak correlation was observed ($rs = 0,39$). No differences of perioperative and postoperative parameters were noticed among the groups of normal body weight, overweght, obesity patients underwented total thyroidectomy.

Daxil olub: 15.05.2015

AZƏRBAYCAN TİBB ELMİNİN TARİXİ-ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОЙ МЕДИЦИНСКОЙ НАУКИ

ДИССЕРТАЦИОННЫЕ ИССЛЕДОВАНИЯ, ВЫПОЛНЕННЫЕ ДО 2015 г СОТРУДНИКАМИ И АСПИРАНТАМИ НАЦИОНАЛЬНОГО ЦЕНТРА ОНКОЛОГИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Р.А.Гусейнова, К.К.Нурубейли, Ш.Ш.Алиева
Национальный центр онкологии, г.Баку

Açar sözlər: dissertasiyalar, Milli Onkologiya Mərkəzi, əməkdaşlar, aspirantlar
Ключевые слова: диссертации, Национальный Центр Онкологии, сотрудники, аспиранты
Keywords: dissertation, the National Center of Oncology, staff, graduate students

В следующем году исполняется 75 лет с момента организации в г.Баку Национального центра онкологии (до 1988 г - НИИ рентгенологии, радиологии и онкологии) - ныне головного учреждения онкологической и радиологической служб Азербайджанской Республики.

Характеризуя научно-исследовательскую деятельность этого учреждения, надо отметить и то, что оно оказалась плодотворной кузницей высококвалифицированных специалистов по онкологии и лучевой медицине, а в части случаев и по ряду других отраслей науки.

Именно поэтому, в предверии Юбилея Национального центра онкологии, мы решили составить перечень докторских и кандидатских (с 2009 г в Азербайджане эту ученую степень заменила научная степень доктора философии) диссертаций, выполненных сотрудникамим и аспирантами (и докторантами) этого учреждения вплоть до 2015 г.

ДОКТОРСКИЕ ДИССЕРТАЦИИ

1.Абасов И.Т. Значение некоторых функциональных исследований органов пищеварения в онкологической клинике. Дисс.... докт. мед. наук. М., 1965;.

2.Аббасов А.Т. Первичная кожная пластика при некоторых злокачественных опухолях. Дисс.... докт. мед. наук. М., 1967;

3.Аббасов Ф.А. Метастазы злокачественных опухолей костей. Дисс.... докт.мед.наук. М., 2000;

4.Аббасов Ф.Э. Парентеральное питание в коррекции нарушений липидного обмена при хирургическом лечении больных раком пищевода и желудка. Дисс.. докт. мед. наук. М., 1989;

5.Абдуллаев А.А. Постоперационная болезнь у больных раком органов системы питания и её первая хирургическая профилактика. Дисс.... докт. мед. наук. Баку, 2012;

6.Абдуллаев В.М. Патоморфологические и некоторые гистохимические изменения в глазу при действии ионизирующей радиации (экспериментально-морфологическое исследование). Дисс....докт. мед. наук. Баку, 1965;

7.Абдуллаев М.Д. Клинико-рентгенологические и морфологические особенности заживления переломов и динамика минерального обмена в костной ткани при лучевой болезни (экспериментальные исследования). Дисс....докт.мед.наук. Тбилиси, 1968;

8.Агаев Б.А. Функциональное состояние коры надпочечников и водносолевое равновесие при хирургическом лечении рака. Дисс.... докт. мед. наук. М., 1967;

9. Агаев И.Н. Роль биогенных аминов и гормонов коры надпочечников в адапта-

ционной реакции организма больных злокачественными новообразованиями при хирургическом лечении. Дисс.... докт. мед. наук. М., 1981;

10.Акпербеков А.А. Рентгенологическая семиотика заболеваний и повреждений диаф0 рагмы. Дисс.... докт. мед. наук. М., 1971;

11.Алиев А.Д. Гормоны и молекулярно-биологические маркеры при раке и предопухолевых процессах слизистой оболочки полости рта. Дисс... докт. мед. наук. Баку, 2008;

12.Алиев А. Р. Расширенные и расширенно комбинированные операции в лечении рака желудка. Дисс.... докт. мед. наук. Баку, 2013;

13. Алиев Д.А. Пластические операции при раке и меланоме кожи. Дисс.... докт. мед. наук. М., 1977;

14.Али-заде В.А. Опухоли яичников (клинико-морфологические параллели и прогноз). Дисс.... докт. мед. наук. М., 1989;

15.Аликишибеков М.М. Материалы к изучению эндемического зоба в Кубинском, Кусарском и Ордубадском районах и патологии щитовидной железы в г.Баку Азербайджанской ССР. Дисс.... докт. мед. наук. Тбилиси, 1961;

16.Ахундова М.Д. Метод многоканальной электроэзофагогастрографии с поверхности тела при злокачественных новообразованиях пищевода и желудка. Дисс.... докт. мед. наук. М., 1968;

17.Багиров Д.М. Приобретенные коммуникации между пищеводом и дыхательными путями. Дисс... докт. мед. наук. М., 1968;

18.Бахшалиева Ф.Г. Эпидемиологическая характеристика злокачественных опухолей женских половых органов в Азербайджанской ССР и пути их профилактики. Дисс.... докт. мед. наук. Баку, 1975;

19.Бейбутов Ш.М. Рак пищевода (материалы по гамматерапии). Дисс....докт. мед. наук. Баку, 1970;

20.Бекир-заде Г.М. Роль тиамина в нарушении регуляции углеводного обмена при злокачественных новообразованиях. Дисс.... докт. мед. наук. М., 1986;

21.Видерли М.М. Материалы по изучению влияния пыли алунита и других аэрозолей Дашкесанского горно-рудного района на органы дыхания у животных. Дисс....докт. мед.наук. Баку, 1967;

22.Гинзбург И.С. К вопросу о костной пластике позвоночника.- Дисс.. доктора медицины. Баку, 1924;

23.Гиясбейли С.Р. Функциональное состояние печени у больных распространенными формами злокачественных опухолей. Дисс....докт. мед. наук. Баку, 2004;

24.Гудратов Н.О. Нарушение иммунобиохимического гомеостаза при экспериментальном гепатоканцерогенезе и в процессе развития перевивной злокачественной опухоли. Дисс...докт.биол. наук. Баку, 2003;

25.Гулиева С.А. Влияние измененной реактивности организма на развитие опухолевого процесса. Дисс... докт.мед.наук. Баку, 1966;

26.Ибрагимов Э.И. Влияние обезболи0 вающих веществ и хирургической травмы на функциональное состояние печени и коры надпочечников у больных злокачественными новообразованиями. Дисс....докт. мед.наук. М., 1972;

27.Исаев И.Г. Лучевое лечение больных раком пищевода при динамическом режиме фракционирования дозы излучения в комбинации с радиомодификаторами. Дисс... .докт. мед. наук. М., 1988;

28.Касумов Ч.М. Половые стероидные гормоны и их рецепторы в первичных опухолях костей: распределение и клиническое значение.- Дисс.... докт. мед. наук. М., 1997;

29.Керимов А.Х. Аспергиллез легкого. Дисс...докт. мед. наук. Ленинград, 1989;

30.Кулиев Ш.Б. Лимфография, флебография, эндолимфатическая и внутриартериальная химиотерапия в диагностике и лечении злокачественных новообразований. Дисс....докт. мед. наук. Баку, 1969;

31.Лурье А.М. Рак легкого в условиях крупного центра нефтяной промышленности (эпидемиологическое, экспериментальное и клинико-рентгенологическое исследование). Дисс.... докт. мед. наук. Баку, 1978;

32. Мамедов А.М. Многофакторный анализ и комплексная коррекция изменений нейроэндокринного, волемического и осмотического статуса больных раком пищевода и желудка. Дисс....докт. мед. наук. М., 1989;

33.Мамедов М.К. Злокачественные опухоли и инфекции, обусловленные ДНК-содержащими онкогенными вирусами. Дисс... .докт. мед. наук. М., 1991;

34.Оруджли Р.Н. Липидный обмен при злокачественном росте опухоли и возможный механизм его нарушения. - Дисс....докт. мед. наук. Баку, 1997;

35.Рагимов Р.Н. Материалы по диагностике заболеваний толстой кишки (клинико-рентгенологическое исследование). Дисс....докт. мед. наук. Баку, 1969;

36.Солтанов А.А. Клинико-эпидемиологические особенности рака лёгких в Азербайджанской Республике. Дисс....докт. мед. наук. Баку, 2012;

37.Таги-заде С.Б. Взаимосвязи углеводного обмена опухоли и организма (экспериментально-клиническое исследование). Дисс.... докт. мед. наук. Баку, 1971;

38.Тахмазов Р.Ф. Диагностика и терапия патологических состояний иммунной системы методами альтернативной медицины. Дисс... докт. мед. наук. Баку, 1993;

39.Теплякова Г.В. Влияние специфической иммунизации и стероидных гормонов на развитие гетерогенных трансплантатов и некоторые обменные процессы в организме реципиента. Дисс....докт. мед. наук. Киев, 1969;

40.Ширалиев О.К. Комплексная диагностика опухолевых заболеваний пищевода и желудка. Дисс....докт. мед. наук. М., 1992;

КАНДИДАТСКИЕ ДИССЕРТАЦИИ

1.Абасов И.Т. К патогенезу и клинике анемий при раке желудка. Дисс...канд. мед. наук. Баку, 1954.

2.Аббасов А.Т. Лечение злокачественных опухолей химическими препаратами. Дисс.... канд. мед. наук. М., 1963.

3.Аббасов Ф.А. Роль радикальной мастэктомии в комплексном лечении местно-распространенного рака молочной железы. Дисс.... канд. мед. наук. Баку, 1993;

4.Аббасова У.А. Сопряжённые нарушения функции печени и почек у больных злокачественными опухолями репродуктивной системы. Дисс....доктора филос. по медицине. Баку, 2010;

5.Абдуллаев А.А. Желудочно-"резервуарные" анастомозы в хирургическом лечении рака желудка. Дисс...канд. мед. наук.М.,1985;

6. Абдуллаев В.М. Патоморфологические изменения глаз при малярии. Дисс....канд. мед. наук. Баку, 1958;

7.Абдуллаев М.Д. Тканевая терапия в условиях экспериментального рака. Дисс.... канд.мед.наук. Баку, 1954;

8.Абдуллаев М.Н. Состояние электролитов (натрия, калия, кальция, магния) общего белка крови у больных опухолями челюстнолицевой области в связи с операцией и наркозом. Дисс.... канд. мед. наук. М., 1971;

9.Абдуллаева И.А. Глюкокортикоидная функция коры надпочечников у больных раком при лучевой терапии. Дисс.... канд. мед. наук. Баку, 1972;

10.Абдуллаева Э.Д. Опыт гастроскопического исследования в сочетании с нейровегетативной блокадой в диагностике заболеваний желудка. - Автореф. дисс... канд. мед. наук. Баку, 1963;

11.Абдурахманова З.С. Влияние нефтяного ростового вещества (НРВ) на течение острой лучевой болезни в эксперименте. Дисс.... канд. мед. наук. 1967;

12.Агаджанова А.Х. Цитологический метод исследования при лапароскопии (рак желудка, печени и яичников). Дисс.... канд. мед. наук. М., 1989;

13.Агаев И.Н. Экскреторная и белковообразовательная функции печени у больных раком желудочно-кишечного тракта в связи с обезболиванием. Дисс..... канд. мед. наук. 1970;

14.Агафонцев А.А. Исследование тиреоидной функции методом непрерывной регистрации включения радиоактивного йода в щитовидную железу. Дисс.... канд. биол. наук. Баку, 1965;

15.Адигезалова Д.А. Изменение противоопухолевой резистентности на фоне инфекционного процесса. Дисс....канд. биол. наук. Баку, 1996;

16.Акберов К.С. Оптимизация конкурентной химиотерапии рака шейки матки. Дисс....доктора филос. по медицине. Баку, 2011;

17.Акпербеков А.А. Томография в сочетании с пневмоперитонеумом в дифферен-

циальной диагностике опухолей и опухолевидных образований в брюшной полости. Дисс.... канд. мед. наук. Баку, 1965;

18.Алескеров Д.Ш. Лимфография и ее диагностические возможности при определении метастазов рака молочной железы, матки, мочевого пузыря и прямой кишки. Дисс.... канд. мед. наук. Ташкент, 1968;

19.Алиев А.Ю. Первичные злокачественные опухоли костей (клинико-эпидемиологическое исследование). Дисс.... канд. мед. наук. Ташкент, 1987;

20.Алиев Д.А. Диагностика и лечение рака кожи лица, нижней губы и слизистой полости рта. Дисс.... канд. мед. наук. Баку, 1973;

21.Алиев И.Н. Роль ультразвукового исследования в комплексной диагностике опухолей гепатопанкреатодуоденальной зоны. Дисс.... канд. мед. наук. Баку, 1999;

22.Алиев М.А. Значение томографического исследования при распознавании и динамическом наблюдении за метастазированием злокачественных опухолей в кости. Дисс.... канд. мед. наук. Баку, 1967;

23.Алиев М.Г. Выбор метода восстановления целостности пищеварительного тракта при хирургическом и комбинированном лечении рака пищевода. Дисс.... канд. мед. наук. М., 1988;

24.Алиев С.Г. Рентгенологическая и морфологическая характеристика опухолей и опухолеподобных процессов проксимальной трети плечевой кости. Дисс.... канд. мед. наук. Л., 1964;

25.Алиев Ш.Г. Меланома и беременность (факторы, прогнозы). Дисс.... канд. мед. наук. М., 1991;

26.Алиев Ю.Ю. Влияние нефтяного ростового вещества (НРВ) на кроветворение при лечении карциномы Брауна-Пирс тиофосфамидом (экспериментальное исследование). Дисс....канд.мед.наук. Баку, 1968;

27.Алиев А.Т. Эффективность телегаммаterапии с использованием источника ^{60}Co при различной мощности дозы излучения у больных раком молочной железы. Дисс.... канд. мед. наук. Баку, 2008;

28.Алиева С.Ю. Эффективность лучевой терапии при различных режимах фракционирования дозы гамма- излучения у больных раком гортани. Дисс.... канд. мед. наук. Баку, 2009;

29.Али-заде А.М. Ретроперитонеоскопия в диагностике лимфогенных метастазов рака мочевого пузыря и предстательной железы. - Дисс.... канд. мед. наук. М., 1982;

30.Али-заде В.А. Цитологическая диагностика опухолей мягких тканей. Дисс.... канд. мед. наук. Баку, 1973;

31.Аликишибеков М.М. Применение стрептоцида при заболеваниях мочевых путей. Дисс.... канд. мед. наук. Баку, 1939;

32.Андреева М.А. Об изменениях степени дисперсности растворов, полученных при помощи коллоидных растворителей. Дисс... .канд. хим. наук. Баку, 1953;

33.Аскеров Н.А. Клинические и эпидемиологические особенности опухолей гепатопанкреатодуоденальной зоны в Азербайджанской Республике. Дисс....доктора филос. по медицине. Баку, 2014;

34.Аскерова Л.Н. Лучевая терапия больных раком пищевода с использованием ускоренного гиперфракционирования дозы излучения и методики «Поле в Поле». Дисс....доктора филос. по медицине. Баку, 2012;

35.Асланов Т.Т. Значение двойного контрастирования на латероскопе при рентгенодиагностике рака и некоторых других заболеваний дистальной половины желудка. Дисс.... канд. мед. наук. Баку, 1968;

36.Ахмедова И.Н. Особенности распространения вирусного гепатита В у онкологических больных. Дисс.... канд.биол. наук. Баку, 1994;

37.Ахмедова С.Н. Функциональное состояние печени и иммунологическая активность у женщин с доброкачественными и злока= чественными опухолями гениталий. Дисс.... канд. мед. наук. Баку, 2000;

38.Ахундова М.Д. Внутрикистные и внутрипротоковые эпителиальные разрастания и их место среди предраковых заболеваний молочной железы. Дисс.... канд. мед. наук. Л., 1954;

39. Бахшалиева Н.А. Вклад азербайджанских ученых в развитие онкологии. Дисс....канд. биол. аук. Баку, 2004;

40.Бахшалиева Ф.Г. Опыт близкофокусной рентгенотерапии гемангиом сравнительно малыми дозами. Дисс.... канд. мед. наук. Киев, 1966;

41.Бейбутов Ш.М. Опыт лучевого лечения больных раком пищевода на телегаммаустановке ГУТ-Со-400. Дисс.... канд.мед.наук. М., 1961;

42.Бейбутова Т.С. Изменение некоторых показателей липидного обмена при хирургическом лечении больных раком. Дисс...канд. мед. наук. Баку, 1969;

43.Бекир-заде Г.М. Данные по изучению амидного азота в гладких мышцах. Дисс.... канд. биол. наук. Киев, 1967;

44.Ватанха С.С. Рентгенологическая дифференциальная диагностика при заболеваниях выходного отдела желудка и луковицы двенадцатиперстной кишки. Дисс.... канд. мед. наук. Баку, 1996;

45.Велибекова М.Ч. Основные принципы выбора тактики хирургического лечения осложнённых форм рака прямой кишки. Дисс....доктора филос. по медицине. Баку, 2011;

46.Видерли М.М. Экспериментальный баритиноз. Дисс.... канд. мед. наук. Баку, 1956;

47.Гаджиев А.Р. Совершенствование методов эндоскопической диагностики и лечения предраковых заболеваний толстой и прямой кишки. Дисс....доктора филос. по медицине. Баку, 2012;

48.Гаджиева М.Г. Эпидемиология рака шейки матки в г.Баку и результаты его лечения комбинированным и сочетанно-лучевым методами при I стадии. Дисс.... канд. мед. наук. 1967;

49.Гасанзаде Дж.А. Химиотерапия метастазов в печень рака молочной железы. Дисс.... Дисс....доктора филос. по медицине. Баку, 2010;

50.Гасанов Н.Х. Лучевая терапия больных раком пищевода: иммунометаболические сдвиги и их коррекция в процессе лечения. Дисс...канд. мед. наук. Баку, 2008;

51.Гасанов Р.И. Свертывающая система крови у больных раком пищевода, легкого и шейки матки при лучевой терапии. Дисс.... канд. мед. наук. Баку, 1968;

52.Гатамов Я.М. Эпидемиология меланомы кожи в Азербайджане, факторы риска и первичная профилактика. Дисс.... канд. мед. наук. Баку, 2000;

53.Гиясбейли С.Р. Комбинированная химиотерапия распространенного немелкоклеточного рака легкого с использованием вепезида. Дисс.... канд. мед. наук. Баку, 1994;

54.Гудратов Н.О. Биологическая активность и механизм действия новых тиосемикарбазонов и их комплексов с медью. Дисс.... канд. биол. наук. М., 1984;

55.Гулиев Н.А. Эпидемиология рака гортани в Азербайджанской Республике. Дисс. ... канд. мед. наук. Баку, 1999;

56.Гулиев Ф.Г. Влияние витамина В6 на некоторые показатели липидного обмена при лучевой терапии больных раком. Дисс.... канд. мед. наук. Баку, 1969;

57.Гулиев Э.Г. Лучевая терапия рака пищевода с применением "малых" сенсибилизирующих доз ионизирующего излучения. Дисс.... канд. мед. наук. Баку, 1994;

58.Гулиева С.А. К вопросу о реактивности кожи при раковой болезни. Дисс.... канд.мед.наук. Баку, 1955;

59.Гулуев В.И. Эндосонографическая диагностика рака пищевода. Автореф. Дисс.... канд. мед. наук. Баку, 1994;

60.Гусейнова Р.А. Влияние селенсодержащих соединений на перекисное окисление липидов в печени животных с индуцированными и перевивными гепатомами. Дисс.... канд. мед. наук. Киев, 1985;

61.Дадашева Н.Р. Химиотерапия метастазов рака молочной железы в легкие и плевру. Дисс.... канд. мед. наук. Баку, 1996;

62.Дашмир О.А. Ультразвуковая компьютерная маммография в диагностике новообразований молочной железы. Дисс.... канд. мед. наук. М., 1990;

63.Джамалов Д.Б. Криогенный метод лечения I-IIa стадии рака кожи и их рецидивов. Дисс.... канд. мед. наук. Ташкент, 1985;

64.Джафаров Г.А. Изменения токсических для парамеций свойств плазмы крови при острой лучевой болезни у животных. Дисс.... канд. мед. наук, Харьков, 1961;

65.Джафаров Р.Д. Ранняя реабилитация больных, радикально леченных по поводу рака молочной железы. Дисс.... канд. мед. наук. М., 1983;

66.Джафаров Х.Д. Сравнительные данные по содержанию электролитов в различных биологических средах при хирургическом лечении больных раком. Дисс....канд.мед.наук. Баку, 1971;

67.Екисенина Е.Д. Влияние лучевых воздействий на опухолевый процесс в эксперименте. Дисс.... канд. мед. наук. Баку, 1959;

68.Зейналов Р.С. Липосаркомы мягких тканей (клиника, диагностика и лечение). Дисс.... канд. мед. наук. М., 1983;

69.Зейналов Ф.А. Органосохраняющее радикальное хирургическое лечение больных раком молочной железы I-II стадий. Дисс.... канд. мед. наук. Баку, 1996;

70.Зейналов Р.С. Эпидемиология рака желудка в Азербайджанской Республике. Дисс.... канд. мед. наук. Баку, 2008;

71.Ибрагимов Э.И. Местные рецидивы рака молочной железы (причины образования, клиника, лечение и профилактика). Дисс.... канд. мед. наук. Баку, 1963;

72.Ибрагимов Э.Э. Роль эстрогенов и андрогенов в клиническом течении и прогнозе остеогенной саркомы. Дисс....канд. мед. наук. М., 1992;

73.Иоф И.М. Влияние некоторых нейротропных препаратов на секреторную функцию желудка. Дисс.... канд. мед. наук. М., 1978;

74.Исаев И.Г. Лучевая терапия в комбинированном лечении больных лимфогранулематозом III B - IY стадий. Дисс.... канд. мед. наук. Обнинск, 1981;

